ÖMÜR HƏSRƏTİ

Torpağın zirvəsi dağlardır. Yer üzündə dağdan uca heç nə yoxdur. Çaylar, bulaqlar, meşələr, bağ-bağat dağın döşünə baş qoyur, kökünü, cövhərini, şəhd-şirəsini dağın sinəsindən alır. Cəmiyyət də belədi, xalq və millət də belədi, dağlar kimi uca kişilərə dayaqlanıb yaşayır. Filosoflar deyirdilər ki, insanı ictimai mühit formalaşdırır, o yaşadığı cəmiyyətə bənzəyir. Mən bununla razı deyiləm, belə nəticəyə gəlmişəm ki, insan daha çox doğulduğu təbiətə bənzəyir. Heç vaxt dağ uşağı ilə vağzal uşağı bir ola bilməz. Necə ki, bulaq suyu ilə arx suyu bir deyil.

Mənə bu sətirləri yazdıran Əli İldırımoğlunun "Qarlı gecələr" romanıdır. Bu roman Azərbaycan cəmiyyətində məşhur jurnalist, yazıçı-publisist kimi onlarla kitabı, yüzlərlə məqaləsi ilə dərin nüfuz qazanmış Əli müəllimin gənclik xatirələrindən süzülüb gələn saf daş suyu kimi şirin bir əsərdir. Ə.İldırımoğlu cəmiyyətdə dağlar kimi uca görünən saytal bir kişidir. O, qələmini özünə dayaq edib xalqın haradan gəlib hara getdiyini düşünür. "Qarlı gecələr" müdrik bir ziyalının gənclik düşüncələrindən yaranıb, itib-batan mənəvi dəyərlər üçün narahatlıq duyğusu ilə yazılıb.

"Qarlı gecələr" el-oba təəssübü, xətir-hörmət yeri, ədəb-ərkan, nüfuz-izzət təlqin edən, koloriti qəlbə qü-

rur, ruha təskinlik gətirən, xəlqiliklə nəfəs alan bir romandır. Bu roman sayda və sanbalda, təmkin və ədada, duruş və dözümdə, özünü-cəlbdə elə Əli İldırımoğlunun özünə oxşayır. Uca boylu, sərt baxışlı, etibarlı, izzəti-nəfsli, elə bağlı, dağ duruşlu və uzaqgörən Əli İldırımoğluna! Çünki "Qarlı gecələr" avtobioqrafik romandır. Burada hadisələr birinci şəxsin - yazıçının adından nəql olunur. Maraqlıdır ki, roman qəhrəmanının - 22 yaşlı gənc tarix müəlliminin heç konkret adı da yoxdur. O, Azərbaycanın dağ kəndlərində ikinci cahan müharibəsinin əvvəlində fəaliyyətə başlayan gənc müəllimlərin tipik obrazıdır. Ona görə də biz onu elə Müəllim kimi təqdim edəcəyik.

Beləliklə, "Qarlı gecələr" XX əsrin 40-50-ci illərində möhtərəm və mötəbər müəllim sənəti haqqında, cəmiyyətin cövhəri olan müəllimlik peşəsi barəsində, o zaman qürurla deyilən "xalq müəllimi" haqqında, müəllimi güman və güvənc yeri bilən Azərbaycan dağ mühiti, elat haqqında romandır. Bu romanda böyük bir həsrət əbədiləşib, - gənclik həsrəti, mənalı keçmiş həsrəti, Qubadlı həsrəti, işğal olunmuş, zaman-zaman yağmalanmış yurd göynərtisi. Gəlin Muradlıdan - dərs hissə müdiri kimi sonuncu ayrılan müəllimin gözü ilə indi bizim olmayan bu yerlərə nəzər salaq: "Həkərinin bulanıq sularından keçib irəlidəki yoxuşu qalxmağa başladıq. Qənşər bir yerdə atın cilovunu yığıb dayandım. Və geriyə boylandım. Buradan hər yer apaçıq görünürdü. Həkəri çayı meşələrin, kolkosluqların, qayaların arasında qıvrıla-qıvrıla üzüaşağı baş alıb gedirdi… Ömrümün bir ili keçən və bir

də qayıtmayacağım bu yerlərə kövrək nəzər salıb, yenə də yoxuş yolu çıxmağa başladım…

Düzə çıxanda əsrarəngiz bir mənzərə ilə üzləşdim. Getdiyim yolun kənarı ağ, qırmızı, çəhrayı, sarı, göyümtül çiçəklərlə haşiyələnmişdi. Göz işlədikcə yaşıl çöllər uzanıb gedirdi. Sağ tərəfdə tər çiçəkli yaşıl yoncalıqlar, yenicə sünbül bağlayan taxıl zəmiləri dalğalanırdı. Sanki dünyanın bütün quşları bu yerlərin tamaşasına gəlmişdi. Onların cürbəcür dildə oxuduğu nəğmələr bir-birinə qarışıb bahar simfoniyası kimi kimsəsiz çöllərə yayılırdı. Deyilənə görə, bir vaxt yalnız insanların yaşadığı ən xoş dəqiqələr onlara ömür sayılırmış. Mən bu anları ömrümün həmin xoş dəqiqələri hesab edirdim. Ancaq qəlbimin dərinliklərində bir nigarançılıq da dolaşırdı. Çünki nə sevinc, nə də ki kədər uzun sürmür… Ümumiyyətlə, tam qayğısız olanda narahat hisslər keçirirəm. Qayğısızlıq məndə qorxu şübhələri yaradır. Və mənə elə gəlir ki, insan hərtərəfli yarısa, müvazinətini itirər və sakit həyat sürə bilməz". Bu sadəcə təsvir deyil, təsvir - prosesdir. Burada qəhrəman həzzlə iztirabın ayrıcında yaşayır. Əslində bu təsviri ərəfə adlandırmaq olar, o qəhrəmanın gələcək taleyindəki dönüşün psixoloji ərəfəsidir.

"Qarlı gecələr" səlis üslubda, səliqə-sahmanlı, fəqət, koloritli bir dillə yazılıb. Onu mahiyyət etibarilə kəsişən talelər romanı da adlandırmaq olar. Burada yazıçı pedaqoq adına ləkə olan, qeyri-insani xislətli Zəkəriyyə müəllimin, bədbəxt taleli bir qadının - Hüsniyyənin maraqlı, faciəli obrazını yaradır.

"Qarlı gecələr"də şəxsiyyəti mənəvi dəyər kimi əks

etdirən ən tutumlu obraz Şükür kişidir. Yazıçı onun simasında dağ adamlarına xas mərdliyi, səxavəti, hörmət-izzəti, sözübütövlüyü məharətlə ümumiləşdirməyə nail olub. Şükür kişidən əvvəl yazıçı bizə onun qızı Tutunu təqdim edir. Bir gün bulaqdan su gətirərkən bədheybət bir çaqqal qıza hücum edir. Tutu çaqqalı boğazlayıb dizinin altına alır, boğub məhv edir. Ətrafda məşhur olan bu əhvalatı eşidənlər və oxucu belə nəticəyə gəlir ki, Şükür kimi mərd və igid kişinin Tutu kimi cəsarətli qızı olar.

Xüsusilə romanın sonuna yaxın müəllim şagirdi Nəsirlə qanunsuz tüfəngə görə milis şöbəsinə gətirilərdə elin nüfuz təcəssümü Şükür kişinin bir sözü iki olmur, milis rəisi deyir ki, Şükür kişinin sözü bizim üçün qanundu. Yazıçı belə kişiləri müasirlərinə nümunə gətirir.

Əsərdə əsas konfliktlər və onların hərəkətə gətirdiyi hadisələr Muradlı internat məktəbindən başlanır. Romanın qəhrəmanını - 22 yaşlı tarix müəllimini rayonun ən böyük məktəbinə dərs hissə müdiri - direktorun müavini təyin edirlər.

Yeni məktəbdə təzə dərs hissə müdirini o qədər də rəğbətlə qarşılamırlar. Onun rastlaşdığı ilk adam keçmiş müəllimi Şəkərli öz şagirdini pərt edir. Lakin vaxtilə hərbçi olmuş direktor tədbirli tərpənir, onu evinə aparıb qonaq edir, məktəbdə müəyyən şərait yaradır.

Gənc dərs hissə müdiri inad və inamla işə başlayır, tədris sistemində ciddi intizam yaradır. Məktəbin vəziyyətini o, istedadlı riyaziyyatçı, prinsipial ziyalı Nəcməddin müəllimə münasibətlə təyin edir. Məlum olur

ki, direktor hiyləgər, qorxaq, prinsipsiz, taleyi yuxarıdakıların əlində olan bir məmurdur. Yazıçı direktorun astalığını və ustalığını məharətlə yaradır. Nəcməddin müəllimin məktəbdən çıxarılması və bir də əsərdə əsas konflikti törədən "qəbz məsələsi" olmasaydı, direktora hətta rəğbət bəsləmək olardı. Lakin… məlum olur ki, raykomun ikinci katibi Niyaz Məcidovun baldızı Çimnaza saxta "5" yazmadığına görə məktəbin ən savadlı, şəxsiyyətli, ləyaqətli müəllimi məktəbdən uzaqlaşdırılır. Bu fakt gənc dərs hissə müdirini baş verən olaylara və ətrafındakı insanlara daha ehtiyatlı yanaşmağa vadar edir.

Təcrübəli yazıçı öz qəhrəmanını fikri-mənəvi cəhətdən formalaşdırmaq üçün maraqlı üsuldan istifadə edir, onu məktəbin zavxozu Abasquluyla, gözətçisi, uğursuz taleyə malik "gəlmə Alışla", kolxozun pambıq məntəqəsinin gözətçisiylə rastlaşdırır.

Bir gün rayon mərkəzinə səfər edərkən Abasqulu ona elin iki qoçağı - Qoçəli və Ağaşirin arasındakı ibrətli əhvalatı danışır. Qoca pambıq gözətçisi isə süni, saxta yollarla qəhrəman olmuş pambıqçı Zərqələm və onun adamlarının əməllərindən söz açır. Heç bir günahı olmadan on il Sibir çəkmiş, sonra da doğma elindən didərgin düşmüş Alış kişinin taleyi isə gənc müəllim üçün həyat dərsi olur. Bütün bu əhvalatlar gənc müəllimə yaşadığı cəmiyyəti getdikcə dərindən dərk etməyə imkan verir.

Romanda təsvir edilən professor Zaur Həsənzadənin əhvalatı isə savadsız tələbə yetişdirməyin milli cinayət olması, bu cinayətin hər birimizin taleyində

faciə ola bilməsi haqqında həqiqəti təlqin edir. Əslində bu əhvalatda də ədib Nəcməddin müəllim kimi ləyaqətli adamların həyat mövqeyini təsdiqləyir. Yeri gəlmişkən, buraya romanda az yer tutub yadda qalan, işə, vəzifəyə, mənəvi borca sədaqəti naminə ən yaxın dostuna belə güzəştə getməyən hərbi komissar Nəsirovun obrazını da əlavə etmək istəyirəm.

Hər tərəfdən sıxışdırılanda Nəcməddin müəllimin vicdanı dilə gəlir: "Çox adam biliksiz şagirdə yüksək qiymət verməyə adi hal kimi baxır. Ancaq mənim təsəvvürümə görə, mənsub olduğumuz millətə bundan böyük xəyanət ola bilməz. İnsan, qonşu, həmkar, yaşca sizdən çox kiçik olan bir yoldaş kimi hörmətinizi saxlamaq borcumdur. Lakin canlı insan formalaşdıran kamillik emalatxanasında hər hansı əyintiyə yol verə bilmərəm. Və buna müəllim əxlaqına uymayan bir hərəkət kimi baxıram". Romanın ən işıqlı obrazlarından olan Nəcməddin müəllimin direktora dediyi bu sözləri bu gün respublikanın orta və ali məktəblərinin giriş qapısına yazmaq olar və bu lazımdır.

"Qarlı gecələr" insan iradəsinin yenilməzliyi, şəxsiyyətin özünütəsdiqi haqqında birnəfəsə yazılmış təravətli romandır. Bəlkə də qəsdən direktor internata ayrılmış on min manatlıq malı gətirmək üçün gənc dərs hissə müdirini və zavxoz Abasqulunu tufanlı, çovğunlu bir gündə raymağa - Orucun yanına göndərir. Onlar on min manatlıq qəbzi verib dörd min manatlıq malı ata yükləyirlər. Qalan altı minin qəbzini almaq yaddın çıxır. Çox böyük çətinliklə axşam düşəndə malı internata gətirirlər.

Direktorun əsl siması, məkrli məqsədi burada açılır. O, gənc müavinini sıxışdırır, onu bacarıqsızlıqda ittiham edib gözdən salmaq üçün altı min manatlıq qəbzlə ittiham edir. Ə.İldırımoğlunun qəhrəmanı özünəməxsus bir inadkarlıqla gecə ikən tufana, çovğuna, yorğunluğa məhəl qoymadan şagirdi Nəsirlə rayon mərkəzinə gəlib Orucdan altı min pulun qəbzini alır. Yazıçı müəllimin simasında kişiliyin, Orucun simasında insana inamın ölməzliyini təsdiq edir. Və həmin hadisə kontekstində direktorun şəxsində inamsızlığın, dəyanətsizliyin şəxsiyyət üçün faciə olduğunu təcəssüm etdirməyə nail olur.

Romanın taleyi - realizmin taleyidir. Heç bir janr roman qədər ədəbiyyatın yükünü çəkə bilməz. Fəqət romanın mərkəzində əzəmətli şəxsiyyətlər dayanmalıdır: yazıçının şəxsiyyəti və qəhrəmanın şəxsiyyəti!

Roman böyük həyat materialına əsaslanır. Bu sadəcə müşahidənin məhsulu olan material deyil. Bu yaşanılmış həyatın faktlarıdır. Ə.İldırımoğlunun "Qarlı gecələr"i yaşanılmış həyatın bədii təcəssümüdür. Bu əsərdə xatirə və həqiqət qoşa qanad kimi əsərin hüsnünü - üslubunu müəyyənləşdirir.

Ə.İldırımoğlunun romanında bitməmiş, çiy heç nə yoxdur. Əsərin dəyərli cəhətlərindən biri də budur ki, müəllif lüzumsuz təfərrüata varmır, romandakı əhvalatlar xarakterlərin açılmasına xidmət edir, onların taleyini əks etdirir.

Başlıcası budur ki, Ə.İldırımoğlu təsvir etdiyi sərt mühit, qış fəslinin dağ iqlimi ilə bu mühitdə yaşayan, fəaliyyət göstərən insanlar arasındakı vəhdətə xüsusi

nəzər salır. Yazıçı öz qəhrəmanlarını övladları kimi duyur, ən çətin anlarda onların yanında olur, bir an da olsun onlardan ayrılmır. Bu isə onun qəhrəmanlarına xüsusi bir səmimiyyət və rəğbət oyadır.

Ə.İldırımoğlunun qəhrəmanları bir dağ uşağı kimi mənə olduqca doğmadır. Əsərin qəhrəmanı olan gənc müəllimin qəbz üçün qarlı-tufanlı bir qış gecəsi, ikinci dəfə inad edərək uzaq dağ kəndindən rayon mərkəzinə gəlməsi mənə xüsusi ilə təsir etdi. Belə hərəkət, bu cür inad biz dağ adamları üçün çox səciyyəvidir. Bizi öldürmək olar, lakin məğlub etmək olmaz…

Romanı oxuya-oxuya gənc müəllimlə bərabər mən də Həkərinin buzlu sularından, sərt qarlı və sırsıralı dağ aşırımlarından, çovğunlu çöldən keçib getdim, şagird Nəsirlə birlikdə Qubanın İspik kəndində qalan yeniyetməlik xatirələrimi yaşadım. Romanın gücü onun koloritindədir. "Qarlı gecələr" koloritli əsərdir. O, oxucunu öz ardınca çəkib hadisələrin cərəyan etdiyi mühitə aparır. Əsəri oxuduqca elə bilirsən ki, Həkəri və Bərgüşad insanın qəlbindən axır, düşmən əsarətində olan o yerlərə layla çalır, həzin göz yaşı təkin süzülüb sızlayır. Bu əsərdə Ə.İldırımoğlunun Azərbaycana böyük övlad məhəbbəti öz əksini tapıb. Deyirlər ki, böyük Əmir Teymur ən uca məqbərəni öz müəlliminin məzarı üzərində tikdirib. Bir dəfə Ə.Teymur ova gedəndə müəllimini də özü ilə aparıb. Birdən müəllimin atı sıçrayıb irəli keçib. Atın ayağından qopan palçıq Əmir Teymurun əbasına düşüb. Hamı dəhşətli qorxu keçirib. Böyük fateh qoşunu saxlayıb, əbanı səliqə ilə soyunub, gözləyib ki, palçıq qurusun, qopmasın. Son-

ra əbanı büküb ən qiymətli bir şey kimi verib köməkçilərinə. Əmr verib ki, əbanı muzeydə saxlayın, müəllimimdən yadigardır…

Deyirlər ki, indi də həmin əba üstündə palçıqla birlikdə muzeydə saxlanılır.

Müəllim haqqında yazmaq hünərdir. Çünki müəllim müqəddəsdir. Dünya öz sahmanını müəllimə baxıb düzəltməlidir. Müəllim şəxsiyyətinin gənc ruha olan təsiri elə bir tərbiyə vasitəsidir ki, onu heç bir dəftər, qələm, skamya əvəz edə bilməz. Heç bir şah müəllim olmayıb. Amma bütün şahların müəllimi olub. Haçansa o, müəllimi qarşısında tər töküb, baş əyib. Müəlliminə qiymət qoymayan dövlətin və cəmiyyətin axırı yoxdur.

Ə.İldırımoğlunun "Qarlı gecələr"i müəllimə belə bir ümumxalq ehtiramı təlqin edən bədii əsərdir.

Dolğun xarakterlə zəngin olan "Qarlı gecələr" romanı kökəbağlılıq, əsil-nəcabət, yurd təəssübkeşliyi, mənəvi dəyərləri qorumağın tarixi zəruriliyi, saf insan münasibətlərinin cəmiyyət üçün vacibliyi, savadlı adamın milli sərvət olması, kişi qüruru və mənəvi dəyanət təlqin edən bədii əsərdir. Romanın yüksək bədii pafosunu, mənəvi enerjisini təsəvvür etmək üçün aşağıdakı sətirləri oxumaq kifayət edir: "Kommunizmin möcüzələrini mədh edib göylərə qaldıran, Tanrının yoxluğunu millətin beyninə yeritmək üçün dəridən-qabıqdan çıxan ziyalı, alim qiyafəli ateistlərin tüğyan etdikləri günlərdə babamın hər sübh çağı avazla dediyi "Allahu-Əkbər" sədaları sanki məni insani xalisliyə səsləyir və övladlarına bu yolda xeyir-dualar verirdi. Babamın

yoxluğunda da halallıq simfoniyası kimi qulağımda səslənən bu xoş avaz məni tərk etmirdi…

Dünyanı dərk etməyə başladığım çağlarımdan Allaha yaxın olan valideynlərimin kəlamları vicdanımın pozulmaz qanunlarına çevrilmişdi. Həyatın eniş-yoxuşlarında üzləşdiyim töhmət-tənələr, amansız təzyiqlər, təqiblər məni əxlaq qanunlarına xilaf çıxmağa vadar edə bilmirdi".

Beləliklə, "Qarlı gecələr" mənəvi saflıq, əxlaqi bütövlük, ata kultuna, yurda ehtiram haqqında bədii-fəlsəfi romandır. İnanıram ki, koloritli üslubu, dilinin təbiiliyi və geniş həyat tutumu ilə o, oxucu qəlbini fəth etməyə nail olacaq.

Nizaməddin ŞƏMSİZADƏ
Qafqaz Xalqları Elmlər Akademiyasının
həqiqi üzvü, filologiya elmləri doktoru, professor

İTHAF

İthaf etdim ki, bu kitabı ona
Qəlb rahatlıq tapsın, ömür çatmamış sona.
Şerimdə car edib çəkmədim adın,
Çəkməsin üstündən Tanrı qanadın.
Rütbəsindən ucadır, o kəsin insanlığı,
Ahıllığıma həyan olub, hər an övladsayağı.
Lətif Lətafətdi, yarı, yoldaşı,
Oxucum anlayar, olmasa naşı.
Fəsli baharı ərməğan edərdim ona,
Nə etmək, "Qarlı gecələr" düşdü baxtına.

Erkən müəllimlik fəaliyyətinə başlasam da, bu müqəddəs addan duyduğum fərəh gəncliyimi uzaq-yaxın kəndlərdə keçən tənha həyatın və qəribçiliyin sıxıntılarından xilas edirdi. Təyin olunduğum yeni-yeni kəndlərin, məktəblərin ab-havasına alışıb, müxtəlif xislətli insanlarla təmas tapmağım məndə müəllimlik vərdişinə çevrilmişdi. Bir də ki, kənddə müəllimlikdən yaxşı vəzifə var?! Kolxozçu yay-qış səhərdən axşamacan əlləşib-vuruşub tər tökürdü. Amma ilin axırında nə qədər alacağını bilmirdi. Müəllimə nə var, əli quru, ayağı quru, dərsini deyib hər ayın axırında da maaş cədvəlinə qol çəkib duru yerindən filan qədər donluq alırdı. Ağır müharibə illərində belə, dor-dolanışığımız pis keçmirdi. Sabun tapılmayanda qız-gəlin məcbur olub kənddən aralıdakı təpənin ətəyindən əzab-əziyyətlə eşib çıxartdıqları ağ torpağı ələkdən-xəlbirdən keçirib onunla paltar yuyurdular. Deyirdilər, sabun olmayan yerdə buna da şükür. Pis tərəfi odur ki, paltarı didib ömrünü azaldır. Müəllimlərin isə sabun sarıdan korluğu yox idi. Hökumətin bizə göndərdiyi bağla-maların içində sabun da olurdu. Geyinib-keçinməyə müftə pal-paltar da alırdıq. Bir dəfə mənə içi pambıq

olan mavi rəngli sırıqlı gödəkçə vermişdilər. Həm qalın idi, həm də yüngül. Qışda məni elə isti saxlayırdı ki! Bahalı-bahalı şalvar-pencək də alırdım. Yastıq üzünəcən göndərirdilər. Hamısı da pulsuz-parasız.

Gün-güzəranından narazı olan bəzi adamlar müəllimlərə qibtə edib bəxtəvərlik verirdilər. Qonşuluqdakı yaşlı bağ gözətçisinin dedikləri hələ də qulağımdadır: "Filankəsin oğlu vaxtında oxuyub müəllim oldu. Ayda filan qədər donluq alır. Üstəlik də hökumət iki aydan bir müftə bağlama göndərir. Əsgər də aparmırlar ki, vəzifəsi düşmür, müəllimdi. Mənimki kənddəki məktəbi də axıracan başa vurmadı. İndi ortada it döyür. Naxıra getməkdən başqa əlindən heç nə gəlmir".

Müəllimlər hamıdan təmiz-tarıq geyinib-kecinirdi. İşlədiyi kəndlərdə onlara taxılı, çəltiyi ucuz qiymətə satırdılar. Hökumət yanacaq pulunu da ayrıca verirdi. Ona görə də peşəmdən narazı deyildim. Bircə orası var idi ki, lazım oldu-olmadı, iş yerimin tez-tez dəyişdirilməsindən bezirdim. Və bu cür lüzumsuz təyinatlar məndə ikrah yaradırdı. Lakin verilən əmr və göstərişlərlə razılaşmağa məcbur idim. Ad-sanımı qorumaq, gözdən-nəzərdən düşməmək üçün üzüyola olmağımı inadkarlıqdan üstün tuturdum. Hər vəchlə müəllim adını qorumağa çalışırdım. Düzdür, yaxın kəndlərə təyin olunanda o qədər də əziyyət çəkmirdim. Sübh tezdən gedib dərsimi deyib, axşam da gün batmamış evimizə qayıdırdım. Lakin bu il məni uzaq kəndə salmışdılar. Ora bir günə gedib-qayıtmaq müşkül məsələ idi. Mütləq özümə mənzil tutub qalmalı idim. Ona görə də evdə mənə yol

tədarükü görürdülər. Neçə gün idi qoca nənəm alatoran yuxudan qalxıb namazını qılandan sonra aparacağım döşəyin yununu yuyub, qurudub, qırtışları barmaqları ilə didib, hamar çubuqla döyəcləyirdi ki, altım yumşaq olsun. Yorğanın kəfrəmini dəyişib üzünə güllü ipək çəkirdi. Deyirdi eldən-elə gedir, mənzilinə girib-çıxanlar lağ eləməsinlər. Deməsinlər ki, adını müəllim qoyub, amma yatıb-durduğu yorğan-döşəyə bax. Yatacağım taxtın üstünə örtmək üçün əvvəlcə atamın aldığı təzə xalçanı ayırıb qoymuşdular. Sonra qoca nənəmin fikri dəyişdi. Dedi ki, öz anasının toxuduğu gəbə yaxşıdı, ruhu üstündə olar. Evimizdə üç-dörd lampa var idi. Atam dedi ki, ona otuzluq lampa əl verməz. Çünki xərci çoxdu, neftini çatdırmaq olmaz. Həm də otuzluq gündəlik lampa deyil. Qonaq-qoşaq olanda yandırırıq. Yeddilik lampa da qoymadılar ki, işığı zəifdi. Elə hamısından münasibi boğazı uzun onluq lampadı. Atam bildir onu dükandan almışdı. Qab-qacağı bükəndə atam dedi ki, iki adamlıq eləyin. Birdən yoldaşı-zadı olar. Qoca nənəm iynədən tutmuş sapacan mənzildə işlətmək üçün nə lazım idi, hamısını səliqə ilə büküb qoymuşdu. Yağ-yavanlıq da öz yerində. Bibilərim də baldan, yağdan, doşabdan… nəyə gümanları gəlirdi, büküb gətirmişdilər. İndi o qalırdı ki, gedib mənzil tutum və sonra da gəlib yır-yığış eləyib köçüm.

Ötən əsrin tən yarısı idi, ömrümün iyirmi ikinci sentyabrı. Müəllimlər və tələbələr aylardan bəri lal sükuta dalmış məktəb zənglərinin bu gün-sabah dilə gəlib şəhər və kəndlərdə elmə, təhsilə çağırış kimi səslən-

məsini səbirsizliklə gözləyirdilər. İki gün əvvəl təzə təyinat aldığım Dindarlı kəndinə yollanıb mənzil axtarmalı oldum. Kənardan-kənara tanıdığım və mənim kimi uzaq kənddən olan Zəkəriyyə müəllim:

- Elli, salam, - dedi, - nahaq özünüzü dağa-daşa salırsınız. Mənim tutduğum mənzil meydan kimi genişdi, - əlavə etdi. - On iki metr boyu, beş metr eni. Özüm də az külfətəm. Bir həyat yoldaşım Hüsniyyədi, bir də özüm. Uşaq-zad da yoxdu. Qərib adamlarıq, baş-başa verib dolanarıq. İki evə kirə ver, iki yerdə lampa yandır, iki yerdə ocaq qala… Pulumuzun dəlisiyik?! Bir yerdə yaşasaq xərcimiz də az çıxar. Həm də darıxmarıq. Bu yad yerdə nə sənin gedəcəyin yer var, nə də mənim.

Zəkəriyyə on iki yaş məndən böyük idi. Onun sıx qara saçları, ağ saf dişləri, qalın qırışları olan ensiz alnı, balaca oynaq gözləri, sağlam və dolu bədəni, orta boyu, gümrah sir-sifəti vardı. Bazburutu o qədər də xoş təsir bağışlamayan bu adamın ürəkdən gələn təklifi həm ağlıma batdı, həm də batmadı. Düşündüm ki, o ailəli, mən subay. Birotaqlı mənzildə necə müdarə etmək olar?! Kənardan baxan bizə nə deyər?! Həm də elə-elə sığar, ev-evə sığmaz, - deyiblər. Ələlxüsus da ailə məsələsi…

- Zəkəriyyə müəllim, çox sağ olun ki, mənə bu cür qayğı göstərirsiniz, ancaq birimiz ailəli, birimiz subay. Həm də bir çox başqa mənada… Sizin üçün, elə mənim üçün də çətin olmaz?!

Zəkəriyyə gülümsündü:

- Pir olmuş! - dedi. - Sən də söz danışdın!! Əvvəla,

oğlumuz yerindəsən, ikincisi də Hüsniyyənin qadınlığına baxma, o da elə kişi kimi bir şeydi. O barədə ağlına heç bir qaraltı gəlməsin. Başqası olsa, əlbəttə, düz deyirsən, mən özüm də kaprizniyəm, hər adama etibar edib, evimə buraxmaram. Lakin sizinlə abırlı, etibar etdiyim halal bir adam kimi danışıram. Nə demək istədiyimi yəqin ki, başa düşürsünüz. Sabahdan yığışın, gəlin mən qalan mənzilə, vəssalam! Bu söhbəti təkrar edib müzakirə açmağa ehtiyac görmürəm.

- Bəs Hüsniyyə bacı, o bu məsələyə necə baxar? Bəlkə onunla da…

- Hi… hi… - o, gülərək, - görünür hələ məni yaxşı tanımırsan, - dedi. - Ağlın başqasına getməsin. Arvadla heç vaxt, heç nəyi məsləhət-məşvərət eləmirəm. Mən nə dedim, odur! Hüsniyyə də bu barədə xasiyyətimi yaxşı bilir.

Zəkəriyyə müəllimin dedikləri heç vəchlə ağlıma batmırdı. Lakin o, bu barədə məni yola gətirmək üçün cürbəcür dil tökdü… Boynuma alım ki, üzüyumşaqlığımdan onun təklifi ilə yarıkönül olsa da, birtəhər razılaşdım.

İki gündən sonra Zəkəriyyə müəllimin dediyi kimi onun tutduğu mənzilə yığışdım. Otaqlar içəridən içəriydi. Mən dib otaqda yatırdım. Ancaq bir yerdə eyib içirdik. İlk gündən hiss edirdim ki, Hüsniyyə bir yerdə yaşamağımızdan narazı deyil, əksinə, bu məsələ onun ürəyincədi.

Hüsniyyə rayonda tanınan, imkanlı bir kişinin qızı idi. Orta ixtisas məktəbini bitirib əmisinin müdir oldu-

ğu idarələrin birində işləmişdi. İlk ailə həyatı quranda onunku gətirməmişdi. Züryəti olmadığından, dörd ildən sonra ərindən ayrılmışdı. İki il ata evində qalıb, kənddəki kitabxanada işləmişdi. Zəkəriyyə orda müəllimlik eləyəndə Hüsniyyə ilə tanış olub sonra da evlənmişdilər. Ancaq hamı bilirdi ki, Zəkəriyyə onu atasının ad-sanına, var-dövlətinə görə alıb. Onlar beş il olardı bir yerdə yaşayırdılar. Lakin Hüsniyyənin indiki ərdən də övladı olmurdu. Biz işləyən məktəbdə kitabxanaçıydı. Əyin-başından, ərinin onunla soyuq, bəzən də kobud rəftarından hiss edilirdi ki, Zəkəriyyə onu istəmir. Uşaqları olsaydı, bəlkə də aralarında isti münasibət yaranardı. Görünür, o da qismət deyilmiş. Hüsniyyənin atası dünyasını dəyişəndən sonra, ərinin də ona olan "xoş" münasibəti dəyişmişdi, başıqapazlı olmuşdu. Zəkəriyyə onun gününü göy əskiyə düymüşdü. Bəlkə də Hüsniyyəni burunlamaqda məqsədi o idi ki, qadın özü bezib getsin. Ancaq Hüsniyyə nədənsə üzünə üz bağlayıb dözürdü. Mənim onlarla bir yerdə olmağım Zəkəriyyənin Hüsniyyəyə qarşı dannağını-dansağını azaltmışdı. Zəkəriyyə məndən keçib, təklikdə olduğu kimi Hüsniyyəyə əl qaldırmır, söyüb yamanlamırdı. Bu ailədə Hüsniyyə üçün sanki bir ümid, pənah yeri olmuşdum. Bəlkə də Hüsniyyənin Allahı ona rəhm edib yolumu bu söz-söhbətli ailəyə salmışdı.

Zəkəriyyə özünə xüsusi fikir verirdi. Əynindəki dəri gödəkçəni gündə-günaşırı silib təmizləyir, par-par parıldadırdı. Havalar nə qədər soyuq keçsə də, əlini isti

gödəkçəsinin yan cibinə salmırdı ki, irilib, çirklənib vidini itirər. Payız-qış başına papaq qoyub, əlinə əlcək taxmazdı. Söz düşəndə deyirdi ki, bunlar artıq xərcdi. Ayağındakı yarımboğaz çəkmə köhnə və yamaqlı olsa da, onu gündə qara mazla silib gödəkçəsi kimi parıldadırdı. Hər ayın başında Hüsniyyə maaş cədvəlinə ancaq qol çəkirdi, pulunu Zəkəriyyə özü qəpiyinəcən sayıb cibinə qoyurdu. Axşamlar mən yatıb yuxuya gedəndən sonra, üzünü o tərəfə çevirib Hüsniyyənin və özünün aldığı donnuğu dönə-dönə sayıb, təzə qəzet parçasına büküb, köhnə pulların üstünə qoyurdu. Bəlkə də kənddə və məktəbdə onun qədər pullu adam yox idi. Bədxərc, yeyib-içən adamlardan xoşu gəlmirdi. Biri mən özüm. Şüşə konfetlə çay içməyi xoşlayırdım. Ona görə də hər dəfə rayona gedəndə və ya kənd dükanına ayağım düşəndə kilo-kilo şüşə konfet alırdım. Axşam-səhər çay qoyulurdu. Bir dəfə Zəkəriyyə zarafata salıb:

- Səndən də yönlü iş çıxmaz, - dedi. - Bizi çaya öyrətdin. Buz kimi sərin suyu qoyub, çay içərlər?! Əslində çay pul tələsidi. Hər ay qəndə, çaya filan qədər pul gedir. Bunlar israfçılıqdı. Mən əynimdən-başımdan kəsib qəpiyi qəpik üstünə qoyuram ki, bir yaman gün olar, sən də məni çaya dadandırdın.

Zəkəriyyə məndən iki dəfə çox maaş alırdı. Məktəb direktoru abrına qısılıb onun dava-dalaşının dərdindən Zəkəriyyəyə hamıdan artıq dərs vermişdi ki, ağzı yumulsun. Hüsniyyənin də maaşını üstünə gələndə direktordan çox alırdılar. Lakin onun ümidinə qalsay-

dı, yavan şor-çörək yeyib üstündən də sərin su içməliydik. Ancaq bütün bunları heç vaxt üzə vurmadan evin çayını, qəndini, yağ-yavanlığını əskik eləmirdim. Zəkəriyyə xəcalət çəkmək əvəzinə, bunu qənimət bilirdi. Və daxilən bəlkə də sevinirdi ki, əlinə xam bir hərif düşüb, indi əvvəlkinə nisbətən ağıllı-başlı artırıb, dala bir şey qoya bilirdi. O, beşcə manat xərclədiyi gün özünü pis hiss edir, axşamlar üzünü divara çevirib pulunu dönə-dönə sayırdı ki, görsün nə qədər ziyana düşüb və yerdə neçə manat qalıb. Hüsniyyə ərinin pul saymağına ötəri baxmaq istəyəndə, Zəkəriyyə ona necə göz ağartması verirdisə, qadın özünü itirirdi və tez aralanıb, otağın o başında qab-qacaqla qurdalanırdı.

Zəkəriyyə müəllim nə qədər qaba və xəsis olsa da, mənə qarşı son dərəcə nəzakətli idi. Bunu mən özüm yaratmışdım. Onunla özü kimi yox, özüm kimi rəftar edirdim. Yaşca məndən böyük olan bir insan kimi, yolunu saxlayırdım. Və onun yonulmamış xasiyyətinin məndə yaratdığı ikrah hissini əsla büruzə vermirdim. Zəkəriyyə ona qarşı göstərdiyim həssas, ifallı davranışımın qabağında aciz idi. Yanımda artıq-əskik hərəkət etməz, həyat yoldaşını incitməzdi. Lakin daldaya düşəndə Hüsniyyəni o ki var, əzişdirirdi. Mən bunu Hüsniyyənin gözünün altındakı qara ləkələrdən, üzündəki çapıqlardan hiss edirdim. Lakin Hüsniyyə döyülüb-söyüldüyünü bildirmirdi. Və özünü elə göstərirdi ki, Zəkəriyyə ona güldən ağır söz demir. Lakin onun içəridən nələr çəkdiyini bilirdim.

Səhər-səhər məktəbə gedəndə Hüsniyyə tək-tənha,

yad və kənar bir qadın kimi bizdən aralı gəlirdi. Və o, cəsarət edib söhbətimizə qarışa bilməzdi. Zəkəriyyə yalnız müəllim və tələbələr arasında Hüsniyyəyə xoş sifət göstərirdi.

Bir dəfə Hüsniyyənin başı nəyə qarışdısa, ocağın üstündəki şorba qazanı qaynayıb daşdı. Və evi yanıq iyi bürüdü. Zəkəriyyə özündən asılı olmayaraq, hirsləndi və Hüsniyyənin üstünə cummaq istədi. Lakin məndən keçə bilmədi. Və öz-özünə:

- Səni qurban olasan müəllimə, - o məni nəzərdə tuturdu, - yoxsa… - Sözünün mabədini gətirmədi və dodaqaltı deyinməyə başladı.

Mən yarızarafat, yarıkinayə ilə:

- Hüsniyyə bacı, - dedim, - eybi yoxdu, pay çəkəndə mənə bir-iki çömçə az qoyarsan, - deyib güldüm.

Zəkəriyyənin də dodağı qaçdı. Və özünü o yerə qoymadı:

- Vallah, südlü aşa görə demirəm, evə yanıq iyi doldu. Ona görə əsəbiləşdim.

- Zəkəriyyə müəllim, - dedim, - hirsin cana ziyanı var. Yəni südlü aşın yanıq iyi, üzünü ülgüclə qırxandan sonra vurduğun o ucuz odekolonun iyindən pisdi?! - Bu sözü deyəndə yenə gülüşmə qopdu.

Bu cür məzəli atmacalarımla evin kin və qəzəb dolu ab-havasını xeyli dəyişib, yumşaltdım. Belə bir anda burada olmasaydım, Allah bilir Hüsniyyə neçə yumruq yemişdi.

Bəzən mənə elə gəlirdi ki, Zəkəriyyə insan deyil, hansısa bir planetdən azıb gəlmiş qeyri-müəyyən məx-

luqdur. Ona görə də Zəkəriyyə ilə təmasda olmaqdan mümkün qədər qaçırdım. Ağıllı bir söz danışanda onun fikri ayrı yerdə olurdu. İxtisasına aid olan "Hesab" kitabından savayı onun əlində başqa bir ədəbiyyat görmürdüm. Məcburən abunə yazıldığı bircə qəzet alırdı, onu da oxumurdu, süfrə əvəzinə stolun üstünə sərirdi. Deyirdi ki, süfrəni gərək tez-tez yuyasan. Amma qəzet elədi ki, bu gün çirkləndi, sabah təzəsini sal. Bircə buna görə qəzetə abunə yazılmağa dəyər. Və çox vaxt evi yar-yaraşığa salmaq üçün iri şəkilləri olan qəzeti divara yapışdırıb ondan zövq alırdı.

Əksər vaxtlar məktəbdən qayıdanda bir loxma çörək yeyib, kəndin altındakı sısqa su axan dərəyə enirdim. Quru bir kötüyün və ya mamırlı daşın üstündə oturub suyun həzin pıçıltısını dinləməkdən, dərənin boğazında bitən cəviz, iydə, zoğal, qoz ağaclarına baxmaqdan xoşhal olur, ağrımı-acımı unudurdum. Buradakı zoğal, iydə, qoz, əzgil bizim kəndin ağaclarına elə oxşayırdı ki. Və mənə elə gəlirdi ki, bunlar elə öz kəndimizin ağaclarıdı. Burada işlədiyimi eşidib, bilib, arxamca qarabaqara gəliblər ki, mənə həyan olsunlar, darıxmağa qoymasınlar. Rəngbərəng payız xəzəlləri ayağımın altında xışıldayıb, mənimlə ağıllı-başlı danışırdılar. Xəzəllərin söhbətindən, bir də ki, kolların dibinə qısılan qaratoyuqların ürkək səsindən təsəvvürəgəlməz zövq alırdım. Qaş qaralana qədər doğmalaşdığım bu xoş mənzərədən ayrıla bilmirdim. Buradan uzaqlaşanda, arxamca gəlib bu yerlərdə bitən zoğal,

armud, iydə, cəviz ağacları qəribsəyirdilər. Elə bil ağacların qəddi əyilir, qol-qanadları yanına düşür, qəm-qüssəyə batırdılar. Odur ki, məcbur olub "həmsöhbətlərimə" tez-tez baş çəkirdim. Yazda burada bitən bənövşələri yığmaqla qurtarmırdı. Bu bənövşələr elə kəndimizdəkilərlə eyni idi. Rəngində də, ətrində də əsla fərq yox idi. Hamısı da yaranışdan boynu bükük… Baharın müjdəçisi, torpağın bəzəyi, insanların xoş ovqatı, ətirlərin ətri olan bu bənövşələr görəsən niyə belə boynu bükükdü?! Bəlkə onlar da öz talelərindən küskün olduqları üçün həmişə məyus, boynu bükük görünürlər. Sirrini sirdaşa verməyən dünyanın bu müəmmalarından baş açа bilmirdim. Bənövşələri boynu bükük, yazıq görəndə təəssüflənirdim, bunu da özümə bir dərd eləyirdim. Onların qəmi, kədəri azmış kimi, elə bil mənim də dərdimə şərik olurdular. Ağaclar kimi bənövşələr də kəndimizdən vurub gəlib, burada bitiblər ki, həndəvərimdə ətir saçsınlar. Bənövşələr, onların xoş rayihələrindən necə həzz aldığımı özləri də yaxşı bilirdilər. Və bizim bir-birimizə olan istəyimiz də, məhəbbətimiz də qarşılıqlı idi.

Ətrafı bürüməkdə olan qaranlığın hökmü ilə mənzilimizə dönməli oldum. Lakin ayaqlarım üzə durub, sözümə baxmırdı. Və mən çətinliklə, ləng addımlarla kəndə üz tutdum. Elə bil uzaq Sibirin həbsxana qapısını açmağa gedirdim. Və orada həssas qəlbimi didib parçalayacaq xırsız insanların üzünü görəcəyimdən amansız bir sıxıntı duyurdum. Ancaq mənhus qaranlığın qara pərdə çəkdiyi bu dərin dərələrin dibində

yatıb gecələyə bilməzdim. Canıma cəfa basıb mənzilimə tərəf getməli idim. Zəkəriyyə müəllimlə bir otaqda gecələməli, Hüsniyyənin gizli göz yaşlarının şahidi olmalı idim. Mən artıq belə bir cəzaya məhkumudum.

Zəkəriyyə qapıda sülək bir köpək saxlayırdı. Köpəyin ayrıca damı olmadığından, qapının girəcəyindəki küncə qısılırdı. Və neçə ay bu evdə yaşamığıma baxmayaraq, içəri girib-çıxdıqca üstümə mırıldanıb məni diksindirirdi. Zəkəriyyə müəllimin də sarı köpəklə əylənməkdən xoşu gəlir, ona qayğı göstərirdi. Havalar xoş olanda Zəkəriyyə müəllim həyətə çıxıb köpəklə oynayır, onun boynuna, başına sığal çəkirdi. Sarı köpək xoşhallanıb sahibinin əl-qolunu yalayırdı. Hüsniyyə pəncərədən oğrun-oğrun onlara baxır, əri ilə sarı köpəyin mehribançılığına sanki həsəd aparır və dərindən köks ötürürdü. Və bəlkə o, köpəyin yerinə olub Zəkəriyyə müəllimin ona da bax beləcə nəvaziş göstərməsini istərdi.

Dərədən evə qayıdanda sarı köpək yenə qapının ağzında yumaq kimi yumurlanıb, altdan-altdan mənə baxırdı. Ancaq sarı köpəyin çəmini tapmışdım, ondan ehtiyat etdiyimi hiss eləyəndə üstümə cumurdu. Lakin yanından saymazyana keçəndə altdan-altdan gözlərini bərəltsə də, mırıldanmırdı. Yaxşı deyiblər ki, gərək itin yanından bəy kimi, bəyin yanından it kimi keçəsən ki, zavala gəlməyəsən. Odur ki, qapının girəcəyinə qısılmış sarı köpəyə məhəl qoymadan içəri keçdim. Zəkəriyyə müəllim kağız-kuğuzu stolun üstünə töküb

lampa işığında nə isə yazıb-pozurdu. Hüsniyyə yatdığım taxtın ayağında oturub əri üçün dümağ ipdən jemper hörürdü. Yatdığım taxtın baş tərəfinə keçib Zəkəriyyə müəllimlə üz-üzə əyləşdim. Məktəbdə, kənddə baş verən bəzi əhvalatlardan yerli-yersiz söhbətlər açdıq. Sonra da Allah verəndən yeyib, səhərki dərslərə hazırlaşmağa başladıq. Mən işlərimi qurtarıb taxtın baş tərəfində qatlayıb üst-üstə yığdığım yorğan-döşəyimi açıb başımı yastığa atdım. Zəkəriyyə müəllimlə Hüsniyyəyə, - gecəniz xeyrə qalsın, - deyib üzümü pəncərəyə çevirdim. Və yorğanı başıma çəkdim. Onlar bir qayda olaraq, həmişə məndən bir neçə saat gec yatırdılar. Tez yatmağımın bir səbəbi də o idi ki, Zəkəriyyə müəllimin mənim üçün maraqlı olmayan duzsuz söz-söhbətlərini eşitməyim.

Şirin yuxuya getmişdim. Birdən qulağıma qadın çığırtısı gəldi. Mən sanki yuxu görürdüm. Ha çalışdım gözümü açım, bacarmadım. Evdə haray-qışqırıq qopduğu aydınca eşidilirdi. Sarı köpək də bunu hiss edirmiş kimi, həyətdə özünü yeyib-tökür, zingildəyir və onun zəhmli ulartısı adamın tükünü ürpəşdirirdi. Hövlnak yorğanı üstümdən atıb şalvarımı əynimə keçirdim. Lampanın xodu alındığından ev ala-qaranlıq idi. Tez lampanın piltəsini yuxarı qaldırdım. Ev işıqlandı. Hüsniyyə qapının yanında küncə qısılıb için-için hıçqırırdı. Zəkəriyyə müəllim üzümə baxıb, heç bir şey olmayıbmış kimi suçlu-suçlu gülümsündü. Və:

- Bağışlayın, sizin də yuxunuza haram qatdıq, - dedi. Hüsniyyə həyətə çıxmışdı, içəri girəndə ayağı qapı-

nın astanasına ilişib, üzü üstə yıxıldı. Bir az baş-gözü sivrilib. Eybi yoxdu, isti kompres qoyub, yod vurmuşam, keçib gedər. Siz narahat olmayın.

Hüsniyyə balaca vannada qanlı yaylığını yuyurdu. Vannanın suyu qıpqırmızı idi. Şübhəsiz ki, Zəkəriyyə əsl vəziyyətdən diqqətimi yayındırmaq istəyirdi. Hüsniyyənin qapıya ilişib yıxılması onun öz uydurması idi. Nəyə görə isə Hüsniyyənin baş-gözündə istahat qalmamışdı. Və fikrimi azdırıb, bunu məndən gizlətmək istəyirdi. Hüsniyyə özü də titrək səslə:

- Müəllim, narahat olmayın, - dedi, - ayağım bir balaca büdrədi, özümü saxlaya bilmədim, başım qapıya dəydi.

Mən buna təəssüfləndiyimi bildirdim və özümü elə göstərdim ki, guya onların dediyinə inandım. Lakin əsl vəziyyət mənə bəlli olduğu üçün səhərə qədər gözümə yuxu getmədi. Sübhəcən belə bir vəziyyətdən necə çıxa biləcəyim barədə düşünürdüm.

Səhər yerimizdən qalxıb çay-çörəkdən sonra məktəbə yollandıq. Hüsniyyə alnındakı iri çapığı gizlətmək üçün başındakı ağ cunanın ucunu gözünün üstünə qədər sallamışdı. Həmişəki kimi biz irəlidə gedirdik, Hüsniyyə bir kölgə kimi arxamızca sürünürdü. Mən şahidi olduğum belə bir ailə münaqişəsi barədə Zəkəriyyə müəllimlə bir kəlmə də danışmırdım. Bilirdim ki, qarışsam da, faydası yoxdur. Belə bir qədim söz var - matahının ağzın açma, xiridar olmayan yerdə. Bir də ki, barıt kimi hər dəqiqə alışmağa hazır olan belə bir məxluqla ehtiyatlı davranmalıydım. Əksinə, hərəkətlə-

rim Zəkəriyyə müəllimdə inam yaratmışdı ki, onun Hüsniyyənin başına gətirdiklərindən bixəbərəm. Ancaq Hüsniyyənin eyhamlı sözlərindən, məzlum baxışlarından hiss edirdim ki, onun qeydinə qalan, qəlbi yumşaq bir insan kimi, nə isə dərdini mənə açmaq istəyir. Ancaq buna imkan olmurdu. Çünki Zəkəriyyə Hüsniyyəni bircə addım da gözündən o tərəfə qoymurdu. Hara getsə özü ilə aparırdı. Bir dəfə dərslərin axırında məktəbdə qapalı partiya iclası keçirilirdi. Bitərəf olduğum üçün təbii ki, yığıncaqda iştirak edə bilməzdim. Nizamnamə də buna yol vermirdi.

Hamı çıxıb getmişdi. Bircə Hüsniyyə ilə mən Zəkəriyyə müəllimin iclasdan nə vaxt çıxacağını gözləyirdik. Mən dərs hissə müdirinin kabinetində oturub, əlimə düşən təzə kitabı oxuyurdum. Otaqda məndən başqa heç kim yox idi. Hüsniyyə çəkinə-çəkinə içəri girdi. O, sözlü adama oxşayırdı. Lakin birdən-birə ürək eləmirdi. Mənə baxıb kövrəldi, sonra solğun yanağında gilələnən yaş damcılarını silib başını yuxarı qaldırdı:

- Neçə aydı qabağınıza duz-çörək qoyuram, - dedi, - elə bilirəm doğma qardaşımsınız. Gördüyünüz kimi, bir oda düşüb yanıram. Açıb-ağartmalı dəyil, bir qansızın əlinə düşmüşəm. Gözünüzün qabağında nə çəkdiyimi bilirsiniz. Bunları deməkdə məqsədim odur ki, halal süd əmmiş bir adam kimi bəlkə mənə doğru yol göstərəsiniz. İnanıb etibar etdiyim yeganə insansınız ki, ilk dəfə ürəyimi sizə açıram. Bildiyiniz kimi, ilk oxum daşa dəydi. Utanmazlıq da eləyirəm, uşağa görə birinci ərimdən ayrıldım. Sakitcə qayıdıb oturmuşdum atamın evində.

Kəndimizdəki kitabxanada qəpikdən-quruşdan alıb başımı girləyirdim. Hardansa bu əzrayılı bizim məktəbə qoydular. Gələn gündən ilişdi yaxama. Bir-iki dəfə sifətimi bozardıb, abrını ətəyinə bükdüm, sırtıqlığına salıb yenə də məndən əl çəkmədi. Dedi ki, bu dünyada varsa da sənsən, yoxsa da, gərək evlənək. Neçə dəfə, yox, dedim, xeyri olmadı. Ordan-burdan üstümə adam saldı. Axırda mən külbaş razılaşdım. Atam əvvəl gündən bu işin əleyhinə idi. Neçə dəfə məni kənara çəkib ikilikdə dedi ki, qızım, o səni yox, məni istəyir. Səni ona sevdirən mənim ad-sanım, var-dövlətimdir. Nə olsun ki, fırıldaq yolla əlinə bir diplom keçirib, adını müəllim qoyub. Ona öz kəndlərində Xırsız Zəkəriyyə deyirlər. Eləsindən sənə ər çıxmaz. Bazburutuna aldanıb ona ərə getmə. Sonra peşman olarsan.

Hüsniyyə bu sözləri deyib, yumub tökdü. Və balaca əl dəsmalını qoynundan çıxarıb gözünün yaşını sildi. Bir qədər toxtayıb, yenə də başına gələnləri danışmağa başladı:

- Atamın sözünə baxmadım, getdim. Qoca nənəm həmişə deyərdi ki, qızım, böyüyün sözünə baxmayan böyürə-böyürə qalar. İndi elə o dediyi günə düşmüşəm. Zəkəriyyə məni alandan sonra atamın hesabına eveşik sahibi oldu. Kənddə özünə təzə dam-daş saldırdı… Atam dünyasını dəyişəndən sonra pis arvad olmuşam. Deyir, iti görüm, qurdu görüm, səni görməyim. Məni bitli buzova döndərib. Partiyaçı olduğundan məni boşaya bilmir ki, adı pisə çıxar, sabah irəli gedə bilməz. Çalışdığı odur ki, özüm ərizə verib gedim.

Əlacım olsa, onnan bircə saat da yaşamaram… Günü bu gün baş alıb gedərəm. Ancaq hara gedim?! Ata yox, ana yox! Kimin yanına gedim?! Yurdda qalan bir qardaşımdı, onun da məni görən gözü yoxdu. Rəhmətlik nənəm deyərdi ki, arvad ərin gecə mollasıdı. Başıboş kişilər onların dilinə, felinə tez aldanırlar. Ancaq bütün qadınlar barəsində o fikirdə deyiləm. Qardaşımın bir arvadı var, Allah heç kafir bəndənin ocağına heyləsin qismət eləməsin. Altdan-üstdən qardaşımın başını o qədər doldurub ki, məni görəndə elə bir qutuda ilan görür. Gedəndə üzümə baxmırlar. Getdiyimə də peşman oluram. O cür qardaşın qoltuğuna qısılmaqdansa, bu cür əzrayıl ər yaxşıdır. Həmişə də məni döyəndən sonra başımın üstünü kəsdirib paltarımın qanını yudurtdurur. Qorxur ki, qanlı paltarımı aparıb məhkəmənin qabağına ataram. Həmin gecə siz yatandan sonra şalvarını bir az geç ütüləməyimin üstündə məni al qana boyadı. Siz yuxudan ayılanda ört-basdır elədik. Dedik, ayıbdı. Nədənsə, sizə qarşı acizdi. Sizin yanınızda artıq-əskik danışıb baş aparmır. Ona görə də, bizimlə bir yerdə olmağa razılıq verdiyinizi eşidəndə elə sevindim ki… Sizin yanınızda bir az özünü yığışdırır. Ancaq daldaya düşəndə ətimi kəsir. Sizi də yanına gətirməyi onun xeyirxahlığından, canıyananlığından irəli gəlmir. Öz xeyrini güdür. Sizə qədər ayda bir dəfə qazan asılmırdı. Çayın nə olduğunu bilmirdik. Elə xəsisdi ki, qəpiyi çıxanda canı çıxır. Uşaq aşıq yığan kimi əlinə düşən pulu tez sayıb qoyur sandığın dərin yerinə. Amma gördüyün kimi, əyin-başım tökülüb

gedir, adam içinə çıxanda xəcalət çəkirəm. Yamaq eləməkdən barmaqlarımın ucu qabar olub. Hansını deyim, dərd birdi-ikidi?!

Hüsniyyə kədərli ah çəkdi. Yenə də gözlərinə dəm verdi. Özünü birtəhər ələ alıb sözünə davam etdi:

- Nə ərdən yarıdım, nə qardaşdan! Ərsizliyin dərdi də hamısından betərdi. Gedib bir koma tapıb, idarələrdə işləyərəm. Öz əlim olar, öz başım. Onda da adıma yüz söz çıxaracaqlar. Elə birincisi, özcə gəlinimiz. Düşmən ocağımızın başındadır. Sizə başağrısı verməkdə məqsədim heç də o deyil ki, mənə nə isə edəsiniz. Kömək Allahdan olmalıdır. Bunları deyib ürəyimi boşaldıram. Ayrı bir məqsədim də var. Çörək Qurandan qabaq gəlib. Bayaq dediyim kimi, bu əllərimlə qabağınıza duz-çörək qoymuşam. Ona görə də sizə inanıb etibar eləyirəm. Dediyim kimi, həyat yollarımın hamısı tilsimlənib. Bircə qəbir yolum qalıb. Məni bütün işgəncələrdən yalnız o yol xilas edə bilər. Bu barədə sizin köməyinizə ehtiyacım var. Ancaq bu, qana bərabər sözdür. Onu ikimizdən, bir də ki, başımızın üstündəki Allahdan başqa heç kim bilməməlidir. Sizi qabağınıza qoyduğum duz-çörəyə and verirəm, mənə "yox" deməyin. Eşitdiyimə görə hardasa kinə boyda həblər var. Birini atan kimi heç bir əzab-zad çəkmədən insan o dəqiqə keçinir. Eşitmişəm ki, o cür həbləri kəşfiyyatçılara verirlər ki, bərkə düşəndə… Mən qolu bağlı qul kimiyəm. Bu cəlladın əlindən bir yana tərpənə bilmirəm. Atam evində olanda anam mənə iki onluq qızıl verib. Onu da götürün, nəyin bahasına olursa-olsun, həmin

həblərdən birini mənə tapın. Bundan başqa çıxış yolum yoxdu. Bircə gecəliyinə ata evinə qayıdıb, anamın yatdığı kravatda həbi qəbul edib keçinərəm. Nədən öldüyümü bilən olmaz. Kənd yeridir, deyəcəklər, azarı yox, bezarı yox, yəqin elə ürəyindən imiş. Mən ömrümü belə bir yolla başa vurmaq istəyirəm. Sizə yalvarıram, bu barədə məndən köməyinizi əsirgəməyin…

Hüsniyyə danışdıqca ürəyim sıxılırdı, havam çatışmırdı. Elə bil otağa qəbir sükutu çökmüşdü. Onun dediklərinə münasibətimi bildirmək istəyəndə səs-küy gəldi. Qapalı partiya iclası qurtarmışdı. Hüsniyyə tez məndən ayrılıb işlədiyi kitabxanaya keçdi ki, əri onu burada görməsin.

Günəş batmaq üzrə idi. Biz üçümüz də bir-birimizə qoşulub evə tərəf yollandıq. Zəkəriyyə ilə mən söhbətləşə-söhbətləşə gedirdik. Hüsniyyə isə ağ kölgə kimi arxamızca sürünürdü.

Dərs ilinin başa çatmasına ay yarım qalırdı. - İlə dözən aya da dözər, - deyiblər. Mən bu ay yarıma da dözüb Zəkəriyyə müəllimlə bir yerdə yaşamalı idim. Birdən-birə onun tutduğu mənzildən getmək istədiyimi bildirsəydim, məni düzgün başa düşməzdi, inciyərdi. Ağlına başqa şeylər gələrdi. Onun mənə olan nəzakəti qarşısında Zəkəriyyədən hörmətlə ayrılmalı idim. Və bunun səbəbini elə izah etməliydim ki, ağlabatan olsun, Zəkəriyyədə şübhə yeri qalmasın.

…Növbəti dərs ili gələndə Zəkəriyyəni inandıra bildim ki, atam məni evləndirmək istəyir. Ona görə də ayrı mənzil tutmalıyam. Zəkəriyyə ondan ayrılmağıma

mütəəssir olsa da, evlənəcəyimə sevindi və mənə xeyir-dua verdi. Axırda bir də onu dedi ki, Hüsniyyə xəstəxanada ağır yatır. Həkimlərin deməsinə görə, sağalmasına ümid azdır… Elə bu gün-sabahı gözləyirəm. O bu sözləri çox soyuqqanlıqla deyirdi və sanki vaya yox, toya hazırlaşırdı… Bu sözü eşidəndə sarsıldım. Ona kömək etmək imkanım xaricində olsa da belə, mənə pənah gətirən bədbəxt bir qadının ümid dolu yalvarışlarına biganə qaldığıma görə özümü bağışlaya bilmirdim. Və uzun müddət bu peşmançılıq məni tərk etmədi.

* * *

Dəmirli kəndində qapısı mömünlərin üzünə bağlanıb, anbara çevrilən məscidlə divar-divara olan bir otaq tapdım. Təzə mənzilimi səliqə-sahmana salırdım. Nuh əyyamından qalma taxta çarpayı, üstündə həm yemək süfrəsi açdığım, həm də yazı-pozu ilə məşğul olduğum uzunsov stol, bir də ki, əldəqayırma, yerli dülgərlərin palıd ağacından kəsib düzəltdikləri üç yöndəmsiz stul. Damı və döşəməsi torpaq olan və divarlarına qaşqa suvaq çəkilmiş mənzilimin bircə küncü ev əşyalarımı yerləşdirmək üçün gen-bol bəs eləyirdi. Axşamlar ağ dəftər vərəqinin ortasını iti qayçı ilə dəyirmi kəsib, onluq lampanın üstündəki şüşənin boğazına keçirəndə, stolumun üstü süd kimi işıqlanırdı. Və belə bir gur işıqda nəinki rahatca yazıb-pozmaq, qoca nənəmin nazik iynəsini də saplamaq olardı. Müəllim kimi kəndlərdə keçirdiyim bu çür həyat tərzi məni mətbəx işlərində də ağıllı-başlı püxtələşdirmişdi.

Yeni dərslərin başlanmasından cəmi onca gün keçirdi. Yer-yurduma təzəcə isinişdiyim məqamda xəbər gəldi ki, rayon maarif şöbəsində olmalısan. Getdim. Qubadlı kəndinə bitişik olan, eyni adlı rayon mərkəzinin bu başından, o başına hələ asfalt döşənməmiş qumsal yol uzanır. Kiçik qəsəbənin bu yeganə küçəsinin hər iki tərəfində bir və ikimərtəbəli binalar cərgələnir. Ancaq təbiət bu yerlərdən səxavətini əsirgəməyib. Qəsəbəyə tərəf boylanan Əyin dağları, meşələrlə örtülmüş alçaqlı-qəlbili təpələr, orda-burda dikələn boz və çopur qayalar, yaxınlıqdan hay-küylə axıb keçən Bərgüşadın laciv ərd suları, çayla qəsəbə arasında bərq vuran bağ-bağat rayon mərkəzinə heyrətamiz gözəllik verir. Bu doğma diyarın xoş mənzərəsi yol boyu məni təhdid edən, müəmmalı çağırışın doğurduğu nigaran, qarmaqarışıq fikirlərdən uzaqlaşdırırdı.

Taxta pilləkənlərlə rayon rabitə qovşağı ilə bir binada yerləşən maarif şöbəsinin dəhlizinə qalxdım. Təyinat yeri münasib olmayan, dərs bölgüsündən narazı qalan… bir neçə müəllim gözləmə otağında dayanıb əllərindəki qəzet, dəftər, kağızla istidən tər basmış sir-sifətlərini yelpikləyib sərinləyir, müdirin onları nə vaxt qəbul edəcəyi və bu görüşün uğurlu, uğursuz nəticələri barədə düşünürdülər. Pay-piyada uzaq yol qət etmiş və yönlü gün-güzəran keçirməyən bu kənd müəllimlərinin yorğun baxışlarında onların daxili iztirabları aydınca hiss olunurdu. Meşin qapının başındakı yumruq boyda balaca zəng cingil-

dədikcə qəbula dayananlar diksinir, küncdəki yazı makinasının arxasında sakitcə əyləşmiş girdəsifət qız isə tələsmədən ayağa qalxıb kabinetə daxil olur və tez də geri dönüb başının işarəsi ilə əyləşənləri bir-bir müdirin otağına dəvət edirdi. Axır ki, növbə mənə çatdı. İçəri daxil oldum. Orta boyu, ağarmış seyrək saçları, dolu bədəni, qalın qaşları olan və əvvəllər yuxarı vəzifələrdə işləmiş şöbə müdiri təmkinlə mənə əl verib əyləşmək üçün yer göstərdi. Və qısa hal-əhvaldan sonra mətləbə keçdi:

- Deməli, Dəmirlidə qalırsınız, - dedi, - hər gün də Dindarlıya gedib-gəlirsiniz?! Bu sizin üçün çətinlik törətmir? Nə əcəb məktəbin yerləşdiyi Dindarlıda qalmırsınız?

- Dindarlıda kirayə mənzil yoxdur, ona görə də məcbur olub Dəmirlidə qalıram. Bir də ki, Dəmirli ilə Dindarlının arası beş addımlıq yoldu. Gedib-gəlmək mənim üçün o qədər də çətinlik törətmir, - şöbə müdirinə cavab verdim.

Müdir eyni təmkinlə:

- Seravno, sabah bunun yağışı var, qarı var! Oralar da qüzey yerdi, bir balaca çiskinlədi, palçıqdan tərpənmək olmur.

Mən dillənmədim. Şöbə müdiri sözünə davam etdi:

- Sizi bura başqa məqsədə çağırmışam, - dedi. - Dindarlı orta məktəbi rayon mərkəzinə yaxın olduğundan orda işləməyə can atanlar çoxdur. Ona görə də dərs çatışmır. Müəllimlər maaşlarının azlığından gileylənirlər. - Elə götürək sizi, neçə aklad dərs veriblər?

- Bir aklad - könülsüz dilləndim.

- İş stajınız az olduğuna görə bu da eləsin yeddi yüz doxsan manat. Zayoma, subaylığa, başqa vergilərə çıxandan sonra yerdə nə qalır?! Məncə, heç öz aylıq xərcinizi görməz.

Hələ də bura nə məqsədə çağırıldığımı və şöbə müdirinin məni bu cür sorğu-suala tutmasının səbəbini anlaya bilmirdim. O, qaşlarını çatıb altdan-altdan mənə baxaraq:

- Şöbənin belə bir fikri var, - dedi. - Muradlı orta məktəbində dərs hissə müdiri yeri boşdur. Tarix müəlliminə də ehtiyac var. Uzaq olsa da, rayonun ən böyük məktəbidir. Laçından, Cəbrayıldan, hətta Ermənistanın Sisyan rayonundan ora şagird gəlir. Yeganə orta məktəbdir ki, internatı, yardımçı təsərrüfat sahəsi, atı-arabası var. Yəqin ki, internatın da yaranma tarixçəsini bilməmiş deyilsiniz. Müharibənin ağır vaxtlarında Mir Cəfər Bağırov həmin məktəbdə olub. Maddi çətinliklər üzündən məktəbdən kənarda qalan yetim, imkansız uşaqların təhsilə cəlb olunmasını təmin etmək üçün orada internat yaradılması barədə şəxsən özü göstəriş verib… Elə həmin vaxtdan internat işləyir. Bax, sizi raykomun, maarif şöbəsinin diqqət mərkəzində olan belə bir məktəbə göndəririk. Onu da bilirəm ki, yaxşı əl qabiliyyətiniz, rəssamlığınız var. Sizi intizamlı, ümidverici kadr kimi tanıyırıq. Ona görə də… Əmriniz də hazırdır. Bu gün gecdir, sabahdan yeni təyinat yerində olarsınız.

Mübahisə açmağın yeri deyildi, sakitcə ayağa qal-

xıb əmrimi aldım. Və şöbə müdiri ilə yarıkönül görüşüb xudahafizləşdim. O, etimadı doğruldacağıma əmin olduğunu bildirib, mənə uğurlar arzuladı.

* * *

…Sərt yamaclardan keçən sarımtıl yoxuşları qalxıb, içməyə damcı suyu, kölgələnməyə bircə ağacı olmayan bozumtul düzlərə çıxdım. Zəmisi biçilmiş, otu saralıb-solmuş kimsəsiz səhralardan keçən əyri-üyrü dar cığırlar getməklə qurtarmaq bilmirdi. Qızmar yay günəşinin altında qovrulan çılpaq torpağın istisi üzgözümü qarsırdı. Mənsə bu cür yollara öyrəşmişdim. Heç nəyə məhəl qoymadan təzə iş yerimə tələsir və mənzil başına çatmaq üçün bu darıxdırıcı düzlərdə yorulmaq bilmədən, sanki qanad açmışdım. Orda-burda nəzərə çarpan, qaratikan kollarının üstünə qonmuş sarıköynək quşlar və kəkilli boz torağaylar vəcdlə səs-səsə verib oxuyur, ətrafa çökən darıxdırıcı sükutu qovur və burdan ötən yolçulara sanki həyan olub, xoş ovqat bəxş edirdi. Bəzən qəfil qarşıma çıxan gürzə ilanların tükürpərdici fışıltısı əhvalımı korlayırdı.

Düzün qurtaracağında dərin dərələr göründü, sonra da yuxarı dağlardan baş alıb gələn Həkəri çayının gümüşü suları. Çayın sahillərində bir-birindən o qədər də aralı olmayan xırda kəndlərlə rastlaşırdım. Çınqıllı təpənin sinəsindəki Xəndək kəndinin yaxınlığından keçəndə ayaq saxladım. Vaxtı ilə buradakı ibtidai məktəbdə müəllimlik etdiyim, dərsdən sonra və istirahət günlərində çayın sahillərinə enib qızıl balıq tutduğum, çiynimdə qoşalülə ördək, turac ovladığım anlarımı xatırladım.

Bu kənddə özümə kirayə ilə mənzil tutmaq istəyirdim. Onda bığ yerim hələ tərləməmişdi. Alçaq boyu, qartal baxışları, mərd və ötkəm danışığı olan orta yaşlı bir kişi mənə yanaşıb gümrah səslə:

- Müəllim, əvvəla, bizim kəndə xoş gəlmisən, - dedi. - İkincisi də, eşitdiyimə görə əlaltdan mənzil axtarırsan. Görürəm çox cavansan. Bu yaşda gedib tək-tənha bir mənzildə qalsan, eşidib-bilən bizə nə deyər?! Deməzlər ki, Xəndəkdə bu cavan müəllimi qanadına çəkən yönlü bir kişi tapılmadı?! Yenə külfətin olsaydı, ayrı məsələ, deyərdim çay-çörəyini hazırlayan var! Ona görə də mənzil tutmaq fikrini biryolluq başından çıxart. Üç qızım var, sən də ol oğlum. Allaha şükür, yeməyə çörəyimiz, qalmağa gen-bol yerimiz. Üstəlik də İldırım kişidən ayıbdı, sonra onun qənşərinə çıxa bilmərəm…

Həkəri camaatı arasında böyük hörməti olan Şükür kişini şəxsən tanımasam da, barəsində çox eşitmişdim. Bilirdim ki, sözübütöv, qapısından qonaq-qarası əskik olmayan, kimsəsizə əl tutan, getdiyi yerdə qan bağlanan, heç kimin də qabağında əyilməyən mərd adamdı. O vaxt Xəndək kəndinə təyinat alanda da atam Şükürün barəsində bir-iki kəlmə demişdi. Demişdi ki, xəndəkli Şükür o tərəflərdə sayılan, həm də karagələn adamdı.

Uzaqdan-uzağa haqqında eşitdiyim bu şəxslə indi üz-üzə dayanmışdım. Ona razılığımı bildirib təşəkkür etdim. Və üzümü əks tərəfə tutub məktəbə tərəf yönəlmək istədim. Şükür kişi qüvvətli əllərilə biləyimdən bərk-bərk yapışıb:

- Buraxan dəyiləm, müəllim, yəni deyirsən bu kən-

din ortasında davıya çıxaq? - dedi. - Gedək, əvvəlcə qapımı tanı, bir loxma çörək kəsək, sonrasına baxarıq.

Bu mötəbər kişinin ürəkdən gələn qətiyyətli, həm də səmimi sözlərini yerə sala bilməzdim. Getdim və həmin gündən bu mehriban ailənin əzizlənən üzvünə çevrildim.

Seyrək kollarla örtülmüş, çınqıllı təpənin sinəsinə sığınan Xəndək kəndinin suyu olmadığına görə torpaq örtüklü alçaq evlərin həyət-bacasında bir yaşıllıq belə gözə dəymirdi. Qız-gəlin çiyninə səhəng alıb, yamac yollarla kəndin ayağına enir və dəyirman arxından su daşıyırdılar. Və götürdükləri bulanıq çay suyu xüsusi daşlardan damcı-damcı süzülüb, durulduqdan sonra ondan istifadə edirdilər.

Bir axşam şər qarışanda yaşadığım evin böyük qızı Tutu çiynində su dolu mis səhəng, kəndin altından evə tərəf yönələndə hiss edir ki, nə isə onun ətəyindən yapışıb geri dartır. Tutu arxaya baxanda, canavar boyda iri çaqqal onun üstünə atılır. Tutu özünü itirmədən çaqqalı boğazlayıb dizinin altına alır. Dəyirmançı Nəsir bu hadisəni kənardan görüb əlində bel özünü yetirir və:

- Tutu, buraxma!!! Tutu, buraxma!!! - deyib qışqırır.

Tutu çaqqalı boğub heydən salhasalda, Nəsir bədheybət vəhşinin başına bir-iki zərbə endirir.

Bu qəribə əhvalatın səsi, sədası Həkəri çayının ətrafındakı kəndlərə yayılmışdı. Tutunun cəsarəti dildən-dilə düşmüşdü. Eşidib-bilən, - qıza bax ee! Yəqin qurd ürəyi yeyib, - deyirdi.

Şükürün oğul züryəti yox idi. Ancaq kişi cəsarətli qızlarının hünəri ilə fəxr edirdi.

O vaxtlar burada qorxunc hadisələrin şahidi olurdum. Evlərin çoxunda zəhərli ilanlar yuva salmışdı. Lakin insanlar bunun üçün o qədər də narahatçılıq keçirmirdilər və artıq buna öyrəşmişdilər. Bir gün axşam sərini çiynimdə tüfəng ova gedirdim. Uşaqlı-böyüklü bir neçə adam yamacdakı evin həyətinə toplaşıb təşvişlə üzü o tərəfə baxırdılar. Maraqlanıb onlara yaxınlaşdım. Metrdən artıq uzunluğu olan boz gürzə çöl divarın deşiyindən çıxıb, dəhlizin döşəməsinə tərəf sürünürdü. Tüfəngi düzəldib ilanı vurmaq istədim. Lakin buna adi hal kimi baxan ev sahibi qoymadı:

- Müəllim, ona dəyib-toxunmaq olmaz, - dedi, - bir deyil, beş deyil. Vursan yoldaşları acığa düşüb ziyanlıq eləyər. Onsuz da evdə ilan olduğunu bilirik. Ehtiyatla davranırıq ki, uşaqlara dəyib-dolaşmasın. Bir də ki, basdamasan dəyməz. Odey, elə yuxarıdakı evin arvadından hesabınızı götürün, - əlavə etdi və yaxınlıqdakı geniş aynabəndli ağ binanı göstərdi. - Özü də xalam qızıydı. Neçə dəfə dedik, sözümüzə baxmadı. Həyətbacada gözünə ilan sataşan kimi quyruğundan tutub, yerə çırpıb öldürürdü. Axırı da o oldu ki, bir axşam damda ocağın üstünə qazan qoyduğu yerdə ilan girəvəyə salıb necə çaldısa heç həkimə də çatdıra bilmədilər…

Xəndəkdə bu cür hadisələrin az şahidi olmurdum. Artıq yerli sakinlər kimi mən də belə bir mühitə alışmışdım. Sübh tezdən, bir də ki, qürub çağı kəndin qurtaracağındakı məktəbin həyətində iri ağ daşa dirsək-

lənib ətrafı seyr edir, orda-burda xəlvətə çəkilib səs-səsə verən turacların nəğməsini dinləyirdim. Çay boyu uzanıb gedən çəltik ləklərində əli belli, başı ağ çalmalı suçulara və onların həndəvərində saymazyana gəzib-dolaşan uzun dimdikli, caydaq leyləklərə, əks tərəfdə görünən bağlı-bağatlı Qarağaclı, Qaracalı kəndlərinə baxırdım. Sərbəst vaxtlarımı kəndin yuxarısındakı meşələrdə, bir də ki, Həkərinin qamışlıqlarında keçirirdim. Özü də çiynimdə ov tüfəngi. Nadir hallarda geriyə əliboş qayıdırdım. Axı mən on-on iki yaşımdan ov etməyə meyl göstərirdim. O vaxtı tüfəngim yox idi. Geniş qəlbi olan əmim oğlunun çaxmaqlı tüfəngini xəlvətcə götürüb özümü yal-yamaca verirdim… Bu da ailədə qalmaqala səbəb olurdu:

- Sənin hələ tüfəng gəzdirən vaxtın deyil, əlindən xata çıxar, özünə xəsarət yetirərsən, - deyib, məni danlayıb-dansıyırdılar. Ancaq bütün bu narazılıqların faydası olmurdu və öz bildiyimlə gedirdim. Sözümün canı odur ki, kiçik yaşlarımdan əlimdən tüfəng düşmürdü. Bu xasiyyətimdən Şükür kişinin xoşu gəlirdi. Bir axşam damdakı yükün dalında gizlətdiyi onatılan tapançanı çıxarıb xəlvət mənə göstərdi:

- Müəllim, saz silahdı, - dedi. - Nikolay vaxtından qalmadı. Gizli saxlayıram. Çoxdan atmıram, bir gün ova gedəndə götürərsən. Dərə-təpədə bir-ikisini guruldat, gör necə atır?! Bir də ki, yuxarı meşələrdə vəhşi qaban çox olur. Rastına çıxsa ov tüfəngi ilə atmağın xeyri yoxdur. Qırma donuza kar salmaz. Ancaq onatılanın qabağında tərpənə bilməz. Filə də dəysə yıxmalıdır.

Tapançadan az-çox başım çıxırdı. Ana kəndim olan Balahəsənlidə qonşumuz yetim İsrafil milis idarəsində işləyirdi. Həmişə belində naqan gəzdirirdi. Kəndə gələndə məni də yanına alıb yuxarıdakı Qara qayanın arxasına aşırdı. Silah işlətməyə maraqlı olduğumu bildiyi üçün tapançanı qoburdan çıxarıb gözümün qabağında səliqə ilə sökür, silir və naqanla atmağın qayda-qanunlarını mənə öyrədirdi. Sonra da aralıda nişan qoyub, atıcılıq yarışına başlayırdıq… Onda yaşımın elə vaxtıydı ki, tapançanı əməlli tuta bilmirdim, tətiyi çəkəndə atdığım güllə hədəfdən yan keçirdi. Və pərt olurdum. İsrafil mənim bu cür xamlığıma gülürdü. Və təkrar-təkrar mənə tapança atdırırdı. Hər bazar axşamı küllüyün başına çıxıb babamın divar qonşusu olan milisioner İsrafilin yolunu gözləyirdim… Axır ki, milisioner İsrafil mənə naqanla sərrast atmağı öyrətdi.

Şükürün tapançası da İsrafilinkinə oxşayırdı. Ancaq çox iri idi. Bir də ki, İsrafilin tapançasını hökumət özü vermişdi, Şükürünkü isə qanunsuz idi. Bu işin üstü açılsaydı, Şükür əlli-ayaqlı gedərdi. Mən bu barədə Şükürə fikrimi deyəndə, o, özündən arxayın halda gülümsündü:

- Narahat olma, müəllim, - dedi, - uçaskovu da bilir silahım var, nəçənnik də. Ancaq adıma-sanıma görə dəyib-dolaşmırlar. Bir də bilirlər ki, məndəki silahın xatası çıxmaz. Bu silahla nə oğurluğa gedənəm, nə də ki, adam öldürənəm. Kənd yeridi, hərdən gecələr uzaq səfərə çıxıram. Onda ehtiyat üçün götürürəm. Deyirəm meşə çaqqalsız olmaz. Birdən oğruya-əyriyə rast gələ-

rəm, qabaqdan qaçmayım. Nahaq yerə deməyiblər ki, yüz gün yaraq, bir gün gərək. Artıq mən də o Şükür deyiləm. Yaşlaşmışam, fikrim var ki, nəçənniyin ayağı buralara düşsə, onatılanı təhvil verim getsin. Əcələ aman yoxdu, şər deməsən, xeyir gəlməz. Bu gün varam, sabahı nə bilmək olur. Başıma bir iş gələr, tapança onun-bunun əlinə keçər. Bir xata çıxardarlar, sonra olaram söyüş qabı. Sovet hökumətinin siftə illərində, bir də ki, müharibə vaxtı gecələr bunsuz yola çıxmazdım. Onda çox karıma gəlib… Xeyli vaxtdı əlimə almıram. Bir də ki, indi nəyimə gərəkdi, qurd quzuyla otlayır. Pas atmasın deyə hərdən silib, təmizləyib yağlayıram. Deyirəm hayıfdı, neçə il mənimlə "yoldaşlıq" eləyib. Ancaq son vaxtlar fikrim dəyişib. Rayonun nəçənniyi ilə aramız sazdı. Xətrimi dağlarcan istəyir. Gözləyirəm, buralara ayağı düşəndə verib başımdan eləyəcəyəm. Hələlik nə qədər ki, əlimizdədi, ova çıxanda götürərsən. Bir prob elə gör necə atır. Ancaq tüfəngə baxma, gərək onatılanla ehtiyatlı olasan…

Şükür hərdən danışırdı ki, Həkəri tərəfdə oğrunu da tanıyır, əyrini də. Harda bir hadisə oldu, birinci mən bilməliyəm. Heç kəs məndən sirr gizlətməz. Hansı kənddə də cinayət hadisəsi baş verdi, nəçənnikli, milisyəli əvvəl-əvvəl mənim üstümə gəlirlər. Bilirlər ki, mən baş qoşmasam, törədilən cinayəti tapıb ortalığa qoya bilməzlər. El-oba mənə inanıb etibar eləyir. Kimdən nə soruşsam düzünü deməlidir. Ona görə də milis işçiləri bu tərəflərdə məni ümid yeri bilir. Buralara ayaqları dü-

şəndə mənə dəyməsələr, işləri keçməz. Necə deyərlər, urvaları məndən olmasa, yapdıqları küt gedər. Elə rayondakıların hamısı sağ olsun, məni sayıb, yolumu saxlayırlar. Düşəndə bir sözümü iki eləmirlər. Yeri gələndə mən də ağsaqqal kimi hamının karına gəlirəm. Elə bizim bu Xəndəyin özündə mən olmasam, sədr, partkom, hesabdar bir-birini didər. Hərəsinin dalında bir dəstə var. Kimi sədr qoysalar altı ay işləyə bilməz. Ancaq hamısının qabağını alıram, qoymuram söz-söhbət yarana, dinənin də ağzına vurub oturduram yerində.

* * *

Bax, burada yolüstü ömür dəftərimin 1946-cı il tarixli səhifəsini varaqlayıb Xəndəkli günlərimi yaşadım. Və ləngimədən, yeni təyinat yerinə vaxtında çatmaq üçün yoluma davam etdim. Həkəri boyunca üzüyuxarı mənə tanış olan və olmayan enişli-yoxuşlu döngələrdən, dolaylardan keçib Muradlı dərəsinə aşdım. Qənşər bir yerdə dayanıb ətrafı seyr etdim. Kənddən xeyli aralıda ağarışan qırmızı taxtapuşlu binalar şəhər evlərini xatırladırdı. Həkim məntəqəsi, müəllimlər evi, məktəb və bir neçə inzibati bina bu kiçik "şəhərcik"də yerləşir. Bir tərəfi bağ-bağatla, arxası Həkərinin seyrək meşələri ilə əhatə olunmuş məktəbə tərəf yönəldim. Sanki başqa bir aləmə düşmüşdüm. Burada necə baş çıxara biləcəyim barədə məni təhdid edən nigaran fikirlərdən xilas ola bilmirdim.

Geniş meydançada voleybol oynayan məktəblilərin səs-küyü məni daxili fikirlərimdən ayırdı. Kənarda

dayanıb yoldaşlarının oyununa tamaşa edən və boynunda məktəbli qalstuku olan hündürboy oğlan buralara nabələd olduğumu hiss edib mənə tərəf irəlilədi:

- Bağışlayın, sizə kim lazımdır? - ədəb-ərkanla soruşdu.

- Məktəbdə kim var, direktor burdadırmı? - suala sualla cavab verdim.

Baxışları nəzakət ifadə edən məktəbli uşaq titrək səslə:

- Müəllimlər də, direktor da içəridədir, - deyib mənə bələdçilik etdi və binanın geniş qapısını göstərdi. - Koridora girəndə sağa dönün, hamısı ordadır, - əlavə etdi.

Üstündə səliqə ilə "Müəllimlər otağı" yazılmış qapını açıb içəri daxil oldum. İkinci növbədə dərs deyən müəllimlər qoltuqlarında dəftər-kitab ayaq üstə dayanıb növbəti məşğələyə başlamaq üçün zəngin səsini gözləyirdilər. Direktor baş tərəfdə, üstü qalın şüşəli stolun arxasında əyləşib qarşısındakı dərs cədvəlini nəzərdən keçirib, nə isə qeydlər edirdi. Çoxdan tanıdığım və vaxtı ilə ibtidai sinifdə mənə dərs deyən Şəkərli müəllimi görəndə məndə xoş ovqat yarandı. Və əvvəlcə ona əl uzadıb görüşdüm. Sonra direktorla və kənarda dayanan müəllimlərlə hal-xoş etdim. Onlar mənə, - xoş gəlmisiniz, - deyib təbəssümlə qarşıladılar. Bura, direktorun tədris işləri üzrə müavini gəldiyimi biləndə, Şəkərli müəllim soyuq istehza ilə:

- Yaxşı, sizə çətin olmaz?! - dedi. - Gərək razılıq verməyəydiniz. Məncə nahaq bu işə qol qoymusunuz. Hər adam Səfər müəllimin yerini verə bilməz…

Şəkərli müəllimin gözlənilmədən verdiyi belə köntöy sual və işlətdiyi yersiz sözlər məni daxilən sarsıtdı. Köhnə müəllimə olan rəğbətim bir andaca puç oldu. Alnımda soyuq tər puçurlandı. Lakin əhatəsində olduğum müəllimlərdən heç bir səs çıxmadı. Onlar altdan-altdan bir-birinin üzünə baxıb təəccüblə gülümsündülər. Direktor başını aşağı dikdi. Və sonra ayağa qalxıb üzünü mənə tutaraq:

- Gedək, - dedi və özü qabağa düşdü.

"Müəllimlər otağı"ndan çıxıb direktorun kabinetinə girdik. Üzbəüz oturub xeyli söhbətləşdik. Müdriklərdən biri demişkən, danış, səni görüm. Yəqin ki, direktor verdiyi bəzi suallarla bilmək istəyirdi ki, bu cavan müəllim nə yuvanın quşudur və bilim görüm qabında nə var. Biz bir-birimizi uzaqdan-uzağa tanıyırdıq. Müəllimlərin rayon müşavirələrində də onu çox görmüşdüm. Həmişə qabaqcıl məktəb direktoru, sayılıb-seçilən ziyalı kimi rayonun başçıları ilə birlikdə iş heyətində əyləşirdi. Lakin şəxsi tanışlığımız yox idi. İndi isə qabaq-qənşər oturmuşduq. Söhbət əsnasında direktor qalın qaşlarını aşağı salıb, üzümə baxmadan:

- Bayaq Şəkərli müəllim bir az yersiz danışdı. Əlbəttə, birdən-birə o cür sözlərin yeri deyildi. Mən özüm də pərt oldum. Ancaq belə şeylərə əhəmiyyət vermək, ondan incimək lazım deyil. Bəlkə də başqa mənada yox, elə sizi istədiyindən o cür danışdı. Yəqin fikirləşib ki, vaxtı ilə müəlliminiz olub, sizə dərs deyib. İndi bu işin öhdəsindən gələ bilməsəniz deyərlər ki, Şəkərli müəllimin dərs verdiyi adam bundan artıq olmaz. Şə-

kərli müəllim də bundan xəcalət çəkə bilər. Bir də ki, insanı bilmək olmur. Düşünər ki, dünən dərs dediyim bu gün mənə ağalıq eləyib, göstəriş verəcək?! - Direktor bu sözü yarızarafat dedi və gülümsündü: - Bir də ki, Şəkərli müəllimi də qınamıram. - Direktorun baxışları rəsmi ifadə aldı və sözünə davam etdi:

- Tək bizim məktəbdə yox, rayonda, respublikada da bir çox müəllimlər var ki, iyirmi-otuz il bundan qabaq institut bitirib, cibinə ali təhsil diplomu qoyandan sonra sanki elmlərin zirvəsini fəth edib və belə bir təfəkkürlə də yaşayırlar. Gündəlik qəzet-jurnalları oxumurlar, mütaliə etmirlər, köhnə baqajla işləyirlər. Yalnız tədris etdikləri kitabları əzbərləməklə kifayətlənirlər. Və beləliklə də, getdikcə həyatın paslanmış dəmirinə çevrilirlər. Ona görə də bəzən yersiz hərəkətlər edir, danışıqlarını bilmirlər. Sonra da təbii olaraq nəinki öz kollektivi arasında, cəmiyyətdə belə nüfuzdan düşürlər. Mən heç də təkcə Şəkərli müəllimi nəzərdə tutmuram. Bunu ümumiyyətlə deyirəm. Ona görə də Şəkərli müəllimin sözlərindən inciməyə dəyməz. Bir də ki, məsəl var, deyərlər, ağıllı adamlar özlərini valideynlərinə, müəllimlərinə, dəlilərə, uşaqlara, onun taleyini həll edə biləcək adamlara, bir də ki, pullulara qarşı qoymamalıdılar.

Direktor bunları deyib sükuta daldı. Və sonra sözünə davam edərək:

- Şəkərli müəllimin dediyində bir həqiqət də var ki, yerinə gəldiyiniz Səfər müəllim çox hazırlıqlı yoldaş idi, - dedi - Öz fənnini dərindən bilirdi, bir tarixçi kimi rayonda ona çatan olmazdı. Təşkilatçılığı, tələbkarlığı

da öz yerində. Demək olar ki, məktəbin əsas ağırlığı onun boynunda idi. Səfər müəllimin vaxtında özümü çox arxayın hiss edirdim. Tədris işlərinin təşkilindən yaxşı baş çıxarırdı. Ancaq axırdan-axıra ağılsız iş gördü. Müharibə dövründə kənddə dul bir qadına ilişdi. Sonra onunla evləndi. Əslində Səfər müəllim qadını sevmirdi, var-dövlətinə aldanmışdı. Müharibənin törətdiyi maddi çətinliklər Səfər müəllimi belə bir yanlış yol tutmağa vadar eləmişdi. Bilirsiniz, ailənin ən etibarlı təməli qarşılıqlı məhəbbətdir. Tamah-təmənna üzərində qurulan ailə çürük bünövrə üzərində ucaldılan çoxmərtəbəli bina kimidir. Tezi-geci dağılmalıdır. Belə də oldu. Müharibə qurtarandan sonra Səfər müəllim qadından yaxa qurtarmaq üçün cürbəcür yollar axtardı. Arvad isə çənbər olub keçmişdi yaxasına, ondan əl çəkmirdi. Axırı faciə ilə qurtardı. Bir gecə Səfər müəllim onu qətlə yetirdi… Sonra elədiklərinə peşman olmuşdu. Çox çalışdı boynuna almasın, istintaq zamanı ifadə verdi ki, qadın özü özünə qəsd edib və mənim bu işdən xəbərim yoxdur.

Direktor bu sözləri deyəndə tutuldu. Otağa ağır sükut çökdü və o, təəssüflə:

- Nahaq qan yerdə qalmaz, - dedi. - İşin üstü açıldı. Ötən yaz Səfər müəllim on ilə yaxın iş aldı. Elə o gedəndi getdi. Bu, məktəb üçün itkidən betər, rüsvayçılıq oldu. Əsli Şuşadan idi, necə olmuşdusa ali məktəbi qurtaranda təyinatı bura düşmüşdü. Müharibə dövrü də elə idi ki, bir çox mənada adamlar kəndə qaçırdı. Bunları dedim ki, bəzi şeylərdən məlumatın olsun.

Direktorla söhbətimiz xeyli çəkdi. O, nəyi isə deməkdən çəkinirmiş kimi gülümsündü və:

- Bir də ki, sizdən gizlətmək istəmirəm, düzünü deyim ki, bura gələcəyinizdən xəbərim var idi. Maarif şöbə müdiri bu barədə mənə demişdi. Əvvəl razı olmadım. Dedim əvvəla onu yaxşı tanımıram. İkincisi də, çox cavandı. Dərs hissə müdiri elə öz kollektivimizdən olsa yaxşıdır. Özüm namizəd də verdim. Maarif şöbə müdiri razılaşmadı. Sizin üzərinizdə dayandı. Dedi ki, göndərirəm, məsuliyyəti də mənim boynuma. İşləyib bələd olandan sonra siz özünüz də razı qalacaqsınız. İntizamlı yoldaşdır. Yaxşı da əl qabiliyyəti var, şərait yaradın, kömək edin, işləsin. Peşman olmazsınız.

Direktor başını yana əyib qaşlarını dartdı:

- Maarifin başında o durur, əmri verən də odur. Müdir məsləhət görəndən sonra mən nə deyə bilərdim. Bir də ki, axı etiraz etməyə elə bir əsasım da yoxdu. İndi gəlmisiniz, xoş gəlmisiniz. Əl-ələ verib işləyərik. Gedək iş otağınızı da göstərim. - Direktor bu sözü deyib ayağa qalxdı…

Direktorun kabineti ilə üzbəüz olan tədris hissə müdirinin otağına keçdik. Direktor kabinetin səliqə-sahmanına nəzər salıb:

- Geniş, rahat otaqdır, - dedi. - Bircə orası var ki, yeri qüzeydir, gün düşmür. Qışda bir az soyuq, yayda isə sərin olur.

Otaqda çox dayanmadıq, koridora çıxdıq. Artıq ikinci növbədə dərslər qurtarmışdı, şagirdlər çəkilib

getmişdi. Müəllimlər otağında da heç kəs yox idi. Orda-burda əlində vedrə və süpürgə olan xadimələr gözə dəyirdi. Əyin-başlarından, sir-sifətlərindən kasıbçılıq yağan bu qadınlar məktəbi silib-süpürməyə hazırlaşırdılar. Direktorla söhbət edə-edə ümumi qapıdan bayıra çıxdıq. Günəş yaxınlıqdakı dağların arxasına çəkilirdi. Məktəb divarlarının, həyət-bacadakı ağacların kölgəsi getdikcə uzanırdı. Mən səhər yeməyimin üstündə idim. Dilimin altından bir qurtum su da keçməmişdi. Acından başım gicəllənirdi. Hərdənbir "Kazbek" papirosu çıxarıb, tüstüsünü sinəmə çəkirdim. Direktor gözaltı mənə nəzər yetirib:

- Bayaqdan fikir verirəm, - dedi, - çox papiros çəkirsiniz. Ancaq nahaq yerə. Yaşca sizdən böyüyəm, xatirinizə dəyməsə deyərdim ki, bir şey ki, cana da ziyan ola, cibə də, ona aludəçilik etmək ağılsızlıqdır. Hələ mən onun orqanizmdə nə kimi fəsadlara səbəb olduğunu demirəm. Gərək ki, Semaşkonun sözüdür: "Papiros çəkənlər təkcə özlərini deyil, ətrafındakıları da zəhərləyirlər". Əlbəttə, sizə ağıl vermək fikrində deyiləm. Bir var iradə, bir də nəfs. İradəsi nəfsdən zəif olan şəxsin papirosu tərgitməsi çətindir. Bir də ki, bu şəxsi məsələdir. Başqası ona müdaxilə edə bilməz. Mən bunu məsləhət kimi deyirəm. Yəqin ki, bizim bu söhbətimizdən sonra papiros barədə fikirləşərsiniz. Onu da nəzərə almaq lazımdır ki, əksər hallarda şagird müəllimini təqlid edir. Sizin papiros çəkməyiniz şagirdlər üçün heç də yaxşı nümunə deyil.

- Fikrinizə şərikəm, - direktorun sözünə haqq ver-

dim. - Papirosun ziyanlı olduğunu mən özüm də yaxşı başa düşürəm. Bilirsiniz, müxtəlif kəndlər, yad mənzillərdə keçən tənha həyat… Sizə məlum olan və olmayan çətinliklər, sıxıntılar… Bütün bunlar məni papiros çəkməyə vadar eləyib. Onu çəkəndə elə bil nə isə əsəblərim sakitləşir, bir təsəlli tapıram. Lakin siz deyən kimi əziyyətini də çəkirəm. Xeyrindən çox zərəri var. Bir neçə dəfə tullamışam. Lakin sonradan yenə də çəkmişəm. Bu dəfə gərək biryolluq tərgidəm. Özü də elə bu yaxınlarda.

Alçaq boyu, cantaraq bədəni, ətli sifəti, iri gözləri, təzə dən düşmüş gur saçları olan məktəb direktoru birdən ayaq saxlayıb soruşdu:

- Yəqin rayondan bura birbaşa gəlmisiniz?!

- Bəli, - cavab verdim.

- Yolda çörək-zad yeməmisiniz?

- Xeyr.

Direktor başını buladı və dilxor oldu. O, qolumdan yapışaraq:

- Gedək bizə, - dedi. - Bu gün başım elə qarışıb ki, mən özüm də günorta evə getməmişəm. Axşam çörəyini elə bir yerdə yeyərik.

Belə bir təklifi, mənə dərs deyən Şəkərli müəllimdən, bayaq burada rastlaşdığım və vaxtı ilə oturub-durduğum, ünsiyyətdə olduğum institut yoldaşlarımdan gözləyirdim. Ancaq onların biri də görünmürdü. Oturub-durmadığım, dostluq-yoldaşlıq etmədiyim və ilk dəfə burada görüşüb tanış olduğum şəxsin evinə getmək, onun qonağı olmaq mənə çətin gəlirdi. Ona

görə də direktor, - bizə gedək, bir yerdə çörək kəsək, - deyəndə xarakterimə xas olan bir sıxıntı keçirdim, məni tər basdı. Və direktora təşəkkürümü bildirib: - Sağ olun, - deyib, dil-ağız etdim. Direktor ciddiləşdi. Hiss etdim ki, onun sözü qətidir. Və bu təklifdən qaça bilmirəm. Direktor utancaq olduğumu hiss edib baxışlarına məhrəm ifadə verdi və zarafatyana:

- Deməli, bizə getməkdən imtina edirsən, - dedi. - Yəqin qorxursan ki, sabah evlənib, ev-eşik sahibi olanda mən də sizə gələrəm. - O bu sözü deyib gülümsündü və əlini çiynimə qoyub silkələdi.

Müsahibimin ürəkdən gələn təklifini daha yerə salmadım, getdim.

Direktorun heç də bər-bəzəkli olmayan, lakin təmiz və səliqəli mənzili ilk baxışdan mənə xoş təsir bağışladı. Üçüncü və beşinci sinifdə oxuyan qızları bizi görəndə, onların ismətli sifətinə xəfif qızartı çökdü. Və başlarını aşağı salıb tez yan otağa keçdilər. Həyat yoldaşı bizi müsəlman qadınlarına xas olan nəzakətlə qarşılayıb, - xoş gəlmisiniz, - dedi. Onun davranışında ərinin tutduğu vəzifənin, malik olduğu üstün imkanların təsiri əsla hiss olunmurdu. Deyərdim ki, bu kiçik ailənin qarşılıqlı ər-arvad, valideyn-övlad ehtiramı sanki evin cansız əşyalarına da sirayət etmişdi. Ailə üzvləri həssas, ədəbli baxışları ilə danışıb bir-birlərini başa düşürdülər. Burada çörək kəsdiyim, çay içdiyim, şirin söhbət etdiyim bir neçə saat ərzində nə qadının, nə də ki, qızların yersiz bir hərəkətini sezmədim. Qərb sivilizasiyasının müasirlik sayılan eybəcərliklərindən çox-

çox uzaq olan bu ailənin müqəddəs islami qayda-qanunları məndə qibtə doğurdu. Qonağı olduğum müəllim ailəsində yaranan ibrətamiz qaydalar, sözsüz ki, buradakı təhsil ocağında təlim-tərbiyə alan gənc oğlanlar, qızlar üçün bir örnək idi. Və bütün bunlar diqqətimdən yayınmırdı.

Axşam düşürdü, artıq getmək vaxtı idi. Ev sahiblərinə razılığımı bildirib ayağa qalxdım. Direktorla xudahafizləşəndə əlimi buraxmadan soruşdu:

- Buralarda qalmağa münasib bir yeriniz var?

Mən dillənmədim. O, vəziyyəti başa düşüb sidqürəkdən:

- Məsələ aydındır, - dedi, - bəlkə bizdə qalasınız?

"Yox" demək mənasında başımı buladım. - Siz narahat olmayın, özüm bir şey fikirləşərəm, - əlavə etdim.

Direktor qaşlarını çatıb nə isə fikirləşdi və sonra:

- Onda gedək, - dedi və məktəbə tərəf yönələrək:

- Burada mənzil məsələsi bir az çətindir, - dedi. - Müəllimlər üçün tikilən evlər artıq tutulub, boş otaq qalmayıb. Kənddən də az-çox məlumatım var. Kirayə ev yoxdur, olsa da sizə əl verməz. Çünki məktəbdən aralıdır. Hər gün gedib-gəlmək çətindir. Mən başqa şey fikirləşmişəm. Məktəbdə boş bir otaq var, qapısı da binanın bayırına açılır. İstifadə eləmirik. İki çarpayı, şkaf, stol, stul yerləşər. Xudmani də balkonu… Xadimələrdən biri də sizə xidmət eləyər… Ona da düşəndə beş-on qəpik-quruş verərsən, narazı qalmaz.

Direktorun dediklərinə etiraz etmədim. O, tez tə-

sərrüfat müdirini çağırıb bu barədə göstəriş verdi. Sarışın sifəti, sallaq bığı, ifadəsiz baxışları olan Abasqulu kişi direktorun qarşısında müti görkəm alıb, deyilənlərə dərhal əməl etməyə başladı. İnternatın anbarından dəmir çarpayı, təzə yorğan-döşək, stol-stul, su qabı, neft lampası… gətirildi.

- Özünüzünkü gələnəcən hələlik məktəbinkindən istifadə edin. Nə çətinlik olsa, mənə deyərsiniz. Burada utanıb-çəkinməli bir şey yoxdur. İndi məni bağışlayın, getməliyəm evə. Bəzi işlərim var, yəqin ki, məni gözləyirlər. Gecəniz xeyrə qalsın. Sabah görüşənə qədər, - direktor bunları deyib xudahafizləşdi.

Tanışlıq məqsədi ilə məktəbin həyət-bacasını xeyli gəzib dolaşdım. Uzaq yol gəldiyimdən özümü yorğun hiss edirdim. Cəmi yeddi pilləkəni olan kiçik balkona qalxıb təzə mənzilimə daxil oldum. Və dincimi almaq üçün dəmir çarpayıma uzandım. Yuxu məni necə tutdusa, özüm də bilmədim. Bir vaxt ayıldım ki, gecədən xeyli keçib. Kibrit tapıb lampanı yandırdım. Ürəyim çay istədi, lakin nə samovar vardı, nə çaydan, nə də ki, isti ocaq. Üzərinə solğun və nəm süfrə salınmış yemək stolunun üstündə su dolu qrafin qoyulmuşdu. Bir stəkan süzüb içdim, ancaq çayın yerini vermədi. Təmiz hava almaq, həm də sərinləmək üçün birpəncərəli otağımdan balkona çıxdım. Ətraf qatı qaranlığa qərq olmuşdu. Məktəbin həyət-bacası, sinif otaqları sanki dəcəl uşaqların səs-küyündən, şıltaqlığından təngə gəlib yorğun düşmüşdü. Və indi gecənin qara örtüyünə bürünüb sakitcə yuxuya dalmışdı. Balkonun məhəccərinə

dirsəklənib gözlərimi gecənin dərinliklərinə zillədim. Qulağıma cürbəcür səslər gəlirdi. Uzaqlardan, lap uzaqlardan İsaq-Musaq quşlarının səsini, bir də ki, Həkərinin qıjıltısını eşidirdim. Arabir çayın qamışlı sahillərində ağız-ağıza verən çaqqalların ulartısı, bataqlıqları eşib-şumlayan çöl donuzlarının bədheybət səsi zülmət qaranlığın vahiməsini artırırdı. Gecənin mavi tavanından asılmış saysız-hesabsız "çilçıraqlar" vəcdlə sayrışırdı. Təbiətin bu axşam mənzərəsi məni balaca balkonumda necə sehrləmişdisə, qəribçilik əzabını və yorğunluğumu unutmuşdum. Və sübhə qədər açıq havada dayanıb, yeni iş yerimin ilk gecəsində bu qaranlıqlar dünyasını seyr etmək istərdim. Elə bil hələ uşaq ikən qoca nənəmdən eşitdiyim nağıllar aləminə düşmüşdüm. Yaxınlıqdakı dərələrdən axıb gələn suların həzin zümzüməsi mənə ana laylasını xatırladırdı. Və bu doğma səslərdə bir dinclik, rahatlıq tapıb xumarlandıqca göz qapaqlarım özümdən asılı olmayaraq, hərdən yumulur və tez də səksənib, bu romantik aləmin seyrinə dalırdım. Ancaq ayaq üstdə dayandığımdan qıçlarım keyimişdi. Odur ki, qaranlıqlar dünyasından ayrılıb mənzilimə keçdim. Pəncərənin bir tayını açıb qapını arxadan bağladım. Soyunub başımı yastığa qoymaqla, yuxuya getməyim bir oldu. Gözlərimi onda açdım ki, səhərdir. Muradlıda üzümə açılan ilk səhər.

…Dərslərin başlanmasına bir saat qalmış iş yerimdə oldum. Əvvəl-əvvəl sinif otaqlarına baş çəkdim. Ayrı-ayrı fənn kabinələrini nəzərdən keçirdim… Kabinetə keçib nəzərə çarpan çatışmazlıqları özlüyümdə

götür-qoy etdim. Stolun üstündəki təqvimi vərəqləyib hansı tarixdə nə kimi işlər görəcəyim barədə bəzi qeydlər apardım…

Müəllimlər gəldikcə onlarla bir-bir görüşüb tanış olurdum. Tələbəsi olduğum Şəkərlidən, vaxtı ilə institutda bir yerdə oxuduğum köhnə həmkarlarımdan başqa bütün müəllimlərdən özümə qarşı rəğbət hiss edirdim. Lakin köhnədən tanıyıb təmasda olduqlarım mənə saymazyana yanaşıb, sərin münasibət göstərirdilər. Bəziləri də, belə bir böyük məktəbdə dərs hissə müdiri kimi məsul işin öhdəsindən gələ biləcəyimə şübhə ilə yanaşırdılar. Onların eyhamlarında bir istehza olduğunu aydınca başa düşürdüm. Lakin özümü o yerə qoymur, sadəlöhv hərəkətlərimlə hiss etdiklərimi əsla büruzə vermirdim.

Sabahısı gün müəllimlərdən deyəcəkləri dərslərin konspektlərini tələb etməyə başladım. Hərəsi bir bəhanə ilə deyəcəkləri dərsə dair konspekt tutmadıqlarına haqq qazandırmağa çalışırdı. Lakin heç kimə güzəştə getmədim. Və kimliyindən asılı olmayaraq, konspekti olmayanları dərsə buraxmadım. Onlar tələbimin haqlı olduğunu etiraf etməyə məcbur idilər. Və yersiz mübahisə, müzakirə açmadan iradlarımı qəbul edib tədris edəcəkləri dərsə yenidən hazırlaşıb konspektlərini tutmalı oldular. Bu, müəllimlər üçün mənim tərəfimdən gözlənilməz bir hərəkət idi. Və onların daxili qısqanclığı aydınca hiss olunurdu. Şəkərli müəllim birdən-birə işə bu cür yanaşmağımı mənə irad tutdu və:

- Buradakı müəllimlərin çoxunun iş stajı sizin yaşınızdan çoxdur. Cavan müəllimsiniz, - dedi, - dünən bir, bu gün iki, yoldaşlarınızla bu cür bəd rəftar etməyi sizə rəva bilmirəm. Bəlkə elə məndən də konspekt tələb edəsiniz. - O bu sözü kinayə ilə dedi və gülümsündü.

- Tələbkar və intizamlı olmağı, nəzakət qaydalarına əməl etməyi ilk müəllimim kimi sizdən öyrənmişəm, - cavab verdim. - Qarşınızda xəcalətli olmamaq üçün çalışıram dediklərinizə əməl edim və köhnə müəllimimə baş ucalığı gətirim. Qoy burdakılar mənim hərəkətlərimin timsalında bilsinlər ki, Şəkərli müəllimin zəhməti hədər getməyib. Ona görə də, bəli, müəllimlərin tədris edəcəyi dərsə hazır olub-olmadıqlarına nəzarət etmək vəzifə borcumdur.

- İndiyə qədər mənim konspekt tutub-tutmamağıma heç kim bənd olmayıb. Ancaq görürəm ki, siz ayrı cür ab-havayla işə başlamısınız. Bu sizə hörmət gətirməz…

- Gələcəkdə nə kimi hörmət və hörmətsizliklə üzləşəcəyim yox, məktəbimizdə pedaqoji nizam-intizamın yaranması barədə fikirləşirəm. Zənnimcə, mənə dərs deyən müəllimin bu barədə nümunə göstərməsi tələbəsini sevindirərdi.

Bayaqdan bəri ayaq üstə daynıb boynumun ardını kəsdirən Şəkərli müəllim daha dillənmədi. O, bir balaca qızaran kimi oldu. Və sakitcə kənardakı stolun arxasına keçib əyləşdi. Kitab-dəftərini açıb, qələmini çıxartdı və qabağına ağ dəftər qoydu… O, qoyulmuş qaydaya riayət etmək məcburiyyətində qalıb, deyəcəyi dərsin konspektini hazırlamağa başladı.

Nə qədər haqlı olsam da, dərs aldığım müəllimlə bu cür rəftar etməyim qəlbimi ağrıdırdı. Lakin bu ağrı ustadın şagirdinə olan etinasızlığından və müəllimin arxada qalmış neçə illər bundan əvvəlki təsəvvüründən uzaqlaşa bilməməsindən yaranırdı. Bu mənim üçün arzuolunmaz qarşıdurma idi. Lakin nəyinsə xatirinə tədris-tərbiyə işində güzəştə getmək, qarşısında aciz olduğum qanunlara xilaf çıxmaq mənim üçün çətindən də çətin idi. Bir də ki, kamillik məbədinin təməl daşı ilk növbədə tədris ocaqlarında cilalanır. Onun ilk və yeganə memarı müəllimləridi. Valideynlər min cür məşəqqətlə ərsəyə yetirdikləri övladlarını belə bir ümidlə ibadətgahlar qədər müqəddəs bildikləri məktəblərin ixtiyarına verirlər.

…Dərslər qurtarmışdı. Lakin mənzilimə tələsmirdim. Bir də ki, niyə tələsim, soyuq ocaq, boş bucaq. Elə kabinetim də evim kimi idi. Ona görə sakitcə oturub sabah görüləcək işlərim barədə düşünür, hey yazıb pozurdum. Bu heyndə qapı açıldı, direktor içəri daxil oldu, ancaq oturmadı. Pəncərənin qabağında dayanıb hara isə baxır, nə isə fikirləşirdi. Birdən üzünü mənə tutaraq:

- Yaxşı başlamısan, - dedi, - ancaq çox da dərinə getmək lazım deyil. Cavan oğlansan, sonra dilə-dişə salarlar. Burada bir-iki nəfər var, - əlavə etdi, - mən özüm də onlarla ehtiyatla davranıram. Biri elə Şəkərli müəllim. Köhnə stajına arxayın olub heç kəsi saya salmaq istəmir. Yanıma gəlmişdi. Bir az alt-üst danışdı. Düzdü, onu başa saldım. Zarafatyana dedim ki, ondan yox, özünüzdən inciyin. Çünki ilk dərsini sizdən alıb.

Şəkərlinin danışığından gördüm ki, sizdən gözü su içmir. O biriləri də özlərini bərk yığışdırıb. Mən bir az qəlbi yumşaq adamam. Çox şeyə bənd olmuram. Onlar da bundan sui-istifadə edir. Elə günahın çoxu özümdədir, bunları əvvəldən pis öyrətmişəm. Siz də ki, birdən-birə qanunun qulpundan yapışıb tələbkarlıq göstərəndə dözmürlər. Əslində siz düz hərəkət edirsiniz. Ancaq elə edin, üzünüzə ağ olmasınlar. İstəmirəm məktəbdə söz-söhbət yaransın. Birtəhər yola verirəm. Məndən qabaq burada canlara dəyən bir direktor işləyib. Aşağı Xocik kəndindən idi. Deyərdim ki, ali məktəblərin özündə belə o savadda, o hazırlıqda ədəbiyyat müəllimi az olar. Əksər şairlərin şerlərini əzbərdən deyirdi. Burada ona qurğu qurub başını yedilər…Biri elə o Şəkərli müəllim. Kişinin üzünə at kimi dirəndi. Heç nədən üç il iş kəsdilər. Nədi-nədi, illik yoxlamada internatda inventar çatışmazlığı olub. Onu yoğurub yıxdılar direktorun üstünə. Ona görə də işini həmişə ehtiyatlı tut. Çox da xırdaçılığa getmə. Sonra müəllimləri üstünə qaldıra bilərsən. Odur ki, bir tərəfini boş burax getsin.

Direktorun dediklərini diqqətlə dinləyirdim. Onun tövsiyələri məni təslimçiliyə, biganəliyə təhrik etməkdən başqa bir şey deyildi. Ona görə də vəzifə və yaşca məndən böyük olan şəxsin bu cür dəlil-dəlalətini heç vəchlə özümə sığışdıra bilməzdim. - Bu da təzə-təzə özünü göstərmək istədi, ancaq gördü ki, o girən kol deyil, gerilədi. Və tez də ipi əlindən verdi, - kimi istehzalı sözlərə məruz qalmaq, qınaq yeri olmaq istəmirdim. Odur ki, direktorun sözlərinə haqq vermək fik-

rindən yayındım, lakin ona açıq-saçıq etirazımı da bildirmədim. Bu barədə susmağı üstün tutdum və onun dediklərini cavabsız qoydum.

Həyət tərəfdən qaça-qaça gələn balaca qız koridordan keçib söhbət etdiyimiz otağın qapısını ehmalca açdı və içəri daxil olmadan tövşüyə-tövşüyə:

- Ata, evdə qonaq var, anam çağırır. - Bunu deyib qızardı, başını aşağı salıb tez də qayıdıb getdi.

Direktor:

- Məni bağışlayın, gedim görüm gələn kimdi? Yəqin vacib bir işi var. Siz də dərslər qurtarıb, gedin istirahət edin. Sabah görüşənə qədər, - deyib xoş əhvalruhiyyə ilə məndən ayrıldı.

Stulumdan tərpənmədən işimə davam etdim. Qaranlıq çökəndə təsərrüfat müdirini çağırtdırıb lampaya neft tökdürdüm. Gecə yarıdan keçənə qədər dərs cədvəlinin, divar qəzetlərinin əyri-üyrü, yöndəmsiz başlıqlarını sulu boyalarla, rəngli karandaşlarla yenidən işləyib səliqəyə saldım. Tarixi şəxsiyyətlərin məktəb, müəllim, elm, təhsil barədə dediyi ibrətamiz sözlərini seçib, koridorun divarlarına, sinif otaqlarına vurmaq üçün iri hərflərlə qalın kağızlara köçürdüm.

Sonrakı günlər dönə-dönə şerlərini oxuyub əzbərlədiyim Nizaminin, Füzulinin, Vaqifin, Səməd Vurğunun, Şota Rustavelinin kitabdakı kiçik şəkillərini kətan parça və kağız üzərində böyütdüm. Əl işlərim məktəbi bəzədikcə, müəllim və şagirdlərdə özümə qarşı yeni rəğbət hiss edirdim. Şəkərli müəllimin köhnə tələbəsinə olan münasibəti də məktəbin daxili səliqə-sah-

manı kimi tamam dəyişmişdi. İndi o, deyəcəyi dərslərin konspektini hamıdan əvvəl stolumun üstünə qoyub ehtiramla, - buyurun, nəzərdən keçirin, - deyirdi. Hər gün iki-üç nəfər müəllimin dərsində iştirak edirdim. Sonra ikilikdə, bəzən də məktəbin pedaqoji sovetində onlara razılığımı və ya iradlarımı bildirirdim. Öz fənnini şagirdlərə vicdanla tədris edən müəllimlərin fəaliyyəti kollektivdə xüsusi qeyd olunurdu. Beləliklə, ağ qaradan seçilirdi. Kimin necə işlədiyi üzə çıxırdı. Ona görə də müəllimlər öz pedaqoji fəaliyyətlərinə canı-dildən yanaşmaq məcburiyyətində qalırdılar. Bütün bunlara haray-qışqırıq salmaq, onu-bunu acılamaq, hədə-qorxu gəlmək yolu ilə yox, gecəni gündüzə qatıb gənclik ehtirası ilə çalışmağım, pedaqoji üsulları dərindən öyrənib tətbiq etməyim, qarşımdakılardan əvvəl özümün özümə qarşı amansız tələbkarlığım sayəsində nail ola bilirdim. İlk günlər müşahidə etdiyim və direktorun mənə incə bir eyhamla çatdırdığı dedi-qodu buzları getdikcə əriyib yox olur, məktəbimizdə xoş ab-hava, işgüzar mühit yaranırdı.

* * *

Direktor Bakıya bir aylıq kursa getməli oldu. Onsuz da ilk çətinliklər arxada qalmışdı. İşlər öz axarına düşmüşdü. Sərt xasiyyəti olan təsərrüfat müdiri səhərdən axşamacan məktəb darvazasının ağzından keçən magistral yolun kənarında qoyduğu tərəzinin yanında çöməltmə oturub, internatın bağ-bağatından yığdığı meyvəni xırıd eləyirdi. Abasqulunun qorxusundan

bağ-bostanın yan-yörəsinə bir adam üzükə bilməzdi. Ancaq meyvəni kənar adamlara nisbətən, müəllim və tələbələrə üçqat ucuz satırdı. Hətta əli aşağı olanlara meyvəni pulsuz verirdi. Verdiyini də qramınacan tərəzidə çəkirdi. Sonra da xüsusi haqq-hesab dəftərinə yazırdı. Məktəbin malında da gözü olmazdı. Müəllimli-şagirdli hamı bilirdi ki, Abasqulu əli düz, gözü-könlü tox adamdı. Oturub-durub deyirdi ki, internatın bütün xərcini hökumətin üstünə yıxmaq olmaz. Ona görə də məktəbin bağından, bostanından çıxan mağduru qramınacan satıb, gəlirini internata sərf eləyirdi. Onun canı-ciyəri təbiət fənnindən dərs deyən Hüseyn müəllim idi. Hamı Hüseyn müəllimə Miçurin deyirdi. Ona görə ki, onun boş vaxtları demək olar ki, məktəbin bağ-bostanında keçirdi. Əlində də bel, bağ qayçısı, iti bıçaq. Əksər hallarda şagirdlərinə təbiət dərsini əyani olaraq elə bağda keçirdi. Hüseyn müəllimin vurduğu calaqların biri də yayınmazdı. Və qeyri-adi meyvələr gətirirdi. Yan-yörədən ötüb keçənlər məktəbin bağına həsəd aparırdı. Hamısı da Hüseyn müəllimin aqronomluğu hesabına idi. Ona görə də Abasqulununku Hüseyn müəllimlə tuturdu. Onun məsləhəti olmadan torpağa bel vurmazdı. Bilirdi ki, Hüseyn müəllim əlini çəksə, bağda bağlıq qalmaz. Abasqulunun xasiyyətində qəribəliklər vardı. Gündəgünaşırı məndən xəbərsiz mənzilimin qapısını açıb stolumun üstünə çox yox, üç-dörd ətirli alma, armud, şaftalı, bir dəstə də gül-çiçək qoyurdu. Qapını açanda bilirdim ki, Abasqulunun işidi. Ancaq Abasqulu heç

vaxt deməzdi ki, otağına meyvə və ya gül-çiçək qoymuşam. İçəri girən kimi rəngbərəng gül-çiçəyin, meyvələrin ətri məni vururdu. Və o dəqiqə də Abasqulu kişi yadıma düşürdü. Bu barədə ona, "payınız artıq olsun", deyib razılığımı bildirəndə Abasqulu özünü o yerə qoymazdı. Sanki onun heç nədən xəbəri yoxdu. Anadangəlmə xasiyyəti belə idi. Abasqulu verdiyini, elədiyini dilə gətirməzdi. Onun kürən sifəti, ifadəsiz baxışları daim təmkinli və qayğılı görünürdü. Qabaq-qənşər gələndə də sarışın qaşları ütülmüş kimi görünən kirpiklərinin üstünə sallanır və başının hərəkəti ilə salam verib keçirdi. Heç kimə də yovuşan deyildi. Onun söz-söhbəti bircə məktəbin "Miçurini" Hüseyn müəllimlə tuturdu. Böyük Vətən müharibəsində çənəsinin bir tərəfini top qəlpəsi aparan Hüseyn müəllim sadədən sadə bir insan idi. Geyim-keçiminə o qədər fikir verən deyildi. Təbiət, kimya elminin də anası idi. Həm də kamil riyaziyyatçı idi. O, hörmət-izzətini geyim-keçimində, iddialı davranışında, ibarəli söz-söhbətlərində yox, şagirdlərə öyrətdiyi elmin dərinliklərində axtarırdı. Bilik verib yetişdirdiyi balaca miçurinçiləri ilə də fəxr edirdi. Və bu yolda da məktəbdə hamıdan ucada dayanırdı. Müəllim ucalığında. Abasqulu kişi də təsərrüfat müdiri olmasına baxmayaraq, işini bilən adamdı. Bilirdi ki, kimdən yapışmaq lazımdır. Onların söz-söhbətlərinin başı da, ayağı da torpaqdan, bağ-bağatdan olardı.

* * *

Direktor Bakıya gedəndən bəri işim başdan aşırdı. Məktəbin təsərrüfat qayğıları da mənim boynumdaydı. Qış yaxınlaşdıqca günlər gödəlir, havalar soyuyurdu. Məktəbə odun-ocaq tədarük olunmalı idi. Direktor kursdan qayıdana qədər meşə idarəsinə pul köçürüb icazə kağızı alınmalı idi. Sonra da gərək kolxoz idarəsinin qabağını kəsdirib meşədən odun gətirmək üçün maşın istəyəsən. O da verələr, ya verməyələr. İndi də gəl sədrlə partkomun ayağına düş, ilan dili çıxart ki, yumşalıb insafa gəlsinlər. Bir tərəfə baxanda onları da qınamalı deyil. Kolxozun yönlü bir maşını var ki?! Hamısı sınıq-salxaq. Birinin təkəri yox, birinin motoru yağ yeyir, birinin də tormozu tutmur… Cəmi bircə təzə "ZİS" maşın var, onu da sədr kabinəsinin şüşəsinə ağ pərdə çəkdirib özü minirdi. Təzə "ZİS"-i də istəyəndə elə bil sədrin dədəsinə söyürdün. Xasiyyəti də eləydi ki, ona işin düşdü, gərək saatının xoş vaxtı, boş damarın tutub yağlı dilini işə salasan. Yalvarasan ki, başqa maşınlar meşə yolunda çətin işləyir. O təzə "ZİS"-i ikicə günlüyə ver, məktəbə odun daşıyaq. Qış uzunu müəllim-şagird ömrünə duaçı olar, bütün dünyadan gedənlərinə rəhmət oxuyar… Sədrlə gərək bu cür yumşaq danışasan. Bədəbədə qalsa, dədəsi qəbirdən dirilib gəlsə də, boyun olan deyil. - Yox! - deyib duracaq. Rayonun böyükləri də ki, onun əlindədir. Rəsmiyyətə də saldın, batdın. Hamı sədrin sözünü deyəcək. Ondan sonra "ZİS" yerinə qulağının dalını görərsən. İndi get görüm meşədən necə odun gətirirsən?! Rayonda atlanan da sədrin qapısında düşür. Vəzifə də onundur,

hökmranlıq da. Direktorun, müəllimin ağzına qurud verən kimdir?!

Min nəfərə yaxın müəllim və şagirdi olan məktəbin iyirmi iki yaşlı dərs hissə müdirini dərd götürmüşdü. Ancaq yüz fikir bir borcu ödəmir. - Gedim kəndə, sədr harada olsa, axşamçağı idarəyə qayıdır, - öz-özümə düşünürdüm. - Onunla görüşüb üzbəüz söhbət eləyərəm, bəlkə dil tapdıq. Əvvəlcə boş damarından tutub, ağzını arayaram. Ondan sonra öz işimi bilərəm. Ancaq nəyin hesabına olur-olsun məktəbi odunsuz qoymaq olmaz. Qışda uşaqlar soyuqdan donar.

Çox götür-qoydan sonra ayağa qalxdım. Mənzilimin qapısını bağlayıb həyətə endim. Günəşin batmasına az qalırdı. Hava tutulmuşdu. Kəndi əhatə edən dağların zirvəsini qara buludlar almışdı. Məktəbin həyətindən çıxıb cəmi bir dəyirmanlıq suyu olan Muradlı çayının sahilindəki yastı təpənin üstünə çıxdım. Meşələrlə örtülmüş Başarat dağlarından axıb gələn çay kəndlə məktəb şəhərciyinin arasından keçir. Elə ki, daşdı, üzünü görmə. O tay, bu tay qovuşur. Dağların qarı əriyəndə, bir də ki, yazda-payızda, leysan yağışları başlayanda çaya səmt düşmək olmur. Mən sahilə yaxın dayanıb Muradlı çayının həzin pıçıltısını dinlədim və Həkəriyə necə qovuşduğuna xeyli baxdım. Sonra kəndə tərəf yoluma davam etdim.

Pambıq qurudulan meydançanın yanından keçəndə üstü küləş, şax-şəvəllə örtülmüş gözətçi komasından xırıltılı öskürək səsi gəldi. Gözətçi hənirtimi alıb əlində dəmir yaba, yuxulu gözlərini ova-ova günəşin istisin-

dən və yağışdan qorunmaq üçün daldalandığı yöndəmsiz komasından çıxıb mənə tərəf irəlilədi. Onunla salamlaşdıq. Gözətçi axsayırdı. Onun çalın-çarpaz qırışlar düşmüş solğun sifətində qaysaqlanmış yaralar vardı. Nurdan düşmüş gözlərinin altı göyərmişdi. Kimdənsə, nədənsə giley-güzar etmək istəyirmiş kimi mənə nisgilli nəzər saldı. Bir-birimizi ilk dəfə görsək də, hiss etdim ki, sözlü adama oxşayır. O, xəstəlikdən duran adam kimi bir-iki dəfə dərindən öskürdü. Damarları çıxmış əlini cibinə salıb saralmış qəzet kağızı, ovulmuş tənbəki çıxartdı. Dili ilə yalayıb yapışdırdığı və birtəhər bükdüyü papirosu çaxmaxqabla yandırdı. Və qara tənbəkinin acı tüstüsünü sinəsinə çəkib zəndlə mənə baxıb ehtiyatla soruşdu:

- Buraların adamına oxşamırsan, oğul, bu dar vaxtı hara belə, xeyir ola?!

- Burda müəllim işləyirəm, təzə gəlmişəm. Kəndə tərəf gedirəm, sədrlə bir balaca söhbətim var, - cavab verdim.

Gözətçi nə demək istəyirdisə, onu öskürək tutdu. Yetmişə yaxın yaşı olan çəlimsiz gözətçi ha çalışdı sözünü desin, öskürək aman vermədi. Gözətçinin qızarmış gözlərindən yaş süzüldü. Və sifəti pörtdü. Təzəcə bükdüyü papirosu yerə çırpdı. O hirslənib, burnu əyilmiş köhnə çarığı ilə papirosu, qoru sönüb tüstüsü kəsiləncən ayağının altında tapdalayıb əzdi. Və sonra sakitləşib bir balaca özünə gəldi. Nəfəsini çiynindən ala-ala:

- Müəllim, nahaq yerə gedib özünü əziyyətə salma, - dedi. - Sədrin başını elə qatıblar ki, neçə gündür ev üzü

görmür. Onu indilərdə çətin taparsan. Baş qatanın Allah başını qatsın! Durduğumuz yerdə görünməmiş işə düşmüşük. Pambığın bu pis vaxtı ilişib qalıb rayonda. Milis, prokuror buraxmır. Deyilənə görə, Bakıdan da tökülüb gəliblər. Məsələ çox yoğunlayıb.

Qoca gözətçi yoxuş çıxırmış kimi təngnəfəs oldu. Və bu sözləri deyib susdu.

Məni təəccüb götürdü və soruşdum:

- Bağışlayın, əmi, nolub, nə hadisə baş verib? Sədri nəyə görə rayona çəkiblər? !

- Tay bundan artıq nə olacaq, müəllim! Qaradan artıq nə rəng?! Vallah, oğul, bu hökumətin hoqqalarından baş açа bilmirəm. Yəni xoruz olmasa, səhər açılmır? Bilmirəm bu yarış oyunu nədi atıblar ortalığa. Qarayola, qarasaata bu yay özbəklər gəlib, bir-iki rayonun pambığını gəzib dolanıb. Yaxşı-yaxşı da yeyib-içib kefə baxandan sonra qayıdıb yığışıblar Bakıya. Bizim bu qonşuluqdakı Çadırlı kolxozunda Zərqələmdi, Zəridədi adı, batmışın adı da yaxşı yadımda dəyil, onu da irəlidə gedən manqa başçısı kimi çağırmışdılar. Orda bəhsəbəhs düşüb, hərə bir avaz oxuyub. Bizimkilər hektardan altmışa söz veriblər. Özbəklərdən də biri durub deyib ki, yoox, altmış azdı, hektardan yetmişə söz veririk. Özbəklər bizimkiləri üstələyəndə, hökumətimizin başçıları pərt olublar ki, niyə onlar yuxarı qalxdılar. Özbəklərin sözü başda oturanların dınqırına dəyib. Bu heyndə həmin o Zərqələmdi, Zəridədi, nədi, canı yanmış hərlənib çıxıb tribuna. Hamının qabağında döşünə döyüb ki, mənim manqam bu il tərəziyə hektardan azı

səksən sentner pambıq qoymağı boynuna götürür. Bu sözdən sonra Özbəkistandan gələnlər qalırlar qırıla-qırıla. Orda oturan başçılarımızın rəngi-rufu gəlir üstünə. Bərkdən əl çalırlar. Çadırlı kolxozunun da adı qalxır göylərə. O Zərqələmdi, Zəridədi, nə bilim nədi, onun da kürəyinə vurub, - sağ ol! - deyirlər. Elə bil ölmüşdük, bizi yerdən götürüb, qaldırdın qoydun göyün yeddinci qatına! Üzün ağ olsun! Tay ondan sonra "Çadırlı" kolxozunun tərifi dillərə düşdü. Özün yaxşı bilirsən, dayna. Qəzetlər, radiolar da ki, bir himə bənddilər. Gecə-gündüz "Çadırlı"dan o ki var yazdılar, danışdılar, yazdılar, danışdılar! Guya ki, pambığı bilməkdə dünyada Zərqələm kimisi yoxmuş. Hansı qəzeti də açırsan, onun iri-iri şəkilləri. Mən qəzet-zad oxuyan dəyiləm, papiros bükmək üçün hərdənbir ondan-bundan alıram. Əşşi, adamı nə qədər tərifləyərlər!! Vallah-billah, çox adamın evini yıxan elə o yalan tərifdir. Necə ki, gözümün qabağında yıxdı! Müəllim, nə başını ağrıdım, həftə ötdü, ay dolandı, elə ki, haqq-hesab vaxtı gəldi, həmən o "Çadırlı" kolxozu da, onun tərifli Zərqələmi, Zəridəsi də başladılar dal vəli sürməyə. Nə qədər əlləşdilər-vuruşdular ki, dediklərini göyərtsinlər, əncam olmadı. A balam, olmaz daa!!! Bir hektarın pambığını yox e, illaf da daşın, torpağın, çör-çöpün də tor-top eləyib tərəziyə qoysan, səksən sentner eləməz. "Çadırlı" kolxozunun yekə-yekə danışanları baxıb gördülər ki, yalanlarının üstü açılır, düşdülər qarın ağrısına. Bu dəfə başladılar əlləm-qəlləmliyə. Ordan-burdan oğurluqla-doğruluqla nə qədər aldılar, genə dedikləri olmadı.

Qoca gözətçi danışdıqca sanki maraqlı bir hekayəni dinləyirdim. Sədri idarədə tapa bilməyəcəyimi yəqin etdikdən sonra gözətçinin söz-söhbətindən ayrılmağa tələsmirdim. O da dərdini deyib, sinəsini boşaltmaq üçün bir fürsət axtarırmış. Onun qoca qəlbini sındırmamaq üçün yerimdən tərpənmədən dinləyirdim. Ancaq bayaqdan ayaq üstə dayandığımdan qıçım keyiyirdi. Ona görə də gözətçidən icazə almadan, yaxınlıqdakı pambıq dolu xaralların birini özümə tərəf dartıb üstündə əyləşdim. Qoca əlindəki dəmir yabanın ucunu sol qoltuğundan sağ qoltuğuna keçirib həyəcanlı danışığını davam etdirmək istəyəndə arada onun sözünü kəsdim və soruşdum:

- Yaxşı, sonrası necə oldu?

Gözətçinin baxışlarında kədərli, həm də acı istehza dolaşdı:

- Sonrası necə olacaq?! Sonrası elə əvvəlcə mən bədbəxtin başında çatdadı, - sözünə davam etdi. - Yaranandan mənimki gətirmir. Elə bil üstümə it əsniyib. O vaxt birini gözaltı eləmişdim, bu gün-sabah toyumuz olmalıydı, qəfil əsgər apardılar. Üç il davada oldum. Yaralanandan sonra qayıtdım evə. Gəldim ki, nişanlım gözləməyib, gedib başqasına. Mən də gedib-çıxmış bir qohumum vardı, onu aldım. O da gördü ki, qurşaqdan aşağı mənim dəyil, yarımcanam, gəldiyinə peşman oldu. Qalın ətimdə hələ də bir-iki qəlpə var, həkimlər çox cəhd elədi, çıxara bilmədilər. Axır sözləri də o oldu ki, qəlpələr özünə yer eləyib. Tərpətsək axırı daha pis olar. O gündən bu günə qəlpələri gəzdirirəm.

Yatıb-duranda, bir ağır işdən yapışanda ağrısı məni ərşə çəkir. Əlacım nədir, dözürəm! Arvad da nə olsun qohumumdu, səndən də utanmazlıq eləyirəm, gördü ki, yox, məndən kar çıxan deyil, baş alıb getdi. Qadına da ki, nə var, ərini basdırıb qayıdanda, təzəsini fikirləşir. Ondan sonra tüpürdüm arvad tayfasına! Dedim ölsəm də evlənmərəm. Düzdü ee, arvadsız ötüşmək çətindi. İki kötük baş-başa verməsə, tüstüsü çıxmaz. Ancaq əvvəlkilərdən gördüyümü görmüşdüm, onlardan ağzım yandığına görə tay evlənmək məsələsini biryolluq bürüb-büküb qoydum palazın altına. Dedim bir də arvad adı çəksəm, atam it olub ulasın. Müəllim, indən sonra mən arvadın nəyinə lazımam, arvad mənim nəyimə lazımdır?!…

Qoca söhbətinə fasilə verib cibini qurdaladı. Tənbəki-kağız çıxartdı və birdən nə fikirləşdisə, papiros bükməkdən vaz keçdi. Əlindəki kağızı, tənbəkini qaytarıb qoydu cibinə. Gözləri yan-yana düzülmüş pambıq tayalarına, yaxın-uzaq dağlara-təpələrə zilləndi. Və özü-özüylə danışırmış kimi mənə tərəf baxmadan:

- İndi də it kimi gətirib bağlayıblar bura, - sözünə davam etdi. - Neçə ildi qarovul çəkirəm. Burda da dincliyim yoxdu. Bir belə sitəmlərin qabağında yerimə kim olsaydı, çoxdan gəbərmişdi. Ancaq üzüm bərkdi. Allahın ucuz ölümü də məndən gen qaçır. Dava meydanında neçəsi gözümün qabağında gülləyə tuş oldu. Ancaq mən yaralanıb qayıtdım. Qayıtmasaydım min dəfə bundan yaxşı idi. Bir-iki həftə bundan qabaq, əl-

ayaq yığılandan sonra pambıq tayalarının yan-yörəsini yoxladım, daşın üstündə oturub bir papiros büküdüm. Sonra gördüm yorulmuşam, başımı yastığa atıb yatdım. Gecədən xeyli keçmiş qulağıma maşın səsi gəldi. Fikirləşdim ki, yəqin sədr-zad olar. Tez qalxdım ayağa. Maşını düz üstümə sürdülər. And olsun o gözə-görünməzə, daşın dalına keçməsəydim, təkərlərin altında qalıb çoxdan o dünyalıq olmuşdum. Ağzımı açıb, - əə, kimsən? - demək istəyirdim, boynumun dalından necə vurdularsa, huşumu itirdim. İnsafsız uşağı insafsız, baş demədilər, göz demədilər, o ki var çırpdılar. Çox qansız adamlardı. Onda ayılıb özümə gəldim ki, pambığı vur-hay maşına yığırlar. Ha çalışdım ayağa qalxıb haray salım, mümkün olmadı. Əl-qolumu kəndirlə bərk-bərk bağlamışdılar. Səsimi içimə saldım, dinmədim. Bir balaca dillənsəydim, xırsız uşağı xırsız, başımı çoxdan əzmişdilər. Ona görə də özümü ölülüyə qoyub altdan-altdan onlara fikir verirdim. Baax, həmin gecə məni bu kökə saldılar. - O, üzünün, qol-qıçının hələ sağalmamış yaralarını göstərdi və:

- Pambıq oğruları maşını o ki var, yükləyib aradan çıxdılar, - sözünə davam etdi, - nə qədər çalışdım qolqıçımı açа bilmədim. Güc verdim boğaza. Qışqırıb camaatı köməyə çağırdım. Kəndin bütün itləri səsimi alıb ağız-ağıza verib ulaşdılar. Bütün kənd ayağa qalxdı. Əvvəlcə sədrlə briqadirlər özlərini yetirdi. Əl-ayağımı açıb maa bir parç su verdilər. Birtəhər özümə gəlib vəziyyəti olduğu kimi danışdım. Ağzımdan söz qurtarmamış sədr maşına minib oğruların izinə düşdü. Bas-

qınçıların maşını dolu, sədrinki boş… Oğrular pambıq qəbulu məntəqəsinə çataçatda sədrimiz onların üstünü alıb… Qalmaqal başlandı, nə başlandı. Əl-ayağımı bağlayıb, pambığı aparanlar kim olsa yaxşıdır?! Həmin o göynən gedən "Çadırlı" kolxozunun adamları, başında da adı dillərdə dastan olan o Zərqələmdi, Zəridədi, nədi, onun qohum-əqrəbası…

Mən məktəbə qayıtmağa tələsirdim. Ona görə də söhbəti uzatmamaq üçün qoca gözətçinin dediklərinə müdaxilə edib onu sual-cavaba tutmaq istəmədim. Gözlədim ki, gözətçi danışıb qurtarsın. Bu əhvalatı təfsilatı ilə olmasa da, uzaqdan-uzağa eşitmişdim. Lakin həmin gecə gözətçinin başına gələnləri bilmirdim. İndi onun dedikləri mənim üçün yeni və maraqlı idi. Gözətçi harasa tələsdiyimi hiss edib söhbətini yekunlaşdırmağa çalışdı:

- Müəllim, məni bağışla, - dedi. - Çərənləyib səni yoldan saxladım. Qocalıqdandı, nədi, dərdimi qanan bir adama danışanda yüngülləşirəm. Ona görə gərək məni bağışlayasan. İndi rayonun hökuməti işə qarışıb. Çadırlıların dalında durub müdafiə eləyənləri çoxdur. Pula da ki, pul demirlər. Çalışırlar ki, bu oğurluq məsələsini boyunlarından atıb, ört-basdır eləsinlər. Bizim sədr də köhnə milis işçisidir. İyirmi ildən çox paqon gəzdirib. Belə şeylərdən başı çıxır. Tutduğundan da buraxan dəyil. Çadırlıların da yaxasından bərk yapışıb. Sədr deyir ki, bu oğurluğu onlara sübut eləməsəm, başımdakı papaq yox, arvad ləçəyidi. Mənim özümü də bu əhvalatdan ötrü bir-iki dəfə rayona çağırıblar.

Ancaq yaralı olduğuma görə gedə bilməmişəm. O qırmızıpapaqlılardan ikisi gəlmişdi. Mənə çoxlu dolaşıq suallar verdilər. Mən də olduğu kimi dedim. Nə isə yazdılar, pozdular. Axırda da maa neçə yerdən qol çəkdirdilər. Qırımlarından gördüm ki, onlar da çadırlıların tərəfindədilər. Yəqin onların ağzına puldanzaddan atıblar. Ancaq belə başa düşürəm ki, xeyri yoxdur. Oğul, cidanı çuvalda gizlətmək olmaz. Bakı da bu işə qarışıb. Ordan deyiblər ki, nə var dibdən yoxlayıb ortalığa qoymaq lazımdır. Bakının böyükləri bir də onu deyib ki, yəqin Zəridədi nədi, ona "sağ ol" dedik, qudurub yolundan çıxdı. Kim olur-olsun. Qanun qanundur. Bağırov da ki, özün bilirsən dayna, bir adamı qaldırır, qaldırır, elə ki, gördü qudurub yolunu azır, təpəsi aşağı gətirib vurur yerə. Onun sözündən sonra "Çadırlı" kolxozunda o Zərqələmdi, Zəridədi, nədi, onun da dəfi dönüb, nə ki paxırları var, açıb qoyublar ortalığa. Dünən yox, srağagün sədrimiz pambığa baş çəkməyə gəlmişdi, dilindən bir balaca qaçırtdı ki, çadırlılarınkı bu gün-sabahlıqdır. Hamısı dama getməlidir. Oğul, deməyim odur ki, pis işin axırı yoxdur. Dünyada yüz biclik varsa, onun doxsan doqquzu düzlükdür. Harda olursan ol, düzə zaval yoxdur. Gərək işini Allahla tutasan…

Qoca gözətçi:

- Məni bağışlayın, - deyib qamış daxmasına girdi. İçəridən təzək tüstüsünün iyi gəlirdi. Gözümə sönük ocağın üstündə buğlanan mis çaydan sataşdı. Qoca ortası yırtıq çirkli dəsmalını kasadakı ılıq suda isladıb

sıxdı. Və gözünün altındakı göyərmiş yaranın üstünə qoydu. Bir-iki dəfə ufuldayıb sakitləşdi, dincəldi. O, qəddini əyib darısqal daxmasından bayıra çıxdı və üzünü kəndə tərəf tutdu:

- Bax, o kəndin aşağı tərəfindəki təpənin döşündə qaralan alçaq ev mənimdir. Çoxdan tikilib, mili, taxtası çürüyüb. Ha deyirəm əl gəzdirim, vaxt tapa bilmirəm. İşdən baş açmaq olur ki?! Böyür-başındakı evlərin hamısından tüstü çıxır, mənimkinin işığı da yanmır. Bir də ki, kim yandırsın, içində yaşayan var?! Sahibi mənəm, mən də yaz, yay, payız bu xarabada qarovul çəkirəm. Bir də ki, təzədən ev düzəltmək nəyimə gərəkdir. Hay-hayım gedib, vay-vayım qalıb. Dağdan aşmış gün kimiyəm, bu gün-sabah ölüb gedəcəyəm. Dalda qalanım da yoxdur ki, məni doyunca ağlasın.

Qoca gözətçinin kədərli sözləri getdikcə mənə də sirayət eləyirdi. Mənzilimi, məktəbi, odunu, səhərki dərslərə hazırlaşmağımı unutmuşdum. Qocanın dediyi nisgilli sözlərin sehrindən xilas ola bilmirdim. Yerimdəcə donub qalmışdım. Sanki bizi əhatə edən dağlar, daşlar, kol-kosluqlar, gözümüzün önündə dikələn pambıq tayaları da lal-dinməz dayanıb mənim kimi qoca gözətçinin dediklərinə qulaq asırdılar. O, başındakı ağ çalmanı çıxarıb, tükləri seyrəlmiş başının, alnının, boyun-boğazının tərini sildi və gülümsünüb özözünə sayıqlayırmış kimi dilləndi:

- Yəqin deyəcəksən ki, ahıllıq qocanı çaşdırıb, həə?! Bəlkə də fikirləşəcəksən ki, o gecə başıma-gözümə o qədər döyüblər ki, ağlımı itirmişəm?! Təvəqqe edirəm

mənim barəmdə o cür düşünməyin. Bax, gecə-gündüz qarovulunu çəkdiyim bu ağ tayaları görürsən?!

Qoca gözətçinin nə demək istədiyini başa düşmədiyim üçün sadəcə olaraq başımı tərpətdim. O, acı istehza ilə:

- O mənim kəfənimdi, oğul, - dedi. - Bəli, kəfənim! Bu sözə görə məni dəli, sərsəri də hesab edə bilərsən. Rica edirəm yanılmayın, məni düz başa düşün. Bu elə bir şoqərib bitkidir ki, insanlar səhərdən axşamacan başlarına gün döyə-döyə onu əkir, becərir, hasilə gələndə nə zillətlə yığıb harasa göndərirlər. Uzaq-yaxın şəhərlərdə ağ parça olur, əzəl-axır bizi ona büküb qara torpağa basdırırlar. Bax, gördüyün bu ağ tayalar axır-aqibət mənim kəfənimdir. Hər ilin baharında torpaqdan baş qaldırır. İnsanlar onun nazını çəkir, üstündə əsim-əsim əsir, barının, bəhrəsinin üstündə bir-birini didir, bax, gördüyün kimi mənim baş-gözümü əzib bu kökə salırlar. Nəyin üstündə?! Bir qarış kəfənliyin üstündə! Ondan ötrü nə qədər insan can çürüdür, nə qədər insan zəlil olur, nə qədər insan təriflənib göylərə qaldırılır! Orden, medal, qızıl ulduz alır. Nə qədər insan zəlil olur. Çünki istər şah, istər gədə, hamıya əvvəl-axır bir qarış ağ kəfən lazımdır. O zülmət gecədə qoca canımı fəda etdiyim həmin bu pambıqdan əmələ gələn ağ kəfən!!! İnsan bir dünyaya gələndə, bir də ki, dünyadan gedəndə büründüyü libas!

"Yəqin gözətçinin başına hava gəlib, bəlkə də yaralarının sızıltısından sayıqlayır. Bu onun başının üstünü alan qocalığın əlaməti də ola bilər", - öz-özümə düşündüm. Və ayağa qalxıb vacib işim olduğunu, həm də

qaranlıq çökdüyünü, bir də ki, yağış yağacağını nəzərə alıb gözətçi ilə xudahafizləşdim. Daha maşın üçün sədrin ayağına gedib ona ağız açmağın məqamı deyildi.

* * *

Mən məktəbə çathaçatda buludlu səmada gözqamaşdırıcı işıqlar saçdı. Şaqqıltı qopdu, yer-göy lərzəyə gəldi. Və şıdırğı yağış başladı. Mənzilimə çatana qədər əynimdəki paltar islandı, yağış canıma işləmişdi. Özümü birtəhər içəri saldım. Paltarımı dəyişib, pəncərədən çölə boylandım. Yağış bir neçə saat davam etdi. Sonra getdikcə səngiməyə başladı. Kənddən xeyli yuxarıda, qalın meşələrlə örtülmüş dağlarda, dərələrdə göy gurultusu hələ də səngiməmişdi, ardı-arası kəsilməyən şimşək çaxırdı. Birdən qulağıma uğultu gəldi. Bu, Muradlı dərələrindən baş alıb gələn selin səsi idi. Uşaqlıqdan öyrəşdiyim bu cür səsləri çox eşitmişəm. Dünyaya göz açdığım doğma kəndimizin qabağından keçən çaylaqda iri ağacları kökündən qoparıb gətirən sel sularını çox görmüşdüm. Həmişə yağışdan sonra hayharayla kənddən çıxıb çaylağa tərəf axışırdıq. Ulağı olmayan, odun sarıdan korluq çəkən kasıb-kusub çaylaqdan selinti toplayıb, səcin vurur, sonra da evlərinə daşıyırdılar. Bunları yadıma salanda ayılan kimi oldum. Tez bayıra çıxıb təsərrüfat müdirini çağırtdırdım. Abasqulu nə isə bir hadisə baş veribmiş kimi təngnəfəs mənzilimə daxil oldu. Və:

- Müəllim, gecənin bu yağış-qiyamətində xeyir ola? - soruşdu.

Onun sualını cavabsız qoydum və sakitcə:

- Əyləşin, - deyib təsərrüfat müdirinə yer göstərdim.

O, narahat halda:

- Müəllim, ilin-günün bu vaxtında hələ belə yağış görməmişəm, - dedi. - Muradlı çayından, dərələrdən bir sel gəlir, tay demə, o tay-bu tay qovuşub.

Ona cavab vermədən fikirli-fikirli soruşdum:

- Buralarda sel gələndə odun, ağac-uğac, kör-kötük gətirir?

- Müəllim, gətirir nədi ee!!! Səhər alaqaranlıq hamı qarğa-quzğun kimi çaylağa töküləcək. Çox adam qış boyu elə bu çaylardan tor-top elədiyi selintini yandırır. Özü də nə odun! Hamısı da ulas, palıd, saqqız, vələs… Sel Başarat meşələrindən yığıb gətirir.

- Yaxşı, indi de görək bizim bu internatın yataqxanasında Həkəri, Xəndək, Qarağaclı, İşıqlı, Həmzəli kəndlərindən olan şagird varmı?!

- Bəli, var, - təsərrüfat müdiri cavab verdi.

- Onda gecikmədən, elə bu dəqiqə get yataqxanalara, hər kənddən bir-iki nəfər diribaş uşaq çağır, gəlsin yanıma. Aydındı?!

- Aydındı, müəllim, bu saat çağıraram. Amma müəllim, niyəsini bilmədim axı. Soruşsalar ki, nədən ötrü çağırırsan, onlara nə deyim? - Abasqulu kişi çaş halda soruşdu.

- Niyəsini onlar bura gələndə deyərəm, onda siz də eşidərsiniz.

Abasqulu kişi daha sözü çevirmədi. Tələsik getdi.

Bir neçə dəqiqədən sonra yataqxanada qalan şa-

girdlər məktəbin həyətinə toplaşdılar. Onlara nə deyəcəyimi bilmədiklərindən daxilən nigarançılıq keçirir və altdan-altdan təsərrüfat müdirinə baxırdılar. Abasqulu kişi də hiss olunmadan, - mən də sizin kimi bir şey bilmirəm, - demək mənasında çiyinlərini qaldırırdı. Mənsə məqsədimi açıqlamağa tələsmirdim. Tələbələrə yaxınlaşıb onları bir-bir nəzərdən keçirdim və:

- Sizə vacib bir tapşırığım var, lakin bu barədə hələlik bir söz demək istəmirəm. Sonra hər şey aydın olacaq. Düzdü, gecədi, yağış yağır, palçıqdan tərpənmək olmur. Sizi əziyyətə saldığımı başa düşürəm. Lakin onlardan keçib. Gedin qıs-qıvraq geyinin. Yubanmadan hərəniz öz kəndinizə gedin. Sinif yoldaşlarınıza xəbər verin ki, alt dan ağaranda məktəbdə olsunlar. Vacib işimiz var. Bu, aşağı sinif şagirdlərinə, bir də ki, qızlara aid deyil. İstər birinci, istərsə də ikinci növbədə oxuyanlar, fərqi yoxdur, bütün şagirdlər gəlməlidir.

Onlar:

- Müəllim, baş üstə, - deyib vaxt itirmədən, hərəsi bir səmtə yollandı. Üzümü Abasquluya tutdum:

- Onlar qayıdıb gələnəcən kənddəki qohum-əqrəbalarından, ərkin çatan dost-tanışlardan beş-on dəhrə-balta tap gətir, lazım olacaq.

Təsərrüfat müdiri məsələnin vacibliyini anlayıb, başının hərəkəti ilə xahişimə əməl edəcəyini bildirdi. O, əks tərəfə yönəldi. Mən mənzilimə qayıtdım.

Qoca gözətçidən eşitdiklərimi, bir də ki, səhər-səhər görəcəyimiz işlərin nə dərəcədə uğurlu olub-olmayacağını başımdan çıxara bilmirdim. Ona görə də

narahat yatdım. Sübhə qədər gözlərimə yuxu getmədi. Alaqaranlıq yerimdən qalxıb geyindim. Qulağıma müxtəlif səslər gəldi. Qapını açıb həyətə enəndə artıq hava işıqlanırdı. Çağırtdırdığım şagirdlər yuxudan kal durmalarına baxmayaraq, internat yataqxanasının qabağına toplaşıb nikbin əhval-ruhiyyə ilə danışıb-gülürdülər. Məni görəndə sakitləşdilər. Yuxularına haram qatdığım uşaqlara - sabahınız xeyir! - deyib çağırışa mütəşəkkil qaydada gəldikləri üçün onlara təşəkkürümü bildirdim. Və tez də mətləbə keçdim:

- Uşaqlar, yaxşı bilirsiniz ki, payız yarıdan keçir, qış yaxınlaşır. Lakin məktəbimizdə peçə qoymağa bir çöp yoxdur. Meşə idarəsinə pul köçür, maşın al… Bu da asan başa gəlmir. Məktəbimiz hər il bu vaxt belə bir çətin problemlə üzləşir. Yanacaq üçün başqa yollara da əl atmalıyıq. Bu gecə yağışdan sonra sel Başarat meşələrinin odun-ocağını silib-süpürüb gətirib töküb qapımıza, - bu sözü zarafatyana dedim ki, şagirdlərin eyni açılsın. - Sizi bura çağırmaqda məqsədim odur ki, çaylaqlarda, dərələrdə bir selinti qalmamalıdır …

Söz ağzımdan çıxan kimi məktəblilər yaxınlıqdakı sel basmış dərələrə, kəndin ətrafından keçən çaylaqlara səpələndilər. Dəhrə, balta işə düşdü… Uşaqlar od parçası kimi tərpənirdi. Onlar iri ağaclara girişə bilməyəndə, tay-tuşlarından dörd-beş yaş böyük olan, onuncu sinif şagirdi Nəsir özünü irəli verib baltanı onların əlindən alıb, bir göz qırpımında selintini peç boyda doğrayıb bir kənara yığırdı. Yoldaşları Nəsirin doğradığı odunu daşıyıb, yetirə bilmirdilər. O, arabir

nəfəsini dərib, alnının tərini silir, tez də ayaqlarını gen qoyub, başının üstünə qaldırdığı baltanı endirdikcə, nəhəng ağaclar çilik-çilik olur və yaş qamqalaqlar ətrafa səpələnirdi. Yan-yörədə odun toplayanlar dayanıb, Nəsirin hünərinə heyranlıqla baxırdılar. Məktəb divar qəzetinin redaktoru qucağında odun mənə yanaşıb:

- Müəllim, görürsünüz də, Nəsir nə oyun çıxardır!

- Bəli, görürəm, onu belə bilməzdim, - dedim.

- Müəllim, sizcə necə olar, növbəti divar qəzetində Nəsirin qoçaqlığı barədə şəkil ilə yazı verək.

- Qəzetinizin işinə qatışa bilmərəm, amma belə bir yazı yerinə düşərdi, - redaktora cavab verdim.

Qan-tərə batmış qoçaqlar bir neçə saatın ərzində on-on beş maşın odun toplayıb daşıdılar. Məktəbin həyətində selintidən neçə-neçə çin vuruldu. Odun da ki, nə odun! Kibrit vur, alışsın! Üfürmək-zad lazım deyil. Həmişə sarışın qaşlarını şümür gözlərinin üstünə sallayan Abasqulu kişi mer-meyvə vaxtı bağ-bostanın həndəvərində dolaşan məktəblilərə dəvə nalbəndə baxan kimi baxırdı. İndi o, vəcdə gəlmişdi. Tez-tez onlara:

- Ay nənəm qurban! - deyib uşaqların qoltuğuna verirdi.

Bir sözlə, bu səhər Abasqulu kişinin kefi durulmuşdu. Axı qışda odun çatışmayanda ən çox təsərrüfat müdirinin üzü danlanır.

Artıq gün qalxmışdı. İki-bir, üç-bir məktəbin həyətinə daxil olan müəllimlər, indiyə kimi heç kəsin ağ-

lına gəlməyən bu əhvalata möcüzə kimi nəzər salır və onların təəccüblü baxışları məmnunluq ifadə edirdi. Vaxtı ilə mənə dərs keçən Şəkərli müəllim də şagirdi barədə indi başqa hava çalırdı:

- Əlimin altından çıxanların hamısı belədi, axı öyüd-nəsihətlərini məndən alıblar! - deyib qürrələnirdi.

Həmin gün özümdə bir rahatlıq, məmnunluq duyurdum. Çünki məktəbimiz üçün müftə başa gələn bu odun qalaqları ən azı qışın ortalarına qədər bəs eləyərdi.

Məktəbin ikinci, üçüncü zəngi çalınırdı. Birinci növbənin dərsləri başlanmışdı. Yorğun, yuxusuz olmağıma baxmayaraq, bir neçə sinfə daxil olub əvvəlcədən nəzərdə tutduğum müəllimlərin dərsini müşahidə etdim. Fənlərin nə səviyyədə tədris olunduğu barədə yazılı və şifahi qaydada mülahizələrimi bildirdim... İradlarımdan inciyənlər və öz etirazlarını açıqca biruzə verənlər, mübahisəyə girişənlər də oldu. Lakin peşəsinə laqeyd yanaşanlara güzəştə gedib onların yanında yaxşı kişi olmaq xatirinə vəzifəmə biganə qalmağı özümə rəva bilmirdim. Bu cür ucuz hörmət vicdanıma baha başa gəlir və onun əzabını çəkməli olurdum. Həyata atılan gündən xoşladığım intizam mədəniyyətini hər şeydən üstün tuturdum. Buna pedaqoji qaydalara riayət etmək borcumdan çox, bir əxlaq norması kimi baxırdım. Bu, bəlkə də gənclik ehtirasından və ya təcrübə kasadlığından irəli gələn bir çılğınlıq idi. Ancaq özümü haqlı bilir və tutduğum xəttin obyektivliyinə

dönməz inamım vardı. Zəmanə çoxbilmişlərinin mənə müvəqqəti istək, hörmət qazandıra biləcək bayağı dəlil-dəlalətlərini qulaqardına vururdum və öz bildiyimlə getməyi üstün tuturdum.

* * *

Muradlıda yeganə bir telefon vardı. O da kənd soveti sədrinin kabinetində qoyulmuşdu. Ətraf kəndlərdən, məktəb və tibb məntəqələrindən vacib bir iş üçün, rayona telefonla zəng vurmaq üçün sovetin sədrinə və ya onun katibinə üz tutmalıydılar. Razılıq alandan sonra da gərək telefonun qulpunu əlin-qolun yorulana qədər bulayasan ki, rayon poçtundakı telefonçu qızlar insafa-mürvətə gəlib handan-hana cavab verə, ya verməyə. Sonra da yağlı dilini işə salıb yalvarasan ki, anam, bacım, xanım, təvəqqe edirəm məni filan idarəyə və ya filankəsə calaşdır. Başqa şəhərdə yaşayan qohum-əqrəba ilə telefonla danışmaq daha müşkül məsələdi. Bunun üçün gərək üç-dörd saatlıq pay-piyada yol qət edib rayona gedəsən və bir gün vaxt itirəsən…

Məktəbin təsərrüfat müdiri gündə-günaşırı kənd sovetinin binasına ayaq döyüb direktorun rayon mərkəzində yaşayan və yüksək vəzifə sahibi olan qardaşına telefonla zəng vurur və tabe olduğu adamın Bakıdan qayıdıb-qayıtmadığından xəbər tuturdu. Axır ki, bir gün kənd sovetindən məktəbə sifariş gəldi ki, direktor Bakıdan qayıdıb. Onun dalınca at göndərmək lazımdır. Abasqulu vaxtı itirmədən, Qəmər madyanı məktəbdən yarım verst aralıdakı tövlədən çıxarıb, yə-

həri basdı belinə. Abasqulu atın noxtasını sivirib, cilovu başına keçirəndə Qəmər madyan fınxırdı. Onun burun pərləri körükləndi. Südəmər balasını sinəsinə alıb kırıldadı. Elə bil atın ürəyinə dammışdı ki, yenə də onu balasından ayırıb, uzaq səfərə sürəcəklər. Hələ qol-qıçı əməlli-başlı bərkiməmiş südəmər qulun tövlədə tək qalacaq. Ona görə də Qəmər madyan bir-iki dəfə irəli-geri dartındı. Qulaqlarını qırpıb Abasquluya ağız atmaq istədi. Sonra altındakı balasının boyun-boğazını, yal-quyruğunu iylədi. Abasqulu yola düşməyə tələsirdi. O, qulunu qucaqlayıb, anasından birtəhər araladı və tövləyə salıb qapısını örtdü. Qulun anasından ötrü tövlədə o baş-bu başa qaçır, özünü qapıya, daşa-divara çırpırdı. Qəmər madyan da balasının hənirtisini alıb özünü yeyib tökürdü. Əlacı olsaydı Abasqulunu dişiynən, dırnağıynan didib parçalayardı. Tövlənin qapısını sındırıb qulunu çıxardar və hara getsə, balasını da öz yanınca aparardı. Qəmər madyanın bu şıltaqlığı Abasqulunu təbdən çıxardı. O, ata minib cilovun ucunu əlinə dolaya-dolaya:

- Bu da mənim yaxşılığım!! - Qəmər madyanın qarasına deyinməyə başladı. - Düzünü deyəndə olursan pis adam! Bu dünyada yaxşılıq qanan var?! İnsan insandır, o da yaxşılığı bilmir! Barmağının beşini də bal eyləyib soxursan ağzına, əlini dişləyir! Çörəyimi yeyənlər ayağımın altını qazır! Di vur məni öldür, belə də zəmanə olar?! İndi də Qəmər at! Qulunu ayırıb rahatca tövləyə salıram ki, hələ körpədir, qol-qıçı bərkiməyib, Həkərini keçəndə büdrəyib suda boğular! Ondan

sonra gəl mundar cəmdəyini at itlərin qabağına! Eşidib bilənlər də məni qınayıb desinlər ki, Abasqulunun başına at təpib. Harda görünüb ki, uzaq səfərə çıxanda körpə qulunu anasının yanına salasan?! O da gedib it-bata düşə! Bu da mənim yaxşılığım! Qəmər madyan mənə ağız atır! Nə heyvan yaxşılıq qanır, nə də insan!

Abasqulu ağzını Allah yoluna qoyub öz-özünə hey deyinirdi. Qəmər at isə Abasqulunun yedəyində eşim-eşim eşilirdi. Ayağını dirəyib geri dartınırdı. Balasından aralanmaq istəmirdi. Hərdən geri qanrılıb kişnəyirdi, ayağını yerə döyürdü. Abasqulu da hirslənib tez-tez ona təpinirdi:

- Qudurmusan, Qəmər madyan! - deyirdi. - Özü də heç kim yox, mən Abasqulu köpək oğlu səni qudurtmuşam! Gündüzlər Həkərinin qıraqlarında göy otdan yeyib, sərin sudan içib səmriyirsən. Axşamlar da axurunu ot-alafla doldururam. Belinə ağır yük vurmuram, arpa-samanını əsirgəmirəm. Gündə də neçə dəfə tumar vurub qaşovlayıram. Vaxtı-vaxtında da nalladıram. Qaşovlamaqdan əllərim qabar olub, qoymuram üstünə toz qona! Bunun müqabilində məni boğaza yığmısan, sözümə baxmırsan! Mənnən öcəşirsən! Hələ bir qulağını qırpıb, üstümə də cumursan, yedəyimə getmək istəmirsən! İndi yenə tərsliyin tutub! Nədi-nədi sənin xeyrinə iş tutmuşam! Qulunu ayırıb rahat tövlədə saxlamışam ki, uzaq yoldur. Gedib it-bata düşməsin. Çaydan keçmək bir tərəfə qalsın, Həmzəlinin, Mahmudlunun eniş-yoxuşunu yenib-qalxanda tər adamın dabanından çıxır. Oralar körpə qulun yolu-

dur?! İndi gör balanı sən çox istəyirsən, yoxsa mən?! Allahın dilsiz-ağızsız heyvanı! Fikirləş, gör indi o körpə qulunun halına sən çox yanırsan, yoxsa mən?! Belə şeyləri hardan qanasan?! Amma Abasquluya arxa çevirib qoşa şıllağa qalxırsan, məni o dünyalıq eləmək istəyirsən! Əlimlə verdiyim arpa-saman burnundan gəlsin! Eybi yoxdur! Heç eybi yoxdur! Maa da Abasqulu deyərlər! Qayıdan baş sənnən danışaram! Arpa-samanını kəsib səni cirəyə salaram. Acından arıqlayıb bulan-bulan bulanarsan. Onda ağlın gələr başına! Bilərsən ki, Abasqulu da Abasquludur! Onunla daşatərəziyə girmək olmaz! Sən Qəmər at ol, mən də Abasqulu! Görək axırda kim peşman olur.

Abasqulu deyinirdi, Qəmər at da balasından ötrü tez-tez arxaya boylanıb kişnəyirdi. Həkərinin sahillərindəki sıx ağacların arasından keçən darısqal cığıra dönəndə at da, Abasqulu da gözdən itdi. Daha onların hənirtisi gəlmirdi. Qulun da anasından ötrü, qapısı bağlı tövlədə özünü ora-bura vurmaqdan yorulub heydən düşmüşdü. Arabir yorğun, yalvarıcı kişnərtisi eşidilirdi…

Aradan bir qədər keçmiş, gözlənilməz hadisə baş veribmiş kimi, məktəbin həyət-bacasında oynaşan şagirdlər arasında çaxnaşma düşdü. İnternat uşaqları yataqxanadan çıxıb, yaxınlıqdakı tövləyə tərəf axışdılar. Qəmər madyan cilovunun ucu yerlə sürünə-sürünə gəlirdi. Abasqulu isə görünmürdü. At özünü tövlənin dəhlizinə təpib, burnu ilə qapını açmaq istədi. Lakin qapı qıfılla bağlandığı üçün açılmadı. Qulun içəridən anasının hənirtisini alıb ara vermədən

kişnəməyə başladı. Qəmər madyan gah tövlənin pəncərəsindən boylanır, gah qapıya tərəf cumurdu. Atın hikkəsindən dəhliz silkələnirdi. Heç kəs Qəmər madyana yaxın dura bilmirdi. Bəs Abasqulu harada qaldı?! Yəqin at yıxıb qol-qabırğasını qırdı?! Görəsən başına nə qəzavü-qədər gəldi?! Yoxsa Qəmər at rayona getdiyi yerdə onun əlindən qurtarıb geri qayıtmazdı?! Bura toplaşanların daxilində cürbəcür müəmmalı suallar baş qaldırmışdı. Hamı təlaş içindəydi. Xeyli keçmiş aralıdan Abasqulunun qaraltısı göründü. O, Qəmər madyanın barəsində deyinə-deyinə gəlirdi. Abasqulu yaxınlaşanda bura toplaşanlara üzünü tutub həyəcanla:

- Özü yıxılan ağlamaz, - dedi, - mənə bu da azdır! Qəmər madyanı özüm qudurtmuşam! Mən Abasqulu, it oğlu it! Gündə direktorun dəngini aparıram, arpa al, saman al! Arpa al, saman al! Qəmər madyan da yeyib harınlasın! Başıma bu oyunu gətirsin! Bu da mənim yaxşılığım! Bu da mənim mükafatım! Qəmər madyan elə haqqına eləyir! Onun gözünə dönüm! Məni yerə çırpıb öldürsəydi, ayağının altına salıb əzişdirsəydi, onda Abasqulunun ağlı başına gələrdi!

Abasqulu cumculuq olmuşdu. Onun üst-başından su süzülürdü. Ayağındakı çarığın köşələri sökülüb tökülürdü. O, tövşüyə-tövşüyə üzünü ətrafdakılara tutaraq:

- Adamın başına nə gəlir, elə öz ağılsızlığının ucbatından gəlir, - dedi. - Bilə-bilə ki, südəmər qulunu anasından ayırmaq xatalıdır, yola çıxanda gərək cilovu əldən verməyəsən! Elə bil bir dəqiqənin içində Allah

ağlımı aldı! Çayı o taya addayıb Həmzəli dərəsini keçəndə atdan düşdüm. Cilovun ucunu iydə ağacının qanadına ilişdirib sizdən də utanmazlıq eləyirəm, subaşına çıxdım. Elə ayağımı o tərəfə qoymuşdum, çər dəymiş fınxırıb dartındı… Cilov koldan açılan kimi asta qaçana imam qənim olsun, madyan götürüldü. Dalınca nə qədər yüyürdüm, qışqırdım, xeyri nədi?! Qəmər madyanın qaçarağına çatmaq olar? Onu gördüm ki, çayı keçir! Mən də onda axmaq iş gördüm ki, tələsdiyimdən çarıqlı-patavalı özümü vurdum çaya! Denən a köpək oğlu, atdı, qaçır, cəhənnəmə qaçsın! Qəmər at hara gedəndi?! Hara hərlənib fırlansa, axırda balasının üstünə gəlməlidir. Başımı itirmişdim. Əynimdəki pal-paltarımın islanmasını fikirləşmədim. Çayın dərin yerinə düşdüm, su çiynimdən aşdı.

Abasqulu nəfəsini dərib:

- Onlardan keçib, indi direktor gözləyir, - deyə sözünə davam etdi. - O da fikirləşəcək ki, görəsən niyə gəlmədim?! Tay hardan bilsin ki, səhərdən bəri Qəmər atın əlində əsir-yesir olmuşam. Abasqulu it kökündədi!! Bu, çörəkdi yeyirəm?! Zəhər yesəm, bundan yax-şıdır! Vaxtında nə oxudanım oldu, nə də ki, özüm oxudum! İndi ikiəlli başıma vururam! Kim vaxtında oxuyub, adam olub, dünya onunkudu! Sən də Muradlının dərəsində at təsi iyləyirsən, Abasqulu! İndi öl, canın çıxsın!! Mənə bu da azdı! Ölüm də ki, yaxşıları aparır. Mənim canım it canıdır, heç vaxt ölmərəm!

Abasqulu ürəyini boşaldandan sonra madyanı birtəhər yedəkləyib əlindəki şiv çubuqla ona bir neçəsini

çəkdi. At sahibinin qırımını hiss edib özünü bir qədər yığışdırdı, sakitləşdi. Ancaq gözü yenə də tövlədə, balasının yanında qalmışdı.

Axır ki, Abasqulu deyinə-deyinə atın belinə aşırılıb rayona tərəf yollandı...

* * *

Direktor da, təsərrüfat müdiri də axşam tərəfi rayon mərkəzindən qayıtdılar. Qəmər at qan-tərə batmışdı. Abasqulu atı yedəyinə alıb təri soyuyana qədər açıq havada o baş-bu başa gəzdirdi. Təri soyuyandan sonra atın yəhərini alıb belinə yüngülvari çul vurdu. Qulunu anasının altına buraxdı. Qəmər madyan sakitləşmişdi. Səhərki kimi dəlilik eyləyib Abasqulunu hövsələdən çıxartmırdı. Özünü sahibinin qabağında quzu kimi aparırdı. Abasqulunun da hirsi soyumuşdu. Qəmər madyanın barəsində hərzə-hədyan danışmırdı. Atın axurunu soğan kimi göy otla doldurmuşdu. Qulun anasının altına təpinib, madyanı acgözlüklə əmirdi.

* * *

Direktor evdə arvad-uşaqla görüşüb bir qədər dincəldikdən sonra məktəbə tərəf yönəldi. O, həyətdəki odun səjinlərinə baxanda gözlərinə inanmadı. Təəccüblü baxışları ilə mənə gözaltı nəzər yetirdi. Abasqulu odun əhvalatını yolda ona olduğu kimi danışmışdı. Ona görə də direktor bu məsələdən xəbərdar idi. Lakin mənimlə görüşəndə o qədər də böyük iş görməmişik kimi, dilucu razı qaldığını bildirdi. Mənsə ondan tən-

tənəli təşəkkür gözləyirdim. Hər il məktəbin üzləşdiyi odun problemi sahəsində gördüyümüz ağlagəlməz tədbirin direktor tərəfindən adi hal kimi, soyuqqanlılıqla qarşılanması məndə daxilən təəssüf doğurdu. Bir qədər də inciyən kimi oldum. Qəlbimdə yaranan fərəh hissim bir andaca əriyib yox oldu. Lakin mən bütün bunları büruzə vermədim.

Direktorun burada olmadığı günlərdə dərslərin təşkili, müəllimlərin özünü necə aparması, şagirdlərin dərsə davamiyyəti, internatın vəziyyəti barədə onu qısaca olaraq məlumatlandırdım. Direktor da Bakı təəssüratından danışdı:

- Maarif Nazirliyi və Müəllimləri Təkmilləşdirmə İnstitutu tərəfindən respublikanın ayrı-ayrı rayonlarından bir neçə məktəb direktoru iki həftəlik kursa çağırılmışdı, - dedi. - Bizim rayondan da tək mən idim. Görkəmli alimlər, pedaqoqlar, ali məktəb müəllimləri qarşımızda çıxış etdilər. İndi ölkədə əsas istiqamət elmə doğru yönəlib. Dövlət bu məsələyə diqqəti günbəgün artırır. Deyirlər, bizdə adi fəhlələrin də ən azı orta təhsili olmalıdır. Ümumtəhsil məktəblərinin işinə, ali məktəblərə göndərilən şagirdlərin bilik səviyyəsinə görə qiymət verilir. Dəqiq elmlərin tədrisinə xüsusi diqqət yetirilir. Moskva bu barədə respublikamızın işindən narazıdır. Yoxlayıb müəyyən eləyiblər ki, bir çox məktəblərdə dərslər müəllimlərin ixtisasına görə yox, maddi ehtiyacına görə bölünür. Məsələn, tarix müəlliminə triqonometriya dərsi verilir ki, saatı düzəlsin, yüksək maaş alsın... Bu cür nöqsanlar elə bizim mək-

təbdə də var. Gərək ölçüb-biçib bu barədə bir şey fikirləşək. İndi təhsil məsələsinə çox ciddi fikir verilir. Bir tərəfə baxanda elə siz düz eleyirsiniz. Bir gün bizim özümüzlə də haqq-hesab çəkəcəklər. Müəllimlərə qarşı tələbkarlığı daha da artırmaq lazımdır. İnciyən qoy incisin. Təntənə ilə əlinə orta təhsil diplomu verdiyimiz şagird, əgər ali məktəbin qapısını şəstlə açıb içəri daxil ola bilmirsə, deməli, çəkdiyimiz zəhmət qəpiyə dəyməz. Bu barədə düşünmək lazımdır.

Direktor:

- Kursda çox məsələyə toxunuldu, - sözünə davam etdi. - Düzü, əvvəlcə getməyə həvəsim yox idi. Bu barədə maarif şöbə müdiri ilə mübahisəmiz də oldu. Gedəndən sonra gördüm ki, lazım imiş. Hər gün bir yenilik çıxır. Gərək həyatla ayaqlaşasan.

Biz məktəbin arxa tərəfindəki meyvə ağaclarının arasınca sakit-sakit addımlayır və bir-birimizin üzünə baxmadan söhbət edirdik. Direktor birdən ayaq saxlayıb:

- Yaxşı yadıma düşdü, - dedi, - son vaxtlar Niyaz Məcidov, ikinci katibi deyirəm, mənimlə çox sərin görüşür. Hətta danışmaq belə istəmir. Düzdü, üzümə bir söz demir, ancaq orda-burda məktəbimiz barədə yaxşı danışmır. Bir-iki dəfə maarif müdirinə də narazılığını bildirib. Sonradan öyrəndim ki, bizim onuncu sinifdə oxuyan baldızı Çimnaza görədir. Nədi-nədi, müəllimlər ona aşağı qiymət yazıb. Ötən il də payız imtahanına qalmasından əsəbiləşib. Guya müəllimlər qəsdən eləyib. Mən onu nəzərə alıram, oxudu-oxumadı bərkinə getmirəm. Canımı dişimə tutub "4"dən, "5"dən yazı-

ram. Əlacımız nədir. Məcidov rayon partiya komitəsinin ikinci katibidir. Bilavasitə maarif sahəsinə baxır. Onu narazı salmaq bizə xeyir verməz. Sonra başımız ağrıya bilər. Müəllimlərin də bir-ikisini başa salmışam. Onu yola verirlər. Ancaq Nəcməddin müəllim keçən deyil. İki ildir dalbadal ona riyaziyyatdan "2" yazıb, payız imtahanına saxlayır. Onu çətin başa salmaq olur. Deyir, dədəm də qəbirdən dirilib gəlsə, oxumayana qiymət yaza bilmərəm. Əslində o düz eləyir. Lakin başımızın ağrımaması, məktəbimizin dilə-dişə düşməmə-si üçün yeri gələndə gərək güzəştə gedək. Bizim əlimiz Niyaz Məcidovun daşının altındadır. Di gəl ki, Nəcməddin müəllim bunu başa düşmək istəmir. Onun nə vecinədir? Riyaziyyat müəlliminə hər yerdə ehtiyac var. Nəcməddin üçün bu məktəb olmasın, başqa bir orta məktəb olsun. Dərziyə dedilər köç, iynəsini taxdı yaxasına. Hara getsə iki-üç akladı var, dərsini deyib pulunu alacaq. Bu haqda onunla neçə dəfə söhbətimiz olub. Hətta bir dəfə üstünə bozarmışam. Ancaq xeyri olmayıb. Bəlkə siz ona bir təsir göstərəsiniz. İnstitutda bir yerdə oxumusunuz, yaşıdsınız, bəlkə sizi eşidər. Ötən ay jurnalı vərəqləyəndə gördüm ki, siz özünüz də ona üç dəfə "2" yazmısınız. O cür lazım deyil, canım! Siz o birilərinə baxmayın. Axı bu məktəbin işinə biz ikimiz cavabdehik. Sabah Niyaz Məcidov da dəyənəyin o biri başını çevirib, məktəbi yoxlatdı, onda necə?! Niyaz Məcidov dəvə kimi kinli adamdı. Bir balaca quyruğunu basdın, qurtardı getdi. Ondan sonra di gəl

cavab ver. Nəcməddin müəllimə nə var? Üçdə alacağı yox, beşdə verəcəyi. Müəllim babadı, çəkilib duracaq qıraqda. Direktor, dərs hissə müdiri kimi ikimizin yaxamız keçəcək ələ. Bu bizə lazımdır?! Ona görə də gərək yaxşı-yaxşı fikirləşək. Niyaz Məcidovla qoz-qoz oynamaq olmaz. Gərək onun baldızına aşağı qiymət yazılmasına imkan verməyək. Nəyimizə lazımdır, canım? Onsuz da buranı qurtarıb getməsinə az qalıb. Sonra Niyaz Məcidovun baldızı harda oxuyar, necə oxuyar, özü bilər. Xatası bizdən uzaq olsun.

Direktoru dinlədikcə mən ayrı şey düşünürdüm. Yəqin ki, həyətdəki selinti odunu Niyaz Məcidovun göstərişi ilə toplanmış olsaydı, direktor ona dərin-dərin minnətdarlıq edib, böyük dərrakə sahibi kimi tərifini göylərə qaldırardı. Ərz etmişdi ki, məktəb binnət olandan həmişə yağış da yağır, sel də gəlir. Dərələrdəki odunu ancaq kənd camaatı axırıncı çöpünəcən yığıb aparır. Bu çağacan məktəblilərin ağlına belə şey gəlməyib. Yoldaş Məcidov, siz dahisiniz, diqqətinizdən heç nə yayınmır. Ən incə məsələlərə fikir verirsiniz. Sizin dərrakənizin dərinliyi gör məktəbi nə qədər irəli salıb. Bu odunu əldə etmək üçün əzab-əziyyəti bir yana qalsın, bir ətək pul xərcləməli idik. - İkinci katibin də qoltuğu yellənər, direktorun tərifli sözləri canına yağ kimi yayılardı. Direktor da insan sərrafı kimi, Niyaz Məcidovun gözündə qalxardı. Lakin odunu cavan bir dərs hissə müdiri topladığı üçün… Direktorun nəyinə lazımdı tabeçiliyindəki adamı tərifləyib başına çıxarsın. Və ya məktəbdə fikir yaransın ki, müavin direktordan diribaşdır.

Direktorun sözünün başı da, ayağı da Niyaz Məcidovdan, onun məktəbli baldızı Çimnazdan idi. İki daşın arasında dirənmişdi ki, bildi-bilmədi, ona əla qiymət yazmaq lazımdır. Könlündən keçən o idi ki, özünü tikana yaba eləməsin, məni qabağa versin. Mən müəllimlərlə üz-göz olum, o qalsın kənarda. Niyaz Məcidovla da görüşəndə bığının altından keçib desin ki, gözüm Çimnazın üstündədir. Məktəbdə də mən nə dedim, odur. Müəllimlər qələt eləyir, kimin həddi nədir Çimnaza aşağı qiymət yazsın?! Çimnazın məktəbi fərqlənmə diplomu ilə bitirməsi mənim boynuma...

Direktorun bu cür ikibaşlı danışmasına matməəttəl qalmışdım. Bayaqdan qanun-qaydadan danışıb: "Hökumət elmə, təhsilə xüsusi fikir verir. Müəllimlərə qarşı tələbkarlığı artırmaq, şagirdlərin biliyinin qiymətləndirilməsində obyektiv olmaq lazımdır", - deməsi hara, sonra müəllimləri ikinci katibin baldızına bildi-bilmədi, yüksək qiymət verməyə təhrik etməsi hara?

* * *

Mən hələ həyat dənizinin sahillərində dolaşırdım. İntəhasız dərinliklərdən bixəbər idim. İlk dəfə dənizə girəndə dayazdakı yosunlar, ağ-qara daşlar, narın qumlar aydın görünür. Bilirsən ki, ilişib batmamaq üçün hara ayaq basmaq, necə hərəkət etmək, hansı səmtə üzmək lazımdır. Lakin irəlilədikcə hər şey dəyişir, başqalaşır. Dərinə getdikcə mavi suların intəhasızlığındakı daşlar, burulğanlar, insana qənim kəsilən

yırtıcılar görünməz olur. Həmin anlar gərək fəhmlə, ağıl-dərrakə ilə hərəkət edəsən ki, qəzavü-qədərə düçar olmayasan, bədbəxtlik üz verməsin.

Hər şeyə vaxtı ilə müəllimlərin dediyi, parta arxasında eşitdiyim, kitablarda yazılan, oxuyub əzbərlədiyim kimi baxırdım. Qanunların müqəddəsliyinə sidq-ürəkdən inanıb ona vicdanla əməl etməyə çalışırdım. İlahi, sən demə yazılmamış qayda-qanunlar da var imiş. Və mən bunu dərk etmək fəhmindən hələ xaliyəm. Taleyini həll edə biləcək sahibi-ixtiyarların hökmü qanunlarımızdan qat-qat üstün tutulmalıymış. Sən demə, zəngin həyat təcrübəsi, vəzifəcə məndən yuxarı olan direktor yazılmamış qanunları əzbər bilirmiş. Ona görə də bayaqdan mənimlə bu cür ikibaşlı danışırdı. Mən isə onun dediklərini daxili bir təəccüb və təəssüflə qarşılayırdım. Və direktorun ziddiyyətli fikirləri, onu getdikcə gözümdən salırdı. Vəzifəcə məndən böyük olan şəxsin sözlərini zahirən başımın hərəkəti ilə təsdiq etsəm də, daxilən öz əqidəmdən dönə bilmirdim. Bu əqidə məndə, sürünə-sürünə iməklədiyim, qərar tutduğumuz torpaq üzərində titrək addımlar atdığım anlarımdan yaranmağa başlamışdı. Kommunizmin möcüzələrini mədh edib göylərə qaldıran, tanrının yoxluğunu millətin beyninə yeritmək üçün dəridən-dırnaqdan çıxan ziyalı, alim qiyafəli ateistlərin tüğyan etdikləri günlərdə babamın hər sübh çağı avazla dediyi "Allahü-Əkbər" sədaları sanki məni insani xalisliyə səsləyir və övladlarına bu yolda xeyir-dualar verirdi. Babamın yoxluğunda da halallıq sim-

foniyası kimi qulağımda səslənən bu xoş avaz məni tərk etmirdi. Evimizin suvaqsız divarlarından, rəngsiz qapı-pəncərəmizdən, həyət-bacamızdan, ev-eşiyimizdən mömin valideynlərimin doğma hənirtisini, isti nəfəsini duyurdum. Yurdunda boy atdığım nənə-babalar qeybə çəkilib tanrının dərgahına qovuşandan sonra da onların öyüd-nəsihəti mənə haqq yolunu tutub getməyi təlqin edirdi. Bir də ki, şeytan qəlbimə dolub məni şər dünyasına sürükləyən anlarda torpaq, çay-çeşmə, çöl-çəmən ətirli rəncbər atamın iri kərəntisinin qeybdən gələn cingiltisini eşidirdim. Həmin anda diksinirdim, ayılırdım, özümə gəlirdim. Və şər çirkabından uzaqlaşırdım. Dünyanı dərk etməyə başladığım çağlarımdan Allaha yaxın olan valideynlərimin kəlamları vicdanımın pozulmaz qanunlarına çevrilmişdi. Həyatın eniş-yoxuşlarında üzləşdiyim töhmət-tənələr, amansız təzyiqlər, təqiblər məni əxlaq qanunlarına xilaf çıxmağa vadar edə bilmirdi. Ona görə də direktorun dəlil-dəlalətlərinə uyub, nəyinsə xatirinə pisi yaxşı kimi qələmə verib, kamillik çeşməsini bulandırıb murdarlamağı dərrakəmə sığışdıra bilmirdim. Pis oxuyan bivec şagirdə yüksək qiymət yazıb-yazdırmağa vicdani əxlaqsızlıq kimi baxırdım. Lazım gəldikdə güzəştə gedib, biliyi "iki"yə layiq olan tələbəyə yüksək qiymət yazmaq kiçik qəbahət kimi də görünə bilər. Lakin müəllim adını daşıyan kəsin bu cür "kiçik" səhvinin necə böyük faciələrə gətirib çıxara biləcəyini başa düşməmək ən azı nadanlıqdır, müəllim nadanlığı. Az yaşımda bu cür halların şahidi olmuşdum. Direktor

ciddi-cəhdlə "ikinci katibin baldızı Çimnazı başqaları ilə bir tutmaq olmaz, bildi-bilmədi ona "5" qiymət vermək lazımdır", deyəndə Zaur Həsənzadənin aqibəti gəlib durdu gözümün qabağında.

* * *

…Onda pedaqoji fəaliyyətə təzə başlamışdım. Rayonun ucqarında yerləşən və saf ab-havası, buz bulaqları olan Ulduzlu kəndinə təyinat almışdım. Yayın cırhacırında belə, bu dağ kəndində pencəksiz gəzmək olmurdu. Gündə-günaşırı vaxt tapıb kəndin yaxınlığındakı təpənin üstündə dikələn mamırlı qayanın üstünə dırmaşırdım. Buradan üzüaşağı uzanıb gedən qalın meşələrə, dərənin dibindən axan çayın coşğun sularına, əks tərəfdə ucalan quşqonmaz qayalara, səmanın ənginliklərində dövrə vuran qartalların hərdən qanadlarını yanına qısıb ovunun üstünə şığımasına uşaq heyranlığı ilə baxırdım. Və quruluşçu rejissoru gözəgörünməz varlıq olan bu "gözəlliklər diyarı" filminin sehrindən ayrıla bilmirdim.

Professor Zaur Həsənzadə bu yerlərin vurğunu idi. O, çox vaxt yay istirahətini Ulduzluda keçirirdi. Hər dəfə də gələndə kolxoz sədri Şahmuradgildə qalırdı. Onların heç bir qohumluğu yox idi. Faşistlərlə müharibədə bir cəbhədə olmuşdular. Onların yaxınlığı da elə o vaxtdan başlamışdı. Əsgərlikdən tərxis olunandan sonra Zaur Həsənzadə elmin dalınca getmişdi. O, əslən Dağıstandan idi. Bakıya davadan qabaq köçmüşdülər. Ali məktəbi əsgərlikdən əvvəl başa vurmuş-

du. Müharibədən sonra aspiranturanı bitirib, elmlər doktoru olmuşdu. Ali məktəblərdə fəlsəfədən dərs deyirdi. Şahmurad isə kolxozlar üçün kadr hazırlayan kurs bitirib, Ulduzluda sədr işləyirdi. Cəbhə yoldaşı Zaurla da əlaqəsini üzməmişdi. Professorla gəliş-gedişləri var idi. Şahmuradın yeganə qızı olan Nəzakət onuncu sinfə keçəndən bəri arvadı Yasəmən də professorun evinə ayaq açmışdı. Həftə səkkiz-mən doqquz sor-sovqatla Bakıda olurdu. Bilirdi ki, bu gün-sabah qızının ali məktəb məsələsi var. Bircə qız olduğundan Nəzakəti yağ içində böyrək kimi bəsləyirdələr. Kənddə ən yaxşı geyinib-kecinən Nəzakət idi. Özü də, bədnəzərdən uzaq olsun, boylu-buxunlu, gözəgəlimli qız idi. Bu gün geydiyi paltarı sabah əyninə almırdı. Dəftər-kitabla da arası yox idi. Həftədə iki-üç gün məktəbə gedə, ya getməyə. Ancaq müəllimlər sədrin xatirinə ona "5"dən aşağı qiymət yazmırdılar.

Son vaxtlar Şahmuradla Yasəmənin canını qara qayğı almışdı ki, bu qızı ali məktəbə necə qoysunlar. Fikirləşirdilər ki, Bakıda da nə Şahmuradı tanıyan var, nə də ki, Yasəməni. Ərköyün qızdı, yad yerdə baş çıxara biləcəkmi?! Kənddəkilərə baxma, hamısı özümüzünküdü. Bakıdakı müəllimlərin barmağını da kəssən, bilməyən tələbəyə qiymət yazmazlar. Şahmuradla Yasəməni dərd götürmüşdü ki, bu qızı nə yolla oxudub bir yana çıxartsınlar. Nəzakət də xırda yerdən yapışmırdı, ayağını dirəmişdi ki, gərək həkim olam. Yenə texnukumdan-zaddan istəyə, dərd yarıdır. O biliklə institut qurtarıb, həkim olmaq məgər asandır?!

Bir dəfə ər-arvad dəhlizdəki taxtın üstündə oturub ikilikdə Nəzakətin ali məktəb məsələsini götür-qoy eləyəndə, Yasəmən ərinə toxtaqlıq verərək şən əhval-ruhiyyə ilə:

- A kişi, yüz fikir bir borcu ödəmir, - dedi. - Sağ olsun professoru, özü ağırlığında çörəyimizi kəsib. O qabaqda ola-ola biz niyə dərd çəkirik? Yəni o boyda, dağdan ağır professor bir uşağı qanadına alıb ali məktəbdə oxutdura bilməyəcək?! Onda tay nə professorluq oldu? Danışıq dananı qurda verər, imtahanlara da az qalıb. Bilirəm, sən kolxozun quyruğundan dördəlli yapışmısan. İşdən əl çəkən dəyilsən. Arvad olmağıma baxma, mənə bir münasib adam da qoş, gedim Bakıya. Bəri başdan professorun ağzını arayım görüm bu işə nə deyir? Nəzakətin məsələsinə "hə" deyir, ya "yox". Neçə ildir dostluq eləyirik, inanmıram ki, Həsənzadə əən-bəən eləsin. Həzrəti Abbas haqqı, "yox" desə, maa da Yasəmən deyərlər, o professora bir gəliş gələrəm, dədəsinin adı yadından çıxar .

Şahmuradın eyni açıldı… Yasəmən elə səhərisi sor-sovqatla Bakıya yola düşdü. Yasəmən bir az hikkəli olsa da, sözünün yerini-yatağını bilən qadın idi. O, Həsənzadə ilə görüşəndə nədən ötrü gəldiyini bildirmədi. - Çoxdan görüşmürük, elə ürəyim istədi, sizə baş çəkməyə gəldim, - dedi.

İkinci gün, axşam çay-çörəyindən sonra Yasəmən Nəzakətdən söhbət saldı :

- Əmisi, - dedi, - bilirsən dayna, sağlığına Nəzakət bu gün-sabah orta məktəbi qurtarır. Vaxt da daralıb.

İstəyir ali məktəbə girsin. Özü də könlündən həkimlik keçir. Deyir, gərək həkim olam. İndi göydə Allahdı, yerdə sən. Rayona baxma, şəhərdə bizi kim tanıyır?! Əlac bircə saa qalıb. Kölgən qalın olsun. İndi yaxşı-yaxşı fikirləş. Utanmazlıq da eləyirəm, bizimki də var-yox bir qızdı. Dədəsi də, mən də onun üstündə payız yarpağı kimi əsirik. Bir az da ərköyün böyütmüşük. Qar-yağış olanda, məktəbə qoymuruq. Qorxuruq uşağa soyuq dəyər. Nə gizlədim, dərslərini də sən deyən canı-dildən oxumayıb. Düzü nə dədəsi, nə də ki mən məktəbə getdi, getmədi bənd olmamışıq. Müəllimləri də min budaq olsunlar, Şahmuradın xatirinə "4"-dən,"5"-dən yazıblar. İndi burda ayrı adam yoxdur, səndən nə gizlədim, uşaq hərdən oxuyur e, amma nədənsə başında bir şey qalmır. Bəri başdan hamısını deyirəm ki, biləsən. Elə yaxşı oxusaydı, nə dərdidi, ordan bura vurub gəlib, saa başağrısı verməzdim. Tay onlardan keçib. Uşaq iki aydan sonra gəlməlidir. İndi maa bir saf söz de, görüm, bu işə boyun olursan, ya yox. Məsləhət üçün qabaqcadan onu da deyim ki, həkimliyə girəndən sonra yataqxanada qalar, hərdən də sizə gəlib gedər. Gözün də üstündə olar… Tay bundan sonrasını özün bil, Allahın bilsin.

Zaur Həsənzadə yüngülcə gülümsəyib fikrə getdi. Yasəmən ötkəm əda ilə:

- Zaur qardaş, arvad olmağıma baxma ee, mənim də hər şeydən xəbərim var. Bilirəm ki, Bakının bütün müəllimləri sənin əlindədi. Açsan ovcundadı, yumsan yumruğunda. Barmağın da hər yerə girir. Sən dura-du-

ra, dağa-daşa düşüb, ona-buna ağız açmayaq. Yüz ilin başıdı, bir "hə" de, mən də rahat olum. Səhər şad-şalayın qayıdım gedim. İndi kişinin gözü yoldadı. O da iş adamıdı, əkin-biçinin qızğın vaxtıdır. Kolxozdan ayrıla bilmir. Yoxsa, fikri vardı özü gəlsin. Şahmurad da, mən də əhd eləmişik ki, Nəzakətin toyunda gərək professor başda otursun. Tay saa bundan artıq sözüm yoxdur.

Zaur Həsənzadə başının hərəkəti ilə, yarıkönül Yasəmənlə razılaşdığını hiss etdirib sonra da:

- Yasəmən bacı, bu nə sözdür, nə mümkündür eləyərəm, - dedi. - Ancaq Nəzakəti başa salın ki, bir az hazırlaşsın. Yaxşı olar ki, ona əlavə müəllim tutasınız, imtahanda heç olmasa dilini tərpədə bilsin. Medinstitutdakı müəllimlərin çoxu mənim tələbəm olub, sözümü yerə salmazlar. Orada dostlarım da çoxdur, nə desəm eləyərlər.

Yasəmən yerdən göyəcən professordan razı qaldı:

- Professor, Allah ömrünü uzun eləsin, düzdü, neçə ilin dostuyuq, səni ümüd yeri bilib gəlmişəm. Bir söz də deyim ki, biz də heç kimə borclu qalan deyilik... Nəzakətdən ötrü, kimə nə desən, birə-beş əvəzini çıxmağa hazırıq. Heç kəsin qabağında xəcalətli qalmarıq… Professor adamsan, tay bundan artıq nə deyim. Çox şeyi xırdalamaq istəmirəm, özün bilirsən dayna, nə demək istəyirəm...

Zaur Həsənzadə də, onun arvadı Mədinə xanım da başa düşdülər ki, Yasəmən hara vurur… Professor o biri otağa keçəndə Mədinə Yasəmənin qulağına əyilib xısın-xısın:

- Aaz, arxayın ol, Zaurun xasiyyətini bilirəm, bir işə boyun olmasın, elə ki, oldu, qurtardı getdi. Bütün Bakı əlindədi, istəsə dağı dağ üstünə aşırar. O ki, qaldı Nəzakətə, qızın başını çox da böyütmə. Elə bilirsən indi oxuyan var?! İllahım da ki, vəzifəlilərin uşaqları. Hamısı da xahiş-minnətlə, pulla qiymət alır. Budee, üçü də bizdə var. Noolsun ataları professordur, vallah, onların kitab açdığını görməmişəm, səhər çıxırlar, axşam gəlirlər. Heç bilmirəm harda veyllənirlər. Zaurun adına görə qiymət alırlar. Az-çox oxuyan varsa, o da kasıb-kusubun uşaqlarıdır. Qabaqlar belə deyildi, indi zəmanə dəyişib.

Professor gələndə Yasəmənlə Mədinə söhbəti dəyişdilər. Zaur Həsənzadə ağayana əda ilə stulunda əyləşib həyat yoldaşına ərkyana:

- Arvad, bizə bir yaxşı çay ver, içək, - dedi. - Yasəmən də qızından ötrü ordan bura gəlib, gərək bu işi birtəhər çəminə qoyaq. Yoxsa Şahmuradın topunun-tüfənginin qabağında durmaq olmaz. Düzdü, bir az çətin məsələdi, ancaq neynəmək, gərək çalışıb düzəldəm. Çətin deyəndə də, nə çətin?! Dünyada bircə ölümə çarə yoxdu.

Söhbətin əvvəlində alçaq boyu, daz başı, qartal burnu olan və boynunun ardındakı seyrək, uzun tükləri çiyninə tökülən Zaur Həsənzadənin qırış düşmüş sifəti tutulmuşdu. Yasəmənin "nə desən durmuşuq, heç kəsə borclu qalmarıq", kəlmələrindən sonra onun gözləri işıqlandı. İndi professor təkcə Nəzakəti yox, beş onun kimi biliksizi istədiyi instituta düzəltməyə

hazır idi. Zaur Həsənzadə bu cür məsələləri həll etməyin yol-yolağasını ali məktəblərdə tədris etdiyi fəlsəfə elmindən yaxşı bilirdi …

…Beş il ötüb keçdi. Nəzakət tibb institutunu necə bitirdi, onu bir göydəki Allah bildi, bir professor, bir də ki Nəzakətin özü… Nəzakət həm də Zaur Həsənzadənin köməyi ilə doğma kəndi Ulduzluya baş həkim təyin olundu…

Kənddəki həkim məntəqəsinin işini köhnədən burada çalışan tibb işçiləri aparırdı. Nəzakətin isə quru adı idi. Hər gün geyinib-bəzənib sallana-sallana işə gedir, lazımi kağız-kuğuza qol çəkir, sərəncamlarını verir, günorta olmamışdan evə qayıdırdı. Ordan-burdan da istəyəni çox idi.

Həsənzadə əvvəllər əksər hallarda Ulduzluya tək özü gəlirdi. Nəzakət məktəbi qurtarıb kənddə həkim işlədiyi il Ulduzluya köçlü-külfətli gəlmişdi. Həyat yoldaşı Mədinədən, üç övladından başqa qardaşı qızını da yanına salmışdı. Şahmuradla Yasəmən onların qabağında dəridən-qabıqdan çıxmışdılar. Gündəgünaşırı sərin bulaqların başında bir kef məclisi qurardular, gəl görəsən. Başında da professor Zaur Həsənzadə.

Bir gecə necə oldusa, professorun səhhəti pisləşdi. O, hərdən ürək ağrısından əziyyət çəkirdi. Ona görə də hara gedirdi, hər ehtimala qarşı özü ilə dava-dərman götürürdü. Gecə saat üçdə professor halsızlaşdı. Belə məqamlarda o, "İzoptin" qəbul edirdi. İndi təcili olaraq onun venasına "İzoptin" iynəsi vurulmalı idi. Nə-

zakət professorun diqqətini iynə məsələsindən yayındırmaq üçün:

- "İzoptin"in tabletkası yaxşıdır, professor, - dedi.

Zaur Həsənzadə nəfəsini çiynindən ala-ala:

- Yoox, qızım, - dedi, - sumkada "İzoptin"in iynəsi var, bərayi-ehtiyat özümlə gətirmişəm. Gecikmək olmaz. Təcili iynə…

Rayonda telefon yox idi ki, zəng vurub təcili yardım çağırasan. Həkim məntəqəsinin işçiləri də qonşu kəndlərdən olduqları üçün, onlar da əldən çıxmışdı. İynəni Nəzakət özü vurmalı oldu. O, əzələ altına çox iynə vurmuşdu. Ancaq venaya öyrəşməmişdi. Zərurət olanda da bu işi köhnədən işləyən tibb bacılarına gördürürdü. İndi gecənin bu vaxtı neyləmək olardı?! Əlac Nəzakətə qalmışdı. O, üzə düşüb professorun çantasını açdı və birtəhər "İzoptin" iynəsini hazırlamağa başladı. Professorun ürəyi bulandı, vəziyyəti getdikcə ağırlaşırdı. Nəzakət əli əsə-əsə bir çətinliklə professorun venasını tapdı. Gənc həkimi tər basmışdı. O, "İzoptin"i damara yeritdikdən sonra iynəni geri çəkdi və qan axmasın deyə yerinə yod vurub, pambıq basdı. Həkimin bu "əməliyyatı" ev sahiblərini də, qonaqları da sevindirdi. Ancaq bu sevinc çox çəkmədi. Bir neçə dəqiqədən sonra Zaur Həsənzadənin gözləri alacalandı… Artıq onun nəbzi dayanmışdı. Evdə həyəcanlı qışqırıqlar qopdu. Bu məşum səs bütün Ulduzlunu oyatdı. Professorun vəfatı kəndə yayıldı.

Şahmurad tez rayona maşın göndərdi. Səhərin gö-

zü açılanda bir neçə adlı-sanlı həkim özünü yetirdi. Sən demə təcrübəsizlikdən vurulan iynədə hava qalıb, damarda qanın hərəkəti dayanıb, ürək fəaliyyətdən düşüb. Təkcə professorun ailə üzvləri yox, bütün kənd yasa batmışdı…

Mən Ulduzluda müəllim işləyərkən ilk dəfə idi ki, nadan "xeyirxahlığın" faciəli nəticəsinin şahidi olurdum. Direktor mənə: "raykomun ikinci katibi Niyaz Məcidovun baldızı Çimnaza bildi-bilmədi yüksək qiymət yazmaq lazımdı", - deyəndə professor Zaur Həsənzadənin aqibəti gəlib durdu gözümün qabağında. Lakin direktorla bu barədə mübahisə duelinə girişmək fikrindən vaz keçdim. Söhbəti başqa istiqamətə yönəldib axırda da "gecəniz xeyrə qalsın", - deyib, direktorla xudahafizləşdim.

* * *

Ətrafa qaranlıq çökmüşdü. Əhənglə ağardılmış qırmızı taxtapuşlu məktəb binası bağ-bağatın arasında lal-dinməz mürgü vururdu. Alt tərəfdən hərlənib mənzilimə yönəldim. O qədər də geniş olmayan balkonuma çıxdım. Məktəbin gözətçisi Alış kişi kənarda dayanıb uzun dəyənəyinə dirsəklənmişdi və ətrafa göz qoyurdu. Onun məktəbdə xadimə işləyən həyat yoldaşı Həcər içəridə lampanı yandırıb mənə şam yeməyi hazırlayırdı. Alış bu kəndə gəlmə idi. Gəlmə deyəndə, öz deməsinə görə keçmişləri varlı-hallı olub. Şübhəli adam kimi ona on il qazamat kəsiblər. Cəzasını çəkib qurtardıqdan sonra öz doğma kəndində yaşamağı ona qadağan elə-

yiblər. Muradlıya sürgün olunub. Sahibi olmayan uçuq-sökük bir daxmaya sığınıb. Bir müddət bekar-behdin qalıb. Sonra kimsə ona mərhəmət göstərib. Özünü cüzi bir maaşla məktəbə axşam gözətçisi, həyat yoldaşı Həcəri də süpürgəçi götürüblər. Bir tikə çörək pulu qazanıb başlarını girləyirdilər. Hərdən qərib adam kimi Alış kişi ilə söhbət edirdim. Bir dəfə o, sözarası:

- Müəllim, - dedi, - naşükürlük eləmirəm, dünyanın çoxunu da görmüşəm, azını da. Allahımdan da razıyam. Sibirin qar-qiyamətində bir heylə qazamat çəkdim, ölmədim, gəlib çıxdım. İndi də min şükür, hələlik dəyib dolaşanım yoxdur. Buradan da Allah bərəkət versin, çörək pulumuz çıxır, bəsimizdir. Azacıq aşım, ağrımaz başım. Tay bundan artıq nə olmalıdır?! İnsana da nə lazımdı?! Sağlam can, bir tikə də çörək. Şükür Yaradana, o da var.

Alış kişinin hökumətdən giley-güzarı yox idi. Mənə inanıb ürək qızdırdığı üçün hər şeyi açıq danışırdı. Deyirdi ki, hökumətdə nə günah, məni kənddə dədəsindən xəbəri olmayan yal otu gədə-güdələr pis qələmə verdi. Guya ki, Nikolayın vaxtında at ilxımız, qoyun sürümüz olub, nökər-naib saxlamışıq. Onlar əlimizdən getdiyinə görə indiki quruluşdan narazıyam. Kolxozun işinə pəl vururam, cavanları başdan çıxarıram. Nə bilim, vallah, min cür şər-şəbədə… Əttövbə, hamısı da yalan-palan, keçi su bulandırması. Əşşi, topum-topxanam var?! Əli tüfəngli qoşunum var?! Məndən hökumət yıxan olar?! Noolsun ki, keçmişdə var-dövlətimiz olub?! Onda hürriyyətçilik idi, dəyib-dolaşan yox

idi, bacarana baş qurban! Kimin fərasəti vardı, var da toplayırdı, dövlət də. Kasıb elə kasıbdı, ver yeyim, ört yatım! Qapısında da dördayaqlıdan bir pişiyi yox! Sonra da de ki, Alış kimi hampalar kasıb-kusubu göz açmağa qoymur. Yalançının atası tünbətün olsun! Əəə, kasıb köpəkoğlu, qazandın, qoymadım?! Yoxsa əl-ayağını bağlamışdım?!

Alış kişi içəridən yana-yana, qovrula-qovrula danışırdı:

- Müəllim, belə bir məsəl var ki, fərli oğul neynir ata malını, fərsiz oğul neynir ata malını. Müəllim, sənin mənə andın yoxdur, o qolu kəsik Həzrəti Abbas haqqı, səhər-səhər itnən qurd seçilməmiş, yorğan-döşəkdən qalxmışam, tüfəng qarovuldan düşəndə evə qayıtmışam. Səhərdən axşamacan yal-yamacda mal-heyvan qovalamışam. Kirpiyimlə od götürmüşəm. Ata-babamdan nə qalmışdısa, birə-beş artırmışam. Amma kasıb əsnəyə-əsnəyə yerindən günorta durur. Kasıb niyə kasıbdı?! Ağlının ucundan, tənbəlliyindən, qeyrətsizliyindən! Sovet hökumətindən incikliyim bircə odur ki, ...qibləsini bilməyən səfeh-süfehlərə inanıb, heylələrini qoltuğuna alır. Mənim kimilərini də Sibirə göndərir. Düz-əyri cəzamı çəkib qurtarmışam, genə kəndimə qoymurlar, yurd-yuvamdan didərgin düşmüşəm.

Hamı Alış kişiyə gəlmə, şübhəli adam kimi baxdığından, o, nadir hallarda kəndin arasına çıxırdı. Adamlara yovuşmurdu. Hamıdan qaçırdı, gen gəzib dolaşırdı. Onun qəlbinin dərinliklərində gizlin bir nifrət vardı. Lakin əskisi tüstülü olduğu üçün daxilində-

kiləri faş eləmirdi. Onun başı daşdan-daşa dəymişdi. Bilirdi ki, bir balaca alt-üst vursa, elə həmin gün başının üstünü alıb gedər-gəlməzə göndərərlər. Qazamatdakılar ona agent, şpion nə olduğunu öyrədib başa salmışdılar. Ona görə yeriyəndə də yan-yörəsinə baxırdı. Təkcə rastlaşdığı insanlardan yox, kol-kosdan, daşdan-qayadan da diksinib çəkinirdi. Qorxurdu… Qorxurdu ki, onu yuxarılara satarlar. Deyərlər ki, xalq düşməni Alış yenə də baş qaldırıb, dinc oturmur, altdan-altdan hökumətin əleyhinə işləyir. Ona görə də Alış səksəkəli gəzib dolaşırdı. Bilirdi ki, xüsusi nəzarətdədir. Onu tamam başına buraxmayıblar, izləyirlər, hər bir hərəkətinə göz qoyurlar. Ona görə də Alış gecələr də yata bilmirdi. Qapıda şıqqıltı eşidəndə hövlnak yerindən qalxırdı: - Hə, mənimki buracanmış, yəqin yenə aparmağa gəliblər, - düşünürdü. Ancaq hər yerdə quruluşun xeyrinə danışırdı, dor-dolanışığından razılıq edirdi. Bilirdi ki, başının salamat qalması üçün bundan başqa yol yoxdur. İndi elə bir zəmanədir ki, öküzü durquzdurub altından buzov istəyirlər. Vermədin, "yox" dedin, vay sənin halına.

Qərib adam kimi onu hərdən mənzilimə dəvət edib söhbətə tuturdum. Alış kişi mənə maraqlı əhvalatlar danışırdı. Şirin də söz-söhbəti vardı. Abırlı-ismətli qadın olan Həcər arvad çay-çörəyimi hazırlayır, pal-paltarımı yuyub ütüləyirdi. Təmiz-tarıx qadındı. Söz yox ki, onun zəhmətini əvəzsiz qoymurdum. Düşəndə qəpik-quruşdan verirdim. Məndən yerdən göyəcən razı idi.

Həmişə olduğu kimi, yenə də Həcərin hazırladığı

çay-çörəkdən yeyib-içib, Alışla da xeyli söhbət edib onları yola saldım. Məktəb, birotaqlı mənzil, bir də mən. Alış kişinin söz-söhbəti mənə əsər eləmişdi. Buna görə darıxdım, balkona çıxdım. Zirvəsi üfüqə dirənən dağlara, hiss olunmadan sağdan-sola, soldan sağa sürünən bulud laylarının arasında işıldayan ulduzlara baxdım. Yenə də fikirli-fikirli bu axşam mənzərəsini xeyli seyr etdim. Xəyallar aləminə baş vurdum. Sonra da mənzilimin qapısını açıb içəri daxil oldum. Yazı masamın arxasına keçib sabahkı dərslərə hazırlaşdım, görəcəyim işləri planlaşdırdım, elm, ədəbiyyat dahilərinin əsərlərini vərəqlədim. Gecənin darıxdırıcı xofundan xilas olmaq üçün ən yaxşı köməkçim fırçalarım oldu.

Şəkil çəkmək həvəsi məndə uşaqlıqdan yaranmışdı. Kəndimizdə oxuyanda belə, şerlərini əzbərlədiyim Səməd Vurğunun cürbəcür formada şəkillərini çəkirdim. Mən Göyəzən dağını görməmişdim, heç Səmədin özünü də. Ancaq təsəvvürümdə yaranan o idi ki, Göyəzən dağ yox, Qazax elində təbiətin şairə ucaltdığı əzəmətli heykəldi. Səmədin şəklini çəkdikcə, sanki öz naşı fırçamla ana yurdumun odunu-ocağını, ceyranların duruşunu, durnaların gözünü, kəkliklərin xınalı ayaqlarını, şamamanın tağını, qız-gəlinlərin mina gərdənini, bulud saçlarını vəsf edirdim. İndi fırçam ağır rəssamlıq zəhməti tələb edən və neçə aya başa gələ biləcək yeni bir rəsm əsərinin sınağı qarşısında idi. Bakıda olarkən Nizami institutunun yerləşdiyi binanın günbatan tərəfindəki baxarında yazıçıların yan-yana dayanmış heykəllərini görmüşdüm. Həmin fonda əsərləri stol-

üstü kitabım olan Nizaminin, Füzulinin, Vaqifin, Şota Rustavelinin yanaşı şəkillərini çəkmək qərarına gəlmişdim. Bunun üçün bir metr eni, üç metr boyu olan ağ, qalın parça tapmışdım. Gecələr, bir də istirahət günləri şəkillərin üzərində işləyirdim. Şota Rustavelinin şəkli üzərində çalışarkən: "Qız dedi, burax, məni burax! Qara quşun pəncəsində kəklik kimi çırpınaraq" misraları məni xəyalən kəndimizin dağlarına, qayalıqlarına aparıb çıxarırdı. Orda kəkliklərin, qızılquşların, qartalların pəncəsində necə çırpındığının dönə-dönə şahidi olmuşdum. Qara quşun caynağından xilas olmaq üçün kəkliyin, göyərçinin yolla gedən atlıya pənah gətirib, onun qucağına təpindiyi anları görmüşdüm. Şəkillərin üzərində işlədikcə bütün qayğılarımı unudub özümü Nizami, Füzuli, Rustaveli dünyasında hiss edirdim. Vaqifin şerləri məni Kür qırağının seyrəngahına aparırdı. Hər cür qəmdən-qüssədən uzaq olurdum. Maarif şöbəsinin haqsız yerə məni ildə bir kəndə dəyişib, əzab-əziyyətə salmasından yaranan narazılıqları, professor Zaur Həsənzadənin axırda öz başında çatlayan "xoş əməllərini", direktorun "bildibilmədi raykom katibinin baldızına yüksək qiymət yazmaq lazımdı", - deyib məni yanlış yola təhrik etməsini, pambıq gözətçisinin nisgilli sözlərini, "gəlmə" adlanan Alış kişinin giley-güzarını unudurdum. Dünyanın dərd-sərindən xilas olurdum. Şer-sənət cənnətində dinclik, rahatlıq tapırdım. Axırda da başımı yastığa qoyub sakitcə uyuyurdum.

* * *

Bir neçə gündən sonra pedaqoji sovetin növbəti yığıncağı keçirildi. Günün axırı idi. Dərslər qurtarmışdı. Şagirdlər dağılışıb getmişdi. Xadimələr başlarını aşağı salıb döşəmələri, partaları təmizləyirdilər. Koridordan keçəndə, yuyulmuş taxta döşəmələrin kəsif qoxusu gəlirdi.

Müəllimlər direktorun kabinetinə toplaşmışdı. Direktor səliqə ilə geyinib, gur saçlarına daraq çəkib öz stolunun arxasında rəsmi görkəm almışdı. Adəti üzrə əvvəlcə o, ayağa qalxıb sözə başladı. Yaxın günlərdə rayon maarif şöbəsi tərəfindən məktəbdə kompleks yoxlama aparılacağını müəllimlərin nəzərinə çatdırdı. Və dedi ki, bu işə hazır olmalıyıq. Sabahdan başlayıb bütün kəm-kəsirlərimizi düzəltməliyik. Elə eləməliyik ki, yoxlamaya qədər bütün işlərimiz qaydasında olsun. Əl ilişən yer qalmamalıdır. Direktor bəzi müəllimlərin adını çəkib, eyhamla onlara razılığını və narazılığını bildirdi. Ad çəkməsə də, üstüörtülü onu da qeyd etdi ki, bir-iki nəfər müəllim direktorluqla hesablaşmaq istəmir, öz bildikləri kimi hərəkət edirlər. Və onlardan yaxa qurtarmaq üçün maarif şöbəsinin qarşısında məsələ qaldıracaq. Direktor örtülü danışsa da əyləşənlər bilirdi ki, o, hara vurur və kimləri nəzərdə tutur.

Direktordan sonra müəllimlər bir-bir ayağa qalxıb tabe olduqları adamın dediklərinə münasibətlərini bildirdilər. Direktorun ürəyinə yatan tərifli sözlər danışdılar. Hamı ürəyini boşaldandan sonra institutu bir neçə il bundan qabaq bitirib, elə həmin ildən də bura-

da fizika-riyaziyyat müəllimi işləyən Nəcməddin müəllim ayağa qalxdı. Əslində o, iclasın əvvəlində əlinin işarəsi ilə direktordan çıxış üçün söz istəmişdi. Direktor onun işarəsini görməməzliyə vurmuşdu. Nəcməddin müəllim dili ilə: "Mənə söz verin", - demişdi. Direktor qarışıqlığa salıb Nəcməddin müəllimin sözünü qulaqardı edib, başqalarını araya salmışdı. Direktor Nəcməddin müəllimin xasiyyətinə bələd idi. Bilirdi ki, çıxış edən bəzi müəllimlər kimi tərifli-təmtəraqlı sözlərlə nə məktəbin, nə də direktorun xeyrinə danışan deyil. Ona görə də direktor Nəcməddinin tikanlı atmacalarından qaçırdı. İstəmirdi ki, müəllimlərin gözü qarşısında onun şəstinə toxunan olsun. Nəcməddin ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdi. Öz ixtisasını dərindən bilirdi. Məktəbdə riyaziyyat müəllimi çatmadığından onun dərs saatı hamıdan çox idi. Və direktordan da yüksək maaş alırdı. Geyim-keciminə də o qədər fikir verən deyildi. Onun qalstuk vurduğunu görən olmamışdı. Üst-başı tökülüb itirdi. Bir az da dikbaşlığı vardı. Dili acı olsa da, düz danışan idi. Ona görə də çox adam onun sözünün başına ip salıb, qanını qaraltmaq istəmirdi. Biliyinə, yaxşı dərs keçdiyinə görə şagirdlər arasında özünə nüfuz qazanmışdı. Uşaqlar ən çox onu eşidirdi.

Nəcməddin müəllim rayonda da tanınırdı. Bəzən nazirlikdən, orta məktəbin buraxılış sinifləri üçün gələn imtahan paketlərindən elə məsələ-misallar çıxırdı ki, onu müəllimlərin özü belə həll etməkdə çətinlik çəkirdilər. Nə qədər əlləşirdilər, cavab düz gəlmirdi.

Onda rayondan sifariş göndərib Nəcməddin müəllimi köməyə çağırırdılar. Nəcməddin müəllim çatan kimi həmin çətin məsələ-misalları beş dəqiqəyə həll edib qoyurdu ortalığa. Nəcməddin müəllimin bir xasiyyəti də var idi ki, kin-küdurət saxlayan deyildi, onunku nə var idi, dilində idi. Nəcməddinlə işləyənlərin çoxu partiya üzvü idi. Başqaları partiyaya keçməkdən ötrü sinov gedirdi və partkoma minnətçi salırdı. Nəcməddin müəllimi isə partkom özü dilə tutub, partiya sıralarına qəbul etmək istəyirdi. Ancaq Nəcməddin yaxasını kənara çəkirdi. Deyirdi ki, partiyaya keçdin, oldun kəbinli arvad, nə çalsalar, gərək o cür də oynayasan. Əksəriyyəti də vəzifə almaq xatirinə partiyaya qəbul olmağa çalışırdı. Deyirdi, mənim nəyimə lazımdı. Bu bir aksiomadır ki, ikinin üstünə iki gələndə dörd eləyir. Elə ki, partiyaçı oldun, əlinə də vəzifə keçdi, bildiyin kimi düşünüb danışa bilməzsən. Sual eləsələr ki, ikinin üstünə iki gələndə neçə eləyər, dörd, deyə bilməzsən. Gərək başda oturanların ağlı kəsən, ürəyinə yatan cavabı verəsən. İkinin üstünə iki gələndə iqtidar sahibinin rəyinə uyğun olaraq: on, lazım gəlsə, yüz elədi, - deyəsən. Bunları bilə-bilə partbiletə, vəzifəyə uyub başımı cəncələ sala bilmərəm. Ona görə də təmiz vicdanımı qoruyub saxlasam, bəsdir. Müəllimlikdən başqa da heç nədə gözüm yoxdur. Düzdür, vəzifə köhlən at kimi bir şeydir, onu minmək üçün çoxları dəridən-qabıqdan çıxır. Tay o tərəfini fikirləşmir ki, mən bu atın üstündə duruş gətirə bilərəm, ya yox... Axırda da cilovu yığa bilmir, kəlləmayallaq gedir.

Nəcməddin müəllim ayağa qalxıb icazəsiz danışdığı üçün əvvəlcə üzr istədi, sonra sözə başladı:

- Bəzən deyirlər sərt adamsan, dilin xarabdır. Qoy desinlər, heç kimin ağzını yummaq olmaz. Kim nə danışır, nə deyir, onun öz işidir. Sözümü bilib, başa düşdüyüm kimi deməliyəm. Məndən əvvəl çıxış edənlər elə danışdılar ki, yad adam eşitsə düşünər ki, Muradlı məktəbində artıq kommunizm qurulub. Hərənin də döşündən bir medal asılmalıdır. Müəllim adı daşıyan kəsə yalan-yaltaq danışmaq yaraşmaz. Burda çıxış eləyən bəzi müəllimlərin bayağı sözlərini eşidəndə onların yerinə xəcalət çəkdim. Nədi-nədi direktorun xoşuna getsin. Acı həqiqət şirin yalandan qat-qat yaxşıdır. Sadiq dost odur ki, dostunun səhvini çılpaqlığı ilə üzünə desin. Direktoru da, burada əyləşən müəllim həmkarlarımı da özümə məhrəm dost bilirəm. Ona görə də əsl həqiqəti deməliyəm. İdarə başçısı nöqsanlara yol verirsə, onun tabeliyində olanlardan düzgünlük tələb etməyə mənəvi haqqı yoxdur. Balıq başdan iylənər. Ona görə də, elə əvvəlcə direktorun özündən başlamaq istərdim.

Direktor stulunda qurcalandı və əlindəki qələmlə qarşısındakı kağıza nə isə yazmaq istəyirmiş kimi başını aşağı dikdi. Müəllimlər bir-birinin üzünə baxıb hiss olunmadan qımışdılar. Hamıdan qabaqda əyləşən həlim xasiyyətli ədəbiyyat müəllimi Nəcməddinin çıxışına qarşı etiraz etmək mənasında ikrahla başını buladı. O, demək istəyirdi ki, iclas sakitcə getdiyi yerdə, Nəcməddinə nahaq söz verildi. İndi aləmi bir-birinə qarışdırıb, hamının qanını qaraldacaq. Nəcməddinin

də keçmə belə xasiyyətindən. Guya sən dediklərini burda başqası bilmir?! Görürsən ki, çıxış edənlərin heç biri dilinə artıq-əskik söz gətirmədi. Bu dünyanın dərdi, səri elə təkcə sən Nəcməddin müəllimə qalıb?! Pah! Guya bu danışanda hər şey düzələcək! İndi danış, ürəyini boşalt! At mıxı yerdən çıxaranda, bir yerə vursa, beş də özünə dəyir. Sənin sözünlə guya direktoru vəzifədən götürəcəklər?! Ya da ki, donluğunu azaldacaqlar?! Di nə qədər danışırsan danış! Altda qalanın canı çıxsın. Əvvəl-axır yenə də pislik özünə qalacaq. Dediklərinin altını çəkməsən, qulağımı kəsərəm…

Nəcməddin bilirdi ki, onun çıxışı bəzilərinin ürəyincə deyil. Lakin buna baxmayaraq, sözünü deyirdi:

- Direktor qabaqlar hərbi komissarlıqda işləyib. Az-çox idarəçilik təcrübəsi var. Yaşca da çoxumuzdan böyükdür. Hörmətini də saxlayırıq. Bunlar öz yerində. İndi ondan soruşmaq istəyirəm, - ixtisasca coğrafiya müəllimi olduğunuz halda, hansı məntiqlə triqonometriya dərsini də özünüzə götürmüsünüz?! Heç bilirsiniz triqonometriya elmi nədir?! Mən riyaziyyat müəllimi olsam da, triqonometriyanı əməlli-başlı bilmirəm. Nədi-nədi direktorun dərs saatı artsın. Və çox maaş alsın. Şagirdlərə isə triqonometriya elmi aşılandı, aşılanmadı, onu düşünən yoxdur. Qəbul olunmuş qayda-qanuna görə direktor vəzifə pulu aldığına görə, on iki saatdan artıq dərs deyə bilməz. Ancaq yoldaş direktor, düz iyirmi beş saat dərs götürmüsünüz. Özünüz də gözümüzün içinə düzlükdən danışırsınız. Direktor həftədə azı səkkiz-on saat müəllimlərin dərsində

oturub fənlərin hansı səviyyədə tədris olunduğunu müşahidə etməlidir. Birinci rüb başa çatıb, ikinci rübün axırına da az qalıb. Direktor barmağını qatlasın ki, bu müddətdə bir müəllimin dərsində iştirak edib. Özünüz zəhmətə qatlaşıb rüblük, gündəlik plan tutmursunuz. Gündə də bir bəhanə ilə dərs buraxırsınız. Ancaq müəllimlərdən nizam-intizam tələb edirsiniz. Hələ mən internata gələn ərzağın uşaqların boğazından kəsib, dal qapıdan haralara ötürüldüyünü açıb ağartmıram. Onsuz da direktor özü yaxşı bilir ki, mən nə demək istəyirəm…

- Vaxt qurtarır! Vaxt qurtarır! Əyləşin! - Qırmızı sifəti, hündür boyu və yaşından on il cavan görünən ədəbiyyat müəllimi yerdən dilləndi. Arxada oturanlardan bir neçə nəfər də onun səsinə səs verdi. Orta cərgədə əyləşənlərdən kimsə aranı qarışdırmaq üçün ayağını yerə döydü. Deyəsən idman müəllimi idi.

- Yoldaşlar, mane olmayın! Mane olmayın! Qoyun danışsın!- deyə, direktor ayağa qalxıb səs-küyü yatırtdı.

Nəcməddin müəllim:

- Heç narahat olmayın, hələ sözümü deyib qurtarmamışam. Görürəm, bəzi yoldaşlar canfəşanlıq eyləyib özlərini direktora canıyanan kimi göstərmək istəyir. Mən buna müəllim adına yaraşmayan miskin bir yaltaqlıq kimi baxıram. Əslində direktorun ən birinci təəssübkeşi mən özüməm. Mən nöqsanları açıb tökmək istəyirəm ki, direktor ayılıb onu aradan qaldırsın, sabah maarifdən yoxlama gələndə yaxası ələ keçmə-

sin. Burada haray-qışqırıq salıb ayağını yerə döyənlər isə səhvləri ört-basdır eləyib üstündən mala çəkirlər ki, direktor sabah tələyə düşsün.

Nəcməddin müəllim belə deyəndə hamı susdu, direktor "sakit olun", demək mənasında əlindəki karandaşla stolun üstündəki su qabını cingildətdi. Nəcməddin müəllim bir qədər də əsəbiləşdi:

- Məktəbimizin girəcəyində asılmış şüara gör nə yazılıb?!"Kommunizm quruculuğu üçün sağlam nəsil yetişdirək". Di gəl ki, sözümüzlə əməlimiz düz gəlmir. Bir qədər açıq danışmalıyam. Hər dəfə rüb başa çatanda direktorla üz-göz oluram. Dirənir ki, Çimnaza "5" yaz. Nədi-nədi, Çimnaz ikinci katibin baldızıdı. Başa düşə bilmirəm, qiymət şagirdin aldığı biliyin səviyyəsinə görə verilir, yoxsa onun kimin nəyi olmasına görə?! Bəzi ağzı göyçəklər deyir ki, Nəcməddin müəllim qiymətə xəsisdir. Kökündən yalandı. Gəlmə Alışı hamımız yaxşı tanıyırıq. Məktəbin gözətçisi Alış Pirverdiyevi deyirəm. Mağmının biridir. Düz-əyri onun başına gətirilənlərlə işim yoxdur. Oğlu Mərdan Çimnazla bir sinifdə oxuyur. Gündəlikdə də, rüblükdə də ona həmişə "5" yazıram. Əgər ondan da artıq qiymət olsaydı, Mərdandan əsirgəməzdim. Çünki gecə-gündüz çalışır. Mənə belə gəlir ki, hər bir müəllimin şagirdə verdiyi qiymət, onun öz vicdanına, əxlaqına verdiyi qiymətdir.

Nəcməddin müəllimin dediklərinin çoxu həqiqət olsa da, əndazəni aşması bəzi həmkarlarına xoş gəlmirdi. Mənə elə gəldi ki, artıq direktorun səbri tükənib. O, indicə ayağa qalxıb Nəcməddin müəllimin sö-

zünü kəsəcək. Onun dediklərini burdakıların qarşısında təkzib edib, oturdacaq yerində. Bir də onu fikirləşirdim ki, aradakı pərdə yırtılandan sonra direktorla riyaziyyat müəlliminin bir yerdə işləməsi baş tutmaz. Yəqin direktor günü sabahdan ayağını rayona qoyub deyəcək ki, o məktəbdə ya mən, ya da Nəcməddin müəllim! İndən sonra bizimki bir yerdə tutmaz. Ancaq düşündüklərimin əksi oldu. Natiq sözünü axıracan deyib qurtarandan sonra direktor təmkinini pozmadan ayağa qalxdı və ümumi sözlərlə pedoqoji sovetin yığıncağına yekun vurdu. Nəcməddin müəllimin irad və ittihamları barədə bircə kəlmə də danışmadı. Sanki bayaqdan bəri Nəcməddin müəllimin tənqid hədəfinə çevrilən direktor yox, bir başqasıymış.

Yığıncaq qurtardı. Müəllimlər iki-bir, üç-bir məktəbi tərk edib evlərinə yollandılar. Direktorun kabinetində ikimiz qaldıq. O, pedsovetin gedişi, Nəcməddin müəllimin yerli-yersiz sözləri barədə bir kəlmə də danışmadı. Direktor bəlkə də otuz-qırx nəfər müəllimin arasındakı müzakirəni ikilikdə davam etdirməyə lüzum görmürdü.

Biz kabinetdən çıxıb məktəbin həyətindəki idman meydançasına tərəf yönəldik. Meydançanın kənarında cərgələnən çinar ağaclarının arasında o baş-bu başa xeyli var-gəl etdik. Aramızda gedən söhbətin məktəbin işinə, yenicə qurtarmış qalmaqallı yığıncağın gedişinə heç bir dəxli yox idi. Biz tamam başqa əhvalatlardan danışırdıq. Rayonda ağızdan-ağıza gəzən bir məsələ barədə söhbət etdik. Rayonun Hərbi Komissarı Nəsi-

rovla İspalkom sədri Atakişiyev qapıbir qonşudurlar. Aralarından su da keçmir. Hər axşam ailəlikcə ya Nəsirovgilə yığışırlar, ya da ki, Atakişiyevin evində olurlar. Bütün rayon bilir ki, onlar birevlidirlər. Bircə yatıb duracaqları ayrıdır. Ancaq əsgərliyə çağırış vaxtı Nəsirov Atakişiyevin yeganə oğlundan keçməyib. Raykomun birinci katibi bu işə dil bulasa da, xeyri olmayıb. Direktor dedi ki, bu günlərdə rayonda olanda Nəsirovla görüşdüm. Onunla qabaqlardan yaxınlığımız var. Əvvəllər mən özüm də o idarədə işləmişəm. Nəsirovla aramız açıqdır. Bir-birimizdən gizli sözümüz yoxdur. Nəsirovdan ispalkomun oğlunun əsgərlik məsələsini soruşdum. O, bir qədər duruxdu. Sonra mənə dedi ki, balaca bir rayondur, böyükdən kiçiyə hamı bir-birini tanıyır. Atakişiyevlə də münasibətimizi yaxşı bilirlər. Şəxsi münasibət başqa, dövlət işi başqa. Bunları bir-birinə qarışdırmaq olmaz. Mən qanunu pozub, ispalkom sədrinin oğlunu əsgərlikdən saxlasam, eşidib-bilən bizə necə baxar?! Məncə çox pis! Bir də ki, ispalkomun oğlunu saxlasam, nə əsgərliyə gedənlərin özləri, nə də ki, valideynləri ürəklərində bizi bağışlamazlar. İspalkom olmasın, kim olur olsun, dostluq, yoldaşlıq xatirinə, lazım gəlsə sabah silaha sarılacaq adamların tərbiyəsini poza bilmərəm. Gün gələr, o silah özümüzə qarşı yönələr. Di gəl ki, bunu qanıb başa düşən adamlar azdır. Kim görür, bu məsələyə görə məni qınayıb deyir ki, nahaq ispalkomun gözünün ağı-qarası olan bircə oğlunu göndərmisən. Axı gor qonşususunuz, gecə-gündüz bir yerdə çörək kəsirsiniz. Bax, belələrinə nə deyəsən? Düzdür, Atakişiyev özü bu ba-

rədə mənə ağız açmayıb, ancaq hiss edirəm ki, inciyib. Görürəm də, son vaxtlar mənimlə mısmırıqlı danışır. Ancaq nahaq yerə. Atakişiyevin oğlunu əsgərliyə göndərməklə birinci onun özünü qorumaq istəyirəm. İstəyirəm adına artıq-əskik söz deyilməsin. Qabaqdan partiya konfransı gəlir. İstəməyənlərdən biri tribunadan banladı ki, ispalkom sədrinin oğlu əsgərlikdən yayınıb. Məni də ona qatdılar. Buna nə cavab vermək olar? Və ya əli dinc durmayanların biri götürüb yazdı Moskvaya, ikimizin də şələ-şüləsini verib atarlar bayıra.

Direktor ayaq saxlayıb düz üzümə baxdı:

- Kim nə deyir-desin, bu məsələdə Nəsirov haqlıdır. Mən özüm vaxtilə orduda xidmət etmişəm. Hərbi iş dəmir intizam tələb edir. Alman faşistləri ilə döyüşdə bəs nəyin hesabına qalib gəldik?! Orduda möhkəm qanun-qayda vardı. Əsgərdən tutmuş generala qədər hamı çəkici bir nöqtəyə vururdu. Döyüşçülərdə güclü vətənpərvərlik hissi vardı. Onlar torpağı canlarından artıq bilməlidirlər. Ona görə də Nəsirov düz eləyir, - direktor söhbətə davam elədi. - Onun qəribə xasiyyəti var. Sərt və ciddi adamdır. Çoxlu da kitab oxuyur. Bir dəfə şairlərdən hansınınsa şerini əzbərdən dedi. Onun iki misrası yadımda qalıb:

Padşahdan razı olmasa ordu,
Heç vaxtı ürəklə qorumaz yurdu.

Nəsirov həmin şeri deyəndən sonra əlavə etdi: - Xoşum gəldi, bu sözlər ibrətamizdi. - Nəsirov həmin

şeri oxuyandan sonra, - padşah olmasın, olsun ölkə başçımız. Ona qarşı razılığı və narazılığı yaradan kimdir?! Nəsirovlar, Atakişiyevlər.

Direktor əlinin hərəkəti ilə: - Nəsirovun dedikləri ilə tamamilə razıyam, - dedi. - Düz sözə nə demək olar?! Hərbi komissarın belə bir qəribə xasiyyəti də var ki, hər adamla oturub-durmaz. Yalnız Atakişiyevin evinə gəliş-gedişi var. Onunku bir də məhkəmənin sədri Böyükağa Ramazanovla tutur. O da yəqin yerli olduqlarına görədir. Axı, Nəsirov da bakılıdı, Ramazanov da. Əslində onları birləşdirən başqa şeydi. Hər ikisi düz və təmiz adamdı. Alıb-verməklə araları yoxdur. Mən özüm neçə dəfə Nəsirovun evində olmuşam. Bir həsirdi, bir Məmmədnəsir. Görsən deməzsən ki, bu bir rayonun hərbi komissarının evidir. İnanıram ki, onun əlinə aylıq əmək haqqından başqa heç nə gəlmir. Bir də ki, hərbdə tərbiyə görmüş adamdır, başqa cür də ola bilməz.

Direktor birdən məndən aralanıb dabanını qaldırdı. Və çinarların cərgəsindəki evkalipt ağacının qanadına əl uzatdı. Üzdüyü yarpaqları əlində əzib qoxladı:

- Xoş ətri var, - dedi. - Bildiyimə görə, evkalipt bitən yerdə ağcaqanad, cücü-mücü az olur. Özü də yaraşıqlı ağacdır. Heyf ki, buralarda tək-tük gözümə dəyir. Gərək zavxoza tapşıram, yazda hardan olur-olsun bunlardan tapıb əksinlər.

Direktor söhbəti başqa səmtə yönəltdi:

- Əşşi, Nəsirov belə gəldi, Atakişiyev belə getdi, bizim nəyimizə gərəkdi, - dedi, - prosto söz düşdü danışdım, ancaq bunları ayrı yerdə demə, yerin də qulağı

var, eşidib-eləyərlər yaxşı düşməz. Məni narahat edən başqa məsələdir. Balıq nəzarətçiləri keçib boğazıma. Neçə ildir müəllimlər evinin iki otağını zəbt eləyiblər, indi də çıxara bilmirik. Bir tərəfə baxanda təqsir özümüzdədir. O vaxt "yox!" desəydim, qurtarıb getmişdi. Rayondan xahiş elədilər, mən də üzə düşüb razılaşdım. Ancaq nahaq yerə. Heç öz müəllimlərimizə ev tapa bilmirəm. Elə biri sənin özün, məktəbin darısqal bir otağına qısılmısan. Bəlkə bu gün sabah evləndin, balaca bir otaqda ailə saxlamaq olar?! Üç ildən çoxdur bu erməni dığaları gəlib qəmiş olublar. Onları çıxarda bilsəydim, gedib yığışardın ora. Biryolluq canın qurtarardı. Mən də arxayın olardım. Bu balıq məsələsi də ki, var, bir nağıldı. Daha doğrusu, möcüzə. Xüsusilə, qızıl balıqların həyatı. Nəzarətçilər dəstəsinin başçısı ermənidir. O, bu barədə mənə ətraflı danışıb. Qızıl balıqların kürü tökmək məqamı yaxınlaşanda, Xəzəri tərk edib, Kürdən, Arazdan keçib tərtəmiz sulara üz tuturlar. Bərgüşaddan yan keçib, ondan iki-üç dəfə kiçik olan Həkəri çayına gəlirlər. Kürülərini çaya qarışan ən təmiz bulaq sularına tökürlər. Qızıl balıqlar üçün Həkəri ən təhlükəsiz məkandır. Kürüdən əmələ gələn kiçik balıqlar burada yırtıcıların güdazına getmir. İrilənib düşməndən xilas olmaq həddinə çatanda yenə də Xəzərə qayıdırlar.

Hələ bu çağacan Bərgüşad çayında qızıl balıq görən olmayıb. Ancaq Həkəri çayında hər addım qızıl balıqdı. Özü də hər biri on-on beş kilo ağırlığında. Ona görə də qızıl balıqların ovlanıb məhv edilməsinin qar-

şısını almaq məqsədi ilə hökumət hər il Arazdan başlamış Muradlıya qədər Həkəri çayına o tay-bu tay nəzarətçilər təyin edir. Tərs kimi onların da postu burada yerləşir. Kənddə münasib yer olmadığına görə müəllimlər üçün tikilmiş binanın iki otağı nəzarətçilərin ixtiyarına verilib. Dəstənin böyüyü Arakel Tumanyan hərdən lovğalanır ki, ara, bu elə bir işdi ki, hər adama tapşırmaq olmaz. Hökumətin ağlına yoxdu ki, plan qədər pul töküb bizi Bakıdan bura göndərir?! Gəlmişik qızıl balıqların ovlanıb məhv edilməsinin qarşısını alaq.

Arakelin qənimi bircə zavxoz Abasquludu. Məktəbdə işləyəndən bəri hamı ona zavxoz Abasqulu deyir. Vurmaqla da arası sazdı. Dilinə əllicə qram araq dəydi, qurtardı getdi. Ondan sonra gəl görüm zavxoz Abasqulunun qabağında necə duruş gətirirsən. Sözünün nə dalı var, nə qabağı. Arakelin gözünün odunu necə almışdısa, Abasqulunu görən kimi ehmalca sivişib aradan çıxırdı. Bilirdi ki, ağzına gələni tullayıb, Arakelin paxırını açıb qanını it qanına döndərəcək. Ona görə də dükançı Ağaverdi hərdən zavxoz Abasquluya ən ucuz araqdan ikicə yüz qram dadızdırıb verirdi qabağa. Abasqulu adamların yanında zarafata salıb Arakel Tumanyanın üzünə deyirdi:

- Arakel kirvə, bizə az kələk gəl! Sən özün xəlvətə salıb altdan-altdan qızıl balıqları tutdurub orda-burda xırıd elətdirirsən, bizim gözümüzə də kül üfürürsən. Ə, it oğluyam, yalan desəm, bütün torçularla əlbirsən. Aşağı Xəndək kəndindəki Sarı Sərxan var, özün onu

yaxşı tanıyırsan, dost-doğma dayım oğludur. Hamısını maa danışıb. Axşam düşən kimi toru götürüb düşür çayın canına. Çörəyə and içir ki, nə tutsam Arakellə yarıyam. Bax, buna sözün nədir?! İstəyirsən Qaracalıda, Sarıyataqda, Molluda, Xanlıqda hansı torçuyla əlaqən var, hamısını açım deyim.

Arakel qızarıb-bozarsa da, zavxoz Abasquluya baş qoşub, onunla söz güləşdirmək istəmirdi. Bilirdi ki, dillənsə uduzar. Çünki Abasqulu düzünü deyirdi. Ona görə də Arakel Tumanyan arsız-arsız gülüb, Abasqulunun sözünü zarafata salır və yan-yörədəkilərə üzünü tutub deyirdi:

- Ara, Abasqulu ki, bu sözləri deyir, gərək heç kimə inanmasın. İçib kepi kök olub. Ona görə belə axmax-axmax danışır.

Əslində Abasqulu Arakeldən yanıqlı olduğuna görə onu harda görürdü sancırdı. Direktor neçə dəfə Abasquluya demişdi ki, o Arakel Tumanyanı başa sal, müəllimlərin evində qaldıqları bəsdi, itilib getsinlər. Abasqulu da demişdi. Ancaq Arakel bu gün-sabaha salıb, üç-dörd il idi müəllimlər evindən çıxmırdı. Mənzil məsələsi gələndə Arakel qapını bağlayıb əkilirdi. Və on günlərlə Muradlı tərəfə üzükmürdü.

Direktor artıq boğaza yığılmışdı. Müəllimlər də dilə gəlmişdi, yeri düşəndə gileylənirdilər ki, bu bina müəllimlər üçündür, yoxsa Arakel kimi balıq dəllallarından ötrü tikilib?

Direktor ürəyində tutmuşdu ki, həmin mənzili qızıl balıq nəzarətçilərindən azad edib versin mənə.

Arakel Tumanyan isə üzünə üz bağlayıb çıxmaq bilmirdi. Direktor mənimlə söhbətində dedi ki, əlac ona qalıb ki, bu barədə rayon təşkilatlarına rəsmi müraciət eyləyim. Yoxsa avazla dua oxumaqla, donuz darıdan çıxan deyil. Erməni də belədir ki, üz verdin astar da istəyir.

Söhbətimizin bu yerində direktorun böyük qızı bizə yaxınlaşıb çəkinə-çəkinə:

- Anam göndərib, dedi get gör atan hardadı, gəlsin evə.

Direktor qızını nəvazişlə süzərək:

- Yaxşı, get, gəlirəm, - dedi. - Anana de ki, bəlkə qonağımız da oldu.

Direktor üzünü mənə tutaraq:

- Bir yerdə gedək, arvad yaxşı dolma bişirib. Onsuz da tək-tənha adamsan, arvad yox, uşaq yox…

Məktəbin darvazasından çıxıb maşın yolunu addayanda Nəcməddin müəllimlə rastlaşdıq. O, evindən bir qədər aralıdakı cəviz ağacının dibində dayanıb fikirli-fikirli siqaret çəkirdi: "Yəqin ki, direktor ona qarşı olan incikliyini açıq-aydın büruzə verib, üzünü əks tərəfə tutacaq və Nəcməddini saya salmadan salamsız-kəlamsız ötüb keçəcək", - öz-özümə düşündüm. Və bir qədər də narahat oldum. Lakin direktor ona tərəf dönüb:

- Axşamın xeyir, Nəcməddin müəllim, - dedi. - Niyə tək dayanmısan? Gedək bizə. Yəqin yeməyə bir şey tapılar. Bir az da nərd atıb söhbət eləyərik.

Sözsüz ki, Nəcməddin müəllim direktordan belə bir xoş münasibət gözləmirdi. Ona görə də özünü itirən

kimi oldu. Nə demək istəyirdisə, sözünün rabitəsi pozuldu və çaşqın halda:

- Yox… sağ… sağ olun… Mən çay içib çörək yemişəm. Bir yoldaş var, onu gözləyirəm.

Direktor tükü-tükdən seçən adam idi. Nəcməddin müəllimin peşmançılıqdan irəli gələn daxili həyəcanını hiss edib gülümsədi. İncə və istehzalı bir təbəssümlə:

- Gedək, - dedi, - gedək, - təklifini təkidlə təkrar etdi.

Nəcməddin müəllim gördü ki, bu quşqun təklifi deyil, direktor ürəkdən deyir, daha dillənmədi, yumşalıb sakitcə bizə qoşuldu.

Direktorun evində həmişəki kimi bir təmizlik, səliqə-sahman var idi. Burada özümü rahat hiss edirdim. Bəzən fikrim dolanır, mənzilimə dönəndə, evimi bu cür səliqəli görmək istəyirdim. Hələlik isə belə bir xoşbəxtlikdən çox uzaq idim. Və bir çox səbəbdən ailə həyatına hazır deyildim. Nəcməddin müəllim üzdə özünü tox tutub sərbəst göstərmək istəsə də, onun daxili narahatçılığını başa düşmək çətin deyildi. Elə bil onu məngənəyə salıb sıxırdın. Bəlkə də direktor ona təpinib hərbə-zorba gəlsəydi və ya giley-güzarını bildirsəydi, Nəcməddin müəllim bu qədər əzab çəkməzdi. Nəcməddin müəllim bu axşam qəribə bir cansıxıcı "ehtiram və səmimiyyətlə" üzləşmişdi. Onu tez-tez tər basır, süfrəyə uzanan əlləri titrəyirdi. Onun düşdüyü vəziyyət az-maz mənə də sirayət eləyirdi. Və həmişə özümü sərbəst apardığım evdə indi bir qədər darıxırdım…

Çay-çörək yığışdırılandan sonra direktor Nəcməd-

din müəllimin üzərində çaldığı "qələbənin" nəşəsini yaşayırmış kimi xoş əhval-ruhiyyə ilə:

- O nərdtaxtanı bura gətirin.

Nərdtaxta gələndə direktor:

- Siz cavansınız, oynayın, mən də baxım, - deyib özü kənara çəkildi.

Bu gün üzləşdiyim bir çox oyunlar kimi, Nəcməddin müəllimlə mənim aramda gedən nərd-taxta oyunu da başa çatdı…

Hərdən bekar vaxtımızda Nəcməddin müəllimlə nərd oynayanda çox vaxt mənə üstün gəlirdi. Ancaq bu axşam Nəcməddin müəllim özündə olmadığı üçün iki dəfə uduzdu, özü də marsla.

Əslində Nəcməddin müəllimin bugünkü davranışında elə bir qəbahət görmürdüm. Və pedaqoji sovetdə dediklərinin çoxu həqiqət idi. Ancaq bir damla mürəkkəbin dənizin rəngini dəyişdirə biləcəyini güman etmək sadəlövhlükdən başqa bir şey deyildi. Nəcməddin müəllim yaxşı riyaziyyatçı olsa da, bunu başa düşmək fəhmindən xali idi. Bəzən yerində deyilməyən haqq söz sahibinə əzab gətirir.

Ev sahiblərinə çəkdikləri əziyyətə görə təşəkkürümüzü bildirib ayağa qalxdıq. Nəcməddin müəllim yaxınlıqdakı evinə tərəf yönəldi. Mənsə öz mənzilimə. Alış kişi balkonun qabağında dəyənəyinə dirsəklənib, içəridə çay-çörək hazırlayan həyat yoldaşının gördüyü işlərin nə vaxt qurtaracağını gözləyirdi. Onun hal-əhvalını soruşub mənzilimə keçdim. Həcər neft maşınkasının üstündə buğlanan qazanı yerə qoyub xörək

çəkmək istədi. Mənsə toxudum, artıq yeyib-içmişdim, ona görə də Həcər arvada məsləhət gördüm ki, hazırladığı yeməyi qazanı qarışıq uşaqlarına aparsın. Yəqin ki, həyətdə dayanan Alış kişinin də gözü qazanda idi. Ər-arvad mənim bu təklifimdən məmnun oldular. Həcər çilov hazırlayıb, altına da bazardan aldığım fərə hinduşkanın ətini qoymuşdu. - Kasıbınkını Allah yetirir. Görünür, onların qisməti imiş, - öz-özümə düşündüm. Ağlım kəsəndən yetim-yesirə əl tutmaqdan məmnunluq duyurdum. Bu axşam kasıb doyurub, savab iş gördüyüm üçün məndə özümə qarşı xoşhallıq yarandı. Gözətçi ilə xadimə gedəndən sonra həmişə olduğu kimi bu axşam da balkona çıxdım, xəyallandım, ulduzlu səmanı seyr etdim. Həkərinin sahillərindən süzülüb gələn cürbəcür səsləri dinlədim və yenə də mənzilimə dönüb qapını arxadan bağladım. Sabah görəcəyim işləri sahmana saldım. Küncdəki rəssam emalatxanamdan qulağıma nəsə qəribə səslər gəldi. Yan tərəfə dönüb yarımçıq qalmış şəkillərə, müxtəlif rənglərə boyanmış fırçalara baxdım. Gözümə heç bir canlı məxluq dəymədi. Bəlkə məni qara basırdı, yoxsa qulağıma gələn bu səs nə idi?! Olmaya şəkillərini çəkməyə başladığım şairlərin qeybdən gələn hənirtisi idi?! Və ya onların mənzilimdə dolaşan ruhları idi?! Elə bil məni nəyə isə səsləyirdilər. Bəlkə də yarımçıq qalmış şəkilləri tamamlamağa?! Keçirdiyim bu hisslərin təsiri altında əlimə fırça alıb işimə davam etdim. Nizami, Füzuli ilə üz-üzə, göz-gözə dayananda elə bil mənzilimdə böyük Üzeyirin "Leyli və Məcnun" operasındakı

"Şəbi-hicran" xoru səslənirdi. Bu ilahi səsin sehrinə düşürdüm. Və yorulmadan işləyirdim. Şəkillərə nəfəs verən rənglər bir-birini əvəz edirdi. Gecədən xeyli keçməsinə baxmayaraq, yuxum yaddan çıxmışdı. "Şəbi-Hicran"ı dinləməkdən doymurdum və bu ecazkar səda məni ağlagəlməz bir aləmə çəkib aparırdı. Şota Rustavelinin şəklinə başlayanda özgə bir mənzərə ilə üzləşirdim. Dağlarda, qayalarda məskunlaşan qartalların caynağında kəkliklərin, turacların, qırqovulların necə çırpındığı gəlib dururdu gözümün önündə. Bu mənə, həm də Qərb kinolarında gördüyüm kimi, incə məxluq olan nazənin qadının kişi qiyafəli xırsızın əlində girinc qaldığını və onun fəryadını xatırladırdı.

Beləliklə, şəkillər üzərində hələ iki-üç ay və bəlkə də çox davam edəcək işimin bir qismini tamamlayıb lampanı söndürdüm. Dəmir yayları məni yüyrük kimi atıb-tutan çarpayıma uzanıb yuxuya getdim.

...Səhər dərs günü başa çatandan sonra yenə də hamı çəkilib getdi. Direktorla mən axıra qalmışdım. Direktorun kabinetində məktəblə əlaqədar görüb-görəcəyimiz işlərimizi götür-qoy edirdik. Söhbətimizin şirin yerində qapı açıldı. Nəcməddin müəllim - olar? - deyib, "buyurun", cavabını alandan sonra içəri daxil oldu. O, sözlü adama oxşayırdı. Bunu direktorun özü də hiss eləyib Nəcməddin müəllimə əyləşmək üçün yer göstərdi. Nəcməddin dünən axşamkı adama oxşamırdı. Bir qədər əsəbi və qaşqabaqlı görünürdü. Səsinin ehtizazında bir titrəyiş vardı. O, baxışlarına sərt ifadə verib üzünü direktora tutdu:

- Söhbətinizə mane olduğum üçün məni bağışlayın, - dedi, - dünən pedaqoji sovetdə gedən söhbətin üstünə qayıtmaq istəmirəm. Bu mənim tərəfimdən çərənçilik olardı. Səhər-səhər adını çəkmək istəmədiyim müəllim yoldaşlarımdan biri mənə kinayə ilə söz atdı ki, guya dünənki iclasda dediklərimdən peşman olmuşam. Və axşam üzr istəmək üçün sizə gəlmişəm, sonra da xoşa-gəlməz sözlər… Ola bilsin siz özünüz də bu cür başa düşə bilərsiniz. Əsla belə deyil. Etiraf edim ki, mən bir qədər emosional adamam. Bəzən özümdən asılı olmayaraq, həyəcanlanıram, çılğın danışıram. Ona görə də pedaqoji sovetdə bəlkə də səsimi qaldırmışam. Və yerinə düşməyən bəzi kəlmələr işlətmişəm. Belədirsə, buna görə sizdən üzr istəyə bilərəm. Bir də ona görə ki, müəllimlərin qarşısında bildirdiyim iradları, indiki kimi sizə ikilikdə çatdıra bilməzdim. Fikirləşdim ki, aramızda böyük-kiçik pərdəsi olmalıdır. Lakin sizin yol verdiyiniz nöqsanlar barədə dediklərimə əsla peşman deyiləm. Yenə də o fikirdəyəm ki, hərəkətlərinizdə bəzi nöqsanlar vardır. Bunu bildirmək üçün başqaları kimi ağzıma su alıb susa bilməzdim və güman edirəm ki, xeyrinizə etdiyim tənqidin müsbət nəticələri olacaq. Ötən axşam sizdə olmağıma gələndə deməliyəm ki, xidməti işlə şəxsi məsələni qarışdırmaq olmaz. Əvvəla, dünyaya insan kimi gəlmişəm. Sonra müəllimlik peşəsinə yiyələnmişəm. İclasda direktor - müəllim kimi danışırdıq. Evdə isə qonşu, həmkar, insan kimi. Evinizə dəvət edəndə yaşca məndən böyük, qonşu olan şəxs kimi sözünüzü yerə sala bilməzdim. Ona görə də xahiş edirəm məni düzgün başa

düşəsiniz. Günorta üstü Çimnazın oxuduğu sinfin rəhbəri ilə mənim aramda yenə mübahisə oldu. Çünki bu gün Çimnazdan dərs soruşdum, ağzını belə açmadı. Ona görə də haqlı olaraq "2" qiymət yazdım. Başqa cür də ola bilməzdi. Bilməyən şagirdə qiymət verməyi, yüngül desək, elmə xəyanət hesab edirəm. Guya sinif rəhbəri bu məsələni sizə çatdırıb. Siz də mənim barəmdə yaxşı danışmamısınız. Ola bilsin aramızdakı belə münasibət sonra yaxşı nəticə verməsin. Ona görə də xahiş edirəm, rayon maarif şöbəsində məsələ qoyun, məni başqa məktəbə dəyişdirsin. Bunu sidq ürəkdən deyirəm. İstəyirsiniz elə bu dəqiqə könüllü olaraq iş yerimin dəyişdirilməsi haqda ərizə yazıb, altından qol çəkim. Bax, elə bu dəqiqə! Onda nə tez-tez qan qaraltısı olar, nə də ki, aramızdakı xətir-hörmət götürülər. Həm də müəllimlərin yanında hörmətiniz qalxar və özlərini yığışdırarlar. Hamı deyər ki, Nəcməddin müəllim bir balaca artıq-əskik danışdığına görə direktor onun başını əkdi. Mən bunu qəbul edirəm. Lakin ikinci katibin baldızına qiymət yazmağı yox, Allahın bacısı qızı olsa da, bilməyən şagirdə saxta qiymət yaza bilmərəm. Müəllim kimi təmiz ada saxtakarlıq yaraşmır. Və məndən də bunu gözləməyin. Yəqin ki, professor Zaur Həsənzadənin Ulduzlu kəndində başına gələnləri eşitməmiş olmazsınız. Mən şagirdlərə professorsayağı yaxşılıq edə bilmərəm. Gərək siz özünüz də buna razı olmayasınız. Zaur Həsənzadə barədə bütün rayon danışır. Bunu mənə həmin hadisənin canlı şahidi olan bir nəfər müəllim dostum ətraflı söhbət edib. (Nəcməddin müəllim bir nəfər

deyəndə, məni nəzərdə tuturdu. Ancaq adımı çəkmədi). Təkcə professor Zaur Həsənzadənin faciəli aqibətinə görə yox, ümumiyyətlə, belə bir qəti fikirdəyəm ki, qiymət biliyə görə verilməlidir. Çox adam biliksiz şagirdə yüksək qiymət verməyə adi hal kimi baxır. Ancaq mənim təsəvvürümə görə mənsub olduğumuz millətə bundan böyük xəyanət ola bilməz. İnsan, qonşu, həmkar, yaşca sizdən çox kiçik olan bir yoldaş kimi hörmətinizi saxlamaq borcumdur. Lakin canlı insan formalaşdıran kamillik emalatxanasında hər hansı əyintiyə yol verə bilmərəm. Və buna müəllim əxlaqına uymayan bir hərəkət kimi baxıram.

Nəcməddin müəllim sinəsini boşaldıb ayağa qalxdı. Mən onun dediklərinə müdaxilə etməyi yersiz hesab edib, dillənmədim. Direktorun sifətində süni təbəssüm dolaşdı. Və təmkinini pozmadan:

- Yaxşı… Yaxşı, Nəcməddin müəllim, aydındır. Əbəs yerə əsəbiləşməyin, - dedi. - Bundan sonra dediklərinizi nəzərə alarıq.

Nəcməddin müəllim həyəcanlandığından direktorun dediklərini eşitmirmiş kimi:

- Xudahafiz, mən getdim, - deyib əsəbi halda qapıdan çıxdı.

Direktor kürəyini əyləşdiyi stulun arxasına söykəyib fikrə getdi. Mən isə başımı yuxarı qaldırmadan təzə çapdan çıxmış "Tarix" kitabını vərəqləyirdim. Elə bil divardan asılmış şəkillər, qapı və pəncərələr sükuta dalmışdı. Kabinetin ab-havasında da bir ağırlıq vardı. Direktor qəddini düzəldib:

- Bu cür adamlarla işləmək çətindir, - dedi. - Düzdür, müəllimliyinə söz yoxdur, ancaq naqis adamdı. Beləsi ilə çalıb-çağırmaq qeyri-mümkündür. İndi də yəqin kimsə qızışdırıb salıb ortalığa. Eybi yoxdur, bu barədə bir şey fikirləşərik, - əlavə etdi.

* * *

Dərs ilinin birinci yarısı başa çatmışdı. İkinci rübə yekun vurulmuşdu. Məktəblilər qış tətilinə buraxılmışdı. Sinif otaqları, yazı lövhələri canlı məxluq kimi şagirdlərdən ötrü darıxırdı. Qış tətilinin qurtarmasına bir neçə gün qalmış bizi məktəb direktorlarının və tədris hissə müdirlərinin rayon müşavirəsinə çağırdılar. Müşavirədə dərs ilinin birinci yarısında təlim-tərbiyə işlərinin necə təşkil olunduğu, bu sahədə yol verilən nöqsanlar təhlil olunur, məktəblərin qarşısında duran yeni-yeni vəzifələr müəyyənləşdirilirdi.

…Yerli-yersiz tənqidlər, təkliflər, alovlu çıxışlar, bəlağətli sözlər, zalı bürüyən sürəkli alqışlar... Yığıncaqda rayonun başçıları da iştirak edirdi. Onlar cərgə ilə iş heyətində əyləşmişdilər.

Müşavirə iki gün çəkdi. Gün gödək, hava soyuq, yol uzaq... Belə bir şəraitdə kəndə gedib-qayıtmaq mənim üçün çətin idi. Məcbur olub o qədər də yönlü şəraiti olmayan rayon mehmanxanasında qalmalı oldum. Müşavirədə məktəbimizin adı pisliyə çəkilmişdi. Ona görə də, direktorun qanı qara idi. Ancaq bilirdi ki, ona daş hardan dəyir. Hamısı da Nəcməddin müəllimin zibili idi. Onun da ağırlığını direktor çəkirdi. Məktəbimizin

dilə-dişə düşməsi mənim də ovqatımı korlamışdı. Mehmanxanadakı otağımda oturub bu xoşagəlməz söz-söhbətlərin nə ilə qurtaracağını düşünürdüm. İkinci katib Niyaz Məcidovu da qınamıram. Yəqin həyat yoldaşı evdə onun yediyini-içdiyini haram eliyib. Oturub-durub başına vurur ki, rayonda hörmətin yoxdur. Müəllimlər səni sayıb adam yerinə qoymur. Saysaydılar, bacım gündə-günaşırı üstümə ağlamazdı. Çimnaz deyir ki, məktəbdə bir Nəcməddin müəllim var, sinifdə mənə itin sözünü deyir. Deyir ki, bilirəm kimə arxayınsan, ona görə dərsə hazırlaşmırsan. Oxumasan xeyri yoxdur, heç kimə baxan deyiləm. Sənə "2"-dən artıq qiymət yaza bilmərəm. Yaxşısı odur oxu, çalış. Səni saysalar, bacımı o cür gözümçıxdıya salmazlar...

* * *

Bayırdan gələn tanış səs məni Niyaz Məcidovun həyat yoldaşının ərinə etdiyi giley-güzar barədəki ehtimal etdiyim fikirlərdən ayırdı. Ayağa qalxıb qapını açdım. Yasəmənli orta məktəbinin dərs hissə müdiri və mənə məhrəm olan Dəyanət müəllim idi. Onunla çoxdanın tanışı idim. Bizim bu tanışlığımız yaxın dostluğa çevrilmişdi. Yaşca məndən on il böyük olsa da, bizimki tuturdu. Xasiyyətimizdə oxşarlıq vardı. Dəyanət müəllim bəlkə də heç kimə açmadığı sirrini mənə deyirdi. Onun hündür boyu, qətiyyətli baxışları, şirin söz-söhbəti vardı. Alnından yuxarı ayrılıb, yanlara tökülən qara gur saçları döyüşkən qoçların buynuzunu xatırladırdı. Rayonda hamı onu bacarıqlı,

sözübütöv, yeyib içən adam kimi tanıyırdı. Yasəmənliyə ayağı düşən rayon başçıları Dəyanət müəllimin evində rahatlıq tapırdı. Neçə dəfə ona yüksək vəzifələr təklif etmişdilər, getməmişdi. Heç kənddəki məktəbin direktorluğunu da boynuna götürmürdü. Buna baxmayaraq, kəndin məktəb direktoru, sədri, partkomu dura-dura həmişə onu deputat seçirdilər. Təkcə kənddə yox, bütün rayonda bir sözü iki olmazdı. Dərs hissə müdiri işləməsinin də səbəbi o idi ki, gözü məktəblilərin üstündə olsun, müəllimlər işə canı-dildən yanaşsınlar, şagirdləri yaxşı öyrətsinlər. Ona görə də Yasəmənlidə məktəb qurtaranların əksəriyyəti ali məktəbə asanlıqla daxil olurdular.

Rayon mərkəzindən dəmiryol stansiyasına gedən yol Yasəmənlidən keçir. Özü də düz Dəyanət müəllimin darvazasının qabağından. Bu kəndə ayağım düşəndə mütləq Dəyanət müəllimə baş çəkməli idim. Özləri evlərində olmayanda belə onların darvazasını açıb içəri daxil olurdum. Açarın yerini Dəyanət müəllimin özü mənə göstərmişdi. Taxta darvazanın divarla birləşdiyi yerdə əl boyda deşik vardı. Həmin yerdən əlimi salıb, arxa tərəfdə, darvazanın qırağından asılmış açarı götürüb öz işimi görürdüm… Yağ-yavanlığın, çörək təknəsinin yerini bilirdim. Aclığım olanda qayışımın altını bərkidib üstündən də ayrandan, ağartıdan içib, bir qədər də dincəlib sonra evdən çıxırdım. Dəyanət müəllim bunu biləndə çox şad olurdu. Tək mənə yox, Dəyanət müəllim bütün dostlarına qarşı belə idi. Özü, arvad-uşağı evdə oldu olmadı, həmişə

qapısı dostlarının üzünə açıq idi. Onun evində çox adamla tanış olmuşdum. Qonşuluqdakı sərhəd rayonunun başçısı Şərafəti ilk dəfə Dəyanət müəllimin evində görmüşdüm. Şərafətin əynində açıq qəhvəyi rəngdə uzun plaş vardı, döşündən beşguşəli qızıl ulduz asılmışdı. Bu, ölkədə əmək qəhrəmanlarına verilən və hər adama müyəssər olmayan döş nişanı idi. Ağır-ağayana adam idi Şərafət. Ona yaşadığı şəhərin memarı deyirdilər. Qurub-yaradan adam idi. Həftə səkkiz-mən doqquz "Villis" maşınını Dəyanət müəllimin qapısına sürdürürdü. Saatlarla bir-birinə sinədən şer deyirdilər. Onlar ki, şairlərdən, şerdən söhbətə başladı, qurtardı getdi. Yemək-içmək qalırdı bir kənarda. Mən onlara maraqla qulaq asırdım.

Bu qış axşamı Dəyanət müəllimlə görüşəndə səliqəsahmansız mehmanxana bir andaca sanki başqalaşdı. Və özümü dəbdəbəli Avropa otellərində hiss etdim. Dəyanət müəllim məni görəndə həyəcanlanmışdı. O, sevincək:

- Müşavirədən sonra ha göz gəzdirdim, səni tapa bilmədim. Sonra bir yoldaş dedi ki, mehmanxana tərəfə getmisən. Gah inandım, gah inanmadım. Fikirləşdim ki, bir belə dost-tanış ola-ola, axı sən mehmanxanada qalan deyilsən. Heç kim bilməsə də, mən sənin xasiyyətinə yaxşı bələdəm. - Dəyanət müəllim bu sözləri deyib qüvvətli əli ilə qolumu sıxdı. Ancaq ona olan dərin rəğbətim qarşısında mən bu ağrını hiss etmədim. Onun əli boşalandan sonra geri çəkildim və:

- Dost-qohum evi nə qədər rahat olsa da, adam sıxılır, - dedim. - Mehmanxanada özümü sərbəst hiss edirəm.

Dəyanət müəllim:

- O barədə elə mən də sən xasiyyətdəyəm. Ona görə də qərara gəldim ki, mehmanxanada qalım. Yaxşı ki, səni burada tapdım. Xeyli vaxtdı görüşmürük. Sabaha kimi dərdləşərik.

Dəyanət müəllim bunu deyib diqqətini cəmləşdirdi. Və zəndlə üzümə baxaraq:

- Hə, yaxşı yadıma düşdü, - dedi, - bir məsələni aydınlaşdırmaq istəyirəm. Məktəblə əlaqədar bir iş üçün maarif şöbəsinə getmişdim. Sizin məktəbin direktoru da orda idi. Şöbə müdiri telefonla raykomun katibi Niyaz Məcidovla danışırdı. Hiss etdim ki, ikinci katib nə barədə isə narazılıq edir. Şöbə müdiri telefonun dəstəyini yerə qoyandan sonra dilxor halda sizin direktora bir balaca təpindi. Hiss etdim ki, söhbət sizin riyaziyyat müəllimindən gedir. Onunla bizim riyaziyyat müəlliminin yerini dəyişdirmək istəyirlər. O Nəcməddin deyilən necə adamdı?!

- Nəcməddini tanımamış olmazsan, - dedim, - həm yaxşı yoldaş, həm də yaxşı riyaziyyatçıdır. Di gəl ki, bir az tərsliyi var. Tərslik deyəndə də qiymət məsələsində heç kəsə güzəştə gedən deyil. Əlini də kəssən, bilməyən şagirdə qiymət yazmaz. Özü də düzünəqulu adamdır. Ona görə də direktorla onunku düz gəlmir.

- Bizimki isə əksinə. Müəllim kimi bilikdən kasaddır. Neçə il bundan qabaq ali məktəbdə nə öyrənib odur. Köhnə baqajla işləyir. Ancaq adamlığına söz yoxdur. Özü də yedəyə gedən adamdı. Düz, qeyri-düz, direktor nə dedi, odu. Heç kimin sözünü yerə salmaz.

Şagirdi incitməklə də arası yoxdur. Bildi-bilmədi "4"-dən, "5"-dən yazıb yola verir. Onun bu xasiyyəti də mənim xoşuma gəlmir. Çünki arada uşaqlar bədbəxt olur. Yaşlı adam olsa da, bunun üstündə onu çox danlayıb-dansamışam. Ancaq düzəlmir. Bir də ki, quyuya su tökməklə deyil, gərək quyunun özündə su olsun. Ona görə də Nəcməddin kimi müəllimi çıraqla axtarırıq. Müəllim şagirdlərinə qarşı prinsipial, tələbkar olmalıdır. Atalar demişkən, məni ağladan yanına göndər, güldürən yanına yox. Kütbeyin şagirdə güzəştə getmək, onun gələcəyini korlamaq deməkdir. Əslində bu elə cinayət etmək kimi bir şeydir. Məncə buna başqa ad vermək olmaz.

Müsahibimin dediklərini təsdiq etdim. Dəyanət müəllim dərin təəssüflə:

- Qəribədir, ola bilər mənim bu müqayisəm yerinə düşməsin. Bəzən öz-özümə fikirləşirəm ki, partiya, hökumət, xüsusilə inzibati orqanlar dükan-bazarda kartofun, şorun qiymətinə nəzarət edirlər. Lakin gələcəyin ümidi adlandırdığımız yeni nəslin aldığı təhsilin, onların biliyinə verilən qiymətin düzlüyü barədə dərindən düşünən yoxdur. Bəzi müəllimlər yağa şor, şora yağ qiyməti qoyurlar. Doğrudan da bu, cəmiyyət üçün faciədir. Cəmiyyətin mənəvi çeşməsi məktəbdi, onun saflığı müəllimin vicdanından asılıdı. Di gəl ki, bunu başa düşən azdı.

- Siz haqlısınız. Bu barədə Nəcməddin müəllim məktəbimizin kisəsindən getdi, - müsahibimin dediklərinə münasibətimi bildirdim.

- Yaxşı, elədirsə, məsələyə sən özün niyə qarışmırsan?! Axı tədris işinə bilavasitə sən cavabdehsən?!

- Bu, uzun əhvalatdır, - Dəyanət müəllimə cavab verdim. - Direktorla da, Nəcməddin müəllimlə də ayrı-ayrılıqda ətraflı söhbətimiz olub, özü də dəfələrlə. Gördüm faydası yoxdur, məsələnin kökü gedib ayrı yerə çıxır, çəkilib durdum kənarda. Dedim özləri bilər. Nəcməddin müəllimin dəyişilməsinə gəldikdə, bu məni çox təəssüfləndirir. Əslində bu, direktorluq məsələ də deyil. Bunun başqa səbəbləri də var. Arğacın hardan, kimdən keçdiyini bilirəm. Bu, qəliz məsələdi və onun həlli mənim imkanım xaricindədi. Artıq onlardan keçib. Gəlin dərinə gedib qanımızı qaraltmayaq, başqa söhbət eləyək.

Dəyanət müəllim ayağa qalxıb yüngülləşmək üçün pencəyini çıxartmaq istəyəndə, qoltuq cibindən döşəmənin üstünə bir neçə kağız-kuğuz səpələndi. Mən ondan qabaq əyilib əvvəlcə pasportu götürdüm. Pasportun arasında əl boyda kağıza bükülmüş şəkli görəndə mütəəssir oldum. Dəyanət müəllimin dünyadan nakam gedən qardaşı Namiqin şəkli idi. O, vaxtı ilə rayonda açılan bir aylıq kursda mənə dərs demişdi. Şəklin büküldüyü kağıza bir neçə misradan ibarət şer yazılmışdı:

Qəbrimin yanından keçən yolçular,
Bir ləhzə dayanın, sizə sözüm var.
Dünən mən də sizin kimi sağ idim,
Qəlbimdən keçirdi nəcib duyğular.

Şer Namiq müəllimin öz xətti ilə yazılmışdı. Dəyanət müəllim üzü o tərəfə, aynanın qabağında dayanıb saçlarına daraq çəkirdi. O, geri dönüb qardaşının şəklini, onun yazdığı şeri görəndə hələ qaysaqlanmamış yarası sanki qövr elədi. Tutuldu, qaraldı və dağ cüssəli insan bir andaca balacalaşdı. Bəlkə də tək olsaydı, - vay qardaş, - deyib hönkür-hönkür ağlayardı. Lakin özünü ələ aldı. Təmkinini pozmadan qarşımdakı pasportu, şəkli, şer yazılmış kağızı yığışdırıb kənardan asılmış pencəyinin qoltuq cibinə qoydu. Və mənə tərəf dönüb:

- Elə səni göydə axtarırdım, yerdə əlimə düşmüsən, - dedi, - Namiqin qəbrini götürdürəm. Başdaşı hazırdı. İndi qalır oxuduğun o şeri yazdırıb başdaşının üstünə bərkitmək. Bu barədə çox fikirləşdim. Axırda belə bir qərara gəldim ki, günün, yağışın altında saralmayan, qalın şüşəyə yazılsın. Sən elə yarım rəssamsan, yaxşı da xəttin var. Məncə bu işin öhdəsindən gələ bilərsən. Əks təqdirdə Bakıya getməliyəm. Buralarda da bacaran yoxdur.

Dostumun sözünü sındırmadım. Şeri şüşə üzərində yazmağa heç bir tərəddüd etmədən boyun oldum.

…Onlar iki qardaş idi. Namiq Dəyanətdən bir neçə yaş kiçik idi. Ali məktəbi fərqlənmə diplomu ilə qurtarandan sonra rektorluq onu oxuduğu həmin institutda müəllim saxlamışdı. Namiq müəllim ədəbiyyatdan dərs deyirdi. Biliyinə görə az müddətdə müəllim və tələbələr arasında böyük hörmət qazanmışdı. Elmi işi hazır idi. Bu gün-sabah dissertasiyasını müdafiə edib alimlik dərəcəsi almalı idi. Rəyçilər etiraf edirdilər ki,

Namiqin ağır zəhmət, dərin zəka hesabına başa gələn dissertasiya işi doktorluğa layiqdir.

Namiq müəllim Bakının İçərişəhərindən olan, akademiyada laborant işləyən Nilufər adlı gözəl-göyçək bir qızla sevişmişdi. Elmi ad alandan sonra toyları olmalı idi. Namiqin şivərək boyu, iti baxışları, gülər üzü vardı. Qaraqaş, qaragöz oğlan idi. Həmişə təmiz və səliqəli geyinirdi. Yay aylarında onunla hərdən görüşürdük. Nazik göy sətindən pencək, ağ parusin parçadan şalvar geyinirdi. Əynindəki paltarın ütüsü heç vaxt sınmırdı. Hamı onun zövqlə geyinməsinə, yar-yaraşığına qibtə edirdi.

Namiq müəllimin birdən-birə dəfi döndü. Dissertasiyasının müdafiəsinə bir neçə gün qalmış səhhəti pozuldu, onu xəstəxanaya götürdülər. Neçə ay yorğan-döşəkdən qalxa bilmədi. Həkimlər üstündə çox baş sındırdı, o dava-dərman qalmadı eləməsinlər. Ancaq çarəsi olmadı. Dərdi nə idi, bilinmirdi. Axırda həkimlər məsləhət gördü ki, xəstə anadan olduğu yerə getsə yaxşıdır. Ola bilsin kəndin ab-havası ona xeyir eləyər, ata-baba yurdunda şəfa tapar. Bu ümidlə Namiq müəllim xəstəhal vəziyyətdə Yasəmənliyə qayıtdı. Dəyanət dava-dərmandan başqa o türkə-çarə qalmadı ki, elətdirməsin. Ancaq xeyri olmadı. Namiq müəllim günü-gündən daha da geri gedirdi. Ancaq o vəziyyətdə də özünü sındırmırdı. Ah-uf eləmirdi. Deyirdi canlıdan qada əskik deyil. İnsan xəstələnər, bu o demək deyil ki, başıma nə isə gələ bilər. Məndən ötrü narahat olmayın. Heç darıxmayın, özünüz görəcəksiniz. Bu gün-

sabah ayağa qalxıb şad-şalayın Bakıya qayıdacağam, dissertasiyamı müdafiə edən kimi toyumu eləyib ailə həyatı quracağam. - Namiqin bu sözləri ailəyə təsəlli olurdu. Dəyanətin qəlbində ümid çırağı yandırır, onun dərd yükünü yüngülləşdirirdi.

Namiq tək qalanda çarpayısında arxası üstə kəndinin pəncərədən süzülüb gələn səs-küyünü dinləyirdi. Xəyalında məktəbli uşaqlarla min cür oyundan çıxırdı. Çiynində çanta onlara qoşulub qayğısız günlərini yaşayırdı. Sakitcə sinif otağında əyləşir, diqqətlə müəllimini dinləyirdi. Bəzən ayağa qalxıb hazırladığı dərsi danışırdı. Səhər-səhər mal-qaranı örüşə haraylayan naxırçıların hənirtisi gələndə, sübh-tezdən durub anasının təzəcə sağıb qurtardığı inəkləri, qoyun-keçini qabağına qatıb naxıra qoşurdu. Sərin meh bağ-bağatdakı çinarların yarpağı ilə pıçıldaşanda dizini yerə qoyub toxuduğu balaca cəvərəni koğaya keçirib gilas ağacının quşqonmazına dırmaşırdı. Evlərinin yanından ötüb keçən maşınlara əyləşib tələsik özünü dəmiryol stansiyasına çatdırırdı. Əlində kitab-dəftər dolu çemodan, qatara minib Bakıya yollanırdı. Qaynar institut həyatında özünü necə də xoşbəxt hesab edirdi. Dünən ali məktəbi bitirib şagird skamyasında əyləşdiyi sinifdə indi ədəbiyyat dərsi deyirdi. Alimlik həvəsinə düşürdü. Bu nəcib arzu ilə gecə-gündüz mərkəzi kitabxanalarda əlləşirdi. Arxivləri bir-birinə vururdu. Xəyalının cığırlarıyla bəxtəvər günlərinə qayıdıb uşaqlıq-gənclik dünyasında dinclik, rahatlıq tapırdı. Sonra hiss olunmadan göz qapaqları yumulur, sakitcə yuxuya gedirdi.

- Namiq müəllim! - Bu tanış səs onu səksəndirib oyadırdı. Namiq gözlərini açıb başının üstündə dayanan ağ xalatlı tibb bacısının əlində hazır iynəni, bir də ki, dağınıq saçları alnına, qulaqlarının üstünə tökülən gombul həkimi görəndə ovqatı korlanırdı. Və indi özündən başqa heç kəsin görmədiyi, duymadığı, daxili dünyasının pəncərəsindən qəbiristanlığa gedən mənhus yolla tabutunun arxasınca ağır-ağır addımlayan hüznlü insanların axınını görürdü.

Həftənin ikinci günü axşam tərəfi kəndin poçtalyonu ona bir məktub gətirdi: - Bakıdandı, sizin adınıza yazılıb. Nilufər adlı bir qadındandır, - deyib, əlindəki zərfi ona uzatdı.

Nilufər! Bu adı eşidəndə Namiq müəllimin baxışları duruldu. Elə bil onun taqətdən düşmüş bədəninə yeni bir qüvvə gəldi. Yastığından dikilib zərfi poçtalyonun əlindən aldı. Və ona titrək bir səslə təşəkkür etdi. Namiq müəllim barmaqları əsə-əsə tez zərfi açdı. Məktub ona tanış olan xətlə yazılmışdı. Bu, Nilufərin xətti idi. Altında da qızın öz imzası. Namiq müəllim əvvəlcə məktubun başlığına nəzər saldı, onun nurdan düşmüş gözləri məktubun sərlövhəsində donub qaldı. Nilufər məktubuna belə bir başlıq qoymuşdu: "Gözüm səni axtarır". Namiq müəllimin solğun çöhrəsində həzin bir kədər dolaşdı. O, məktubu gözlərinə yaxınlaşdırıb oxumağa başladı:

- Namiq!! Mən məhəbbət dastanımın bu ilk sətirlərini qələmə alanda bütün vicudum əsdi. Bakıda havaların isti keçməsinə baxmayaraq, üşüdüm, qəlbimə

bir titrətmə gəldi. Birtəhər özümü ələ alıb məktubuma davam etdim. Yazdığın dissertasiyanın mətnini akademiyada təsadüfən gördüm. Və işimin tələsik olmasına baxmayaraq, onu əvvəldən axıra qədər diqqətlə, həsədlə oxudum. Onda elə bil sənin lə danışırdım. Əsər məni tutdu. Səlis, sadə, anlaşıqlı bir dildə yazılıb. Şübhəsiz ki, əsər özünüzə xas olan gərgin zəhmətin, dərin tədqiqatların məhsuludur. Vaxtilə müəllimim olmuş Elmi Şuranın üzvlərindən biri mənə dedi ki, namizədlik dissertasiyası üçün yazılmış bu əsəri birbaşa doktorluğa təqdim etmək niyyətindəyik. Onun bu sözü məni hədsiz dərəcədə sevindirdi. Hiss etdim ki, mənim kimi bu əsər də sənin üçün darıxır və səbirsizliklə yolunu gözləyir.

Əzizim Namiq, həmişəki kimi, hərdən bir bəhanə ilə evdən çıxıb qol-boyun olduğumuz yerlərə güzar salıram. Aylı gecədə filarmoniyanın həyətindəki ağacların yolumuza saldığı naxışları Yasəmənlidə nənələrin toxuduğu xalı-xalçalara bənzədirdin. Biz bu xalıların üzərində sakit-sakit gəzdikcə əzbər dediyin şerlərdən, romantik söhbətlərdən doymaq bilmirdim. Mən bunu ömrümün ən bəxtəvər anları hesab edirəm. Sənin kimi nəcib bir insan tərəfindən sevildiyimi ilahinin mənə bəxş etdiyi ən böyük xoşbəxtlik sayıram. Hardasa oxumuşam ki, sevgi hər şeyə hakimdir. Onun cəzasından ağır dərd və ona xidmət etmək nəşəsindən böyük xoşbəxtlik yoxdur. Belə bir səadətə qovuşmaq arzusu ilə elə ilk görüşümüzdən məni məndən almısan. Neçə gündür özümdə deyiləm. Odur ki, bu amansız

hicran günlərində səndən betər özümü axtarıram. Lakin nə səni tapa bildim, nə də ki, bu nisgilli sətirlərin müəllifini. Bu günlərdə tək-tənha dəniz kənarına çıxmışdım. Tək-tənha deyəndə sənə təəccüblü gəlməsin. Etiraf edim ki, gəzintiyə çıxanda özümdən asılı olmayaraq heç kəsə yovuşa bilmirəm. Valideynlərimə, bacı-qardaşlarıma da belə. Baxmayaraq ki, şahidi olduğun kimi şəhərin parklarında təsadüf etdiyimiz quşlar da tək olmur, hamısı qoşa gəzir, qoşa dolanır. Amma izah etdiyim mənada dənizə tək yollandım. Həmişə biz Xəzərə yaxınlaşanda dənizin aynasında lacivərd suların bizi necə atıb-tutduğunun şahidisən. Sanki Xəzər sevinir, ləpələrinin xəfif pıçıltısında sevgimizə xeyir-dua verirdi. Sevənlərin ifadəsincə, dəniz, sən, bir də mən. Üçümüz bir yerdə olanda özümü dünyanın ən xoşbəxt bəndəsi hesab edirdim. Bu dəfə Xəzər o gördüyün kimi sakit, mülayim deyildi. Məni tək görəndə qəzəbləndi, şahə qalxdı. Duzlu sularını onsuz da qəmgin olan sifətimə çırpdı. Xəzərin ənginliklərindən qulağıma qəribə bir uğultu gəldi, bu ittihamedici bir səs idi. Sanki dəniz dəli bir həsrətlə səni axtarırdı. Və səbri tükəndiyindən ağrısını, acısını mənim üstümə tökürdü. Elə bil ayna sular da ayrılığın təqsirini məndə görürdü. Mənsə yerimdəcə donub qalmışdım. Günahkar olmadığımı dənizə izah edə bilmirdim. Namərd dalğalar sanki əhd-peymanıma dönük çıxdığım üçün insafsızcasına məni təqib etməkdən usanmırdı. İncidim, küsdüm dənizdən, üz döndərdim onun maviliklərindən. Dağüstü parka çıxanda da eyni mənzərə ilə üzləşdim.

Ağaclar qulaq-qulağa verib pıçıldaşanda, onların xəfif səsində acı bir istehza duyurdum. Elə bildim bizdən danışırlar. Və sevgimizə xilaf çıxdığıma görə məni qınayırlar. Ancaq Namiq, biz qoşa gəzib dolaşsaydıq, nə dənizin, nə də ki, şəhərin yaşıl sakinlərinin arzuolunmaz tamaşaçısına çevrilməzdim. Namiq, bu sözlər bəlkə də sevib-sevilən bir qızın xəyalpərvərliyindən irəli gəlir?! Ancaq səhv-düz, ağlıma bir şey gəldi. Elə bil Xəzər də, tarixən başı qeylü-qallı olan Bakının parkları, bağları, küçə və səkiləri, daşları, divarları top-tüfəng səsindən, insanlar arasında gedən çəkişmələrdən, didişmələrdən, dedi-qodulardan, dava-dalaşlardan beziblər. Şəhər sakinlərinin mehriban davranışı, xoş ünsiyyəti, şirin söz-söhbəti… üçün qəribsəyiblər. Ona görə də Bakı məhəbbət ətirli söz-söhbətlərimizdən bir məmnunluq duyurdu. Və dəniz də, yaşıl-yaşıl bağlar da bizə xoş ovqat bəxş edirdi. Sənsizləşəndən bəri günahkar kimi mənə heç yerdə xoş üz göstərmirlər. Ona görə də son vaxtlar gəzdiyimiz yerlərə daha üzükmürəm. Bakının qarşısında günahlarımı yumaq, özümü duruluğa çıxartmaq, dənizi, yaşıl parkları sevindirmək üçün səni gözləyirəm. Gözlərim hər saniyə, hər saat, hər gün, hər an səni axtarır, Namiq!

Onu da deyim ki, bu məktubu birnəfəsə yazdım. Ancaq necə yazdım, niyə yazdım, özüm də bilmirəm. Əgər hər hansı qəbahətə yol vermişəmsə, təqsiri məndə yox, mənsizliyimdə axtar.

Səhvlərim üçün məni bağışla, Namiq.

İmza: Nilufər.

Namiq müəllim məktubu oxuyub qurtaranda onu huş apardı. Göz qapaqları sakitcə yumuldu, barmaqları boşaldı. Və əlindəki məktub hiss olunmadan sürüşüb döşəməyə sərilmiş qədim xalçanın üstünə düşdü. Namiq səksənib oyandı. Tez məktubu döşəmənin üstündən götürdü və yastığının altına qoyub, yorğanı başına çəkdi. Bəlkə də röyalar aləmində Nilufəri arayıb axtarmağa, ona dilcavabı bir neçə kəlmə söz deməyə və ya sevdiyi qızın əvəzindən dənizə, yaşıl-yaşıl ağaclara üzrxahlıq etməyə getdi. Getdi ki, Nilufəri tənhalıq əzabından xilas etsin…

Namiqin axır günləri idi. Onun həyatla vidalaşmaq anları yaxınlaşırdı. Gedib-gələnləri, halını soranları, qeydinə qalanları seyrəlmişdi. Yalnız qardaşı Dəyanətdən başqa evdəkilər üzdə canyananlıq etsələr də, batində əzrayılın tez gəlməsini arzulayırdılar.

Namiq ata-anasını vaxtsız itirmişdi. Böyük qardaşı Dəyanət ona həm ata olmuşdu, həm də ana. Dəyanətin qəlbində həyat yoldaşı Florayla onun üç uşağı bir tərəfə idi, qardaşı bir tərəfə. Flora kasıb ailədən çıxmışdı. İlk günlər məzlum, ədəb-ərkanlı, sadə, ifallı gəlin təsiri bağışlayırdı. Uşaqları olandan sonra başqalaşmışdı, iddiası artmışdı. Ər evinə gəldiyi ilk günlərdə hamıya can deyib can eşidən Floradan əsər-əlamət qalmamışdı. Özünü əli gətirən və kənddə, rayonda böyük nüfuz sahibi olan bir kişinin qadını kimi yuxarıdan aparırdı. Namiq hara getsə, evə əliboş qayıtmazdı. Qardaşının xatirinə ən layiqli hədiyyələrini Floraya alıb onu sevindirməkdən xoşhal olurdu. Flora da bir

qayın kimi onun yolunu saxlayır, qulluğunda dururdu. Ailədə qibtə ediləcək bir səmimiyyət var idi. Ancaq Namiq yorğan-döşəyə düşəndən sonra ona münasibət dəyişmişdi. Flora xəstənin otağına girib-çıxanda elə bil cəhənnəm əzabı çəkirdi. Çox vaxt, xəstə bir stəkan su istəyəndə, Flora qulaqardına vururdu. Və ürəyində - mən də buna xəstəbecərən olmuşam, bir belə də yatmaq olar, ölsəydi canımız qurtarardı, - düşünürdü. Ancaq üzdə özünü elə göstərirdi ki, Namiqin xəstələnməsi sanki ona ağır dərd olub. Hətta pirlərə nəzir-niyaz eləmişdi ki, Namiq tez sağalıb ayağa qalxsın. Namiqə ürəkdən, candan yanan bircə qardaşı Dəyanət idi. Dəyanət gecə-gündüz onun yastığının yanından o tərəfə getmirdi. Moskvadan belə, harda tapılmayan bahalı dava-dərman var, aldırıb gətirtdirirdi. Lakin Namiqin xəstəliyi barədə səhih bir fikir deyən olmurdu. Ancaq ağızdan-ağıza gəzirdi ki, Namiqinki sillidi.

Bir dəfə Dəyanət dəhlizdə sakit-sakit gəzişirdi. Qardaş dərdi onu əymişdi. Bir gözü Namiqin yataq otağında idi. Həyat yoldaşı Flora içəri girib Namiqin uzandığı çarpayının yanına qoyulmuş yığcam stolu yığışdırırdı. O, Namiqin yemək yediyi bulaşıq qabı əli ilə yox, ayağı qırçınlı ipək tumanının ətəyi ilə götürdü. Və ikrahla üzünü əks tərəfə çevirib qapıdan çıxdı. Floranın xəstə qaynı ilə rəftarı, onun dilənçiyə göstərdiyi mərhəmətə oxşayırdı. Onun bu hərəkəti Namiqin yarımyumulu gözlərindən yayınmadı. Xəstənin onsuz da saralıb solmuş çöhrəsi ağardı, nə düşündüsə kədərli ah çəkib üzünü soyuq divara tərəf çevirdi. Dəyanət

yataq otağının dəhlizə açılan açıq pəncərəsindən bunları sezdi. Həyat yoldaşının Namiqin qab-qacağını diysinə-diysinə yığışdırması da, boşqabını tumanının ətəyi ilə götürməsi də Dəyanətin nəzərindən qaçmadı. Floranın xəstəyə bu cür münasibətini görəndə sarsıldı. Elə bil ona qəfil güllə vurdular. Ancaq Dəyanət Floranın etdiyi hərəkətləri görməməzliyə vurdu. Və bu barədə dilinə bircə kəlmə də gətirmədi.

Namiq müəllim bəlkə də bir neçə gün yaşayardı. Ancaq bu ağır məqamda qardaşı arvadının o cür hərəkəti xəstənin həyatdan getməsini tezləşdirdi. Elə həmin günün səhərisi Namiq müəllim dünyasını dəyişdi.

Yas mərasimi sovuşandan bir neçə gün sonra Dəyanət həyat yoldaşını içəridən-içəriyə olan dib otağa keçirib, uşaqlar eşitməsin deyə qapını örtdü. Özü küncdəki köhnə divanın baş tərəfində oturdu. Floraya yanında yer göstərdi. Flora onun həmişəkindən təmkinli, ciddi sifətinə baxıb divanda yox, aynanın qabağındakı arxasız stulda əyləşdi və gözləri Namiqin divardan asılmış şəklinə sataşanda qəhərlənən kimi oldu, onun gözləri doldu. Dəyanət acı istehza ilə:

- Sənin göz yaşların sevincdəndi, yoxsa kədərdən?!

- Səndən gözləməzdim, - Flora ona cavab verdi. - Bu nə sözdür?! Namiqi üç balamdan, o bir cüt qardaşımdan çox istəmirəmsə Allah mənə qənim olsun! Biz bir-birimizə bacı-qardaşdan artıq olmuşuq! - Flora bu sözü deyib gözlərini sıxdı, onun kirpiklərində bir-iki damcı yaş giləndi.

Əslində Floranı kövrəldən son günlər Dəyanətin

ona olan sərt münasibəti, yad baxışları idi. Elə bil Namiq dünyadan köçəndə Dəyanətlə Floranın arasındakı məhəbbəti də özü ilə aparmışdı. O gündən ərinin müəmmalı hərəkətlərindən ürəyinə nə isə dammışdı. Onu təhdid edən şübhələr getdikcə dərinləşirdi. Elə bil ərinin qardaşını sağalmaz dərdə düçar eləyən, onu öldürən Floraymış. Ona görə də Flora öz dərdini ağlayırdı. Dəyanət isə kinayəli eyhamla həyat yoldaşına zərbəni zərbə üstündən yağdırırdı:

- Bilirsən, Flora, - dedi, - ər-arvad kimi bu bizim axır görüşümüz, son söz-söhbətimizdi. Həyat qurduğumuz bu neçə il ərzində xasiyyətimə az-çox bələd olmusan. Bilirsən ki, dediyimdən dönən, tüpürdüyünü yalayan adamlardan deyiləm. Və sözümün sahibiyəm. Artıq səndən ayrılmaq qərarına gəlmişəm. Ona görə də hər şeyi açıq danışmalıyam. İstəyirəm biləsən ki, bu məsələdə mən tam haqlıyam və ailə həyatımızın dağılmasının baiskarı mən yox, özünsən… Təqsirkar olduğunu anlayıb başa düş, üzdə olmasa da, daxilən etiraf et ki, dönük qadınsan. Bir dəfə rəhmətlik anam sözarası dedi ki, oğul, deyəsən bu gəlin diplomunda ali olsa da, ədəbdən xalidi. Sonra da məni hədələdi ki, birdən Floranın xətrinə-zadına dəyərsən ha, gəldiyi nədi ki, heç bir il olmaz. Hələ bizə yaxşı öyrəşməyib. Təzədi, getdikcə öyrəşəcək, görüb götürəcək. Ancaq Flora, düzəlmədin! Getdikcə bir az da üstünə qoydun! Mən isə dözdüm, bildiklərimin çoxunu bildirmədim, çox şeyi üzünə vurmadım. Düşündüm ki, arada uşaq var, bir tərəfdən də ata-anam qabağımı kəsdi. Onlardan keçə bilmədim. Ancaq onu

da deməliyəm ki, qaynatanla qaynanan dünyasını dəyişəndən sonra qaş-qabağın əməlli-başlı açılmışdı. Yəqin yerini dar eləyirmişlər. Düzdür, onda bir söz demirdin. Əlbəttə, mən olan yerdə deyə də bilməzdin. Lakin bütün bunlara baxmayaraq, bir çox şeyləri mülahizə elədim. Düşündüm ki, artıq onlardan keçib. Baş-başa verib birtəhər dolanaq. Dost-düşmən var. Dünyada ideal adam yoxdur. Mənim özüm də səhvsiz deyiləm. Belə bir söz var: dostda səhv axtaran dostsuz qalar, məncə elə arvadda da. Ona görə də nəyinsə xatirinə çox vaxt qəlbini qırmaq istəməmişəm. İndi məni bu cür danışmaq məcburiyyəti qarşısında qoymusan. Yaxşı bilirsən ki, mən, ümumiyyətlə, qadın xeylağına qarşı həmişə nəzakətli olmuşam. Qadın anadır, bacıdır, incə bir məxluqdur. Qadınlara qarşı həmişə hörmət bəsləmişəm. Həyat yoldaşım, övladlarımın anası kimi bu evə gələndən səni əziz tutmağa çalışmışam. Güldən ağır söz deməmişəm. Sənsə belə bir xoş münasibəti əvəzolunmaz, göydəndüşmə bir qadına göstərilən müti ehtiram kimi dərk etmisən. Bunu hiss etdikcə, sənin yanlış düşüncə tərzin məni təəssüfləndirib. Atama-anama olan, indi onlar həyatda yoxdur, biganə münasibətin, sənə olan isti məhəbbətimdə buçağacan heç kəsə bildirmədiyim çat yaradıb, soyuqluq çatı. Evə qohum-əqrəbamın ayağı düşəndə ikilikdə mənə şən, munis görünən qaş-qabağından, məlahətli sir-sifətindən zəhər töküldüyünün şahidi olduqca, daxilən necə xəcalət çəkdiyimi təsəvvür edə bilməzsən. Bütün bunlara baxmayaraq, qapım hər vaxt sənin məkrli xislətinə xas olan qayda-qanunlarla

yox, yalnız öz iradəmlə açılıb örtülüb. Süfrəm də qəlbim kimi gəlib-gedənlərin üzünə açıq olub.

Flora quru müqəvva kimi donub qalmışdı. Dəyanətin, - bu bizim son görüşümüzdü, - deməsi onu sarsıtmışdı, belini sındırmışdı. Çünki Dəyanətin vicdanlı, xeyirxah olduğu qədər, onun sərtliyini, üzü döndüyü təqdirdə amansız məxluqa çevrildiyini yaxşı bilirdi. Bilirdi ki, bir neçə dəqiqədən sonra və ya saatdan sonra bu evi tərk etməlidir. Əlinin içi kimi ona agah idi ki, bu, Dəyanət tərəfindən qəbul olunmuş və heç vəchlə qarşısıalınmaz bir qərardır. Odur ki, Flora qıc kimi olmuşdu. Əsla özündə deyildi. O, bu andan əri tərəfindən qovulmuş dul qadının məşəqqətli günlərini yaşayırdı. Və Dəyanətin ittihamlarını eşitsə də, dərrakəsinə çatmırdı. Key kimi dayanıb ayrılıq məqamının son saniyələrini gözləyirdi. Daha nələr, nələr düşünürdü… Floranın düşdüyü gözlənilməz vəziyyət dar ağacının altında dayanıb ölüm zəngini gözləyən zavallının keçirdiyi iztirabları xatırladırdı… Flora indi-indi ayılıb əməllərini anlamağa başlamışdı. Və onu da bilirdi ki, artıq hər şey gecdi. Dəyanət isə danışdıqca həyəcanlanırdı:

- Namiqdən sonra əsəblərim pozulub. İndiki anlarda nə dediyimi özüm də bilmirəm. Ona görə də yaxşı olar ki, elə bu andaca evi tərk edəsən. Bu gündən mənim Flora adlı arvadım yoxdur! Ola da bilməz! Qardaşım ölümlə çarpışarkən onun qabağındakı bulaşıq qabı ətəyinin ucu ilə necə diksinə-diksinə, ikrahla götürdüyünü düşündükcə sənə nifrət eləyirəm. Anam düz deyirmiş, sən ali diplom sahibi olsan da, ali ədəb sahibi

deyilmişsən. Başa düşməli idin ki, qardaş anadan olan gündən ölənəcən qardaşdır. Sən isə sabah başıma bir qəzavü-qədər gəldiyi təqdirdə həyat yoldaşım olmaya da bilərsən. Dar ayaqda ərini atıb, başqa birini sevən və onun qoynuna sığınan qadınları da az görməmişəm. Qardaşı isə əzrayılın qılıncından başqa heç bir fövqəladə qüvvə bir-birindən ayıra bilməz. Əsli-Kərəm, Leyli-Məcnun… Hərçəndi, sən Leyli, mən Məcnun deyiləm. Lakin ata-ana, bacı-qardaş məhəbbətini bir qadının eşqinə qurban verənlərə heç vaxt qibtə etməmişəm. Buna əqli qüsurlu olan bir divanəlik kimi baxıram. Əlbəttə, bu mənim öz şəxsi fəlsəfəmdi. Bu barədə məni qınayanlar, hətta lənətləyənlər də ola bilər. Bunu təbii qəbul edirəm. Və sözsüz ki, hər kəsin dünyaya öz baxışı vardır. Onu da unutma ki, on ildən çox bir yastığa baş qoyduğum qadından ayrılmağım taleyimin acı aqibəti kimi, ömrümün axırınacan məni təhdid edəcək. Lakin qardaşımın müqəddəs ruhu qarşısında rahatlıq tapmaq üçün bundan başqa yol görmürəm.

Flora əyləşdiyi stulda qəddini düzəltdi. Və ağır bir etirafa hazırlaşan müttəhim kimi özünü ələ alıb nə isə demək istədi. Lakin bacarmadı. Hıçqırıb gözlərinə dəm verdi. Ancaq bu göz yaşlarının xeyri yox idi. Dəyanətin qərarı qəti idi. Və onun son hökmü bu oldu:

- Xahiş edirəm, məni tərk et! Daha səni görmək istəmirəm! Get! Get ki, qardaşımın həndəvərimdə dolaşan ruhu sakitlik tapsın!!

Flora heç bir söz demədən ağır-ağır yerindən qalx-

dı. Qapı əvəzinə pəncərəyə tərəf yönəldi, yanıldığını başa düşüb sola döndü və titrək əli ilə qapının bir tayını açıb dəhlizə çıxdı, başını yuxarı qaldırmadan pilləkənlərlə aşağı enib darvazanın qapısını arxasınca örtdü. Bu, Floranın son gedişi oldu.

Mən bu axşam iki çarpayılıq mehmanxanada yeganə qardaşını itirmiş, ailəsi dağılmış, pərgarı pozulmuş bir insanla söhbət edirdim. Həyatın acı ruzgarı ona müəyyən qədər ağır təsir etsə də, Dəyanət müəllim ucalığından enməmişdi. O, yenə də özünü qürurlu aparır, ötkəm davranırdı. Qardaşının yazdığı dörd misra məlum şeri mənə oxuyub:

- Səni göydə axtarırdım, yerdə əlimə düşmüsən. Namiqin başdaşında şagird dəftəri boyda oyma çərçivə düzəltdirmişəm. Bu şeri qalın şüşəyə yazdırıb həmin çərçivəyə yerləşdirməliyəm. Fikirləşmişəm ki, sənin əlin səliqəlidir. Gərək elə rənglə yazasan ki, hələ-hələ solmasın. Yəqin ki, səndə bu cür boyalar var, - deyə bir daha təkrar etdi.

Dostumun xahişini məmnunluqla qəbul etdim… Səhərisi müşavirə qurtarandan sonra birlikdə Yasəmənli kəndinə getdik. Kəndin girəcəyində zirvəsi üfüqə dirənən dağın ətəyinə doğru piyada yolu qalxır. Namiq həmin yolun kənarında dəfn olunmuşdu. Özümlə götürdüyüm zil qara boya və fırça ilə Dəyanət müəllimin dediyi qaydada şeri qalın şüşəyə yazıb səliqə ilə başdaşındakı çərçivəyə yerləşdirdik.

Müsahibim Namiqin məzarı qarşısında hüznlü görkəm alıb sonra mənə tərəf yönəldi:

- Gedək, - dedi.

Mən bir daha ikilikdə, onun ailə məsələsində tutduğu yanlış mövqe ilə razılaşmadığımı bildirdim. Dəyanət qolumdan sakitcə yapışıb dayandı və:

- Mən heç də özümü dərin ağıl sahibi hesab etmirəm və bu fikirdən uzağam. Lakin bir şeyə əmin ola bilərsən ki, öz üzərimdə hakimiyyətimə nail ola bilmişəm. Bir bax, - o mənə başımızın üstündəki dağın ortasına enli kəmər kimi dolanan qonur qayaları, kol-kosla örtülmüş təpələri, bizdən aşağıdakı bağ-bağatlı kəndi, yaxından axan gur çayı və onun sahilboyu uzanıb gedən zəncirvari çəltik zəmilərini, əks tərəfdəki dərələri, düzləri göstərdi. Şübhəsiz ki, bizim kənddən qat-qat mənzərəli məkanlar var, - dedi. - Lakin Yasəmənlinin təbii görkəminə bənzəyəni yoxdur. Mən bu yerin suyunu içib, havasını udub, çörəyini yeyib boya-başa çatmışam. Bu diyar kimi, mən də heç kəsə bənzəyə bilmərəm. Başqalaşanlar, rəngini, sifətini dəyişənlər, kimi isə təqlid etmək həvəsinə düşənlər mənə çox miskin görünür. Nəslimə-nəcabətimə xas olan ənənələrdən kənara çıxmaq xarakterimə yaddır. Mənə ata-ana, bacı-qardaş, həyat qurduğum qadın da əzizdi. Qəlbimdə onların hər birinin öz yeri var. Kəndimizin müdriklərindən belə bir kəlam eşitmişəm. Arvad eldəndi, övlad beldən, qardaş ələ düşməz. Hətta belə bir rəvayət də eşitmişəm. Bir qadının əri, oğlu və qardaşı edam cəzasına məhkum olur. Bunu eşidən padşah fikirləşir ki, bir ailədən üç nəfərin dar ağacından asılması ədalətsizlikdi, eşidib bilən məni lənətləyər. Onların birini azad etmək la-

zımdır ki, başsız qalan ailəyə həyan olsun. Ancaq padşah kimin buraxılması barədə fikir demir. Padşahın əyanları çox götür-qoy edirlər ki, tutulanların hansını buraxsınlar. Lakin bir qərara gələ bilmirlər. Ona görə də həmin ailənin qadınını bu işə cəlb edirlər. Və onların hansının buraxılması barədə qadının fikrini soruşurlar. Qadın qardaşının boynuna sarılıb, onun buraxılmasını xahiş edir. Qadının bu hərəkəti padşahın əyanlarına qəribə gəlir. Ona görə də qadının belə bir qərara gəlməsinin səbəbini soruşurlar. Qadın belə cavab verir: ər də taparam, oğul da, qardaş əvəzsizdi.

Dəyanət müəllim bunu deyib mənə tərəf yönəldi:

- Yəni siz deyirsiniz ki, mən o qadın dərrakədə də olmayım?! Bununla demək istəyirəm ki, mənə qarşı olan iradlarınız əbəsdir. Bir də ki, kəndimizin adətincə desək, qızın getdiyi ailə yalnız ərdən ibarət deyil. Qaynata, qaynana, baldız, qayın… Qadın olan kəs onlara da sevib-seçdiyi oğlanın gözü ilə baxmalıdır. Bu əsl insani keyfiyyət olardı. Yalnız əylənmək… hərisliyi şüursuz canlılara xas olan bioloji xüsusiyyətdir. Sevgi, məhəbbət məhfumunu ötəri ehtiraslar kimi dərk edib onun quluna çevrilənlər mənə çox eybəcər görünür. Böyük Nizami ötəri ehtiraslarının qulu olanlara insani naqislik kimi baxırdı.

Dəyanət mənə ciddi nəzər salaraq:

- Bəlkə yanılıram, olmaya hissiyyata qapılmışam?! Bunu son günlər keçirdiyim ruhi sarsıntılardan irəli gələn sayıqlama kimi də başa düşə bilərsiniz. Yoox, dostum, əsla o fikrə düşməyin. Bu sözləri mənə ocağımızın

odu, közü, tüstüsü, bizi əhatə edən dağlar, qayalar, Yasəmənlinin ab-havası, ata-babamın ruhu diqtə edir. Dünyada ikinci bir Yasəmənli olmadığı kimi, ikinci bir Dəyanət də olub mənim kimi düşündüyünü təsəvvür etmirəm. Mən öz anamın bətnindən dünyaya gəlmişəm və başqa bir ananın övladına bənzəmək istəməzdim. Yasəmənli də mənəvi anamdı, bu kəndin qanun-qaydaları ömür boyu mənə hakim olaraq qalacaq. Və onu axirət dünyasına qədər yaşatmağı özümə insani, əxlaqi borc hesab edirəm. Əsrlər keçsə də, Yasəmənlinin bu gördüyün dağları öz əzəmətini dəyişmədiyi kimi, mən də başqalaşa, özgələşə bilmərəm. Mənim bundan sonra da hər hansı əlçatmaz vəzifənin, malın, pulun əqidəmi dəyişə biləcəyini ağlınıza belə gətirməyin.

Dostumun bu iztirablı anlarda dediklərinə etiraz edib, onunla mübahisəyə girişib, əqidəsindən döndərmək fikrindən yayındım. Və bayaqdan bəri aramızda gedən cansıxıcı söhbəti maarif işçilərinin dünənki müşavirəsinə yönəltdik.

* * *

Bizim görüşümüz başa çatdı. Dəyanət at tutub məni yola saldı. Muradlı Yasəmənliyə nisbətən dağbasar olduğu üçün burada qar hər yeri örtmüşdü. Axşamın sazağı adamı dildən salırdı. Xadimə yolumu gözləyirmiş kimi məndən qabaq mənzilimin qapısını açıb peçi yandırmışdı. Əl-ayağımı isidib özümə gəldim. Çay-çörəkdən sonra uzanıb dincəlmək istədim. Ancaq hövsələm çatmadı. Yerimdən qalxıb

mənzilimə göz gəzdirdim. Hələ tamamlaya bilmədiyim şəkillərə baxdım. Dərin-dərin düşüncələrə daldım. Hər gecə Nizami, Füzuli ilə üz-üzə, göz-gözə dayanarkən xəyalımın qanadlarında neçə yüz il bundan əvvəllərə qayıdıb onların şer, sənət dünyasına baş vururdum. Və dərdlərimin gizli-gizli sirlərini rənglərin dili ilə nəql edib təsəlli tapırdım. Bu qış gecəsi dəli həsrətlə həyatda axtardıqlarımı şer dühalarının misralarında tapıb, varlığımı fəth edən eşq-məhəbbət macəralarının əzablarından xilas olurdum. Gənclik cığırlarımı duman-çən aldıqca, bu şer ilahilərinin yaradan haqqındakı kəlamları zülmət qaranlığımın bələdçisi kimi məni parlaq gündüzlərlə qovuşdurdu. Qarşımdakı şer peyğəmbərlərinin əksini yaratdıqca onların hələ sətirlənməmiş şerlərini oxuyurdum. Bir də onu düşünürdüm ki, tanrı böyük Üzeyiri ona görə zühr etmişdi ki, ilahi hənirtisi olan həzin nəğmələri ilə insan övladının qara bəxtini, qanlı göz yaşlarını, yeri-göyü titrədən ah-naləsini aləmə car çəksin. Bunları düşündükcə sanki qarmaqarışıq yuxular görürdüm. Fikrim yüyənindən sivrilib, intəhasız düzlərdə baş alıb gedən köhlənin cövlan etməsinə bənzəyirdi. Bu, bəlkə də yorğunluq əlaməti idi.

Birdən əlimdəki fırçanı kənara atdım. Ətrafıma göz gəzdirdim. İdmançısayağı qollarımı açıb bükdüm. Qəddimi əyib neftlə işləyən maşınkamı yandırıb üstündəki mis çaydanı isitməyə başladım. Çaydanın sızıltısı otağın sükutunu pozdu. İçərisi ərp bağlamış çaydanın mənə tanış olan sızıltısını beləcə hər gün eşidirdim.

Birdən çaydandan qopan həzin musiqinin ahəngi dəyişdi. Bu, suyun qaynamasına işarə idi. Bir stəkan çay süzüb içdikdən sonra özümə gəldim və fikrimi cəmləşdirdim. Eh, xəyallar, xəyallar… Əgər dilimizin izahlı lüğətinin tərtibatçısı olsaydım, tərəddüd etmədən tənhalıq kəlməsini xəyallar dünyasını dolaşanların həmdəmi kimi yozardım.

Qapını açıb eni-uzunu bir olan kiçik balkonuma çıxdım. Bir neçə saat əvvəl başımın üstündə vəcdlə sayrışan tanış, məhrəm ulduzlar uzaqdakı qarlı zirvələrin arxasına çəkilmişdi. Yəqin onlar da səmanın sonsuzluqlarında dolaşmaqdan yorğun düşüb öz yataqlarına çəkilmişdilər, - düşündüm. Və mənzilimə dönüb çəkdiyim şəkillərə yox, çarpayıma tərəf yönəldim. Bir gecəm də belə ötüb keçdi.

Səhərisi yenə uzaq-yaxın kəndlərdən axışıb gələn və soyuqdan sifətləri allanmış şagirdlərin dəstəsi göründü. Məktəb zənginin cingiltisi eşidildi. Fasilə vaxtı dəcəl uşaqlar hay-harayla bir-birini qartopuna tuturdu. Həyət-bacada bığlı-saqqallı "qar adamlar" peyda olurdu. Tənəffüs qurtaran kimi hamı qaçıb siniflərə doluşurdu. Qoltuğu dəftər-kitablı müəllimlər də sakit addımlarla onların arxasınca siniflərə daxil olurdular.

Son zəngdən bir neçə dəqiqə sonra haylı-küylü məktəb yenə də darıxdırıcı sükuta daldı. Bazar axşamı qar daha da şiddətləndi. Qapıdan bayıra çıxmaq olmurdu. Gecə uzun, hava soyuq, həmdərd yox. Buludların arasında güclə işıldayan qış günəşi də məktəblilər kimi axırıncı zəngdən sonra yoxa çıxıb görünməz ol-

muşdu. Xadimə mənzilimi səliqə ilə silib-süpürüb, peçi qızdırıb yüngülvari çay-çörək hazırladıqdan sonra, - gecəniz xeyrə qalsın, - deyib kasıb komasına yollandı.

Sabah görəcəyim işləri sahmana saldım. Sonra da fırçamı həvəslə götürüb rənglər dünyasına qapıldım. Aylardan bəri başladığım işi bu gecə başa çatdırmalı idim. Ona görə bu gecə çox gec yatdım. Və axır ki, məqsədimə nail oldum. Şəkillər artıq hazır idi.

Qış gecələri bu sahədə karıma gəlirdi. Şəkilləri tamamlayandan sonra iki metrdən artıq eni olan bu ilməsiz xalını gəbə əvəzinə çarpayımın yanından asdım. Hər axşam çəkdiyim şəkillərə baxdıqca şirin yuxu tapıb səhərimi bu şer ilahiləri ilə açırdım. Şəkillər mənzilimə xüsusi yaraşıq verirdi. Mən bundan fərəh duyurdum. İndi balaca, kasıb mənzilimin divarlarından sanki nur yağırdı. Pəncərəmin qabağından keçənlər dabanlarını qaldırıb şəkillərə həsədlə baxırdılar. Məktəbin direktoru və yaxın bildiyim müəllimlər mənzilimə daxil olub həvəskar rəssamın çəkdiyi şəkillərə heyranlıqla tamaşa edirdilər.

Günün axırında direktorla dalqabaq məktəbin ümumi qapısından çıxanda çalğı bığları buz bağlamış zavxoz Abasqulu soyuqdan boynunu çiyninə qısıb əllərini ovxalaya-ovxalaya bizə yaxınlaşdı. Direktor zarafatyana:

- Noolub, Abasqulu kişi, soyuqda xeyir ola?- ona söz atdı.

- Şərə lənət. Sizə bir-iki vacib sözüm var.

- Buyurun, eşidirik, - direktor yarıciddi dilləndi.

- Bura yeri deyil, süpürgəçilər qıraqdan eşidir.

- Yəni deyəcəyiniz söz məxfidir?! - direktorun sifəti təbəssümləndi.

- Məxfi yox, çox vacibdir, yoldaş direktor. Yoxsa gecənin bu vaxtı mənim burda nə itim azıb, elə bilirsiniz soyuq-qiyamətdə əsə-əsə bura gəlib sizi yoldan eləmək mənim xoşuma gəlir?!

Zavxoz Abasqulunun mühüm bir məsələdən ötrü gəldiyini güman edib direktorun kabinetinə qayıtdıq. Abasqulu qulağı sallaq papağının qarını döşəmənin üstünə çırpıb sonra da yanındakı boş stulun üstünə qoydu. Direktor üzünü ona tutaraq:

- Eşidirəm, Abasqulu, buyur - dedi. - Yəqin səndə təzə söz var, - əlavə etdi.

- Təzəsi-köhnəsi odur ki, bilirsiniz ki, mən vicdanlı adamam, özüm də cibimdə partiya bileti gəzdirirəm. İnternatda iş yaxşı getmir. Qab-qacaq çatmır, döşək üzlərinin cındırı çıxıb. Uşaqların da çoxunun çəkməsi yırtılıb, ayaqları su çəkir. Hansını deyim?! Dərd birdi, ikidi?!

- Yaxşı, bunu mənə niyə vaxtında deməmisən?

- Demişəm! Dədəm it olub ulasın demişəm! - Zavxoz Abasqulu daha da qızışdı. - Bir dəfə həkimlə şüşəbənddə qabaq-qabağa oturub, çay içib nərd oynayanda. Onda hələ havalar soyumamışdı, yaxınlaşdım ki, dilucu internatın əzvayışını çatdıram, ağzımı açmağa qoymadın. Dedin bura yeri deyil. Gələrsən, məktəbdə danışarıq. Səhərisi gözlədim, gözlədim, kabinetdə tək olanda qapını açıb içəri girmək istəyəndə, dedin başım

qarışıqdır. Get işinlə məşğul ol, lazım olsa özüm çağıraram. Bir dəfə də kənddə hesabdarın yası idi, yanladım ki, deyəm a kişi, vaxtın olanda bu internata da nəzər sal. O dəqiqə ağzımın üstündən vurdun. Dillənməyə macal vermədin. Mən də dediyimə peşman oldum. Sonra da özüm-özümü söydüm. Dedim, a köpək oğlu Abasqulu, bu yetim-yesirin dərdi-səri elə saa qalıb? Allahın ona yazığı gəlsəydi ata-analarını əlindən alıb internata möhtac eləməzdi! Hirsimdən bunu deyirəm, sonra də peşman oluram! İnsafım qəbul eləmir, fikirləşirəm ki, sabah rayondan azıb - təzənin biri qəfil böyürdən çıxıb internatı yoxlasa, nə deyək?! Onda da, Abasqulu, ölünü qoy dirinə ağla. Üzümə tüpürüb deyəcəklər, cibində partiya bileti ola-ola internatın işinə barmaqarası baxırsan. O partbilet saa haram olsun. İndi Abasqulu, gəl cavab ver, görüm necə cavab verirsən?! Durum dirənim ki, nə qədər boğazımı yırtıram direktor məni saymır, onu da kişiliyimə sığışdırmıram! Onda da kənardan eşidib-bilənlər deyərlər Abasqulu satqındır, direktorun üzünə durur. Mən vicdanlı adamam, cibimdə partbilet var. Savadım çatmasa da, özümə görə ağlım var. Hər ay da üzvlük haqqını müəllimlərdən qabaq verirəm. Adamın gərək kişiliyi olsun! Gözümüz baxa-baxa internatın o kökə düşməsinə dözə bilmirəm. Hamı bilir ki, mən vicdanlı adamam, iyirmi ildən çoxdur, partbilet gəzdirirəm, hələ bir töhmət almamışam.

Abasqulunun səsi kabineti başına götürmüşdü. Ağına-bozuna baxmadan üyüdüb tökürdü. Onun qu-

lağı bir balaca ağır eşitdiyindən qışqıra-qışqıra danışırdı. Direktor çiyninin üstündən mənə baxıb, Abasqulu eşitməsin deyə yavaşcadan:

- Yenə kimsə buna yüz qram verib, salıb ortalığa, - dedi. - Yəqin dükançı Ağaqulunun işidir. - Müsahibim bunu deyib sifətini turşutdu və təəssüflə başını buladı.

Zavxoz Abasqulu isə kirimək bilmirdi:

- Bağırov bilsə külümüzü göyə sovurar. Deyər partbilet gəzdirən dəyyuslar! Hitler başımıza od yağdıranda Bakıdan vurub gəlib kənddə internat açdım ki, əlsiz-ayaqsız, yetim-yesir uşaqlar dolanıb, elm alsınlar. İndi dünyanın düz vaxtı internatı niyə bu günə qoymusunuz? Keçən partiya iclasında istədim ayağa qalxıb bunların hamısını açıb töküm, sonra, - lənət şeytana! - deyib birtəhər özümü saxladım. Dedim kəsdiyimiz çörəyi tapdalamayım. Bir istədim yuxarılara yazıb bütün rayonu bura töküm, genə özümü saxladım. İndi budu, deyirəm, heç kimdən də qorxub eləmirəm, bir bilet sizdədi, biri də məndə. And olsun kommunist vicdanıma, internatın əyər-əskiyi düzəlməsə, dizimi yerə qoyub, partbiletimin nömrəsilə bir tel vuraram, bütün Moskva tökülüb gələr. Ondan sonra görüm necə duruş gətirirsiniz. Mən vicdanlı adamam! Neçə ildir qoltuğumda bilet gəzdirirəm! Belə şeylərə yol verə bilmərəm…

Direktor Abasqulunun xasiyyətini yaxşı bilirdi. Bilirdi ki, tündməcaz adamdı. Ona görə də təsərrüfat müdiri ilə dil tapıb birtəhər yola verirdi. Bir də ki, imam üçün ağlayanda, gərək yezid üçün də ağlayasan. Abasqulu haracan desən düzünəqulu, əl-ayağı təmiz

adamdı. Məktəbin bağ-bağatından gələn pul-parada, internatın malında gözü olmazdı. Bircə bu dilinin acılığı onu gözdən salırdı. Direktorun əlində onun şələ-şüləsini qoltuğuna verib qovmaq bir qurtum su içmək kimi bir şeydi. Ancaq qabağını kəsən onun partiyaçı olması idi. Çıxartsa, raykoma izahat verməli idi. Bir tərəfdən də həmkarlar təşkilatının razılığını almalı idi. Ona görə də təsərrüfat müdirini çıxarıb özünü işə salmaq istəmirdi. Birtəhər dil tapıb işlədirdi. Onu da nəzərə alırdı ki, adamlığı olmasa da, əlindən iş gələndi. Onun saqqızını oğurlayıb məktəbin bir çöpünü də tərpətmək olmazdı. Direktor da bütün bunları hərtərəfli ölçüb-biçir, təsərrüfat müdirinin dediyi hərzə-hədyan sözlərin başına ip salmaq istəmirdi. O bir damcı zəhrimar dilinə dəyməsəydi, Abasqulu bəlkə də bu cür təbdən çıxıb direktorun üzünə ağ olmazdı.

Təsərrüfat müdiri, o ki var danışıb sinəsini boşaldandan sonra direktor təmkinlə:

- Yaxşı, Abasqulu, yaxşı, başa düşdük,- bu sözü kinayə ilə dedi. - Danışdıqlarının hamısı doğrudur. Bizi vaxtında ayıltdın. Bu barədə fikirləşib bir tədbir görərik.

- Bax, indi atan oldu rəhmətlik! O ki, dedin tədbir görərik, maa da elə bu bircə kəlmə lazım idi. İndi arınarxayın gedirəm evimə. - Abasqulu bunu deyib ayağa qalxdı. Və qardan islanmış papağını götürüb razı halda kabinetdən çıxdı.

Abasqulu gedəndən sonra direktor nə düşündüsə gülümsündü və:

- Əslinə baxsaq Abasqulu düz deyir, mən də bilirəm xeyli vaxtdır internata mal almırıq. Ancaq bədbəxt oğlu hardasa yüz qram vurub gəlib ki, guya internata ondan başqa canıyanan yoxdu. Amma məsələnin o biri tərəfindən xəbərsizdi. Biz əsas malları rayonun mərkəzi mağazasından götürürük. Tərs kimi də oranı neçə aydı bağlayıb reviziya aparırlar. Mağazaya keçirdiyimiz on min manatlıq malı ala bilmirik. İndi yoxlamanın başa çatmasını gözləyirik. Qurtaran kimi malı götürməliyik. Abasqulu da ki, zalım oğlu zalım, heç nədən xəbəri olmaya-olmaya yüz qram vurub gəlib ki, mən kommunistəm, cibimdə partbilet var. Bayaqdan bəri baş-qulağımızı apardı. Guya ki, bizim cibimizdəki partbilet deyil.

Direktor bunu deyib əlavə etdi:

- Mən rayonla tez-tez əlaqə saxlayıram. Aldığım məlumata görə, raymaqın yoxlanması bu gün-sabah yekunlaşmalıdır. Danışdığım adamın deməsinə görə bəlkə də qurtarıb. Sabah birtəhər rayona zəng vurum, öyrənim görüm yoxlama qurtarıbsa, ikimizdən birimiz gedib malı götürməliyik.

Aradan iki gün keçmişdi. Direktor məni yanına çağırdı və:

- Gözün aydın, - dedi, - raymaqın yoxlanması qurtarıb. Ancaq deyilənə görə mağazadan çoxlu əskik gəlib. Ona görə də yubanmaq olmaz. Sabah internatın malını götürüb aradan çıxmalıyıq. Yoxsa it də gedər, ip də. Mən bir az soyuqlamışam, etirazın yoxdursa, bu dəfə sən get. Abasquluya da tapşır, öz işini bilsin. Atın

arpa-samanını da axşamdan hazırlasın. Soyuğa-zada baxmaq lazım deyil. Sabah tezdən elə tərpənin ki, gödək gündü, axşama qayıda biləsiniz. Abasqulunu da mütləq apar, aldığın malları elə oradaca özünə təhvil ver. Atı minib onu da yanına salarsan. Uzaq yoldu, sənə bir qulaqyoldaşı lazımdır.

* * *

Biz sübhün alaqaranlığında yuxudan qalxdıq. Atın qulunu artıq yekəlmişdi. Həmişəki kimi anasından ayrılanda özünü ora-bura çırpmırdı. Qəmər madyan da balasına görə kişnəyib dəlilik eləmirdi.

Rahat yola qalsa, Həkərinin sol sahili boyunca üzüaşağı gedib, Sarıyataq körpüsündən çayın o tayına adlayıb rayona aşmalı idik. Ancaq bu yol uzaq olduğundan bizə sərf eləmirdi. Ona görə də dağlardan, dərələrdən, sərt yamaclardan keçən kəsə yolu seçməli olduq. Muradlının qabağındakı dayaz keçalatdan çayı addayıb Həmzəlinin qar basmış yoxuşunu dikəldik. Yuxarı qalxdıqca üzbəüz kəndlərin arasından axan Həkərinin buz örtmüş suları aydın görünürdü. Çayın sahillərində tək-tük torçular nəzərə çarpırdı. Arabir qulağımıza güclü partlayış səsi gəlir, çayın suyu göyə sovrulurdu. Orda-burda üzən ördəklər pərən-pərən düşüb sürü ilə çayın sahillərindən havaya qalxır və tutqun səmada xeyli dövrə vurduqdan sonra qanadlarını gərib, təhlükəsiz gölməçələrə enirdilər. Abasqulu bu mənzərəni seyr edəndə hirs vurdu təpəsinə:

- Deyəndə ki, Arakel Tumanyan başdan-ayağa fı-

rıldaqdır, məni qınayırlar. Vallah mən namuslu, vicdanlı adamam, cibimdə partibilet gəzdirirəm. Bax, o çaya dinamit atıb qızıl balıqları qıranlar da, torçulara örüş-örkən verib onlarla əlbir olan da, o daşnak Tumanyanın özüdü. Yalan desəm, dədəm it olsun. Bu, qoyunu qurda tapşırmaqdır. Müəllimlər üçün tikilmiş binada lövbər salıb, tazıya tut deyir, dovşana qaç. Üzdə deyir qızıl balığı tutmaq cinayətdi, dalda da torçulara, dinamit atanlara deyir, işinizdə olun. Mən vicdanlı adamam. Həmişə demişəm, yenə də deyirəm, Arakel adını nəzarətçi qoyub, altdan-altdan qızıl balıqların kökünü kəsir. Günah Arakeldə yox e, o başda oturan başı batmışlardadı. Guya ki, bu boyda rayonda inanılmış, etibarlı bir adam tapılmadı, Arakeli Bakıdan zənbilə qoyub göndəriblər. Yenə də deyirəm, mən vicdanlı adamam, belə olur ki, xiyar əyri bitir. O yuxarıda oturanların boyuna ip tutum. Bir erməni dığasını göndəriblər ki, get Həkərinin balığını qoru. Ay qorudu haa!!! Ağlına dua yazdıqlarım, tay anlayıb başa düşmürlər ki, qızıl balığı elə birinci Arakeldən qorumaq lazımdır. Dədəm it olsun ki, o dinamiti də çayı partladanlara verən Arakelin özcüyəzidi. Yoxsa bizim bu kənd-kəsəkdə dinamit nə gəzir?! Mən mənliyimlə o dinamitin nə olduğunu bilmirəm.

Həmzəlinin yoxuşunu qalxıb düzə çıxanda, Həkərinin buz haşiyəli suları da, çay boyu kəndlər də gözdən itdi. Artıq dinamit səsi eşidilmirdi. Pərən-pərən düşən ördək sürüləri də görünmürdü. Abasqulunun ba-

yaqdan bəri yana-yana danışdığı balıq nəzarətçilərinin böyüyü Arakel Tumanyan barədəki söz-söhbəti də qurtarmışdı.

Yuxarıdakı dağların ətəyindən başlayan geniş düz Araza doğru uzandıqca daralıb Bərgüşadla Həkəri çaylarının qovuşduğu yerdə qurtarırdı. Biz Yazı düzünün ortasından keçib rayon mərkəzinin yaxınlığındakı kəndə enməli idik. Üst-üstə yağan qar yol-rizi örtmüşdü. Bələd olduğumuz yollarla fəhmlə irəliləyirdik. Qəmər madyan qan-tərə batmasına baxmayaraq, düyülmüş quyruğunu şax tutub büdrəmədən irəliləyir və sanki bu bəyaz çöllərə meydan oxuyurdu. Çökəklərdə, gözümüzə buralardan təzəcə keçən tək-tük canavar ləpirləri dəyirdi. Bu səssiz-səmirsiz düzlərdə bir canlı görünmürdü. Arabir yuxarı dağlardan əsən sərt küləklər yumşaq qarı sovurub üzümüzə cırpırdı. Abasqulunu bir-iki dəfə məcburi atın tərkinə aldım. Ancaq beş dəqiqə keçməmiş, - müəllim, saa baxma, cavansan, soyuq məni kəsdi. Piyada getməyim yaxşıdı, onda qızışıram, bədənim isinir, - deyib atdan düşdü. Mən özüm də qızınmaq üçün yəhərdən aşırılıb atı yedəyimə aldım. Abasqulu qar basmış yollarda qırğı kimi gedirdi. O, birdən mənə yanaşıb ərklə:

- Müəllim, nə sən dillənirsən, nə də ki, mən, - dedi, - yolunku söhbətdi. Yoxsa bu qarlı cığırları getməklə, qurtaran deyil. Gəlin yola körpü salaq.

Razılıq mənasında dillənmədim. Abasqulu atdan irəli yeriyib sağ tərəfə uzanan dərənin boğazını işarə etdi:

- Ora Çirişli dərə adlanır. Yuxarı tərəfindən axan sısqa su yayda quruduğundan Kor bulaq deyirlər. Yazın burnu açılanda buraların çirişini yığıb-yığışdırmaq olmur. Yan-yörə kəndlərdən qız-gəlin dəstə-dəstə buralara gəlib meşokla çiriş yığır, aparıb kətə bişirirlər. Özü də hər yerdə bitən deyil. Kasıb-kusub at-eşşəklə bazara çıxarıb, yaxşı pul qazanırlar. Ya da ki, daşıyıb kəndlərdə dənə-dünə verib yığırlar başlarının altına. Yəqin yeməmiş olmazsan, çirişin kətəsi ələ düşməz, deyilənə görə cana dərmandır. Amma onun da bir vaxtı var. Vədəsində yığmadın, qurtardı getdi, qartıyır. Ondan sonra at getsin. Yeməli olmur.

- Müəllim, Kor bulaq dedim, yadıma bir əhvalat düşdü, - Abasqulu maraqla söhbətinə davam etdi. - Müskanlı Qoçəlini eşitməmiş olmazsan. Əldən-ayaqdan da iti adamdı, o tərəflərdə hamı ondan tük salırdı. Müskanlıya qız verib, qız almışıq. Ona görə də o tərəflərə gediş-gəlişimiz var. Qoçəlini də yaxşı tanıyıram. İndi qocalıb əldən düşüb. Tay həminki Qoçəli deyil. Onda şura hökuməti hələ gəlməmişdi. Nikolayın taxtı yavaş-yavaş laxlayırdı. Qoçəlinin də mənəm-mənəm vaxtı idi. Xam atı çılpaq yalmanlayıb minirdi. Atdığı da yayınmazdı. Quşu gözündən vururdu. Ancaq gücünə güvənib, ona-buna buynuz göstərən deyildi. Bir gün yaz ağzı hara gedirsə, axşam evə qayıtmır, qalmalı olur. Səhər qayıdıb evə gələndə arvadı Hürü onu çox pəjmürdə qarşılayır. Qoçəli Hürünü belə görəndə zarafata salıb soruşur ki, yenə nə olub, ay arvad, qaş-qabağın yer süpürür?! Hürü cavab verir ki, bundan artıq

noolsun?! Düşmən ölməyib ki. Bu gün malımızı aparan, sabah üstümüzdən yorğanı da aparar. Sən burda olmayan gecə tövlənin dalını yarıb dörd erkəyimizi aparıblar.

Qoçəli arvadın yanında özünü sındırmır:

- Pah! Böyük iş olub! Aparıblar, aparıblar, uşaqların canı sağ olsun. Yəqin kiminsə könlünə kabab düşübmüş, utandığından gündüz yox, gecə gəlib.

Hürü görür ki, Qoçəli onun sözünü zarafata salır, daha dillənmir, qaş-qabaqlı dama girib çörək hazırlayır.

Qoçəli pərtliyini bildirməsə də, Hürü ona - tövləni dağıdıb, dörd erkəyimizi aparıblar, - deyəndə elə bil ortasından beşaçılan gülləsi keçir. O, əllərini boynunun arxasında çarpazlayıb taxtın baş tərəfindəki mütəkkəyə söykənir. Qoçəlini fikir götürür. - Mənə sataşan hələ anasından olmayıb. Bəs bu qurd ürəyi yeyən kim olar?! - özü-özünə düşünür. - Hər halda qonum-qonşu işi deyil. Yaxın kəndlərdə də məni yaxşı tanıyırlar. O cəsarəti eləməzlər. Qundallılar sakit camaatdı. Ağlım kəsmir meşə kəndlərdən də buralara üzükən olsun. Məlikəhmədli, Əliquluuşağı kəndlərində də əli sərpən adam yoxdu. Balahəsənlilər, Xıdırlılar da Allah adamlarıdı. Oruc tutub, namaz qılan da əyri yola düşməz. Bu, olsa-olsa məzməzəkli Ağaşirinin işidi. Ağaşirinin dabbaqda gönünə bələdəm, ondan nə desən çıxar. Ağaşirinin o tərəflərdə adı qulağıma dəyib. Biriki dəfə də camaat arasında xoruzlanıb ki, Qoçəlini cibimə qoyaram. Mənim barəmdə çox alt-üst danışıb,

başından yekə qələtlər eləyib. Hətta deyib ki, onu gecə yatdığı yerdə yorğanı qarışıq elə götürərəm ki, xəbəri olmaz. Ağaşirinin onun barəsində hərzə-hədyan danışması Qoçəliyə çatmışdı. Amma Qoçəli yatsa yuxusuna girməzdi ki, haqq-salamı olan, bir süfrədə çörək kəsdiyi adam bu cür nakişi iş tutar. Qoçəlini də ağrıdan erkəyin getməsi yox, düşmənin onun üstünə ayaq alması idi. Fikirləşir ki, bu gün malımı aparan, sabah namusuma toxunar. Amma Qoçəli dayaz adam deyildi, axır sözünü əvvəl deməzdi. Ona görə də məzməzəkli Ağaşirindən qaralsa da, başına gələn hadisəni hələlik açıb ağartmaq istəmirdi. Ölçüb biçirdi ki, məsələni yerli-yataqlı dürüstləşdirməmiş hərəkət etməsin. Mal bir yerə gedər, iman min yerə. Bəlkə tövləni yarıb erkəkləri aparan Ağaşirin yox, başqa bir ağlagəlməz adamdır. Amma malı itən şıx olar, - deyiblər. Bu əhvalatı başında nə qədər hərləyib fırlayırdı, yenə də gəlib dayanırdı məzməzəkli Ağaşirinin üstündə.

Qoçəli uşaqları otaqdan çıxarıb, Hürünü yanına çağırır və soruşur:

- Arvad, heç kim bilməsin, bir söz soruşum.

- İkisini soruş.

- Bu qoyun məsələsi məzməzəkli Ağaşirinin işi olmaz ki?!

- Nə deyim, vallah, o dünyamız var, yalan danışıb imanımı yadıra bilmərəm.

- Hürü, aşağı-yuxarı nə qədər araşdırıram yenə gəlib o dəyyusun üstündə dayanıram. Bu iş Ağaşirindən o tərəfə deyil. Bu qapıya Ağaşirindən savayı, heç kim

cəsarət eləyib ayaq basa bilməz. Ağaşirin də bu işi nə düşmənçilik məqsədiylə eləyər, nə də ki, dörd erkəyin acıdı. Onun qoyun sürüsünün ucu-bucağı görünmür. Ağaşirininki mənimlə öcəşməkdi. Sübut etmək istəyir ki, bu dərənin vıriyidi mənəm. Ağaşirindən başqası yalandı. Düzdü, Ağaşirin dizibərk, qoçaq adamdı. Ancaq bir az lovğalığı var. Niyyəti odu ki, eşidib-bilənlərin yanında məni xar eləyib, gözdən salsın.

Hürü tərəddüdlə:

- A kişi, hələlik darını kola tökmə. Əl altdan soraqlaş, öyrən, gör iz hara gedib çıxır, axırda bir fikrə gəl. Nahaqdan onun-bunun adını çəkərsən, sonra qınaq yeri olarıq. Dostu da özünə düşmən eləmə.

Həmin gecə ilan vuran yatır, Qoçəli yatmır. Səhər çörəyini yeyib, çayını içib, qayışının altını bərkidəndən sonra Hürüyə deyir ki, arvad, dəsmala bir az çörək bağla, Gorus tərəfə dəyib qayıdıram. Hürü yuxa çörəyin arasına yağdan-şordan qoyub ərinə dəsmal bağlayır. Qoçəli onu görməsinlər deyə, kəndin altından hərlənib çayyuxarı yollanır. Ancaq Gorusa yox, Məzməzək tərəfə aşır.

Kəndə girəndə Ağaşirini soruşur. Deyirlər cütdən indicə qayıdıb, evində olar. Qoçəlini tanıyanlardan biri qabağa düşüb onu itdən ötürə-ötürə Ağaşiringilə tərəf dolaylanır. Ağaşirin yamacdakı evin dəhlizində əlini belinə vurub ağır-ağır o baş-bu başa var-gəl eləyirdi. İtlər hürüşən tərəfə baxanda gözü Qoçəliyə sataşır. Ağaşirinin bənizi qaçır, fikirləşir ki, onu Qoçəliyə satan olub. Qoçəli də erkəkləri gətirdiyimi bilib, mənlə

hesab çəkməyə gəlib. Ona görə də ehtiyatı əldən vermir, tez otağa keçib yükün arasında gizlətdiyi naqanı pencəyinin altından qayışa keçirib, aşağı enir. Onlar həyətin girəcəyində əl verib salamlaşırlar. Ağaşirin Qoçəlinin qolundan yapışıb evə dəvət edir və:

- Ə, qardaş, sən hara, buralar hara?! Neçə vaxtdı görünmürsən, - deyir. - Qoçəli, yaman könlümə düşmüşdün. Ha deyirdim bir dəfə yolumu o tərəflərə salıb səninlə görüşüm, olmur. Gündə araya bir iş düşür. İndi də o Həmzəli başındakı Çirişli dərədən yuxarı, Kor bulağın yanında bir-iki günlük şum yeri qalıb. Bu günsabah qurtarmalıyam. Bir az bundan qabaq cütdən gəlirəm. Soyuq dəyib, nədisə başımda bir az ağrı var. Ona görə də günorta olmamış cütü açıb öküzləri buraxdım. Dedim gəlim evə, arvad-uşaq quluncumu ovsun, bir-iki stəkan kəklikotu çayı içim, bədənim yumşalsın. Səndən ötrü darıxmışdım. Yaxşı ki, özün öz ayağınla gəlib çıxdın.

- Sağ ol, Ağaşirin, elə mən də bir həftə olar evdən çıxmışam. Uşaqlardan xəbərim yoxdur. Gördüm istilər düşür, tərəkəmə də yavaş-yavaş yerindən tərpənir. Yuxarı dağlara çıxdım ki, bir yönnü yurd yeri seçim. Üçtəpə yaxşı yaylaqdı, Gorus bazarına da səmtdi. Di gəl ki, suyu qıtdı. Yayda mal-heyvan sudan korluq çəkir. Qannıca da əldən-ayaqdan uzaqdır. Axırda belə qərara gəldim ki, köçü Şırşır bulağından aşağıdakı düzə qaldırım. Oralar Gorunun, Muğancığın yurd yerləridir. Bizimki də dədə-babadan onlarınkı ilə tutur. Adamlarımız da, itlərimiz də bir-birini tanıyır. Qışda onların

ferması bizim qışlaqlara gəlir, yayda da biz onların yaylaqlarına gedirik. Razılaşdıq ki, elə bu yay da bir yerdə olaq. Onlar bizə dəyib-dolaşmır, biz də onlara.

Qoçəlinin sözünün əvvəlində - bir həftədən çoxdu evdən xəbərsizəm, - deməsi Ağaşirini xeyli toxtatdı. Ağaşirin fikirləşdi ki, Qoçəlinin bir həftə ərzində evindən xəbəri yoxdursa, deməli, erkək məsələsini də hələ bilmir. Odur ki, Ağaşirinin qırışığı bir balaca açılır. O, xoş əhval-ruhiyyə ilə:

- Ay arvad, - deyir - Qoçəli yol gəlib, yəqin aclığı-zadı var. Çaydan-çörəkdən gətir görək başımıza nə gəlir…

Süfrə açılır. Ortalığa təndirdən təzə çıxan isti lavaş, tutma pendir, erkək bozartması gəlir. Onlar - bismillah, - deyib süfrəyə əl uzadırlar. Qoçəli bozartmanın tamından o dəqiqə bilir ki, təzə qoyun ətidi. Ancaq bu o demək deyil ki, Qoçəlinin qoyunudu. Lakin qonaq körəyi könülsüz, çəkinə-çəkinə yeyir. Ağaşirin bunu hiss edib gümrah bir səslə:

- Də, Qoçəli, mən ölüm çəkinmə, öz malın kimi ye, - deyir. Və onun günəşdən qaralmış dolu sifətində çətin sezilən bir rişxənd ifadəsi dolaşır.

Ağaşirin - öz malın kimi ye, - deməklə burda bir giliz vurur. Qoçəli sözü göydə alan adam idi, başa düşür ki, Ağaşirin eyhamla hara vurur. Ancaq özünü o yerə qoymur. Hesabı içəri verir. Və daxilində - eybi yoxdur, sən məzməzəkli Ağaşirin ol, mən də Teymurmüskənli Qoçəli, - düşünür.

Onlar yeyib-içib, ordan-burdan xeyli söhbət etdikdən sonra Qoçəli - ya Əli, - deyib qalxır ayağa:

- Ağaşirin, süfrən həmişə açıq olsun - deyir, - icazə ver gedim, evdən çoxdan çıxmışam. Uşaqlardan nigaranam. İndi hamı yolumu gözləyir. Amma mən ölüm, cütü qurtarandan sonra, yolunu biz tərəfə sal. Hürü bir-iki dəfə deyib ki, Ağaşirin nədənsə son vaxtlar yaman seyrək görünür. Gəlsən, bu giley-güzar aradan qalxar. Həm də qabaq-qənşər oturub ağıllı-başlı söhbət eləyərik. Dünya ölüm-itimdi, bizim də yaşımızın elə vaxtıdır ki, bu gündən sabaha etibar yoxdur.

Onlar dörd bir tərəfdən çəpərə alınmış geniş həyətə çıxırlar. Qonşunun evinin arxasında beş-on qoyun baş-başa verib sakitcə otlayırdı. İki qoç kənara çəkilib bir-birinə meydan oxuyurdu. Quyruğu yerlə sürünən və buynuzlarının yeri güclə bilinən ağ qoç geri çəkilib, buruq-buruq buynuzları yana əyilən qara qoça həmlə edib, yan tərəfdən ona bir-ikisini ilişdirdi. Qara qoç geri dönüb iti buynuzlarını işə saldı. Qoçlar bir-birindən xeyli aralanıb, sonra kəllə-kəlləyə gəldilər. Qara qoç rəqibinə bir-iki buynuz ilişdirəndən sonra ağ qoç üz qoydu qaçmağa. Bu maraqlı döyüş səhnəsi Ağaşirinlə Qoçəlinin diqqətindən yayınmır. Qoçəlinin fikri uzaqlara gedir. Və müsahibinə tərəf dönərək:

- Görürsən də, Ağaşirin, - deyir. - Belə yerdə deyiblər, buynuzsuz qoçun qisası, buynuzlu qoçda qalmaz.

Əvvəl söz Ağaşirinə çatmır, sonra nə düşünürsə, rəngi qaçır. İki metrə yaxın boyu, cantaraq bədəni, dolu sifəti, eşmə bığları olan və qarnı bir qədər irəli çıxan Ağaşirin iri əllərini Qoçəlinin çiyninə qoyub:

- Qoçəli, bəlkə bu axşam qalasan?!

Qoçəli belə bir təklif üçün ona razılığını bildirir və:

- Sağ ol, Ağaşirin, evin abad olsun. Bayaq dedim ki, bir həftə olar evdən çıxmışam. İndi arvad-uşaq nigarandır. Mütləq getməliyəm.

Kənddən çıxana qədər Ağaşirin qonağının yanınca gedir. Yol ayrıcında Qoçəli ayaq saxlayıb dostuna bir daha razılığını bildirir və:

- Ağaşirin, - deyir - buracan gəldiyin bəsdi, mən ölüm, əziyyət çəkmə, qayıt get.

Ağaşirinlə Qoçəli əl verib ayrılanda onların müəmmalı baxışları rastlaşır...

Qoçəli Məzməzək dərəsindən Yazı düzünə qalxanda gün əyilmişdi. Sərin meh göy zəmilərə sığal çəkirdi. Havada qanad çalan torağaylar, rəngbərəng quşlar müxtəlif dillərdə baharın hüsnünə nəğmə deyirdilər. Tökmə bədəni, zəhmli baxışları, enli kürəyi, cəld tərpənişi olan Qoçəli qara qoyun dərisindən olan papağının dalını qaldırıb pəsdən deyə-deyə ətrafı vərəvürd eləyirdi. Ağaşirinin cütlə, altını üstünə çevirdiyi torpaqlara diqqətlə nəzər salırdı. Ağaşirinin deməsinə görə burada darı əkməli idi. Toxumunu da Dığ ermənilərindən almışdı. Qoçəli Çirişli dərəsinə enib, Kor bulağın üstündə dizini yerə qoyur. Sərin sısqa sudan doyunca içib bir-iki ovuc da üzünə vurur. Və əllərini bığına çəkir - yaxşı bulaqdı, saf da suyu var. Heyf ki, yayın ortalarında quruyur, - dodaqaltı mızıldanır. O, yuxarıdakı dikə qalxıb buradan keçən çalın-çarpaz cığırları, çala-çuxurları gözdən keçirtdikdən sonra yola düzəlib qaş qaralanda Müskanlıya çatır. Bir-iki gün evdən çölə çıxmır, yatıb dincəlir.

Bir səhər alt dan ağaranda qıs-qıvraq geyinib üz qoyur Məzməzək kəndinə. Çirişli dərənin qurtaracağındakı alçaq təpənin üstündə dikələn boz daşların arasında xəlvət bir yer seçir. Buradan Ağaşirinin cüt sürdüyü yerə iki yüz addımlıq məsafə olardı. Gün qalxanda Ağaşirinin hənirtisi gəlir. O, tələsmədən boyunduruğu öküzlərin boynuna keçirir və cütü düzəldib holavar deyə-deyə şuma başlayır. Öküzlər bud yerlərdə cütü asanlıqla çəkib aparırdı. Ala çöngə cütə təzə qoşulduğundan xamlıq edib yana dartınırdı və Ağaşirini tez-tez təbdən çıxarırdı. Qoçəli kənardan ala cöngəni pəsənd eləyir - gönündən yaxşı çarıq çıxar, əti də ki, yumşaq, - düşünür və özü-özüylə danışırmış kimi - bütün el-oba bilir ki, naməd adam deyiləm. Belə bir işə də heç vaxt qol qoymazdım. Ağaşirin məni vadar elədi. İnsafım yol verməzdi ki, öküzün birini aparıb, çörək kəsdiyim adamın cütünü yan üstə qoyum. İndi Ağaşirin məndən yox, özündən küssün. Düzdü, aramızda düşmənçilik yoxdu. Ağaşirində də mənə qarşı kin-küdurət görməmişəm. Bu məsələ də qərəz deyil, mərəzdi. Ağaşirin özünü mənə göstərmək istəyir ki, mən Ağaşirinəm. Amma qoy bilsin ki, adama öcəşmək necə olar. O Ağaşirindisə, mən də Qoçəliyəm. Ona həddini bildirməsəm ayağı yer alar. Və sonra çox baş aparar. Düşünər ki, Qoçəli məndən qorxub çəkindi. Bəd niyyətlə qapıma gələni qandırmalıyam. Yoxsa Ağaşirin bu dərələrdə çox əliuzunluq eləyər. Onun burnunu ovmasam, özünə gəlməz...

Gün əyilmişdi. Kölgələr uzanırdı. Ağaşirin cütü

açıb öküzləri örüşə buraxır, özü kəndə enir. Qoçəli alçaq daşların arasından çıxıb, arxa tərəfdən, öküzləri irəlidəki yastı təpədən Çirişli dərəyə tərəf qovur. Və cəld sıçrayıb ala cöngənin quyruğunu əlinə dolayıb, Kor bulağa tərəf endirir. Bir göz qırpımında ala cöngənin boynunu qanrıb, tappıltı ilə yerə çırpır. Və götürdüyü iplə ayaqlarını bağlayıb, yönünü qibləyə çevirir... Cöngənin gönünü soyub yumşaq yerlərindən on beş-iyirmi kiloqram sivirib aradan çıxır. Artıq buralarda ləngimək olmazdı. O, Kor bulaqda əl-ayağının qanını tər-təmiz yuyub yola düzəlir.

Qoçəli o gecə həm rahat, həm də narahat yatır. Ağaşirin isə axşam ha gözləyir, öküzlər gəlib çıxmır ki, çıxmır. Qaranlıq çökəndə əbrəş öküzün mələrtisi eşidilir. Ağaşirin dəhlizə çıxır. Ala cöngə gözünə dəymir. Təkcə əbrəş öküz yolağanın qabağında dayanıb ətrafa boylanır və sanki tayını axtarıb mələyirdi. Ağaşirinin dalağı sancır. O, tez evdən çıxıb, soraqlaşa-soraqlaşa kənd yuxarı qalxır. Şum yerinə dəyir, ətrafları qarışqarış dolaşır. Artıq qaranlıq düşmüşdü. Göz-gözü görmürdü. Ağaşirin kor-peşman geri qayıdır. - Ala cöngəyə nooldu, yəqin hansı oğru-əyrininsə güdazına getdi, canavar da yeyə bilər, - ha fikirləşir, bir yana çıxara bilmir. Bəlkə yorğun olduğundan hardasa yatıb qalıb, azıb başqa yerə də gedib çıxar...

Ağaşirin sanki yasa batmışdı. Arvad-uşağının əli qoynunda qalmışdı. Ancaq evdə heç kim cürət eləyib ondan cöngə barədə bir söz soruşmurdu. Çırtma vursan, Ağaşirinin qanı çıxmazdı. O, birtəhər gecəni səhər

eləyib, sübh tezdən ayağa qalxır. Məzməzəyin qaşına çıxanda görür ki, ağlı-qaralı quzğunlar səmanın əngin-liklərində dövrə vurub, sonra da Çirişli dərəsinə tərəf millənirlər. Ağaşirinin ağlına damır ki, yəqin ala cöngəni canavar yeyib, quzğunlar da leşin üstünə tökülür. O, addımını yeyinlədib Çirişli dərəsinə tərəf dönür. Kor bulaqdan bir az aşağıda qarğa-quzğun qarışqa kimi qaynaşırdı. Ağaşirin yaxınlaşanda nə görsə yax-şıdır?! Ala cöngənin quru qabırğası qalmışdı. Gönün-dən əsər-əlamət yox idi. Ağaşirin o dəqiqə başa düşdü ki, bu canavar işi deyil. Cöngəni hansı namərdsə so-yub, gönünü də aparıb. Canavar yesəydi, dərisindən qır-qırıntı qalardı.

Artıq iş-işdən keçmişdi. Ağaşirin daxilən özü-özü-nü danlamağa başladı: - Sənə bu da azdı, Ağaşirin, indi cəzandı çək! Arının yuvasına çöp uzatmasaydın, başına bu nağıl-həkət gəlməzdi. Cüt qaldı günün altın-da, şum da yarımçıq. Sataşmağa başına adam qəhət idi?! Qoçəlini tanıya-tanıya gərək ona sürtüşəydin?! Axı barmağın girməyən yerə, başını niyə soxurdun? Yaxşı aldın cavabını! Gərək Qoçəli, özcə qapında: - buynuzsuz qoçun qisasını, buynuzlu qoç yerdə qoy-maz, - deyəndə ayılıb, hesabını götürəydin!

Ağaşirin ovcunun içi kimi bilirdi ki, ona daş har-dan dəyib. Ancaq bunu daha da dərinləşdirməmək üçün kəndə qayıtmadı. Birbaşa üz tutdu Müskanlıya. Qoçəlinin həyətinə çatanda itlər onun üstünə cumdu. Qoçəli tez dəhlizə çıxdı, gələn Ağaşirin idi. O, irəli yeriyib itlərə çəmkirdi və Ağaşirinə şəstlə salam verib

ona - xoş gəlmisən, - dedi. Və qolundan yapışıb içəri dəvət etdi. Xoş-beşdən sonra Qoçəli qonağına:

- Həmişə sən gələsən, ay Ağaşirin! - dedi. - El-obada nə var, nə yox? Keçən dəfə sizdə olanda yadıma düşmədi deyəm, çoxdandı darı-cadı yemirəm. Bu il darını biçəndə gərək məni yaddan çıxarmayasan.

- O nə sözdü, darım saa peşkəşdi. Neçə kəviz istəyirsən gəlib apararsan. Ya da ki, özüm göndərərəm, - Ağaşirin cavab verdi.

Qonaq yaxşı bilirdi ki, Qoçəli darı-cadıdan ötrü ölmür, burda ayrı simə vurur. Yəni demək istəyir ki, adamın öküzünü gönləyib, şumunu yarımçıq qoyub, anasını belə ağladarlar. Ancaq Ağaşirin Qoçəlinin qarşısında günahkar olduğu üçün bildiyini bildirmirdi, aşağıdan gedirdi.

Hürü də qurumsu sallanan dörddirəkli damdan çıxıb otağa keçdi. Və gülər üzlə:

- Xoş gəlmisən, ay Ağaşirin qardaş, - dedi - həmişə sən gələsən.

Qoçəli əlini bığına çəkib, qalib sərkərdə ədası ilə:

- Aaz, Hürü, - dedi, - qonaq uzaq yol gəlib. Yəqin cütdən sonra çörək-zad da yeməyib. Gör çaydan-çörəkdən neynirsən! Ağaşirindən də əziz qonaq?! O xanlıq düyüsündən bir əldən süzmə plov dəmlə. O çil xoruzu da uşaqlara kəsdir, qoy altına. Ayrıca da ət qovur, amma qoy yaxşı qızarsın. Sonrasına da baxarıq.

Süfrə açıldı. Ortalığa çay-çörək gəldi. Ağaşirinin qarnına qara qayğılar dolmuşdu. Qoçəlinin isə kefi duru idi. Rəqibini ayağına gətirmişdi. Onlar yeyib-iç-

məyə başladılar. Ağaşirin qovurmanın dadandan, tamından hiss etdi ki, cavan mal ətidi. Ala cöngə, yarımçıq şum, yanı üstə qalan cüt, tayını itirib tənha qalan əbrəş öküzün mələrtisi gəlib durdu Ağaşirinin gözünün qabağında. Tikə boğazından keçmədi, udqundu. Bir-iki dəfə çeçədi. Bunu Qoçəli də hiss etdi və incə bir məzəmmətlə:

- Ə, Ağaşirin, mən ölüm iştahla ye, hesab elə ki, öz malındı, görürəm əlini süfrəyə könülsüz uzadırsan, həmişə gəldiyin evdi, indi noolub? - deyib qovurma ilə dolu olan iri qabı onun qabağına itələdi.

- Sağ ol, Qoçəli, bu nə sözdü, buranı öz evim bilməsəydim gəlməzdim.

Qoçəli onun dediklərini təsdiq etdi. Onlar yeyib-içəndən sonra süfrə yığışdırıldı. Ağaşirin yağlaçov bığına sığal çəkib ayağa qalxdı və:

- Qoçəli, çörəyimizi yedik, söhbətimizi elədik, indi getməliyəm, - dedi - vacib işim var, yoxsa gecə qalardım.

Qoçəli etiraz etmədi. Onlar kənddən çıxıb aşağıdakı taxta körpüyə qədər söhbət etdilər. Qarşı-qarşıya dayanan dağların arasından köpüklənə-köpüklənə keçən çayın kənarında ayaq saxladılar. Xudahafizləşmə məqamı gələndə, Ağaşirin iri papağını geniş alnından yuxarı qaldırıb, gücünü sınayırmış kimi müsahibinin əlini bərkdən sıxdı və diqqətlə Qoçəlinin zəhmli sifətinə baxdı. Lakin demək istədiyini dilinə gətirə bilmədi, qətiyyətli baxışları ilə ifadə etdi. Qoçəliyə demək istəyirdi ki, "Özü yıxılan ağlamaz. Boynuma alım ki,

bu işdə günah özümdədi. Qapını döyməsəydim, qapımı döyməzdin. Etməsəydim, etməzdin. İndi əlimin dalı yerdə. Sən haqlı oldun, mən haqsız. Əvvəl mən başladım, cavabımı da aldım. Ancaq dostum, gərək belə olmayaydı, lənət şeytana, məni şeytan başdan çıxartdı. Dostum, olan oldu, keçən keçdi. Yolun yarısından qayıtmaq da kişilikdəndi. Sən də daşı ətəyindən tök, mən də. Bu hərəkət nə mənim ad-sanıma yaraşır, nə də sənin... Olub-keçənləri təzədən açıb-ağartmağın mənası yoxdur. Eşidib-bilənlər də bizə yaxşı deməz. Ala göngəni canavar yeyib, erkəklər də oğurlanmayıb, çöldə itib. Xudahafiz, dostum".

Ağaşirin bütün bu sözləri dilinə gətirmədi, baxışları ilə dedi. Sifətinin ifadəsi ilə Qoçəliyə anlatdı. Qoçəli də onu olduğu kimi başa düşdü. Ağaşirin səhvlərini etiraf etməkdən sanki acı bir zövq alırdı. Və Qoçəlinin qəlbində özünə qarşı rəğbət və peşmançılıq hissi yaradırdı.

Bu səmimi etiraf axır ki, onların arasında etibar cığırı saldı. Bu cığırda daha onlar zülmət qaranlıqda yox, parlaq gündüzlərdə gediş-gəliş eləyirdilər...

Səhər-səhər Üçtəpədən və Araz sahillərindən əsən sazaq Yazı düzünün qarla örtülmüş bəyaz çöllərində əhədimizi kəsirdi. Bəzən külək şiddətlənib atın üstündə müvazinətimi pozurdu. Ona görə yenə də yəhərdən aşırılıb atı yedəyimə aldım. Zavxoz Abasqulu gah qabağa keçir, gah da mənimlə yanaşı addımlayır, Qoçəli, Ağaşirin barədə vəcdlə danışırdı. El-obada ağızdan-ağıza gəzən bu söhbəti ucundan-qulağından mən də eşitmişdim. Lakin Abasqulunun dediyi kimi yox. O

hər şeyi elə yerli-yataqlı danışırdı ki, sanki Qoçəli ilə Ağaşirinin yanındaymış. Odur ki, müsahibimi diqqətlə dinləyirdim və onun maraqlı söhbəti mənə yorğunluğumu, qışın sərt soyuğunu unutdururdu. Abasqulunun sarışın bığı, gözlərinin üstünə sallanan qalın qaşları ağarmışdı. Və sanki Şaxta babanın qiyafəsinə bürünmüşdü. Danışdıqca, ocağın üstündə buğlanan avtafanın lüləyi kimi, ağzından-burnundan buxar püskürürdü.

Biz zavxoz Abasqulu ilə ilk dəfə idi ki, yol yoldaşlığı edirdik. O, bu gün sanki başqalaşıb, özgə bir adam olmuşdu. Bir-iki gün bundan qabaq dükançı Ağaqulunun yüz qramından vurub direktorla mənim yanımda hərzə-hədyan danışan Abasqulu deyildi. Bu yerlərin təmiz havasımı, qarlı qışımı deyim, qurd kimi ulayan zəhmli küləyimi deyim, Abasqulunu ağıllandırmışdı. İndi onun söz-söhbətinə ehtiyac duyurdum. Abasqulu qəribə-qəribə söhbətlərilə məndə özünə qarşı maraq yarada bildiyini hiss edib eşidib-gördüklərindən həvəslə danışırdı:

- Müəllim, bizim bu yerlərin torpağındandı, suyundandı, havasındandı-nədi, onu deyə bilmərəm, əkdiyimiz ağacların başı göyə dəyir, ortasına örkən dolanmır. Allahın o dilbilməz qızıl balıqları da kürü töküb, bala böyütmək üçün uzaq-uzaq dənizlərdən, çaylardan, göllərdən baş alıb bizim bu Həkəri sularında qərar-qəsəm tutur. Müəllim, ondan hesabını götür ki, buraların tayı-bərabəri yoxdur. Bu torpaqda nə desən bitir. Mən Hitlerin davasında olanda ayağım dəymədiyi yer qalmayıb. Buraların

arvadı, kişisi də tamam bambaşqadır. Bir dəfə barama vaxtı kəndimizə bir bazburutlu şəhər şoferi gəlmişdi. Özü də vurub-tutmağından, ölüb-öldürməkdən danışırdı. Harasa taxıl aparmalı idi. Oturub-durub igidliyindən dəm vururdu. Üç nəfər idilər. Amma barmaq boyda xirik qurdunu görəndə nə təhər götürülürdülər! Uşaq-böyük qəşş eləyib güldülər. Müəllim, uzağa getməyək, Xəndək Muradlıdan dörd-beş vers aşağıda olar. Sən özün də qabaqlar o kənddə müəllim işləmisən, eşitməmiş olmazsan, Xəndəkli Şükürün qızı Tutu onda hələ ərə getməmişdi, axşam tərəfi çiynində su dolu səhəng bulaqdan evə qayıdanda kəndin ayağında avçarka itlərə oxşayan yekə bir çaqqal üstünə cumur. İndi sən qızdakı ürəyə bax ee! Çaqqalı nə təhər boğazlayırsa, heç qoymur nəfəsi çıxsın. Dəyirmançı əlində lapatka özünü yetirincə, Tutu çaqqalı boğub öldürmüşdü. Amma o boyda, mənəm-mənəm deyən şəhər şoferi, xirik qurdunu görəndə qaçdı. Adını da qoyub kişi. Elə təpərli qadınlar var ki, yüz o cür kişiyə dəyər. Bunu qoyum, ona gedim, bir dəfə yaz ağzı el dağa qalxanda, adını çəkmək istəmirəm, ayıbdı dayna, bizim bu qonşu kənddən olan həmli bir qadını atın üstündə ağrı tutur. Qadın utandığından ağrısını heç kəsə bildirmir. Köçdən təklənib iri bir kolun dibində atdan düşür. Elə kolun dibindəcə həmini yerə qoyur… Dərhal da uşağın göbəyini kəsib, cır-cındıra büküb alır qucağına. Sonra cəld atın belinə qalxıb özünü köçə yetirir. Bir dəfə o kəndə ayağım düşmüşdü. Həmin o köç üstündə doğu-

lan uşağı mənə göstərdilər. Onda beş-altı yaşı olardı. And olsun yaradana, pələng kimi biləngləri var idi. Tay-tuşlarına yox e, özündən yekələrə dov gəlirdi. Deyilənə görə bax, bu yuxarı kənddəki Həmidi də anası köç üstündə doğub.

Abasqulu mənə tərəf çönüb:

- Müəllim, başağrısı vermirəm? - soruşdu. - Birdən ürəyində fikirləşərsən ki, Abasqulu dərəni-təpəni birbirinə qatıb çərənçilik eləyir.

- Buyurun, buyurun, mənim üçün maraqlıdır, - onun sözünü kəsmədim.

- Müəllim, söz-sözü çəkər. Bir gün tərəkəmə dağdan qayıdanda həmin o Həmidlə, bayaq danışdığım Qoçəli bu düzün yuxarısında pərşum eləyirmişlər. Gün batarbatmaz kotanı açıb evlərinə dönürlər. El yolunu adlayanda köçlə qarşılaşırlar. Həmid sürünün qabağında atılıb-düşən əmlik quzuya baxıb:

- Qoçəli, mən ölüm bir ona bax e, - deyir, - nə kabablıqdır?!

- Həmid, deyəsən könlünə kabab düşüb axı, - Qoçəli dillənir.

- Ə, bu yorğun vaxtımızda bir əmlik kabab olsa, guya ki, sən yeməzsən?

Qoçəli:

- Görürəm könlünə kabab düşüb. Ode, o qabaqdakı əmliklərin birini götür, aradan çıx, nə olar, olar.

- Ə, Qoçəli, yəni deyirsən bir toğludan ötrü yaxamızı bu tərəkəmə gədə-güdələrinin əlinə verib adımızı bədnam eləyək?!

- Həmid, əvvəla, bu çölün düzündə nə sən yaxa ələ verən oğul deyilsən, nə də mən. İkincisi də, burda bizi kim tanıyır? Sözü ağzından çıxartma, çıxartdın, geri çəkilmə. Kişiyə qorxaqlıq yaraşmaz…

Qoçəli bunu deyən kimi Həmid sürünün qabağında gələn qara quzunu qırğı kimi götürüb atır çiyninə və üz qoyur qaçmağa. Arxadan gələn çoban-çoluq quzunun getdiyini görəndə qışqırıb atlı-itli düşürlər Həmidlə Qoçəlinin arxasına. Həmid birnəfəs qaçıb, on beş-iyirmi kiloluq quzunu Qoçəlinin qucağına atır. Qoçəli quzunu göydə alıb birnəfəs qaçandan sonra Həmidə tullayır. Tərəkəmənin atlıları nə qədər cəhd eləyirlər Qoçəliynən Həmidin tozuna belə çata bilmirlər. Kotançılar düzü aşıb, kol basmış dərələrə enəndən sonra çobanlar quzudan əllərini üzüb dayanırlar, tay irəli getmirlər. Tərəkəmə atlılarından biri qaşda dayanıb var gücü ilə qışqırır:

- Ehey!! Ehey!! Ay qorxmaz qoçaqlar, siz ki, bu hünərin sahibisiniz, mənim o quzum sizə ananızın südü kimi halaldır!

Dərədən səs-səmir gəlmir. Çobanlar atların başını döndərib, kor-peşman köçə tərəf qayıdırlar.

* * *

İrəlidəki uğultu diqqətimi zavxoz Abasquludan yayındırdı. Abasqulu söhbətinə fasilə verib susdu. İrəlilədikcə yer-yurdu titrədən motor səsləri güclənirdi. Arabir insan hənirtisi gəlirdi. Düzə çökmüş boz duman qabaqdakıları görməyə imkan vermirdi. Bir qədər irəlilədikdən

sonra Qəmər madyan qulaqlarını şəkləyib fınxırdı, yedəyimdə geri dartındı. O, qabaqdakı qaraltını bizdən qabaq görürmüş. Ata təpinib yedəyi dartdım. Qəmər madyan yolumuzun üstündə qorxulu bir təhlükə olmadığını hiss edirmiş kimi, daha inad etmədi və sakit-sakit arxamca irəliləməyə başladı. Mahmudlu yoxuşunun başına çatanda özümdə bir yüngüllük hiss etdim. Burdan rayon mərkəzinə yarım saatlıq yol qalırdı. Qəmər madyanı vahimələndirən ekskavatorların, buldozerlərin səsi idi. Sükan arxasında əyləşmiş xüsusi geyimli buldozerçilər, nəhəng maşınlarla qalın qarı kənara kürüyüb, arxada ilişib qalmış yük maşınlarına yol açırdılar. Bizə isə dar bir cığır da kifayət idi. Mexanizatorlara, - yorulmayasınız,- deyib yolumuza davam etdik. Dibi görünməyən dərənin dolaylarından aşağı endikcə duman yuxarıda qalır, ətraf təpələr aydınca görünürdü.

Magistral yolun genişliyinə çıxandan sonra özümüzdə bir rahatlıq, arxayınçılıq hiss etdik. Rayon mərkəzinə daxil olanda sovetlərin vaxtında zirzəmisində dustaqxana, yuxarı mərtəbəsində milis idarəsi yerləşən, İsgəndər bəyin dəmir taxtapuşlu evi göründü. Hərdən ötüb keçən maşınların, bir də ki, mazutlanmış qara şalbanın kəlləsindən asılan təvərə radionun xırıltısından başqa heç bir səs eşidilmirdi. Soyuqdan qapı-pəncərələri bərk-bərk örtülmüş idarə binalarının, bir-iki mərtəbəli yaşayış evlərinin bacasından çözələnib çıxan odun tüstüsünün kəsif qoxusu gəlirdi. Cəmi bir neçə binadan ibarət olan kiçik qəsəbəyə qışın darıxdırıcı buz sükutu çökmüşdü.

İrəlidəki yaşayış binalarına tərəf dönmək istəyən bir qadın hənirtimi alıb ayaq saxladı. Və mənə yaxınlaşıb adımı çəkdi. Qalın geyinib başına yun şal bağlamış Hüsniyyənin səsini eşidəndə, quruyub qaldım. Məni təəccüb götürdü. - O, gecənin soyuğunda burada nə gəzir?! Yəqin Zəkəriyyədən ayrılıblar?! Yoxsa Zəkəriyyə onu gözündən ikicə metr o tərəfə buraxmaz. - Qəlbimdə cürbəcür suallar baş qaldırdı. Və nə qədər soyuq olsa da, məni tər basdı. Çünki Hüsniyyənin qarşısında xəcalətli idim. Hüsniyyə məni ümid yeri bilib pənah gətirmişdi. Ona çıxış yolu göstərib kömək etməliydim. O, bu barədə məndən xahiş etmişdi. Mənsə onun sözlərini cavabsız qoyub, dadına yetə bilməmişdim. Bu mənim qəlbimdə ağır nisgilə çevrilmişdi. Buna baxmayaraq, Hüsniyyənin halını soruşub ona dilağız etdim. Və dönə-dönə üzr istədim. Hüsniyyə məndən inciməmişdi. O, başı daşdan-daşa dəymiş qadın idi. Ona olan rəğbətimi və çəkdiyi zillətin qəlbimdə əzabverici ağrıya çevrildiyini yaxşı başa düşürdü. Bilirdi ki, o elə bir qansız adamın caynağına keçib ki, ona heç bir vəchlə kömək edə bilmərəm.

Onun vəziyyəti ilə maraqlandım. Və Zəkəriyyənin harada olduğunu soruşdum. Hüsniyyə xeyli dillənmədi, başını aşağı dikdi. Onu qəhər boğduğundan danışa bilmirdi. Bir qədər susduqdan sonra başını yuxarı qaldırıb kal və boğuq bir səslə:

- Dərslər başlananda xəstəxanada ağır yatırdım, - dedi. - Ona görə də sizi görə bilmədim. Məni bərk döymüşdü. Bəlkə də öldürmək istəyirdi. Sağalacağıma

ümid yox idi. Görünür, Allah-taaladan ipim üzülməyibmiş. Sentyabrın ortalarında sağalıb çıxdım. Elə gördüyünüz kimi, itlə pişik kimi dolanırdıq. Sizin yanınızda bir az utanıb, həya eləyirdi. Bildiyiniz kimi əynimizdən, boğazımızdan kəsib pul yığırdı ki, motosklet alsın. Bir bazar axşamı dedi ki, hazırlaş, Gorusa getməliyik. Orda Aşot adlı bir kirvəmiz var, sifariş göndərmişdi ki, satışa motosklet gəlib, birini saxlatdırmışam. Getdik, həmin kirvəmizin köməyi ilə təzə bir motosklet aldı. Qabaqlar sürməyi öyrənmişdi, ancaq yadırğamışdı, xam idi. Kirvəmiz dedi ki, Zəkəriyyə, tələsmə, hələlik motosklet qalsın bizdə. Vaxtın olanda gələrsən, qonşuluqda yaxşı motosklet sürənlər var, səni ağıllı-başlı öyrədərlər, sonra minib apararsan. Heç kimin sözünə baxmadı. Döşünə döydü ki, motoskleti sürməyi dığalardan yaxşı bilirəm. Tərsliyinə salıb şəhərin içində motoskletə oturdu, məni də tərkinə aldı. Bir-iki yerdə özünü itirdi, az qala motosklet aşmışdı. Allah üzümüzə baxdı, sağ-salamat qurtardıq. Bizim rayonun yollarına çatanda heç sürə bilmədi, özünü itirdi. Torpaq yol, hamısı da çala-çuxur, daş-qaya. Heç avtomaşını düz-əməlli sürmək olmur. Yalvarıb ilan dili çıxartdım ki, Zəkəriyyə, inadından əl çək, gəl düşək, motoskletin bir tərəfindən sən yapış, bir tərəfindən mən. Yavaş-yavaş aparaq, başımız da salamat qalsın. Baxmadı, dedi yoluma nəhs gətirmə, bir-iki də latayır söz… Kəndlərinə az qalmış motoskletin qabaq təkəri iri bir daşa dəyib, yoldan çıxdı. Mən özümü atıb qalın bir kolun üstünə düşdüm.

Sağ-salamat qurtardım, bir az qolum siyrilmişdi. Zəkəriyyə motosklet qarışıq, daş-qayaya dəyə-dəyə diyirlənib düşdü çaya. Çayın qırağında mal otaranlar bizi görüb özlərini yetirdilər. Zəkəriyyəni birtəhər çaydan çıxartdılar. O, ağzından can çıxa-çıxa elə hey "motosklet", "motosklet" deyirdi. Kənddə də eşidib bilənlər tökülüb gəldilər. Qohum-əqrabası elə bil ölməsini istəyirdi. Bəlkə də həkimə çatdırsaydılar, bir çarə olardı. Lakin son nəfəsinə qədər ona yaxın duran olmadı… Kəndə meyitini apardılar. Heç yadları demirəm, özcə bacı-qardaşlarının gözündən yaş çıxmırdı. Elə bil bütün kənd onun ölməyini istəyirmiş.

Hüsniyyə yumub tökdü:

- İndi də onu yox, özümü ağlayıram, - dedi. - Yaman günlərə qalmışam. Necə olsa, insan idi, pis-yaxşı neçə il idi bir yastığa baş qoymuşduq. İstəməzdim ki, o cür faciə ilə ölsün. Mən də ki, əlacım nədi, elə həmin mənzildə qalıb məktəbin kitabxanasında işləyirəm.

Hüsniyyə məzlum-məzlum boynunu çiyninə əyib:

- Buna da şükür! - dedi. - Yəqin qismətim beləymiş. Bir də onu fikirləşirəm ki, görünür hardasa Allah-taalanın yolunda bir günah işlədib, qəzəbə gəlmişəm. İndi onun cəzasını çəkirəm. Bir də ki, nə bilmək olur, hər gecənin bir gündüzü var. Hələlik dözürəm, deyirəm, bəlkə mənim də üzümə gün doğdu. Ümidimi yuxarıdakı kişidən üzməmişəm. Sizdən də ki, inciməyə haqqım yoxdur. Allah yazanı bəndə poza bilməz…

Bu bədbəxt qadının dedikləri də mənə bir dərd

oldu. Hüsniyyəyə nə deyəcəyimi bilmirdim. Ona görə də dillənmirdim. Sakitcə dayanıb onun üzləşdiyi faciələr barədə düşünürdüm.

Hüsniyyə başına gələnləri danışıb qurtardıqdan sonra kədərli ah çəkdi:

- Onların kəndindən gəlirəm, - dedi, - axırıncı cümə axşamısını verib qayıdıram. Qaranlığa düşdüyümdən burda bir qohumumuz var, onlara gedirəm. Gecə burda qalıb, obaşdan işə getməliyəm. Elə yaxşı ki, burda rastlaşdıq. Gecənin soyuğunda bu da bir qismət imiş. Sizinlə görüşməyim mənə təsəlli oldu…

Hüsniyyəyə dil-ağız eləyib, başsağlığı verdim. Və Allahdan ona səbir dilədim.

Abasqulu söhbətimizə mane olmamaq üçün at yedəyində kənarda dayanmışdı. Və söhbətimizi eşitmirdi. Yəqin ki, qəlbində qadına söyürdü ki, getdiyimiz yerdə bu kim idi böyürdən çıxıb bizi yoldan elədi. Mən Hüsniyyədən aralandım və biz yolumuza davam etdik. Qəmər madyanı dalda yerdə bağlayıb qəsəbənin mərkəzi küçəsində ağaran univermağa tərəf yönəldik. Təzə inşa olunmuş bu binanın qabaq tərəfində mağaza, arxasında ticarət idarəsi, zirzəmisində isə anbarlar yerləşirdi. Camaat arasında bura Orucun dükanı da deyilir. Univermağa daxil olanda alçaq boyu, xoş sifəti, aydın baxışları, mülayim danışığı, sarımtıl saçları olan Oruc bizi görəndə irəli yeriyib əl verdi. Və xoş qaşqabaqla:

- A qardaş, harda qalmısınız, gəlib çıxmırsınız,- dedi. - Bəlkə malınızdan bezmisiniz? Kim gəlib görür, de-

yir ki, bu malların sahibi-zadı yoxdur? Niyə yığıb aparmırlar?

Oruc haqq-hesab kitabını açıb, qarşısına sayğac qoydu. Mən əlimi qoltuq cibimə salıb direktorun verdiyi möhürlü qəbzi Oruca təqdim etdim. Həmin qəbzdə univermağın Muradlı orta məktəbinin internatına on min manatlıq mal borclu olduğu göstərilirdi. Oruc qəbzi qarşısındakı sənədlərə əlavə edib ayağa qalxdı. Və zavxoz Abasquluya yağdan, düyüdən, qab-qacaqdan, geyim-keçimdən ibarət olan dörd min manatlıq mal verdi. Qəmər madyan qarda-tufanda bir belə malı ancaq çəkib apara bilərdi. Oruc istədi ki, borclu olduğu malın hamısını verib biryolluq canını qurtarsın. Lakin bizim buna imkanımız yox idi. Qəmər ata bu qarlı gündə dörd min manatlıqdan artıq yük vura bilməzdik. Qalan malları tezliklə aparacağımıza söz verib, Orucla tələsik xudahafizləşdik. O, bizi çay-çörəyə dəvət etdi. Biz isə:

- Gödək gündü, yollar da buz bağlayıb. Ona görə də ləngiməyə təhrimiz yoxdur, getməliyik,- dedik.

Oruc yemək-içmək barədə bərkini tutmadı, bizimlə razılaşdı…

Qəmər madyanı burnunacan yükləyib yola düzəldik. Çalışırdıq ki, qaranlıq çökməmiş Yazının çovğunlu düzlərini aşıb, işıq ikən Həkəri çayını addaya bilək. Ancaq yollar buz bağladığından yüklü atı qısnamaq olmurdu. Tərs kimi gələndə atın iki nalı düşmüşdü. Ona görə də yalın olan qabaq ayaqları tez-tez sürüşürdü. Qəmər at bir azca büdrəsəydi, qurtardı getdi,

üstündəki şüşə qab-qacağın biri də ələ gəlməzdi. Ona görə də ehtiyatla hərəkət edirdik.

Soyuq bizi əldən-dildən salmışdı. Heç birimiz dinib danışmırdıq. Toran çalanda duman-çən çökmüş Çirişli dərəni keçib, Həmzəli başından üzü aşağı sallandıq. Eniş yolda Qəmər madyanın nalsız ayaqları hərdən sürüşdükcə, at tez özünü ələ alıb müvazinətini düzəldirdi. Həkərinin sahillərinə enəndə göz-gözü görmürdü. Qar yol-rizi örtdüyündən keçəlatı tapa bilmirdik. Məcbur olub xeyli aşağıdan, çayın sakit axdığı bir yerdən keçmək qərarına gəldik. Hər ikimiz qurşaqdan aşağı soyunduq. Abasqulu qabaqda atın yedəyini çəkirdi, mən isə arxada gedirdim və hər ehtimala qarşı yükdən yapışmışdım. Çayın ortasında su boğazımıza qədər qalxıb üst paltarlarımızı da islatdı. Birdən atın ayağı sürüşkən daşların arasına düşdü və Qəmər madyan səntirlədi. Abasqulu həyəcanlı bir səslə qışqırıb, ata təpindi. At ağır yükün altında var gücünü cəmləşdirib özünü düzəltdi. Abasqulu, - nənəm saa qurban, Qəmər madyan! - deyib ata təşəkkürünü bildirdi. Yaxşı deyiblər ki, gördüyünə get, bildiyinə yox. Çayın bu hissəsində suyun lal və sakit axını bizi aldatmışdı. Onun dərinliyindən, dibindəki daşların sürüşkənliyindən, çalaçökəkliyindən bixəbər idik. Tanrı bizə yar oldu, buradan sağ-salamat keçdik.

Atın yükü islanmış, suya düşmüş paltarımız əynimizdə donub sümüyə dönmüşdü. Yolu itirdiyimizdən zülmət gecədə hara getdiyimizi bilmirdik. Biz it hürən tərəfə istiqamət götürüb yolumuza davam etdik.

Həmişə Həkərinin çılğın sularına baxıb, onun həzin nəğməsini dinləməkdən zövq alırdım. Havalar isinəndə gündə-günaşırı çayın dərinliklərinə baş vurub aşağı-yuxarı üzürdüm. Yorulanda sahildəki qumsallıqlarda uzanıb qızmar günəşin altında xoşhallanıb dincimi alırdım. Və yenə də özümü coşğun dalğaların qoynuna atırdım. Həmin anlarda ağrımı-acımı unudur, qəmdən-kədərdən uzaqlaşırdım. Bu qış gecəsində isə bizə keçəlatdan yol vermədi. Həkərinin buz sifəti necə də sərtləşmişdi. Ona görə də təhlükəsiz hesab etdiyimiz lal, sakit axından keçməyi münasib bildik. Ancaq zəndimiz bizi aldatmışdı. Lal axın sanki qəsdimizə durmuşdu. Və bizi amansız girdabına salıb, sularına qərq etmək istəyirdi. Həmin məqamda ağlıma cürbəcür hadisələr, əhvalatlar gəldi. Sakit davranışı, mülayim xasiyyəti ilə özünə qarşı rəğbət yaradan və məqam gələndə dönüklüyü üzə çıxan namərd insanları xatırladım. Elmi müəssisədə işləyən, yerəbaxan alimi gözümün önünə gətirdim. Danışanda onun nazik bığlarının üstündə həya təri cilvələnir, gözlərinin altı kölgələnir, ifadəsiz sifətinə xəfif qızartı çökürdü. Onu əhatə edənlər bu mələksima alimin barəsində deyirdilər ki, mələsə ətini yemək olar. Bəlkə də yeganə alim idi ki, hamının beyninə insanlıq nümunəsi kimi həkk olunmuşdu. Bir gün bu həlim, yerəbaxan insanı böyük bir yaradıcı kollektivin başında əyləşdirdilər. Həmişə haqq, ədalət, doğru-dürüstlük carçısı olan alimin belə bir yüksək səlahiyyətli vəzifəyə keçməsi, göydəndüşmə, tapıntı təsiri bağışlayırdı. Cəmi bir neçə həftə sonra bu sakit yerəbaxan alim ağlagəl-

məz bir məxluq oldu. Quzu xislətli bu insan ona yaxından bələd olanların ikrah, istehza, nifrət hədəfinə çevrildi. Mülayim təbiətli alim özündən iki santimetr uca, beş qram ağır, bir qədər ağıllı-ağayana ziyalıları idarədən didərgin saldı. O gündən qədim ənənəsi olan yaradıcılıq ocağının dəfi döndü. İdarə ağlamalı günlərə qaldı. Yerəbaxan yazıq, fağırların rəzilə çevrilib, törətdiyi fəsadlardan hali idim. Bu qış gecəsində isə lal axan suyun, cəllad kimi necə qəsdimizə durduğu ilə üzləşdik. Bu qış gecəsində gənclik düşüncələrim, mənə uca bir yerə qalxıb gur səslə:

- Ey insanlar! Fəqir-füqəra hesab etdiyiniz yerəbaxanlardan və dibi görünməyən lal-sakit sulardan ehtiyatlı olun, - deyib qışqırmağı təlqin edirdi. Bu, qış gecəsində qəlbimdə baş qaldıran bir nifrət fırtınasıydı.

Düşüncələr aləmində:

- Müəllim, gözün aydın, çatmışıq, ode, müəllimlər evinin işığı gəlir, - zavxoz Abasqulunun kallaşmış səsini eşitdim.

Uzaqlarda dolaşan fikrimi cəmləşdirib ətrafa boylandım. Artıq həkim məntəqəsinə çatmışdıq. Məktəb darvazasına cəmi yüz addım qalırdı. Azmadığımıza görə şükr edirdim. Gətirdiyimiz malları boşaltmaq üçün zavxoz Abasqulu at yedəyində internata tərəf yönəldi. Mən isə mənzilimə döndüm. Dalda-bucaqda hərlənib həyət-bacaya göz qoyan Alış kişi gecənin qaranlığında hənirtimi alan kimi həyat yoldaşı Həcəri səslədi. Həcər yolumu gözləyirmiş kimi mənnən daban-dabana mənzilimə daxil oldu. Və cəld lampanı

yandırıb, peçi qaladı. Tələm-tələsik hazırladığı çay-çörəyi səliqə ilə süfrəyə düzüb:

- Müəllim, gecəniz xeyrə qalsın, mən getdim, - deyib qapıdan çıxdı. Və həyat yoldaşı gəlmə Alışla qoşalaşıb gözdən itdilər.

Yorğunluqdan çörəyi iştahsız yedim və bir neçə stəkan çay içdim. Bədənim bir qədər qızışdı. Ayaqlarım isə hələ də üşüyürdü.

* * *

Soyuq məni əldən salmışdı. Bir tərəfdən də yorğunluq. Soyunub yatmaq qərarına gəldim. Bu heyndə mənzilimin qapısı döyüldü və direktor xoş əhval-ruhiyyə ilə içəri daxil olub zarafatyana:

- Haca gedən gəldi, saca gedən gəlmədi, - dedi. - Nə yaman gec qayıtdınız? Bayaqdan bəri tikan üstəyəm. Fikirləşdim ki, ya Orucu tapıb malı ala bilmədilər, ya da ki, yolda bir hadisə baş verdi.

- Qarı yarıb yerimək olmur, bir tərəfdən də dumançən. Ona görə də gecəyə düşdük, - deyib müsahibimə bir stəkan çay süzdüm. O, stəkanı qabağına çəkib qəndqabından götürdüyü nanəcövhərli konfetin kağızını aça-aça:

- Orucla dil tapıb malları ala bildiniz?

- Bəli, nə lazımdı aldıq, - yorğun cavab verdim.

- O bir az dolaşıq adamdı, fikirləşdim ki, sizi aldada bilər. - Direktor narahatlığını bildirdi və - tacir tayfasına inanmaq olmaz, - deyə əlavə etdi. - Tərəzi dalında yatana etibar yoxdu. Onların aləmində vic-

dan qəpikdən ucuzdu. Pulu insanlıqdan üstün bilirlər.

- Bu barədə ondan bir şey hiss etmədik, tələbnamədə nə yazılmışdısa, gözümüzün qabağında hamısını doğru-düzgün hesablayıb verdi.

- Təki siz deyən kimi olsun. İndi gecdi, sabah aldığımız malları yoxlayanda, hər şey məlum olar, - direktor hələ də şübhədə qaldığını gizlətmədi.

- Məncə, heç bir artıq-əskiklik olmamalıdır. Hamısını zavxozla birlikdə sayıb, yoxlayıb qəbul etmişik. - Direktoru şübhədən çıxartmaq üçün eyni fikri təkrar etdim.

Direktor qaşlarını çataraq:

- Neçə manatlıq mal götürdünüz? - soruşdu.

- Dörd min manatlıq, qar yolu basdığından ata ondan artıq yük vurmaq olmazdı.

- Deməli, raymağın bizə altı min manatlıq borcu qalır, - direktor mızıldandı. - Qəbzə baxım görüm, - əlavə etdi.

- Nə qəbz? - deyib tutulan kimi oldum.

Direktorun ayağı yer aldı və çoxbilmiş adamlara xas olan əda ilə gülümsünərək:

- Necə yəni nə qəbz?! Siz raymağa on min manatlıq qəbz təqdim etmisiniz. Oruc da malın dörd min manatlığını verib, altı min manatlığı qalıb. Raymağın müdiri siz deyən kimi düz adam olsaydı, təzədən zəhmət çəkib qəbz yazardı ki, Muradlı internatına altı min manatlıq mal borcluyam. Həmin qəbzə raypo sədri qol çəkib, möhür vurmalı idi. Siz bunların heç birini etməmisiniz. Özü də deyirsiniz, Oruc hesab-kitabına

düz adamdı. Və məni inandırmaq istəyirsiniz ki, Orucun ətəyində namaz qılmaq olar. İndi get qıl! Oruc gözdən tük qapır. Görüb əlinə xam adam düşüb, siz də onun şirin dilinə aldanmısınız. Altı min manatın dalına keçib.

Mən ayılan kimi oldum və səhv etdiyimi anladım. Elə bil içimdə nə isə qırılıb ayağımın altına düşdü. Lakin daxili sarsıntımı büruzə vermədim. Və soyuqqanlıqla:

- Ola bilsin kiminsə təqsiri üzündən müəyyən səhvə yol verilib. Ona görə buna faciə kimi baxıb, təşviş keçirməyə dəyməz, - direktora sakitcə cavab verdim.

- Xatirinizə dəyməsin, özü də görürəm yorulmusunuz, çox arxayın-arxayın danışırsınız, - direktor əsəbiləşən kimi oldu.

Direktorun bu hərəkəti mənə yorğunluğumu, buza dönmüş ayaqlarımın sızıltısını unutdurdu, hövsələdən çıxdım. Buna baxmayaraq, eyni sakitliklə:

- Sizinlə razıyam, - dedim. - Bir səhvdir, olub-keçib. Məncə onu bu qədər şişirdib vahimələnməyin mənası yoxdur.

- Siz ona görə bu cür arxayın danışırsınız ki, məsələnin kökündən bixəbərsiniz. - Direktorun gözləri hədəqələndi. - Neçə aydır raymaqda yoxlama gedir. Orucun küllü əskiyi çıxıb. Prokurorluq onun barəsində cinayət işi qaldırıb, istintaq aparır. Oruc bu günsabah dama getməlidir. Bunu işin içində olan yaxın bir yoldaş mənə ətraflı danışıb. Ona belə bir fürsət lazım idi ki, altı min əskiyin yerinə qoysun. İndi sizə

aydın oldu ki, nə üçün narahatam?! İnnən sonra Orucun boynuna diri ilan salsalar da, altı min manatlıq malı verməz. Rəsmiyyətə salmağın da xeyri yoxdur. Bərkə düşsə, deyəcək ki, internata bir qəpik də borclu deyiləm. Nə var, aparıblar. İndi gəl sübut elə görüm, necə eləyirsən?! Həmin altı minə görə, Orucun aqibəti bizi gözləyir. Ha boğazını yırt ki, mən düz adamam, Oruc internatın malını danır! Əlimizdə rəsmi sənəd-sübut olmayandan sonra Qurandan don geyinsək də, bizə inanan olmaz. Deyəcəklər Muradlı məktəbində internatın malını yeyib, üstündən də su içiblər. Ondan sonra gəl otur məhkəmənin qabağında. Oğulsan, cavab ver, görüm necə verirsən?! Azçox bir təmiz ad saxlamışdıq, o da ağılsızlığımızın ucbatından belə ləkələndi.

- Əvvəla, bu barədə Orucla heç bir söhbətimiz olmayıb. O, altı mini danacaq və ya boynuna alıb verəcək, bu bəlli deyil. Ona görə də gəl son sözümüzü əvvəl deməyək. İkincisi də, iş o yerə qalanda müttəhim stulunda siz yox, mən əyləşməliyəm. Siz olsa-olsa məhkəməyə ittihamçı və ya şahid kimi dəvət oluna bilərsiniz. Ona görə də indidən bu barədə fikir yürütməyiniz, əsəbiləşməyiniz əbəsdi. Ondansa yaxanızı kənara çəkmək, özünüzü duruluğa çıxarmaq, məhkəmədən quru çıxmaq barədə düşünün. - Bu sözü kinayə ilə dedim. - Mənsə cavanam, subay adamam, dalda qalanım yoxdur, bir neçə il yatıb çıxsam dünya dağılmaz. Bir də ki, insan yalnız həyatın zövq-səfasını çəkmək üçün yaranmayıb, türmə

əzabına da hazır olmalıdır. Buna da hazıram. Və məndən ötəri də başqalarının güdaza getməsini istəməzdim. Hərçənd qəti əminəm ki, Oruc altı mini dansa da, qəbz qarı yara-yara öz ayağıyla gəlib bizi tapacaq. Bu barədə arxayın ola bilərsiniz, - bu sözü qəsdən dedim.

Direktor lah-loğazla dediyim bu sözdən pərt oldu:

- Sizin dediyiniz qeyri-ciddidir və daha çox yersiz zarafata oxşayır, - dedi.

- Çətinə düşəndə ağlamazlar, gülərlər. Buna da cəsarət, dözüm lazımdır. Lakin belə bir dəyanət hər adama müyəssər olmur.

- Sizdən münasibətimizə, yaş fərqimizə yaraşmayan bu cür sözləri eşitmək istəməzdim. Belə çıxır ki, biz kişi deyilik?! - Direktor incikliyini bildirdi.

- Əlbəttə, xarici görkəmimizə görə kişiliyimizə şəkk etmək olmaz. Allaha şükür, papağımız, bığımız, saqqalımız… Ancaq təpərimizin onu təsdiq edəcəyinə gəldikdə… bu barədə fikir söyləmək mənim üçün çətindir. Çox güman ki, bu altı minin söhbəti kişilik barədəki mülahizəmizə aydınlıq gətirəcək.

Direktor hiss etdi ki, sifətim dönüb. Bir qədər əsəbiləşmişəm. Bu söhbət uzansa aramızdakı xətir-hörmət, böyük-kiçiklik pərdəsi yırtıla bilər. Odur ki, ayağa qalxdı və dilxor halda:

- Gecənin bu vaxtı söz güləşdirməyək, məni bağışlayın, getdim, - deyib qapıdan çıxdı.

* * *

Bir neçə dəqiqə yerimdə quruyub qaldım. Mən ağlagəlməz bir səhvə yol vermişdim. Və təqsirli olduğumu etiraf etməyə bilməzdim. Etirafın özü də bir mərdlikdir. Lakin etdiyim səhvdən çox, direktorun hərtərəfli götür-qoy etmədən qarşısındakı şəxsin yorğunluğunu nəzərə almadan, tələm-tələsik çıxartdığı nəticəyə əsaslanıb, yersiz mülahizələr yürütməsi, böyük bir faciə baş veribmiş kimi təşvişə düşməsi məni ağrıdırdı. Ölüm məqamı yaxınlaşdıqca, insanı ömür boyu təhdid edən vahimə uzaqlaşır. Baş vermiş fəlakət də belədir. Mən nə ölüm ayağında idim, nə də ki, fəlakət qarşısında. Maliyyə işlərində təcrübəm olmadığından adicə bir səhv etmişdim. Və daxilən də onun peşmançılığını çəkirdim. Direktorun haqlı məzəmmətini qəbul etməklə yanaşı, mənəvi sıxıntıdan çıxmaq üçün ondan təsəlliverici məsləhət gözləyirdim. Bərk ayaqda, axı ikimizin birlikdə iki aylıq maaşı Orucun dana biləcəyi məbləği ödəyə bilərdi! Lakin direktor bir andaca elə sifətə düşdü ki, sanki dibi görünməyən qorxunc uçurumla üz-üzə dayanmışdı. Və indi onun taleyi sanki Orucun insafına qalmışdı. Bax, onu tutan bu qorxu əsməcəsi bütün varlığımı sarsıtmışdı. Və yaxşı ki, həmsöhbətim mənzilimi vaxtında tərk etdi. Əks təqdirdə özümdən asılı olmayaraq, onun üzünə qarşı nəzakətdən kənar ifadələr işlədə bilərdim. Mən isə çörək kəsdiyim adamla münasibətin o dərəcədə korlanmasını istəməzdim.

Tənha həyat, soyuq qış gecəsi, təcrübəsizliyimdən yol verdiyim səhv, direktorun keçirdiyi təşviş, bir

tərəfdən də yorğunluq… Beynim dolaşıq fikirlərə tab gətirmirdi. Nəfəsim tıncıxan kimi oldu. Başım bir balaca gicəlləndi. Darıxdığımdan hələ qarı təmizlənməmiş balkonuma çıxdım. Səmadakı buludlar seyrəlir, göy qübbəsi təmizlənir, çoxdan itib-batmış ulduzlar bu gecə sevinclə sayrışırdı. Yuxudan qabaq ulduzlu səmanın əzəmətli mənzərəsi qarşısında fikrə dalmaq mənim üçün bir adətə çevrilmişdi. Çarx ayaz olmasına baxmayaraq, balkonda dayanıb səmanın bakirə ənginliklərini dolaşır və vicdanımın gizli aləmi ilə söhbət edirdim. Üzləşdiyim çətinlikdən çıxmaq üçün müxtəlif yollar axtarırdım. İlk dəfə atamı göz önünə gətirdim. Ümidim bircə atama idi. Belə qərara gəldim ki, sabah-birisi gün kəndimizə gedib ona baş çəkim. Sonra başıma gələnləri ona olduğu kimi danışım. Atam məni darda qoymaz. Son anda maldan, qoyundan, gəbə-kilimdən satıb altı min düzəldər. İnternatın borcunu ödəyib direktorun töhmət-tənəsindən qurtararam. Lakin elə həmin andaca atama üz tutmaq barədəki fikrimi dəyişdim. Özüm-özümü danlamağa başladım. - Adam ataya nə vaxtacan yük olar?! Neçə ilin müəllimiyəm, aldığım əynimi, qarnımı görmür. Yatdığım yorğan-döşək də, altımdakı gəbə də evin mağdurudur. İşlətdiyim qab-qacaq da evinkidir. Səhərdən axşamacan başına gün döyə-döyə, nə zillətlə qazandığı mənsiz boğazından keçmir. Təndir çörəyindən, ətdən, pendirdən əlinə düşəni gəlib-gedənlərdən mənə göndərir ki, oğlumun donnuğu azdı, əli aşağıdır, korluq çəkməsin. Bir tərəfdən də əlinə düşəni

geri atır ki, sabah mənə bir gün ağlasın, evləndirib ev-eşik, arvad-uşaq sahibi eləsin. Gecə-gündüz fikri-zikri mənim üstümdədir. Səmt bildiyi adamlara deyirdi ki, körpə qığıltısından ötrü burnumun ucu göynəyir. Gərək gədənin evlənməsini tezləşdirəm. Görək ürcahımıza bir halal süd əmmiş çıxarmı? Birbaşa üzümə deməsə də, hərdən eşitdirirdi ki, a bala, savadsızdan bir şey çıxmaz, özün kimi oxuyub qurtaranlardan birini tapıb alsaydın yaxşı olardı. Onda korluq çəkməzdiniz. Hərəniz beş-on manat donnuq alıb başbaşa verib dolanardınız. Atamın danışığından belə çıxırdı ki, üzümüzə gələn payız məni evləndirmək fikri var. Ona görə də taxıldan, dəndən, maldan-qoyundan yavaş-yavaş satıb toy tədarükü görürdü. Ancaq mənə açıq bir söz demirdi. Mən bunları bibilərimdən, qoca nənəmdən eşidirdim. Atam onu da bilirdi ki, bir az bədxərcəm. Aldığımdan artırıb bir kənara qoymuram. Üstəlik yağ-yavanlığım da evdən gəlirdi.

Bütün bunlar yadıma düşəndə özümə nifrət elədim. İnternatın altı minindən ötrü atama əziyyət vermək fikrindən daşındım. Nə sifətlə atamın yanına gedim? Ona necə deyim ki, bir raymaq müdiri məni aldadıb altı min manat borca salıb. Atam dərya kimi dərin adamdı. Üzümə vurmasa da, ürəyinə salıb fərsiz oğul olduğumu özünə dərd eləyər, bəlkə də dilə gəlib mənə tüpürərdi. Üzümə qarşı deyər ki, sən necə müəllimsən ki, özün uşaqlara dərs öyrədib, öyüd-nəsihət verirsən, amma bir dükançı səni aldadıb, altı mini əlindən çıxarır. Düzdü, atam o xasiyyətin sahibi

deyildi. Və əlimin içi kimi bilirdim ki, bu barədə məni danlayıb-dansamaz. Nəyə gümanı gəlsə, satıb-sovub məni borcdan qurtarar. Qoymaz altı mindən ötrü yaxam hökumətin əlinə keçsin. Lakin başıma gələnləri atama açıb ağarda bilməzdim. Vicdanım da yol verməzdi ki, atama dərd üstündən dərd gətirim. Ona görə də vəziyyətdən çıxmaq üçün özüm başqa bir yol seçməli idim. Direktorun, - raymaq müdiri öz canının dərdindən altı mini danıb bizi güdaza verməsə yaxşıdır, - deməsi, bu qış gecəsi hələ də beynimi dəlirdi. Bir tərəfə baxanda direktoru da qınamaq olmazdı. Altı min azacıq pul deyildi. Yüz kilo arpadan ötrü adama on il iş kəsirdilər. Bu barədə Moskvanın hələ müharibə dövründən qalma "Sedmoy avqust" tarixli amansız qanunu vardı. Dövlətin bir qəpiyinə kəm baxmaq olmazdı. Bütün bunları xatırladıqca özümə gələ bilmirdim. Fikir məni götürmüşdü. Balkonda əlayağımın donduğunu əsla hiss etmirdim. Səmada yenə də buludlar sıxlaşır, ulduzlar görünməz olurdu. Mənə elə gəlirdi ki, ulduzlar da bərkə düşdüyümü hiss edib məndən qaçır, qara buludların arasında daldalanırdılar. Soyuq sazaq getdikcə güclənirdi. Mənzilimə daxil olub qapını örtdüm. Qara fikirlər məni tərk etmirdi. Lap başımı itirmişdim. Vəziyyətdən çıxmaq üçün ağlıma cürbəcür fikirlər gəlirdi. Məsələni sabaha qoyub, istəməyənlərin rişxənd hədəfinə çevrilə bilməzdim. Sabah eşidib bilənlərin hərəsi bir hava çalacaqdı. Bütün məktəbə yayılacaq ki, dərs hissə müdiri getdiyi işi yarıtmayıb. Yetim-yesirin altı

min manatlıq malı bada gedib. Bu töhmət-tənəni götürə bilməzdim. Məktəb direktoruna nə var ki! Bəd ayaqda yaxasını kənara çəkib özünü duruluğa çıxarmaq üçün məni qabağa itəliyəcək. Deyəcək ki, dərs hissə müdirinə on min manatlıq yazılı-peçatlı qəbz vermişəm. Malın dörd min manatlığını gətirib, altı min manatlığını yox. Qalanını neyləyib özü cavab versin. Lazım olsa zavxoz Abasqulunu da şahid göstərib məcburən dirəyəcək üzümə. Abasqulu da bilir ki, direktorun ipindən asılıdır. Direktor istədiyi vaxt əmrini yazıb, şələ-şüləsini qoltuğuna verər. Ona görə də düz, əyri, Abasqulu direktorun sözünü deməlidir. Çoxunun da qəlbinə qaraltı gələcək ki, yəqin altı mini dərs hissə müdiri ilə raymaq müdiri öz aralarında bölüşdürüb həzm-rabedən keçiriblər və üstündən də su içiblər. İndi gəl camaatın ağzını yum, görüm necə yumursan?! Odur ki, el içində biabır olmaqdansa, hər cür əzab-əziyyətə qatlaşmağa hazır idim. Çaş qalmışdım. Fikir selinin məni hara apardığını bilmirdim.

- Vaxtı itirməyim. Yüz fikir bir borcu ödəmir,- özözümə düşündüm. - Və yenə də qapını açıb balkona çıxdım. Hava getdikcə tutqunlaşırdı. Göyün üzünü bulud almışdı. Bayaq seyr etdiyim ulduzlar daha görünmürdü. Sərt sazaq qırma kimi qarı üzümə çırpırdı. Bir yerdə qərar tuta bilmirdim. Kollektivdə hamı məni ciddi, tələbkar işçi kimi tanıyır. İndi böyük bir səhv etmişdim. Bu gün özümə güzəştə gedib, sabah başqalarına qarşı tələbkar olmağı heç cür

vicdanıma sığışdıra bilməzdim. Çox ölçüb-biçəndən sonra, ağlasığmaz bir qərara gəldim. Çovğun olmasın, nə olur-olsun, elə bu dəqiqə rayona qayıdıb Orucu yorğan-döşəyindən qaldırmalıyam. Onun yaxasından yapışıb zorla da olsa, altı min manatlığın qəbzini ona yazdırmalıyam. Sonra da raypo sədrini tapıb, sənədə qol çəkdirib, peçat vurdurmalıyam. Bu gecə çəkəcəyim əzab-əziyyət, ömrü boyu məni təhdid edə biləcək töhmət yükündən xilas edərdi. Bir gecənin rahatlığını itirməsəm, ömürdən keçəcək minlərlə gecənin rahatlığını tapa bilməzdim. Buna görə özümözümü amansızcasına cəzalandırmalı idim. Əks təqdirdə sərt qanunların cəzasına məruz qalıb, onsuz da müvəqqəti olan bu həyatı, qara bir ləkə ilə başa vurmaq mənə ağır gəlirdi. Bu bir gecənin zillətinə tab gətirib, qəlbimi on illərin sıxıntısından xilas etməli idim. Bundan başqa yolum yox idi.

Tez yaş paltarımı dəyişib altdan-üstdən qıs-qıvraq geyindim. Ancaq yola tək çıxmaq təhlükəli idi. Özümə etibarlı, qoçaq bir yoldaş tapmalı idim. Müəllim yoldaşlarımın arasında arxamca gedə biləcək etibarlıları var idi. Lakin onlar evli idi, arvadları gecə "səfərimizdən" xəbər tutdu, qurtardı getdi, sabah bunu, nəinki məktəb, bütün kənd bilməli idi. Ona görə bu fikirdən vaz keçdim. Güləbird kəndindən olan və internatın yataqxanasında qalan onuncu sinif şagirdi Nəsiri çağırtdırdım. Nəsir yeddinci sinfi bitirəndən sonra bir neçə il bekar-behdin gəzib, məktəbə getməmişdi və sonradan-sonraya Muradlı

məktəbinə daxil olmuşdu. O, yaşca şagirdlərin hamısından böyük idi. Müəllimlərin çoxundan belə cüssəli görünürdü. Nəsirin hündür, cantaraq bədəni, dolu qırmızı sifəti, iti baxışları vardı. Məktəbin müəllim və tələbələri onu yaşına görə sayırdı. Bizim aramızda müəllim-tələbə münasibətindən başqa, şəxsi xətir-hörmət vardı. Bəzən hərəkətlərində xoşagəlməz səhvlərə yol verirdi. Müəllimlərin sözünü qaytarırdı, uşaqlarla dalaşırdı. Və Nəsirin məktəbdən qovulmaq məsələsi qoyulurdu. Belə hallarda Nəsiri müdafiə edirdim. Sonra da ikilikdə onu danlayıb-dansayırdım. O, hörmət mənasında başını yuxarı qaldırmazdı. Bilirdi ki, cəzalandırdığım qədər də həmişə onun qayğısına qalıram. Onda yetkin adamlara xas olan bir sıra mərd keyfiyyətlər var idi. Tələbə olmasına baxmayaraq, dizibərk, ağzıbütöv şagird idi. Di gəl ki, oxumaqla o qədər də arası yox idi, dərsdə geridə qalırdı. Və buna görə onu tez-tez məzəmmət edirdim. O isə qızarıb başını aşağı salır, sifətinə utancaq qızartı çökür və əsla dillənmirdi. Nəsirin ötkəm, ağzıbütöv, dəyanətli oğlan olması məndə ona qarşı daxili bir rəğbət yaratmışdı. Bəzən onunla tay-tuş kimi söhbət etməyim də olurdu.

Nəsir mənzilimin qapısını ehtiyatla döyüb, - buyurun, - sözünü eşidən kimi içəri daxil oldu və şax dayanıb əllərini ovuşdura-ovuşdura:

- Axşamınız xeyir, müəllim, - dedi.

- Aqibətin xeyir, - dedim. Lakin ona əyləşmək üçün yer təklif etmədən, - get İsmayıl müəllimgilə, - əlavə et-

dim, - mənim adımdan de ki, etibar edirsə bu axşamlığa tüfəngi mənə versin. Gecə meşələrdən tökülüb gələn vəhşi qabanlar həyət-bacanı şumlayıb vird-viran eləyir. Bəlkə bir-ikisini atıb onları hürkütməli oldum, - bu sözü deyəndə Nəsirin dodaqları qaçdı. Mən özüm də gülümsündüm. - İşdi-şayət İsmayıl müəllim evdə olmasa yoldaşına de. Onun özü də sözümüzü yerə salmaz.

Nəsir: "baş üstə" - deyib müəllimlər evinə tərəf yollandı. Və on dəqiqə keçməmiş, əlində on altı kalibr təklülə tüfəng, on-on beş dolu patronla geri qayıtdı.

Ondan tüfəngi aldım və:

- Get, yaxşı-yaxşı geyin, gəl, vacib iş üçün uzaq bir yerə getməliyik.

…Mənzilimin qapısını kilidləyib düşdük yola. Mən qabaqda gedirdim. Nəsir arxamca gəlirdi. Bir qədər getdikdən sonra Nəsir addımlarını yeyinlədib çəkinə-çəkinə:

- Müəllim, hara gedirik? - soruşdu.

- Rayona, xəstə var, ona baş çəkməliyik.

- Müəllim, elə indicə rayondan gəlmirsiniz?

- Başım internatın malına qarışdığı üçün xəstə yadımdan çıxıb. Ona görə indi getməliyəm.

- Qohumunuzdu?

- Xeyr, yaxın dostumdur, eşitməmisən ki, dost yolunda boran olar, qar olar, - əlavə etdim. - Sən dostundan ötrü bu cür əziyyətə qatlaşmaq istəməzdin?

- Müəllim… - O nə soruşmaq istəyirdisə sözünü ağzında qoydum.

- Nəsir, hövsələsiz olma, - dedim, - bu saat sual-cavab vaxtı deyil, nədən ötrü getdiyimizi bir neçə saat-dan sonra bilərsən.

Nəsir verdiyi suallara peşman olubmuş kimi susdu, daha dillənmədi. Həkərinin qıjıltısı eşidilirdi.

Bayaq Qəmər madyanın büdrədiyi, boğazacan batdığımız, çayın lal axan yeri yadıma düşdü. Ovqa-tım korlandı. Biz buzlu sahillərlə xeyli yuxarı qalx-dıq. Burada çayın dar yerində, piyadaların keçməsi üçün Həkərinin üstünə dörd-beş dirək atılmışdı. Havalar isti olanda dirəklərin üstündən asanlıqla adlamaq olur. İndi isə altından buz lülələri sallanan, üstü qarla örtülmüş, sürüşkən dirəklərin üstündən keçmək xatalıydı. İndi gəl görüm necə keçəsən?! Bizim başqa çarəmiz yox idi. Nəsirlə əl-ələ verib uzun millərin üstündən ehtiyatlı addımlarla, büdrəyə-büdrəyə birtəhər keçməyə başladıq. Həkəri hərdən şahə qalxıb, aşıb-daşan köpüklü sularını üzümüzə çırpırdı, elə bil çayın bizə qəzəbi tutmuşdu. Və bəlkə də demək istəyirdi ki, ey insan oğlu insan, qışın məşəqqətində hara gedirsiniz? Hansı ağılla yola çıxmısınız?! Həkəri sanki çılğın dalğaları ilə bizi millərin üstündən aşırıb, dərin sularına qərq etmək, ağılsız hərəkətimizə görə cəzalandırmaq istəyirdi. La-kin çayın üstündən sağ-salamat addadıq.

Qabaqda bir neçə dərə var idi, sonra yol yoxuşa dirənirdi. Yuxarı qalxdıqca soyuqlar kəskinləşirdi. Əsas qorxumuz Yazının küləkli, çovğunlu düzlə-rindən keçmək idi. Zavxoz Abasqulu ilə gedəndə

eşidib-bildiklərindən həvəslə danışıb başımı qatırdı. Qoçəli, Ağaşirin, Həmid əhvalatlarını elə danışırdı ki, sanki onların yanındaymış, hamısını gözləri ilə görürmüş. Nəsir isə dinib-danışmırdı. Elə bil dilini-ağzını bağlamışdılar. Ona görə də mən özüm-özümlə dərdləşirdim. Bu gün başıma gələnlər, yol verdiyim səhvlər, direktorun təşvişə düşməsi mənə necə yer eləmişdisə, Yazı düzünün sazağını, ara vermədən yağan küləkli qarı, taqətdən düşmüş dizlərimin ağrısını unutmuşdum. Acı bağırsaq kimi uzanıb gedən, qar basmış əyri-üyrü yollarda quş kimi qanad açmışdım. Necə getdiyimi özüm də bilmirdim. Nəsir məndən əlli-ayaqlı, dözümlü olsa da tez-tez onun təntik, yalvarıcı səsini eşidirdim:

- Müəllim, siz Allah bir az yavaş yeriyin.

Mən isə onun küləyin uğultusuna qarışan yalvarışını eşitsəm də, nə demək istədiyi barədə düşünmürdüm. İti addımlarla qarı yara-yara mənzil başına tələsirdim və yol boyu ayrı şeylər düşünürdüm.

* * *

Addımlarımdan yüyrək olan fikrim məni artıq Orucun qapısına çatdırmışdı. Onun yönü su elektrik stansiyasına olan birmərtəbəli evinin darvazasını döydüm. Orucdan qabaq qapısındakı zəncirli köpək səsimi alıb darvazaya tərəf hücum çəkdi. Mən - Oruc! Oruc! - deyib ev sahibini səslədikcə it darvazanın o tərəfində özünü yeyib tökürdü. Darvazanı bərkdən döyməyə başladım. Xeyli keçdikdən sonra

Oruc, hövlnak isti yorğan-döşəyindən qalxıb əynində ev paltarı həyətə çıxdı. İtə çəmkirib özü qabağa yeridi:

- Kimsən, a yoldaş, sənə kim lazımdır?! Niyə dillənmirsən?

- Oruc, mənəm, Muradlı orta məktəbinin…

Oruc kimliyimi biləndə onun səsi dəyişildi:

- Eşidirəm, - deyib irəli gəldi.

- İnternatın sizdə qalan malının qəbzini verməmisiniz, yəqin yadınızdan çıxıb, onu almağa…

O, sakitcə darvazanı açıb qonaqpərvərliklə:

- Əvvəla, soyuqda dayanmayın, keçin içəri, bir stəkan çay için, qalmaq istəsəniz də öz evinizdi. İkincisi də, yer-yurd buz bağlayıb, tüpürürsən göydə donur. Bu iki daşın arasında gəlmisiniz ki, qəbz… Gecənin bu vaxtı nə qəbz?! Vacib sözünüz varsa, səhər gəlin danışaq, görüm nə demək istəyirsiniz?! Bir də ki, axı məni başa salın görüm, siz hansı qəbzi, nəyin qəbzini deyirsiniz? Qəbz-zad nədir?!

- Bu gün univermaqdan götürdüyümüz malın, sizdə qalan hissəsinin qəbzini. Bu işi sabaha qoya bilmərəm.

- Canım, bu nə sözdü?! Yoxsa ağlınız çaşıb-nədi?! Olmaya məni şərləmək istəyirsiniz?! Heç sizdən gözləməzdim!! Düzdür, univermağın internata on min manatlıq borcu var idi. Bu gün də sanalı qoz kimi hamısını verdim apardınız. İndi gecənin bu vaxtı utanmaz-utanmaz qapımı kəsdirib, yuxuma haram qatırsınız ki, mənə qəbz ver? Müəllim, bu sözə görə məni bağışlayın,

yəqin hardasa araqdan-çaxırdan vurub dəmlənmisiniz. Yoxsa mənimlə bu cür danışmazdınız. Gedin yatın, ağlınız başınıza gələndə görüşüb danışarıq. Bir də ki, bu barədə danışmağa lüzum görmürəm. Ayrı bir niyyətiniz varsa, bu, başqa məsələ.

- Oruc, mən istəyirəm ki, qəbz məsələsini xoşaxoşluqla həll edək, bədliyə qalsa peşman olarsan. Gəl mərdi qovaqova namərd eləmə. Daşı ətəyindən tök, əlim-ayağım dəyməmiş altı min manatlıq malın qəbzini ver, dinməz-söyləməz qayıdıb gedək. Yoxsa bu işin axır-aqibəti çox pis olar. - Bu sözü deyib, əli silahlı olduğumuzu görüb özünü yığışdırsın deyə, paltonun altında gizlətdiyim tüfəngi qaldırıb, qayışını çiynimə keçirdim.

Oruc lağ-loğazla:

- Toplu-tüfəngli gəlməkdə yəqin adam qorxutmaq istəyirsiniz, yoxsa ayrı bir məqsədiniz də var? Ağlınız başqasına getməsin, mənə də Əyinli Oruc deyərlər. Həzrəti-Abbasın kəsik qolu haqqı, əən-bəən eləsəniz külünüzü göyə sovuraram…

Onun ağzından söz qurtarmamış Nəsir dazıyıb məndən qabağa keçdi və həyəcanla:

- Müəllim, canavar! Canavar!- deyib, əli ilə aşağıdakı boz duman çökmüş, çökəkdə güclə görünən yalquzağı işarə etdi.

Nəsirin həyəcanlı səsi, canavarın gecənin dərinliklərindən gələn zəhmli ulartısı məni Orucun xəyali davadalaşından xilas etdi. İndi Orucla ölüb-öldürmək savaşının həqiqətdən çox-çox uzaq olan, xəyallar dünyasında baş verməsi məni sevindirdi. Bir qədər özümə gəldim.

* * *

Kimsəsiz düzlər, qaranlıq gecə, bizi ölümlə hədələyən şaxtalı ruzgar… Ağız-ağıza verib ulaşan canavarların tükürpərdici səsini eşidəndə tez tüfəngə patron qoydum. Donub taqətdən düşmüş barmaqlarımı tətiyə aparmaq istəyəndə, gözlənilmədən tüfəng açıldı. Sən demə İsmayıl müəllim patronu dolduranda xamlıq eləyib barıtını artıq qoyub. Ona görə də tüfəng açılanda necə təpdisə, qundağı sinəmdən itələdi, özümü itirdim və yan üstə yerə yıxıldım. Qarla əlləşə-əlləşə özümü düzəltmək istəyəndə, Nəsir qolumdan yapışıb qaldırdı.

Mən Orucla xəyali döyüşdən yaxamı qurtardığım yerdə qarşımda vəhşi yırtıcılar peyda olmuşdu. Üst-başımın qarını silə-silə, - lənətə gəlmiş altı min manatlıq qəbzdən ötrü başımı cəncələ saldım. Direktoru da belə-belə olsun, Orucu da. Nahaq yerə bu qarlı gecədə yola çıxdım, - özüm-özümə azaylandım. Və tüfəngi qatlayanda tüstülü barıt qoxusu gəldi. Barıt çox olduğundan giliz ağzınacan cırılmışdı. Bunun ayrı fəsadı da ola bilərdi, yaxşı ki, xata bizdən sovuşdu. İrəlidə canavar sürüsü ilə rastlaşa biləcəyimizi nəzərə alıb, hər ehtimala qarşı tüfəngi təzədən doldurdum. Və fikrən univermaq müdiri ilə duelə çıxdığımı xatırlayıb özümü o ki, var danladım. Ancaq bütün bu çətinliklərə baxmayaraq, inadımdan dönə bilməzdim.

Qalın qarın altında itib-batmış yollarda fəhmlə irəliləyib axır ki, Yazının qaşına çatdıq. Orada dikələn

tanış qayalar güclə görünürdü. Qüzey yamaclarda dolaylanan maşın yolunu tapıb Nəsirlə əl-ələ verdik və sürüşə-sürüşə aşağı endik. Buradan Bərgüşadın sahillərinə yaxın olan kəndlərin sönük işıqları görünürdü. Rayon mərkəzinə bir neçə addım qalırdı. Milis şöbəsinin qəsəbənin girəcəyində yerləşdiyini nəzərə alıb, çiynimdəki tüfəngi söküb qatlayıb Nəsirə verdim. O, sökülmüş tüfəngin lüləsini və qundağını sırıqlısının altında gizlətdi. Əks təqdirdə milis işçiləri üstümüzdəki silaha görə, bizi saxlayıb sorğu-suala tuta bilərdi. Silahın isə heç bir sənədi yox idi və buna görə tüfəngi əlimizdən alıb bizi get-gələ salardılar. Bunun üstündə tüfəng sahibinin də başı ağrıyardı. Ancaq bu cür xoşagəlməz hadisələrə rast gəlmədik. Nəsir qalın sırıqlısının düymələrini bərk-bərk bağlamışdı. Onun qoltuğunda nə olduğu bilinmirdi.

Milis idarəsini zavalsız keçib, uzaq qohumumuz olan Savalanın uzun illərdən bəri müdir işlədiyi yeməkxanaya döndük. Yol yoldaşımı Savalanın yanında qoyub Orucun arxasınca getməli idim. Bu, kiçik qəsəbənin yeganə yeməkxanası idi.

Sınıq-salxaq stolları olan köhnə yeməkxananın geniş və soyuq zalında tək-tük adam qalmışdı. Küncdə qoyulmuş və çalaq-çulaq turbaları pəncərədən çölə çıxan odun peçinə yaxın iki stol birləşdirilmişdi. Onu yeddi-səkkiz müştəri dövrəyə almışdı. Süfrəyə düzülmüş içki butulkalarının çoxu boşaldılmışdı. Hiss olunurdu ki, müştərilər çoxdan əyləşib. Onların səs-küyü zalı başına götürmüşdü. Ayağında uzun-

boğaz çəkmə, əynində qəhvəyi şalvar olan və ortasına enli kəmər bağlamış hündürboylu, gödək saqqallı müştəri gur və ötkəm səslə basıb bağlayırdı. O, bəlağətli danışıqları ilə ətrafındakıları sanki ovsunlamışdı. Süfrə yoldaşları əllərini çənələrinə söykəyib bu özündən müştəbeh "natiqi" diqqətlə dinləyirdilər. Qonşu stolda əyləşənlər belə, qabaqlarındakı çay-çörəyi unudub onun danışıqlarına dərin bir maraqla qulaq asırdılar. Onunla şəxsi tanışlığımız olmasa da, kənardan-kənara tanıyırdım. Rayon torpaq şöbəsinin müfəttişi Kəramət Muxtarov idi. Deyilənə görə, yoxlama işini onun kimi bilən yoxdur. Təftiş etdiyi kolxozlarda Kəramətin gözündən tük də yayındırmaq olmazdı. Harda nə zir-zibil var, hamısını açıb qoyurdu ortalığa. Kolxozun başçıları da düşürdü sancıya. Sədrlə hesabdar da ya onun bığının altından keçib əməlli-başlı yola salmalıydılar, ya da ki, təftişdə aşkar edilən kəm-kəsir aktlaşıb birbaşa inzibati orqanlara getməli idi. Ona görə də Kəramət kefi kök dolanırdı. Araz aşığından idi, Kür topuğundan. Pula da pul demirdi. Gündə-günaşırı iş vaxtı qurtaran kimi ağıldan seyrək əsabələrini də başına yığıb özünü verirdi Savalanın yeməkxanasına. Bir-iki yüz qram vurandan sonra dönüb olurdu şiri-nər. Sinəsinə döyüb deyirdi ki, bu rayonda iki namusluqeyrətli kişi varsa, biri mənəm. Noolsun ki, adi bir idarədə müfəttişəm. Yuxarılarda adamım olsa, rayonu yox e, ölkəni idarə eləyərəm. Di gəl ki, yaxamdan tutub irəli çəkənim yoxdur. Əksinə, biliyimə,

bacarığıma, hünərimə görə çoxunun gözü məni götürmür, başımdan basmaq istəyirlər. Ancaq Kəramət də Kəramətdi, heç kəsə bac verən oğul deyil. - Yaxın vaxtlarda görərsiniz, məni böyüdüb hara qoyurlar. Məndə irəlini görmək qabiliyyəti var. Bu mənə Allah vergisidi. Prokuror, nəçənnik qabağımda tir-tir əsməsə, qulağımı kəsərəm. - Ətrafındakılar da Kəramətin hap-gopuna uyub ona həsəd aparırdılar. Və hətta qıraqda-bucaqda əyləşib, bala-bala vuranlardan bəziləri cuşa gəlib ayağa qalxaraq:

- İçək Kəramətin sağlığına! Allah bizim ömrümüzdən kəsib Kəramətin ömrünə calasın!

Quşbeyin adamlar da hesab edirdi ki, yer şarı ala öküzün belində qərar tutduğu kimi, bu rayonun da bütün ağırlığı Kəramətin çiynindədir. Ağıldan seyrək olanlar düşünürdülər ki, Kəramət kimi başçımız olsaydı, nə dərdimiz. İndi millət süd gölündə üzürdü.

Kəramət əlini çallanmış gödək saqqalında gəzdirib sinəsini peçə tərəf yaxınlaşdırıb deyirdi:

- Qoy bu qiyabini qurtarıb institut diplomunu cibimə qoyum, ondan sonra görərsiniz analar necə oğul doğub.

Kəramətlə instituta girənlər çoxdan diplom almışdılar. Və hətta alimlik dərəcəsinə yüksəlmişdilər. Kəramət isə on ilə yaxın idi Bakıya ayaq döyürdü. Ancaq institutu hələ də bitirməmişdi, deyirdi ki, müəllimlər üzgörənlik eləyir, yaxşı bilənə qiymət vermirlər. Müəllimlərin özündən çox bildiyim üçün bütün institutun mənə paxıllığı tutur. Mən də acıqla on-

ları saymıram. Qoy imtahanda nə yazırlar, yazsınlar. Axırda bezikib üçdən-zaddan verəcəklər. Onlarla diplomu alandan sonra danışaram. Mən filosofların əsərlərini oxuyub əzbərləyəndə institutdakılar hələ anadan olmamışdılar. Bir də ki, diplom boş şeydi. Adamın bacarığı olmalıdır. Alim olmağa nə var ki, gərək insan olasan, mənim kimi insan! Qəsd qoysam, çeçələ barmağımla bütün rayonu laxladaram. Qoy diplomumu alım, müdirdən-zaddan olum, görərsiniz nə həngamələr çıxaracağam. Müfəttişlikdə əlim-qolum bağlanıb. İstədiyimi eləyə bilmirəm. Yuxarı vəzifələrə qalxandan sonra birinci çayların qabağını kəsib, Yazı düzünə çıxarmalıyam. Qoy kasıb-kusub dəmyə düzlərdə nə əkir, əksin. Rayonun bütün kəndlərini çil-çıraq elətdirərəm. Çindən tutmuş Anadoluya qədər, bu arada nə qədər müsəlman var, hamısını birləşdirib türk dövləti yaradaram. Elə işlər görərəm ki, Şah İsmayıl Xətai mənim yanımda yalan olar. Amerikanın prezidenti ayağıma gələr…

Soyuqdan baş-gözünü sarıyıb, qalın paltar geyinmiş və yeriyəndə yanını çəkən taygöz yeməkxana gözətçisi, şüşəsi qırılmış pəncərənin çölündən içəri boylanıb Kəramətin dediklərinə xəlvətcə qulaq asır və hərdən göylərə baxıb, dodağının altında öz-özünə pıçıldayır, sonra da əlini üzünə çəkirdi. Yaradana yalvarırdı ki, ey yoxu var eləyən, bizə bax bu Kəramət kimisini yetir! Onda əhdim yerini alar, kasıbçılığın daşını atıb beş kişinin biri olaram. Tay yüz manatdan ötrü gecə sabaha kimi yeməkxananın böyür-başında sülənən, sahibsiz itlər kimi

abrım getməz. İlahi, yox yerdən Kəramətə bir qapı aç, biz kasıb-kusubları xoş günə çıxartsın.

Çox güman ki, Kəramət bayraq götürüb gur bir səslə:

- İnsanlara xoş güzəran… Azərbaycanın bütövlüyü uğrunda! - deyib küçəyə çıxsa, rayonun əksər ziyalıları, elm sahibləri onun arxasına düşüb əl çalar, sinələrinə döyüb: - Kəramət! - Kəramət! - deyib var gücləri ilə qışqırardılar. Fikirləşən olmazdı ki, axı bu Kəramətin nəsli-kökü, məni-mənliyi nədir və indiyə qədər hansı daşı daşın üstünə qoyub… Hansı ölüyə hay, diriyə pay verib?

Kəramət tez-tez əlini çallanmış saqqalında gəzdirib sinəsini sönməkdə olan peçin istisinə verir və danışdıqca danışırdı… Yeməkxanadakılar ona elə baxırdılar ki, sanki Kəramətin ağzından dürr tökülür.

Soyuq əhədimizi kəsmişdi. Fikrim-zikrim Orucla, ondan alacağım altı min manatlıq qəbzin yanında idi. Ona görə də Kəramətin çərənləməsinə qulaq asmağa təhərim yox idi. Yemək zalından keçib müdirin arxa tərəfdəki kabinetinə daxil oldum. O nə barədə isə aşbazla mübahisə edirdi. Bizi görəndə baxışları duruldu. - Gecənin bu vədəsi hardan gəlib hara gedirsiniz, - soruşdu.

Mən isə tələsik:

- Savalan, indi vaxtım yoxdur, bu barədə sonra danışarıq. Bu cavan oğlanın qabağına çaydan, çörəkdən qoy, mən də bir yoldaş var, ayaqüstü ona dəyib qayıdıram, - deyib yeməkxananı tərk etdim.

Ev-eşiyindən bezən, arvad-uşağından acıq eləyən,

ata-anasından üz döndərən, əlinə düşəni arağa-çaxıra verib gününü yeməkxanalarda keçirən və həyatda uğur tapmayan müştərilər Kəraməti üzük qaşı kimi araya almışdı. Müfəttiş ağzı köpüklənə-köpüklənə asıb-kəsməkdən, igidliyindən dəm vurur, onu əyən Vətən, torpaq dərdini çəkməkdən danışırdı. Ətrafdakılar da Kəraməti tez-tez uca bir səslə: Yaşa! Yaşa! - deyib alqışlayırdılar.

Əllərimi ovuşdura-ovuşdura yeməkxananın qabağından keçən su kanalının üstündən adlayıb qəsəbəni yarıya bölən əsas yola çıxdım. İrəlidəki döngədə hündür boyu, ülgüclə qırxılmış iri başı, yastı peysəri, ətli sifəti olan və raykopittifaqın "ZİS" maşınını idarə edən sürücü ilə rastlaşdım və ondan gecənin bu vaxtı haradan gəldiyini soruşdum. Sürücü:

- Dəmiryol stansiyasından yük gətirmişəm, - dedi, - maşını verdim raymağın qabağına ki, boşaltsınlar. Mən də stolovaya gedirəm, bu gün çörək yeməmişəm, görüm supdan-zaddan…

Deməli, raymaq açıqdı. Oruc da yerindədi. Qarlı gecədə mənim üçün bundan xoş xəbər ola bilməzdi. Elə bil bütün yorğunluğum yoxa çıxdı. Əl-ayağımın donu açıldı. Qanadım olsaydı, uçardım. Ancaq Oruca qarşı qəzəbim soyumamışdı. Ona olan nifrətimi ən çox direktor yaratmışdı. Altı min manatlıq qəbzdən əlimi üzmüşdüm. İndi bir neçə dəqiqədən sonra bu əclaf, kələkbaz raymaq müdiri ilə üzbəüz dayanıb, onunla haqq-hesab çəkməli idim. Qəbzi dansa, biz əlbəyaxa olub ölüb-öldürmək dərəcəsinə çıxa bilərdik.

Yük dolu "ZİS" maşınının arxası raymağın taybatay açılan iri qapısının ağzına dirənmişdi. Bir neçə adam çiyninə aldığı ağır bağlamaları hıqqana-hıqqana raymağın anbarına daşıyırdı. Oruc kənarda dayanıb malın daşınmasına nəzarət edir, əlindəki dəftər-qələmlə qeydlər aparırdı. Maşınla qapı arasındakı darısqal yerdən birtəhər keçib, raymağa daxil oldum. Oruc məni görəndə irəli yeriyib gülər üzlə əl verdi. Və soruşdu:

- Müəllim, hələ burdasınız, bəs getməmisiniz?!

Mən ona olan kin-küdurətimi büruzə vermədən əsəbi halda:

- Xeyr! Getməmişik! - cavab verdim.

O, qırımımı başa düşüb, ehmalca qolumdan yapışdı. Və məni kənara çəkib təəccüblə:

- Müəllim, gözümə birtəhər dəyirsiniz, xeyir ola? Bəlkə yolda-zadda…

Əhvalat necə olub hamısını artırıb-əskiltmədən, olduğu kimi açıb danışdım… Oruc məni dinlədikcə sifətinin ifadəsi dəyişir, rəng verib rəng alır, onsuz da alçaq boyu olan bu adam qarşımda sanki kiçilir, balacalaşırdı. Mən sözümü deyib qurtarandan sonra raymaq müdiri xeyli dillənmədi. Gözlərini qıyıb zəndlə yorğun sifətimə baxdı.

Ondan yönlü bir cavab gözləmirdim. Ağzını açmamış bilirdim ki, deyəcək:

- Müəllim, ünvanı səhv salmısınız, sizin düşündüyünüz qədər də sadəlövh adam deyiləm. Məni qanmaz yerinə qoymayın. Raymaqda bir manatlıq da malınız

yoxdur. Nə var hamısını vermişəm aparmısınız. Xahiş edirəm univermağı tərk edin! İndi alış-veriş vaxtı deyil. İş günü də çoxdan qurtarıb. Başım mal qəbuluna qarışıb, mənə mane olma.

Mən isə ona əks cavab verib univermaq müdirinə elə burdaca əlimin duzunu göstərmək barədə düşünürdüm. Mənim bundan başqa əlacım qalmamışdı. Orucun təqsirkar baxışları yorğun sifətimdə donub qalmışdı. O, dərin təəssüflə:

- Müəllim, boynum sınsın, - dedi, - günah məndədi. Axı, siz ticarət haqq-hesabını nə bilirsiniz?! Ona görə də nə siz qəbzi istəmisiz, nə də ki, mənim ağlıma gəlib.

Bəlkə mən yanılırdım?! Yəni bu üzbəüz dayandığım, direktorun naqis adam kimi pisləyib başımı doldurduğu və səhərdən bəri ikrah hissi ilə xatırlayıb nifrət etdiyim Orucdu?! Təəccüb məni götürdü. Onun ləyaqəti qarşısında indi mən kiçilir, balacalaşır, daxilən peşmançılıq hissi keçirirdim.

Oruc bir neçə addım aralanıb, əl-qolunu ölçə-ölçə maşının yükünü boşaldıb, dal anbarlara daşıyanlara nə isə tapşırdı və yenə də mənə tərəf döndü:

- Müəllim, direktor düz deyir, raymağı yoxlayıblar, bir az da kəm-kəsirim çıxıb. Eşitdiyimə görə orda-burda danışıq gəzir ki, Orucu bu gün-sabah damlayarlar. Neynək, adam başına iş gələr. Düzünü bilmək istəyirsinizsə, əslində burda düşmən barmağı var. Bədxahlarım mənə qurğu qurmaq istəyirlər. Canın sağ olsun. Hər yoxuşun bir enişi var. Bütün

rayon bilir ki, mən gözü-könlü tox adamam. Yəni Orucun gözünü o qədər qan örtüb ki, dükanın malın sağa-sola səpələsin?! Məgər mən bilmirəm ki, bu hökumətin malı ilan sümüyüdü, adamın boğazında ilişib qalar?! Qoy sizin direktor da, başqaları da nə deyir desin. Özümdən tam arxayınam. Bir qəpik də artıq-əskiyim yoxdur. Prosto, quru yerdən məni dolaşdırıb başımı əkmək istəyirlər. Ancaq bacarmazlar. Mən indiyəcən tamahın qulu olmamışam. Bu yaşdan sonra da olmaram. Yoxlama komissiyasının işinə etiraz etmişəm, akta da qol çəkməmişəm. Tələb etmişəm ki, univermaq başqa adamlar tərəfindən yenidən yoxlansın. Bu barədə mənimlə razılaşıblar. Bu günsabah raymaqda yenidən təftiş aparılacaq. Özümə də min faiz arxayınam ki, heç bir əgər-əskik yoxdur. Deyilənlərin hamısı da uydurmadır.

Oruc birdən söhbəti dəyişərək:

- Müəllim, çox danışıb sizi ləngitdim. Kakraz müdirimiz kabinetdədir. Gözünüz malın üstündə olsun, bu saat sizə borclu olduğum altı min manatlıq malın qəbzini yazıb müdirə qol çəkdirib, peçat vurdurub gəlirəm, - deyib tələsik univermaqdan çıxdı. Və bir neçə dəqiqə keçməmiş Oruc geri dönüb, əlindəki qəbzi mənə uzatdı. Və dönə-dönə - müəllim, boynum sınsın, - dedi. - Mənim günahım üzündən yaman əzab-əziyyətə düşmüsünüz. Sizdən min dəfə üzr istəyirəm. Gərək məni bağışlayasınız. Bir də ki, müəllim, and olsun o bizi yaradana, bu gecə ölüm ayağına düşsəydim, arvad-uşağa vəsiyyət eləyərdim ki, Muradlı internatına

altı min manatlıq mal borcluyam. Buna heç bir şəkk-şübhəniz olmasın.

Orucun mərd və səmimi sözlərini eşitdikcə yol boyu məni təhdid edən yanlış və üzücü fikirlərimin əzabını çəkirdim. O, təkidlə məni evinə dəvət edib, gecənin bu vaxtı kəndə qayıtmaq fikrimdən daşındırmağa çalışdı. Lakin sübh tezdən məktəbdə olmalı idim və qəbzdən ötrü gecə rayona gedib qayıtdığımı heç kəs bilməməli idi. Həm də tək deyildim. Şagirdim yeməkxanada məni gözləyirdi. Odur ki, Oruca dil-ağız edib, onunla xudahafizləşməli oldum. Oruc məni ötürmək üçün raymağın qabağına çıxdı. O ayaq saxlayıb üzünü Əyin dağlarına tutdu. Havalar açıq olanda qalın meşələrlə örtülmüş Əyin dağları buradan apaçıq görünür. İndi isə duman-çənə bürünmüş dağ qış gecəsinin dərinliklərində görünməz olmuşdu. Yaşca məndən böyük olan müsahibim qəlbinin dərinliklərindən qopub gələn nisgilli bir səslə:

- Oğul, - o bu dəfə mənə oğul deyə müraciət etdi, - bax, o dağın adını daşıyan Əyin kəndindənəm. Kəndimiz dağın başındakı kiçik bir talada yerləşir. Elə ki, yay gəldi, istilər düşdü, rayonun yarısı həmin dağlara çəkilir. Orada neçə-neçə istirahət düşərgələri salınır. Mən o kənddənəm. O dağın təmiz ab-havasıyla, saf sularıyla, halal duz-çörəyiylə ərsəyə çatmışam. Dünya malından ötrü o dağın ucalığına alçaqlıq gətirə bilmərəm. Pis əməllərə qurşansam, onda nə Əyin məni bağışlayar, nə də ki, əyinlilər.

Əyri yola düşəcəyimi ağlınıza belə gətirməyin. Çünki qanundan çox o dağdan qorxuram, kəndimdən qorxuram. Elimin, obamın töhmətindən, tənəsindən qorxuram. Övladlarımdan, məndən sonra gələcək nəvə-nəticələrimdən, kötükcələrimdən… qorxuram. Bütün bunların qarşısında tamah mənə güc gələ bilməz, üzüqaralıq eləyib internatdakı əlacsız uşaqların malına göz diksəm, el-obam məni lənətləyər. Aclıq bir il gedər, töhmət min il.

Siqnal səsi eşidildi. "ZİS" maşının yükü boşalıb qurtarmışdı. Bayaqdan içəri mal daşıyan fəhlələrə qəpikdən-quruşdan verib yola salmaq lazım idi. Oruc söhbətini yekunlaşdırıb əlimi bərk-bərk sıxdı:

- Müəllim, belə havada yola çıxmazlar, bir halda ki, qalmaq istəmirsən, gedirsən, tay sözüm yoxdur. Yaxşı yol, - dedi. - Ancaq ehtiyatlı ol, qışda Yazı düzü tufanlı olur. Çalış borana düşmə.

Orucdan ayrıldım, lakin onun sözlərinin təsirindən ayrıla bilmirdim. Dərindən bələd olmadığım insana qarşı səhərdən bəri qəlbimi çuğlayan qəzəb və nifrət hissi indi özümə yönəlmişdi. Bu qış gecəsi üzləşdiyim belə bir məxluqun alicənablığı, mənə göstərdiyi xoş sifəti barədə düşünürdüm. Orucu belə bilsəydim, özümü bu qədər dağa-daşa salmazdım. Rahatca yatıb, sabah, birisi gün, lap on gündən sonra havalar düzələndə qəbzin dalınca gələrdim. Heç gəlməzdim, rayona yolu düşənlərin birindən sifariş etsəydim, Oruc qəbzi göndərərdi. Artıq onlardan keçmişdi. Başlıcası odur ki, məqsədimə nail olub, qəbzi alıb nigarançılıqdan çıxmışdım.

Gecədən xeyli keçmişdi. Nəsir yeməkxanada məni gözləyirdi. Onu götürüb yola düzəlməli idim. Addımlarımı yeyinlətdim. Yeməkxanada adam qalmamışdı, Kəramətin də səs-səmiri gəlmirdi. Bayaq bayırda dayanıb, xəlvətcə pəncərənin deşiyindən Kəramətə baxan və onun ömrünə dua oxuyan axsaq gözətçi zala daxil olub peçin qırağında büzüşmüşdü. Məni görəndə qurcalanıb ayağa qalxdı və:

- Müdir içəridədir, - deyib Savalanın iş otağını göstərdi.

Savalan əynində ağ xalat olan aşbazla şirin söhbət eləyirdi. Nəsir yeyib-içib özünə gəlmişdi. Onlar məni gözləyirdilər. Aşbaz tez-tez ayağa qalxıb, elə Savalanın kabinetindəcə mənə çay-çörək gətirdi. Hiss edirdim ki, Savalan mənim kimliyim barədə ona nə isə deyib. Ona görə də aşbaz mənə məhrəm adam kimi baxırdı. Aşbaz əlini xalatının ətəyinə silə-silə:

- Müəllim, bayaq o zalda hay-küy qaldıranı yaxından tanıyırsınız? - soruşdu. - İçəri girəndə gördüm siz özünüz də ona maraqla qulaq asırsınız, - əlavə etdi.

- Yaxından yox, elə belə, uzaqdan-uzağa, bilirəm ki, torpaq şöbəsində müfəttiş işləyir, - cavab verdim.

Aşbaz güləndə bütün bədəni yırğalandı və:

- Onun hap-gopunu eşitdin də.

- Eşitdim, ancaq axıracan yox, çünki tələsirdim, işim var idi.

Aşbaz:

- Həmin o danaqırandan beş bağ biçən Kəramət bizim tərəfdəndi, - dedi, - Qurdbasanlı kəndindən. Kəndləri cəmi iyirmi-otuz evdən ibarətdir. Həyətləri

də bir-birindən aralı. Kəramətgilin evi də düz qəbiristanlığa bitişikdi. Ona görə də ata-anasının qəbrini salmışdı öz doqqazına. Onun dabbaqda gönünə bələdəm. Gəda oğlu gədədi, çənədən də saz. O, kənddə hesabdar işləyirdi, pis də dolanmırdı. Yaxşı deyiblər ki, buğda çörəyinin buynuzu var. Pul onu qudurtdu. Kənddə axmaq bir iş tutdu. Deməyə də dilim gəlmir, namus məsələsi idi… Əsgər ailəsinə söz atmışdı… Məsələ açılandan sonra oldu itdən düşmüş. Camaat içinə çıxa bilmədi. Axırda da ata-baba yurdunu, evli-eşikli, dədəsinin qəbri qarışıq satdı gəlmə bir ermənіyə. Rayonda kimə pul basdısa, torpaq şöbəsinə müfəttiş qoydular. İndi ordan-burdan çal-çap eləyib başını girləyir. Əlinə artıq pul düşən kimi ara-bərədə bir-iki ağzıyelli gədə-güdə var, onları da yığıb başına dəm verirlər içkiyə. Az-maz içən kimi özünü-sözünü itirir, başlayır ərşdən-kürşdən danışmağa. Millət belə gəldi, namus-qeyrət belə getdi, torpaq belə bölündü… Qələt eləyir, ondan millət, torpaq qeyrəti çəkən olmaz. İndi gör dünyanın harasıdır ki, binamus namusdan danışır. Günah onda yox, heylələrinə "ləbbeyk" deyib məddahlıq eləyənlərdədi. Səfeh elə səfehdi, amma heyləsinə qoşulan, ondan da betər səfehdi. Bir-iki dəfə dilinin bəlasına düşüb… NKVD iki-üç dəfə çağırıb içəri salıb. Sonra görüblər başdan xarabdı, beş-on gün saxlayıb buraxıblar. Yenə də dilinə yiyəlik eləmir. Deyir, qoysalar ölkəni idarə eləyərəm?! Ona çox demirəm, bircə kəndi tapşırsınlar, idarə eləyə bilsə, qulağımı dibindən kəsərəm. - Aşbaz mənə tərəf dönüb:

- Əşi, gör nə zamanaya gəlib çıxmışıq ee?! Yerindən qalxan padşahlıq umur.

Mən tələsirdim, elə bil tikan üstündə oturmuşdum. Aşbazın sözünü də kəsib, çıxmaq üzümdən gəlmirdi. Savalan bunu hiss edib aşbaza ərklə:

- Bax, sənin də bu xasiyyətin olmaya, - dedi. - İçməyəndə olursan ağıllı-başlı adam. İş vaxtı ki, qurtardı, vurub ipin ucunu itirirsən. Bayaqdan tarix-nadir açmısan. Kəramətin də atasına lənət, o birisinin də. Pir olmuş, tay fikirləşmirsən ki, bu kişilər uzun yol getməlidi. Qır-saqqız olub yapışmısan yaxalarına.

Savalanın sözündən sonra aşbaz valı dəyişdi:

- Məni bağışlayın, - dedi, - deyəsən bir az uzunçuluq eləyib sizi yolunuzdan qoydum. Kefimdən içmirəm e, dərdimdən içirəm, - əlavə etdi. - Atam Moskvada yaxşı işdəydi, mən də ali məktəbdə oxuyurdum, pişşevoyda. Nə dərd idisə, kişi qəfildən əlimizdən getdi. Ondan sonra yığışıb gəldik yer-yurdumuza. Ailədə də hamı mənim əlimə baxır… Çörək çıxan bir iş tapmadım. Sağ olsun bu Savalan, məni qanadına alıb. Üzünə demirəm, xeyirxah adamdır. Neçə ildi baş-başa verib dolanırıq. Səhərdən axşamacan çömçə ilə qazan qarışdırıram. Yeməklərin iyindən bezmişəm. Axşamlar müştərilər seyrələndə bu zəhrimardan - o, stolun üstündəki araq butulkasını göstərdi, - bir az vurub fikrimi dağıdıram. Onda da Savalanın maa acığı tutur. Deyir, içəndə danışıb dəngimi aparırsan. Elə indiki kimi.

Savalan ayağa qalxıb:

- Yaxşı! Yaxşı! Uşaqlardan əl çək! Yolları uzaqdı, qoy getsinlər! - Aşbazın üstünə cocudu.

Aşbaz:

- Savalan düz deyir, siz Allah bağışlayın, çox çərənlədim. Di sizə yaxşı yol, - deyib xudahafizləşdi.

Savalan arxamızca çıxdı:

- Gərək qalaydınız, - dedi, - belə havada yola çıxmaq xatalıdı. Gedirsinizsə, Yazı düzündən keçməyin, çovğuna düşərsiniz. Uzaq olsa da, alt yol yaxşıdır. Yolla gedən yorulmaz.

* * *

Savalanın dediyi ağlımıza batdı. Yeməkxanadan beş-on addım aralanan kimi Nəsir sırıqlısının altında gizlətdiyi tüfəngi qoltuğundan çıxarıb lüləni qundağa birləşdirdi və rahat olmaq üçün qayışı çiyninə keçirdi. Qəsəbədən aralanmamış tüfəngi üzə çıxarmaq xatalı idi. Bu bizim tərəfimizdən ehtiyatsız bir hərəkət idi. Orqan işçiləri üstümüzdə silah olduğunu görsələr, başımız ağrıya bilərdi. Ona görə də Nəsirə tərəf dönüb:

- Nahaq tələsdin, rayonun ortasında tüfəngi çıxarmaq lazım deyildi. Bir halda ki, çıxarmısan, eybi yoxdur, onda çiyninə salma, ağac kimi əlinə al, kənardan görünməsin.

- Müəllim, bu gecə vaxtı kim kimədi, hamı yatıb. Görməzlər, - Nəsir arxayın cavab verdi. - Bir də ki, siz olan yerdə kimdi bizdən silah soruşan.

Uşaq atasından güclüsünü bilmədiyi kimi, Nəsir

də müəlliminin yanında özünü arxayın aparırdı. Əlbəttə, bu onun silah barədəki müvafiq qanunlardan bixəbər olmasından irəli gəlirdi. Və ağlına gətirmirdi ki, dəvədən böyük fil var... Ancaq mən Nəsirin dediklərini qəribçiliyə salmadım, sakitcə yolumuza davam etdik. İrəlidəki döngədən mərkəzi küçəyə tərəf burulanda əyinlərində uzun şinel, əllərində əlcək, başlarında qulaqlı papaq, çiyinlərində milis paqonu olan iki nəfərlə rastlaşdıq. Nəsir onları görən kimi tez tüfəngi arxasında gizlətdi. Tükü-tükdən seçən milis işçiləri tüfəngdən çox Nəsirin bu cür hərəkətindən şübhələndilər və ayaq saxlayıb əllərinin işarəsi ilə bizi özlərinə tərəf çağırdılar. Dinməz-söyləməz onlara yaxınlaşdıq. Çatan kimi hər ikisi rəsmi görkəm alıb özlərini təqdim etdilər.

- Baş leytenant Bəkir Bəhmənov!

- Kapitan Sirac Gözəlov!

Baş leytenant tüfəngi Nəsirin əlindən alaraq:

- Bu nədi?! - dedi. - Gecə vaxtı rayonun arasında tüfəng-tapanca gəzdirirsiniz?! Özü də qorxub çəkinmədən! İcazə vəsiqəniz var?! Xahiş edirəm tüfəngin sənədini göstərin.

Hər ikimiz yerimizdə donub qaldıq, bir söz demədik.

- Niyə dillənmirsiniz?! Dedim ki, tüfəngin sənədlərini təqdim edin, eşitmədiniz?! Karsınızsa, bərkdən qışqırım. - Baş leytenant Bəkir Bəhmənov səsini daha da qaldırıb eyni sözləri təkrar etdi. Yenə dillən-

mədik. Çünki milis məmurları haqlı idi, biz haqsız. Tüfəng başqasının, sənəd də yox. Yaman yerdə ilişdik, - öz-özümə düşündüm. Belə yerdə deyirlər ki, yağışdan çıxdım, yağmura düşdüm. Qəbz məsələsi, tüfəngin yanında muştuluq oldu. Nəsir şagird kimi belə şeyləri anlamasa da, mən bu işin hara gedib çıxacağını yaxşı bilirdim. Bəzən qırmızıpapaqlar qaşınmayan yerdən qan çıxarırlar. İndi bizi məsuliyyətə cəlb etdirmək üçün milisin əlinə girəvə düşmüşdü. Hələ onu demirəm ki, səhər məsələni aydınlaşdırmaq üçün milis idarəsinə gedib bu gecə müvəqqəti saxlanma kamerasında qalmalı idik. Orda da kim bilir, yatmaq üçün yorğan-döşək verələr, ya verməyələr. Biz bığ dalınca getmişdik, saqqalı da əldən verdik. Qışın bu şaxtasında milisin zirzəmisində gecələ görüm, necə gecələyirsən. Artıq çıxılmaz vəziyyətə düşmüşdük. Müəllimini güclü hesab edən şagirdin yanında biabır oldum. Sabah da bütün rayona yayılacaq ki, Muradlı orta məktəbinin dərs hissə müdiri onuncu sinifdə oxuyan şagirdi ilə qazamata düşüb. Hərənin də ağzı bir hava çalacaq. Bu hadisəyə də hərə bir cür don geyindirəcək. Yaman yerdə axşamladıq! - daxilən düşündüm. Və özüm özümü ittiham etməyə başladım. - "Hikkə dağarcığısan. Bu iki daşın arasında qəbz vaxtıydı? Səbrin olsun, qoy səhər açılsın, lap aradan iki-üç gün keçsin. Haçan ayağın rayona düşər, Oruc durur, sən dursan! Ay ona-buna dərs verib ağıl öyrədən müəllim!! Direktor bir kəlmə - Orucu yoxlayıblar, bu

gün-sabah tutulmalıdır, - deməsiynən düşdün əl-ayağa. Tərsliyindən özün-özünü bəlaya saldın. İndi qırmızıpapaqlılara cavab ver, sübut elə ki, qanunsuz silah gəzdirmirəm..."

Milis işçiləri gördülər ki, özümüzü itirmişik, cavab tapa bilmirik, onların ayağı daha da yer aldı. Baş leytenant Bəkir Bəhmənov tüfəngi kapitan Sirac Gözəlova verib bizə tərəf döndü və:

- Şöbəyə getməliyik, orda məsələni aydınlaşdırarıq, - deyib bizi qabağa saldı. Özləri arxamıza düşdü. Qəsəbənin qurtaracağında, qabağında iri hərflərlə "Rayon milis şöbəsi" yazılmış ikimərtəbəli binaya döndük. Onlar bizi birbaşa şöbə rəisi Natiq Xangəldiyevin yanına apardılar. Rəisin isti və səliqəli otağına daxil olduq. Dən düşmüş saçları, dolu sifəti, hündür boyu və zəhmli baxışları olan Natiq Xangəldiyev kiminləsə telefonla danışırdı. O, axırda - buradayam, gözləyirəm, - deyib dəstəyi yerinə qoydu. Əvvəlcə vəzifəsinə xas olan təşəxxüslə bizi nəzərdən keçirdi, sonra baş leytenantla kapitana üzünü tutaraq:

- Eşidirəm! Yenə nə olub? Telefonla danışmağa da imkan vermirsiniz! Bunlar kimdi gətirmisiniz bura? - soruşdu.

Baş leytenant özünü qabağa verib:

- Yoldaş polkovnik, - dedi. - Bunların öz deməsinə görə bu, - o məni göstərdi, - Muradlı orta məktəbinin müəllimidi, o biri, - Nəsirə işarə etdi, - onuncu sinif şagirdidir. Rayon mərkəzində heç kimi saya salmadan, tüfəng də çiyinlərində getdikləri yerdə

yaxalamışıq. Özlərinin şəxsiyyətini təsdiq edən sənəd yoxdur, tüfəngin də kimə məxsus olduğu bilinmir. Guya tüfəng İsmayıl adlı bir müəllimindi. Özlərini çox şübhəli aparırdılar. Hətta bizi görəndə tüfəngi gizlətmək istədilər.

Polkovnik Natiq Xangəldiyev baş leytenanta:

- Yoxlayıb müəyyən eləməmiş yanıma niyə gətirmisiniz?! Aparın aformit eləyin, salın təcridxanaya. İndi gecdir, sabah araşdırın, görün tüfəng kimindi, belə bir silah bizim uçotda var, ya yox. Əvvəlcə izahatlarını alın. Onların kimliyini müəyyənləşdirmək lazımdır. Öyrənin, görün, bu gecə vaxtı hardan gəlib hara gedirlər. Müəllimdi, şagirddi bunların bizə dəxli yoxdur. Qanun qanundur. Qanun qarşısında hamı cavabdehdir. Mən də, sən də, bura gətirdiklərin də. Ağlı başında olan müəllim qanunu hamıdan yaxşı bilməlidir. Bilmirsə, daha pis. Qanunsuz silah gəzdirmək olmaz! Bunu adi çoban da başa düşür.

Rəis axırda sözünü belə yekunlaşdırdı:

- Aparın! Aparın salın içəri! İndi dapros aparmağa vaxtım yoxdur, bir yoldaş var onu gözləyirəm. İndilərdə gəlməlidir… Siz, dediyim kimi işinizdə olun. Axırda mənə doklad eləyərsiniz.

Dördümüz də rəisin kabinetindən çıxıb baş leytenantın otağına keçdik. İçəri girən kimi baş leytenant Bəkir Bəhmənov növbətçi milisi çağırdı. Növbətçi bir göz qırpımında baş leytenantın kabinetinə daxil olub rəsmi görkəm aldı. Baş leytenant:

- İstintaq təcridxanasında adam çoxdur?! - soruşdu.

- Beş-altı nəfər var, - növbətçi cavab verdi.

- Nəzərə alın ki, iki nəfər də gələcək. - Bəkir Bəhmənov bizi işarə etdi.

Növbətçi ayağını cütləyib, əlini qırmızı papağının bərabərinə apararaq:

- Oldu! Yoldaş baş leytenant! - Növbətçi rəsmi qaydada baş leytenantın qarşısında təzim edib kabinetdən çıxdı.

Bəkir Bəhmənov Nəsirlə mənim - hərəmizin qabağına bir vərəq kağız qoyub:

- İzahat yazın, - dedi. - Harda anadan olmusunuz. Hazırda nə vəzifədə işləyirsiniz. Adınız, atanızın adı, familiyanız, təvəllüdünüz, təhsiliniz, tüfəng kimindi, gəzdirmək üçün icazə sənədi varmı… Hamısını dəqiq-düzgün, olduğu kimi göstərin. İzahatın axırında qol çəkib tarix qoyun. Özünüz də tələsməyin, arxayın yazın ki, səhv olmasın. Onsuz da biz hələ burdayıq. Öyrənmiş canıq. Rəis gedincə kabinetdə olmalıyıq. İkiyə üçə qədər işləməliyik.

Kağızı qabağıma qoyub, əlimdəki qələmi saxladım və baş leytenantdan soruşdum:

- Olar sizə bir söz deyim?

- Buyurun, eşidirəm.

- Bu cavan oğlan, - Nəsiri göstərdim, - şagirddi, - dedim. - Əvvəla, onun burda bir günahı yoxdur, silahı müəllim yoldaşımdan mən almışam, bura da mən gətirmişəm. Hər hansı təqsir varsa, ona mən cavabdeham. İkincisi də, istəməzdim ki, siz məni tələbəmin yanında sorğu-suala tutasınız.

Baş leytenant Bəkir Bəhmənov peşəsinə xas olan təkəbbürlə:

- Yaxşı, yaxşı! Qısa elə görüm, nə demək istəyirsən? - üstümə cocudu.

- Deməyim odur ki, onu azad edin getsin. Mən bu gecə burada qalmağa etiraz etmirəm. Sabah da yoxlayarsınız. Hər hansı bir cəzam olsa, onu çəkməyə hazıram. - Bir daha xahiş edirəm, şagirdi buraxın getsin.

- Burda xahiş-zad işləmir. Görünür, siz hələ milis idarəsinin zərbin-zorbun görməmisiniz. Sabah göstərərik bilərsiniz. Xahiş edirəm yastı-yastı danışmayın. İzahatınızı yazın verin, şagirdin buraxılıb-buraxılmamasına sonra baxarıq. Elə sənin kimi müəllimin də belə tələbəsi olar.

Baş leytenant Bəkir Bəhmənovun işlətdiyi kobud sözlərə etiraz edib, ona cavab vermək istədim, lakin özümü güclə saxladım. İstəmədim ki, Nəsir bizim dava-dalaşımızın şahidi olsun. Bir də ki, onlar haqlı olduğu üçün dilim gödək idi. Və milis işçiləri mənə qarşı bundan da betər kobud hərəkət etsəydilər, dözməli idim. Onsuz da biz biabır olmuşduq. Düşdüyümüz tələdən xilas olmağıma əmin deyildim. Bircə gecə müvəqqəti saxlama kamerasında qalmaq, hörmətdən düşməyim üçün kifayət idi. Ömrümün axırına kimi üstümdən belə bir qara ləkəni götürə bilməzdim. Sən demə, görəcəkli günlərimiz varmış. Bəlkə tale məni sınağa çəkir ki, naşükür olmayım. Muradlıdakı mənzilimin darısqallığından gileylənib,

bəxtimdən, taleyimdən narazılıq etməyim. Yəqin ki, bu gecə qalacağımız soyuq kamerada Muradlıdakı otağımın qədir-qiymətini biləcəyəm. Peçi qalayırdım, şəkil çəkirdim, balkona çıxıb ulduzları seyr edirdim, gecənin dərinliklərindən süzüb gələn təbiət nəğmələrini dinləyirdim. İndi mən o xoşbəxt anlarımın həsədini çəkirdim. Necə də azad-firavan həyat sürdüyümü indi-indi anlayıb başa düşürdüm. Bir neçə dəqiqədən sonra növbətçi milisioner əlində bir qom açar gəlib bizi aparacaq. Dəmir barmaqlıqların arasına salacaq. Yatmaq üçün də bizə bir köhnəkültə yorğan-döşək verə-verməyə. Bunlar mənə o qədər də yer eləmirdi. Məni dəhşətə gətirən həbsxanaya düşməyim, el içində rüsvay olmağım idi. Gündüz olsaydı, yenə arxamca gələn, harayıma çatan olardı. Gecənin bu vaxtı əlim heç yerə yetmirdi. Özümdən betər, şagirdimin dərdi məni almışdı. Yataqxanada dərs oxuduğu yerdə çağırtdırıb, əzab-əziyyətə saldım, yolda neçə dəfə buzun üstündə sürüşüb yıxılmışdı. Onun əlinin, qıçının siyrilmiş yerləri hələ də sızıldayırdı. Nəsirin nə çəkdiyini bilirdim. Lakin o, ağrılarını bircə dəfə dilinə gətirmirdi. İndi də həbsxananın soyuq otaqlarında qal görüm, necə qalırsan?! Fikirdən infarkt olmaq dərəcəsinə çatmışdım. Lakin buna təəssüflənmirdim. Ləkəli bir adla yaşamaqdansa, ölüm min dəfə yaxşıdır. İndi mən özümə ölüm diləyirdim. Yalnız ölüm məni düçar olduğum rüsvayçılıqdan xilas edə bilərdi. Ona görə də bir-iki dəfə otağın tavanından

asılmış çilçırağa baxmaq bəhanəsi ilə üzümü yuxarı tutub, Allahdan ölüm dilədim. Mən gördüyüm yuxularda bu cür çətinliklərlə çox üzləşmişəm. Lakin ayılanda sevinmişəm ki, nə yaxşı yuxuymuş. Ona görə də hərdən başımı aşağı dikib gözlərimi yumurdum, fikirləşirdim ki, bəlkə də düşdüyüm vəziyyət həmişəki kimi yenə də yuxudur. Lakin baş leytenant Bəkir Bəhmənovun tez-tez:

- Yazın! Yazın! İzahatınızı gözləyirəm, - deməsi ümidlərimi alt-üst eləyirdi. Soyuq kamera gəlib dururdu gözümün qabağında, - Görəsən orda saxlanan adamlar nə yuvanın quşlarıdı? Kaş ki, bizi tanımayan adamlar olaydı. Tanısalar, batdıq! Gedib orda-burda danışıb, onsuz da itmiş hörmətimizi aləmə car çəkəcəklər.

Baş leytenant gördü ki, izahatı ləngidirəm, üstümə hirsləndi:

- Adını da müəllim qoymusan! Bayaqdan bəri iki vərəqlik izahatı yazıb qurtara bilmirsən, - dedi, - utanım yerinə.

Mənimsə susmaqdan başqa əlacım yox idi. Axı dillənsəm, ona neyləyə bilərəm. Boğazım onun əlində ola-ola başqa bir hərəkət eləyə bilməzdim. Cavab qaytarsam, vəziyyətim daha da ağırlaşa bilərdi. Qarışqanı fil eləmək bəzi qırmızıpapaqların əlində qurtum su içmək kimi asan bir şeydi. Baş leytenant iki nəfər adam tapıb üzümüzə dirəndirərdi ki, üstümüzə silah çəkib, bizi qarət eləyiblər. Filan qədər pulumuzu aparıblar. Ondan sonra bizə bir quldur, oğru, qarətçi damğası vurub on il basardılar içəri. İndi gəl sübut elə ki, bu

şər-şəbədədi, bizdən oğru-quldur olmaz. Zəmanə də elədi ki, tülkü tülkülüyünü sübut eləyincə dərisini boğazından çıxarırlar.

Birdən idarənin balkonundan gur səs gəldi. Milis işçiləri bir-birinə dəydi. Qara paltolu bir kişi ötkəm əda ilə əvvəlcə baş leytenant Bəkir Bəhmənovun balkona açılan pəncərəsinin şüşəsini taqqıldatdı, sonra qapıya tərəf keçdi. İçəri daxil olanda baş leytenant Bəkir Bəhmənovla kapitan Sirac Gözəlov ayağa qalxdılar. Paltolu kişi gur və amiranə səslə:

- Ə, Bəkir, balam, evinizdə it ölüb? Niyə çıxıb getmirsiniz? Bu vaxtacan kabinetdə nə eşələnirsiniz?! Deyəsən işiniz-gücünüz qurtarıb! Ə, Allahsızlar, bu yazıq-yuzuğu burda niyə saxlamısınız? Buraxın getsinlər evlərinə. Səhər açılmayacaq? Gündüz nə işiniz var yenə görün… Milis işçilərində insaf-zad olmur?! …

Yan tərəfdən baxan kimi onu tanıdım. Vaxtı ilə Xəndək kəndində müəllim işləyərkən, evində qaldığım Şükür idi. O, Bəkir Bəhmənovla Sirac Gözəlova əl verib ərkyana təpbəcə gələndən sonra gözü bizə sataşdı:

- Boy! Müəllim, sən burda nə qayırırsan?! - deyib məni qucaqlayıb üzümdən öpdü.

Mənsə dillənmədim, xəcalətimdən ölüb yerə girdim. Şükür üzümə baxanda nə isə başa düşdü. Və baş leytenanta tərəf dönərək:

- Bunları sən saxlamısan?! - soruşdu.

- Şükür kişi, bunların işi şuluqdu, - baş leytenant Bəkir Bəhmənov cavab verdi.

- De görüm axı neyləyiblər, bank yarıblar?! Də-

mir yolunu dağıdıblar?! Adam öldürüblər?! Mən bu müəllimi yaxşı tanıyıram. Özü də canlara dəyən oğlandır. Bir il mənim evimdə qalıb. Görünür sizi səhv salıblar.

Baş leytenant:

- Şükür qağa, - Bəkir Bəhmənov ona - qağa, - deyə müraciət etdi.

- Qanunu pozublar, yanında oturan da şagirdidir, icazəsiz tüfəng gəzdirirlər, özü də rayonun ortasında. Heç kimi də saya salmadan. Nə bilim, çort yevo znayet. Bəlkə silahla nə isə eləmək istəyirmişlər. Yoxsa…

Şükür bir az ciddiləşdi və soruşdu:

- Hanı o silah? Gətir görüm o nə silahdı?!

Kapitan Sirac Gözəlov maddi sübut kimi otağın aşağı küncünə söykədiyi köhnə təklüləni gətirib Şükürə uzatdı. - Budur, baxın. Heç bir dokumenti-zadı yoxdur, bilinmir kimindir.

Şükür tüfəngi əlinə alıb baş leytenanta tərəf döndü:

- Bəkir, - dedi, - mən ölüm düzünü de, deməsən kişi deyilsən, bu axşam burda oturan adamlar bu tüfənglə neçəsini öldürüblər?! Neçəsi yaralı qaçıb?!

Hamı gülüşdü. Şükür baş leytenantla kapitana kinayə ilə:

- Amma öz aramızdı, igid adamsınız, bu gecə çox qoçaq tərpənmisiniz, - dedi. - Bu yekəlikdə qatı cinayətkarları yaxalamaqda igid iş görmüsünüz. Bu şücaətə görə sabah ulduzlarınızın sayı artar. Sonra da birinizi nəçənnik, birinizi də müavin qoyarlar. Ordenmedal da ki, öz yerində.

Şükür kişi əlindəki tüfəngi nümayişkəranə onlara göstərdi:

- Mən ölüm, bu tüfəngdi?! - dedi. - Qundağını da mirgənə yeyib. Vallah əl ağacı bundan min dəfə yaxşıdır. Mən mənliyimlə belə silahı yolda görsəm, götürmərəm.

Şükür kişi onlarla xeyli məzələndikdən sonra qarşımızdakı yarımçıq izahatların ikisini də cırıb zibil yeşiyinə tulladı. Sonra tüfəngi bizə uzadaraq:

- Müəllim, bunların başı xarab olub, görünür bu gecəki soyuqdandır. Tüfənginizi də götürün, gedin, sizə yaxşı yol, mən buradayam, lazım olsa əvəzinizdən cavab verərəm.

Baş leytenant Şükürə olan hörməti qarşısında aciz imiş kimi:

- Şükür əmi, mən ölüm, qoy nəçənniyə deyim, sonra! Yoldaş polkovnik kabinetdədi. Onsuz buraxa bilmərəm, yaxşı düşməz, sonra bizi danlayar, deyər mənsiz adam buraxırsınız.

Şükür:

- Yaxşı, gedək, Natiq elə məni gözləyir. Onunla səhərdən vədələşmişik. Öz maşını ilə məni dəmiryol vağzalına yola salmalıdır. Yollar buz bağladığından stansiyaya hələ-hələ maşın işləmir. Nəçənniyinki ikidiferlidi, nə qədər qalın qar olsa, qorxusu yoxdur, yarıb keçəcək. Bu gecə qatara çatmalıyam. Bakıda düşüb, ordan da Sumqayıta getməliyəm. Bir-iki günlük vacib işim var.

Şükür sözünü qurtarandan sonra qabağa düşdü,

dördümüz də onun ardınca getdik. Dəstə ilə şöbə rəisi Natiq Xangəldiyevin kabinetinə daxil olduq. Rəis stulundan qalxıb Şükürü qapının ağzında qarşıladı. Rəis Şükürü qollarının arasına alıb məhəbbətlə sıxdı. Şükür:

- Nəçənnik, yavaş, - dedi, - əşi, qabırğalarım qırıldı. Sən cavan polkovnik, mən də ki, kəndçi baba. Qabağında duruş gətirə bilirəm?!

Onların hər ikisi bərkdən güldü. Kənarda dayanıb onlara baxan baş leytenant da, kapitan da qımışdılar. Nəçənnik bizə baxıb, üzünü baş leytenantla kapitana tutdu:

- Hə, nooldu, dindirib qurtardınız, növbətçiyə tapşırmışam, kamerada boş yer var, - dedi. - Aparın salın ora, prokurora sabah məlumat verərik, indi gecdi.

Şükür ərklə güldü:

- Polkovnik, bu gecə buranın nəçənniyi mənəm. Onların da azad olunması barədə sərəncamı vermişəm, aydındı?!

- Aydındı, - şöbə rəisi cavab verdi və Şükürün ötkəm danışığından xoşu gəldi. - Onları hardan tanıyırsınız, - əlavə soruşdu.

- Pir olmuş, necə yəni hardan tanıyıram, bu müəllim bizim evin uşağıdır. Yanındakı da şagird babadı, tutmağa başınıza adam qəhətdi?! Ay hay! - Şükür ləğloğazla əlini yellətdi.

Milis şöbə rəisi Natiq Xangəldiyevin əlləri düşdü yanına. Leytenantla kapitana tərəf dönüb:

- Şükür kişi olan yerdə mən kiməm?! Allahdan sonra ağsaqqaldı! İndi buraların nəçənniyi də, ağsaqqalı

da odu. Gərək nə əmr eləsə, - yest! - deyək.

Rəisin bu sözündən sonra yenə gülüşmə düşdü. Natiq Xangəldiyev baş leytenantla kapitana:

- Müəllimi də, şagirdi də buraxın getsin. Siz də axşam-axşam tutmağa adam tapmısınız?:.

Rəisin kabinetini tərk etdik. Şükür kişi arxamızca çıxıb bizi dəhlizin qurtaracağına qədər müşayiət etdi…

Etiraf edim ki, məktəb qurtarıb, neçələrinə dərs verməyimə baxmayaraq, çörəkdə olan hikməti anlamaq fəhmindən hələ çox-çox uzaqmışam.

Həkəri çayı boyunca uzanıb gedən kəndlərdə kimi dindirsən, deyər ki, xəndəkli Şükür kişi çörəkli adamdı. Mən bu sözün mənasını indi-indi anlayıb başa düşürdüm. Böyük-böyük vəzifə sahibləri rayonun rəisindən tük saldığı halda, polkovnik Natiq Xangəldiyev kabinetində, tabeçiliyində olan işçilərin gözü qabağında özünü el ağsaqqalından çox-çox aşağı tuturdu. Və xəndəkli Şükürün bir sözünü iki eləmədi. O, kəsdiyi çörək, yaxından salam-kəlamı olan ağsaqqal kişi qarşısında necə də aciz idi. Özünü necə də sadədən sadə aparırdı...

* * *

Nəsirin rəngi üstünə gəlmişdi. Elə bil ilan ağzından qurbağa qurtarmışdı. Şaxtalı gecədə belə bir xatadan qurtarmağımız bizə möcüzə kimi gəlirdi. Və mənə elə gəlirdi ki, Şükür kişi milis idarəsinə özü gəlməmişdi, onu Allah-taala göndərmişdi.

Biz rayona gələndə yolu bir neçə dəfə azıb tara düş-

müşdük. Yazının yuxarı yollarından gözümüz qorxmuşdu. Ona görə də qəsəbənin alt tərəfindən hərlənib Həkəri tərəfə aşdıq. Bozumtul duman çökmüş dərədə Həkərinin suları güclə işıldayırdı. Maşın körpüsündən rahatca keçib, çayın sol sahilindəki magistral yola çıxdıq. Maşınlar çox işlədiyindən yolun qarı tapdalanmışdı. İndi biz rahat gedirdik və azmaq qorxusu yox idi.

Gedəndən gələnə qədər Nəsir ağzını açıb bir kəlmə danışmamışdı. O bildi hara getdik, qayıtdıq. Ancaq nə məqsədə getdiyimi, nə iş görüb görmədiyimi bilmirdi. Onun ağlına nə Oruc gəlirdi, nə də ki, qəbz. Bu barədə ona heç nə deməmişdim. Sakitcə yanımda hərlənirdi. Mənzil başına az qalırdı. Bir neçə kənddən sonra Muradlıya çatmalı idik. Bizim bütün çətinliklərimiz arxada qalmışdı. Qəbz də ki, cibimizdə. Hiss edirdim ki, Nəsirin eyni açılıb. İndi arxamca yox, mənimlə yanaşı gedirdi. O, birdən addımlarını yavaşıtdı:

- Müəllim, sizdən bir söz soruşmaq olar?!
- Buyur, eşidirəm.
- Bizim riyaziyyat müəllimi Nəcməddin niyə getdi?
- Səni nə maraqlandırır?
- Heç, elə belə, - Nəsir yazıqlaşan kimi oldu.

Nəsirə elə gəlirdi ki, verdiyi sual yerinə düşmədi, ona görə də susdu, daha dillənmədi. Və dinib-danışmadan bir tap getdik.

Nəsirə qaranlıq qalmasın deyə və bir də ona qənaətləndirici cavab vermədiyimdən, inciyə biləcəyini nəzərə alaraq:

- Nəcməddin müəllim iş yerini dəyişmək barədə özü

xahiş etmişdi. Bu barədə neçə dəfə də ərizə yazmışdı, - ona izah etdim. - Buraların ab-havası, suyu ona düşmürdü. Bir də ki, rayon mərkəzinə yaxın olmaq istəyirdi.

Nəsir özündən asılı olmayaraq təəssüflə:

- Amma yaxşı müəllimdi, - dedi və dərindən köks ötürdü.

- İndi gələn pisdi?!

Müsahibim dilini sürüyə-sürüyə:

- Yoox… Bu da yax-şı-dı, - könülsüz cavab verdi.

- Bəli, təzə gələn riyaziyyat müəlliminiz də yaxşı yoldaşdı. İyirmi ildən artıq stajı var.

- Əlbəttə, bir söz demirəm. Ancaq uşaqlar danışırlar ki, Nəcməddin çox savadlı idi. Bizə də yaxşı dərs öyrədirdi. Düzü, hamımız ondan çəkinirdik. Kim olur-olsun, biliksiz şagirdi görməyə gözü yox idi. Nəcməddin müəllim ancaq bilənə qiymət yazırdı. Nəcməddin müəllim dəyişiləndə Çimnaz elə sevindi ki, həmin gün qırmızı paltar geymişdi. Deyir indiki yaxşıdı.

- Çimnaz səhv eləyir, siz də nahaq yerə belə məsələlərə baş qoşursunuz! Nəcməddin müəllim də, onun yerinə təzə təyin olunan da, hər ikisi bilikli, tələbkar, qayğıkeş müəllimlərdi. Müəllimlər barədə müzakirə açıb fikir yürütməyi də nə sənə, nə də ki, sənin sinif yoldaşlarına məsləhət görmürəm. Vaxtınızı sizə aid olmayan məsələlərə yox, dərs oxumağa sərf edin.

Nəsirə üz versəydim, bəlkə də ürəyindən keçənləri dilinə gətirib deyərdi ki, Nəcməddin müəllim məktəbimizin kisəsindən getdi. Ali məktəblərə gedənlərdən

biri də onun dərsindən kəsilmir. Nəsir məktəbdə gedən söz-söhbətlərdən bilməmiş deyildi ki, Nəcməddin müəllimin dəyişilməsində ikinci katibin barmağı var və əsas arğac ondan keçib. Bütün bu işlərin də baiskarı Çimnazın yaxşı oxumaması idi. Arada müəllim-şagird pərdəsi olmasaydı, bəlkə də Nəsir elə buradaca raykomun ikinci katibi Niyaz Məcidovun hərçibetərinə söyüb, onun kütbeyin baldızı Çimnazı lənətləyərdi. Ancaq eyhamla Nəsirin ağzından vurub söhbətin uzanmasına imkan vermədim.

Yolumuza duman qarışıq ağır sükut çökdü. Addımlarımızı bir az da yeyinlətdik. Yaxınlığından keçdiyimiz kəndlərdə tək-tük evdən işıq gəlir, bir də boş-boş it hürüşləri eşidilirdi.

Yer, göy, bizi əhatə edən dağlar, dərələr, Həkərinin buz suları, ötüb keçdiyimiz kəndlər sakitcə çillə yuxusuna dalmışdı. Şaxtalı qış gecəsi, qurtarmaq bilməyən bu yollar, bu gün çəkdiyimiz əzab-əziyyət, yad yuvasına tələsən yorğun müəllim, bir də ki, zavallı şagird. Nəfəsimizi dərmədən, dayanıb dincəlmədən gedirdik. Sabahı açmağa, bizi gözləyən qayğılı anları yaşamağa gedirdik.

Xoruzların ilk banında Muradlıya çatdıq. Saatım olmadığı üçün səhərə nə qədər qaldığını bilmirdim. Hər halda gecənin çoxu gedib, azı qalmışdı. Məktəbə çatanda ayrıldıq. Xudahafizləşəndə ona qəti sözüm bu oldu:

- Nəsir, bizim bu gecə rayona gedib-gəlməyimizi, nə kimi əhvalatlarla üzləşdiyimizi heç kəs bilməməlidir. Bu bir sirr olaraq aramızda qalmalıdır. Aydındı?!

- Bəli, müəllim, aydındı, - dedi. - Məndən tam arxayın olun. Başımı da kəssələr, heç yerdə danışmaram.

- Di sağ ol, gecən xeyrə qalsın…

Mənzilim soyuq olsa da, çölə nisbətən isti idi. Lampanı yandırıb evin künc-bucağına nəzər saldım. Çarpayının yanına vurduğum şairlərin şəkilləri qarşısında dayanıb, onların həvəslə oxuyub əzbərlədiyim şerlərini xatırladım. Onlar gözlərimin önündə canlı kimi görünür və sanki tənhalığıma həyan olurdular. Şairlərin lal baxışlarında özümə qarşı bir qayğı hiss edirdim. Neft qıtlığı olmasaydı, lampamı sübhəcən yanılı qoyub, hər dəfə gözümü açanda onlara baxardım. Bu şaxtalı qış gecəsində rayona yollanarkən qüvvəmi onların ibrətamiz kəlamlarından almışdım. Yorğun olsam da, bir anlığa şer sərkərdələrinin ruhu qarşısında təzim edib sonra lampanı söndürdüm, çarpayıma uzanıb yorğanı başıma çəkdim.

Heç də o iddiada deyildim ki, bu gecə böyük bir şücaət göstərmişəm və bununla qürrələnə bilərəm. Bu fikirdən çox uzaq idim. Yalnız onu düşünürdüm ki, əhatəsində olduğum insanların istehzalı baxışlarından, tənəli sözlərindən xilas olmuşdum. Direktorla nə qədər isti münasibitimiz olsa da, insan çiy süd əmib, üzümə vurmasa da, başqa birisinə deyəcəkdi:

- Uşağa buyur, dalınca yüyür. Bu cavan müəllimə ayda-ildə bir iş tapşırdım, onu da yarıtmadı. Bizi filan qədər ziyana saldı.

Haqqımda bu cür xoşagəlməz rəyin yarana biləcəyi məni rahat buraxmırdı. Artıq bu nigarançılıqdan çıx-

mışdım. Özümü sərbəst hiss edirdim və indi, həzz aldığım üç-dörd saatlıq röyanın şirinliyini uzun gecələrin yuxusuna dəyişməzdim.

Səhərisi yatağımdan qalxıb hamıdan qabaq iş yerimdə oldum. Sükuta dalmış sinif otaqlarını, uzun koridorları, fənn kabinələrini, laboratoriyaları diqqətlə nəzərdən keçirdim. İş otağıma daxil olanda bir-birini qartopuna basan şagirdlərin hay-harayı eşidildi. Onların şən səsi mənə musiqi təsiri bağışlayırdı. Və deyərdim ki, məktəb üçün şagirdlərin səs-küyündən təntənəli himn ola bilməz.

Birinci növbənin müəllimləri ilə salamlaşıb onların gündəlik iş planlarını, tədris edəcəkləri dərslərin konspektini nəzərdən keçirdim. Bu səhər direktor yasa batıbmış kimi mənimlə qaş-qabaqla görüşdü. Və dilucu dediyi "sabahın xeyir" kəlməsindən sonra əks tərəfə dönüb öz kabinetinə keçdi. Yəqin ki, o, axşamkı qəbz söhbətinin üstünə qayıtmaq, məndən altı min manatın haqq-hesabını çəkmək barədə düşünürdü. Mən isə arxayın olduğum üçün heç bir şey olmayıbmış kimi özümü əsla o yerə qoymurdum. İlk zəng çalınandan sonra avazımış sifəti, mülayim xasiyyəti, sakit davranışı olan mühasibi kabinetimə çağırtdırdım. O, içəri daxil olub mənə soyuq salam verdi. Və təəssüflə:

- Direktor axşam zavxozla məni evinə çağırmışdı. Qanı qara idi. Bizə hamısını danışdı. Axşamdan özümə gələ bilmirəm. Yaman biabır olduq, - deyib mısmırığını salladı.

- Direktor sizə nə deyib?!

Mühasib mızıldanaraq, günah işlətmiş adamla danışırmış kimi:

- O qəbz məsələsini deyirəm. Altı min manatlıq malın sənədini almamısınız, deyilənə görə raymaq müdirinin də işi şuluqdu, bu gün-sabah tutulmalıdır. Onu dama salandan sonra qanımız getdi. O qədər pulun altından çıxmaq olar?!

- Siz səhər-səhər nağıl danışırsınız, - dedim və stolumun siyirməsini çəkib qəbzi və internat üçün alınmış malların siyahısını qoydum ortalığa. - Bu sənədləri aparın qayda-qanuna salın. Haqq-hesabda hər hansı artıq-əskiklik yaransa, gələrsən danışarıq. Həm də yadınızda qalsın ki, mühasibin sözü boş danışıqlara yox, rəsmi sənədlərə əsaslanmalıdır. Siz isə qazanda nə qaynadığını bilmədən, qabınızı uzadırsınız ki, bir çömçə də…

Mühasibin gözü qəbzə sataşanda yerindəcə donub qaldı. Nə demək istəyirdisə, imkan vermədim:

- Sənədləri aparın, qaydalaşdırın, başqa sözünüz varsa, qalsın sonraya. İndi vaxtım yoxdu, ayrı-ayrı siniflər üzrə şagirdlərin dərsə davamiyyətini yoxlamalıyam!

Bu sözü deyib ayağa qalxanda işçilərdən biri kabinetimin qapısını açıb:

- Direktor sizi çağırır, - dedi.

Mühasibi içəridə qoyub direktorun otağına keçdim. O, dirsəyini stola dirəyib əlini alnına söykəmişdi. Direktor fikirli olduğundan onun təklifini gözləmədən stulların birində əyləşdim. Direktor əlini alnından

çəkib özünü düzəltdi və incikli baxışları ilə mənə nəzər salaraq:

- İndi neyləyək?! Durduğumuz yerdə bizi işə saldınız.

Direktorun sözü məni qeyzləndirdi və:

- Sizi başa düşmədim axı, nəyi neyləməliyik? Bir də ki, sizi hansı müşkül işə salmışam ki, özünüzə gələ bilmirsiniz? - ona bir qədər sərt cavab verdim.

Direktorun təzə qırxılıb ətirlənmiş dolu sifətində acı istehza dolaşdı və başını yırğalayaraq:

- Xatirinizə dəyməsin, məndən də on-on beş yaş kiçiksiniz, cavan olduğunuza görə bu cür arxayın danışırsınız. Bir də ki, sizə nə var, subay-salıq oğlansınız. Dalda qalan arvadın yox, uşağın yox. Mənim bir çətən külfətim var. Sabah Orucla birlikdə məhkəmənin qarşısında dayananda nə demək istədiyimi onda başa düşərsən.

- Axı raymaq müdiri ilə bizim nə alverimiz? O hara, biz hara, nəyə görə Orucla məhkəmə qarşısında durmalıyıq?!

- Sənin çox şeydən xəbərin yoxdur. Görünür hələ fil qulağında yatmısan. Orucu dünən günortadan sonra damlayıblar.

- Bunu dəqiq bilirsiniz, yoxsa ağızdan-ağıza eşitmisiniz?! Bəlkə bu boş bir şayiədir?!

- İndiyənəcən məndən qeyri-dəqiq söz eşitmisən?! - Direktor suala sualla cavab verdi.

Özümü gülməkdən güclə saxladım. Axı Oruc dünən

günortadan sonra həbs olunubsa, axşam, gecədən xeyli keçmiş onunla necə görüşmüşəm?! Sən bir yalanın yekəliyinə bax!! Ancaq bu barədə mübahisə etmək istəmədim. Sadəcə olaraq direktorun dediklərinə münasibətimi bildirdim:

- Əlbəttə, insanın işıqlı dünyadan məhrum olub, qaranlıq məhbəsə düşməsi məni təəssüfləndirir. O cümlədən də raymaq müdirinin dünən həbsə alınması xəbəri. Lakin cinayətkar kimi onun həbs olunub-olunmamasının nə sizə, nə də mənə heç bir isti-soyuğu yoxdur. Belə olan təqdirdə başa düşə bilmirəm, sizi bu dərəcədə narahat edən nədir?

- Səhv edirsiniz, internatın it-bata düşmüş altı min manatlıq malına görə bəs kim narahat olmalıdır?! Mən, birinci növbədə siz!! Çünki bu əhvalat sizin diqqətsizliyinizin ucundan baş verib. Oruc qəbzi danandan sonra ona necə sübut edək ki, on min manatlıq qəbzi alıb dörd min manatlıq mal vermisən. Altı min manatlıq əlavə qəbzi yazmamısan. Buna görə narahatam, düzünü bilmək istəyirsiniz, bu gecə ilan vuran yatıb, mən yatmamışam.

- Bağışlayın, bu qəbz məsələsini təkrar-təkrar üzümə vurursunuz. Başım çıxmır, bununla nə demək fikrindəsiniz?!

- Görünür ya mənim ağlım çaşıb, ya da sizin yaddaşınız zəifləyib. Axşam özünüz demədiniz ki, raymaqda qalan malın sənədini almamışam?!

Başqa adamın içəri daxil olub, direktorla mənim aramda gedən gərgin söhbətə mane olmaması üçün,

ayağa qalxıb arxadan qapının siyirməsini vurdum. Yenə qayıdıb yerimdə əyləşdim. Və direktorun üzünə sərt və əsəbi nəzər saldım:

- Yaşca, həm də vəzifəcə məndən böyük olan bir şəxslə bu cür danışmaq mənim üçün çətindir. Ona görə ki, bu məktəbə qədəm qoyanda ilk dəfə sizin süfrənin başında əyləşib çörək kəsmişəm. İşlədiyimiz bu bir neçə ay ərzində də bir-birimizlə səmimi olmuşuq. Həmişə də böyük kimi yolunuzu saxlamışam.

- Doğrudur, - deyə direktor başının hərəkəti ilə dediklərimi təsdiq etdi.

- İndi sizinlə bir qədər açıq danışmalıyam, - sözümə davam etdim. - Əvvəla, raymağın bizə borclu qaldığı altı min manatlıq malın qəbzini almışam. Həmin qəbzi raymaq müdiri öz dəsti-xətti ilə yazıb qol çəkib, idarənin müdiri də üstündən möhür vurub…

Direktorun gözləri işıqlandı və:

- Bəs onda məni… Qəbz hardadı?

- Xahiş edirəm, tələsib sözümü kəsməyin, - dedim, - məni axıracan dinləyin. Sonra fikrinizi bildirərsiniz. Qəbzi başqa sənədlərlə birlikdə, iki dəqiqə bundan qabaq mühasibə təqdim etmişəm. Sizi bir dost, iş yoldaşı kimi sınamaq üçün axşam qəsdən dedim ki, qəbzi almamışam.

Direktor hövsələdən çıxdı və stulundan qalxaraq:

- Siz nə qəribə… Necə yəni sına…

Direktor nə demək istəyirdisə imkan vermədim. Təkidlə ondan xahiş etdim ki, fikrimi tamamlamamış mənə mane olmasın. O, qırımımı görüb susdu. Mən eyni həyəcanla:

- Əvvəla, hər bir insan səhv edə bilər, - dedim. - Lakin aqillər təsəlli üçün yoldaşının, dostunun qəbahətini kiçildib, onun qəlbinə yüngüllük gətirməyə çalışır, sizdən uzaq, bədxah adamlar isə, olmuş səhvi bir az da şişirdib fil qayırır. Dostumu sınamaq üçün olmayan bir xətanı ona deyəndə elə bir vəziyyətə düşdü ki, sanki kimi isə dar ağacına çəkirlər. Gecə vaxtı, qarda-boranda yol gəlib, yorğun düşmüş, acsusuz iş yoldaşınızın bir balaca büdrəməsini eşidəndə onun qolundan yapışmaq əvəzinə, elə acınacaqlı hala düşdünüz ki, məni vahimə götürdü. Bir andaca dəyişdiniz, başqalaşdınız, sanki təbiətinizdəki mülayimlik bu qarlı gecənin sazağına qərq oldu. Baxışlarınızda sizə qarşı namərdlik edən naqis bir insanın obrazı yarandı. Gözlərimin önündə o cür miskin vəziyyətə düşmənizi istəməzdim. Bəlkə də həmin anda özünüzün də özünüzdən zəhləniz getdi. Və ona görə də mənzilimi tez tərk etdiniz. Sizdən sonra məni sıxan darısqal mənzilim sanki genişləndi, azad nəfəs almağa başladım.

Mən danışdıqca direktor rəng verib rəng alırdı. O, aramızdakı gərginliyi yumşaltmaq üçün süni təbəssümlə:

- Yaxşı, yaxşı, nu xoroşo, - dedi. - Görürəm bərk əsəbiləşmisiniz. Ancaq nahaq yerə, bunlar lazım deyil…

Direktorun nə demək istədiyini sanki eşitmirdim. Və özümdən asılı olmayaraq qəlbimdəkiləri çılpaqlığı ilə açıb tökmək istəyirdim:

- İncisəniz də, inciməsəniz də deməliyəm ki, sizin

barənizdə məndə yaranan ilk təəssürat artıq alt-üst olmuşdu. İndi qarşımda yaxın yoldaş, dost yox, bəd ayaqda üzü dönük, aradan çıxmaq üçün qardaşını belə güdaza verə bilən bir məxluq görürəm. Lakin dost itirmək ağırdır. Bir qədər dərinə getsək, bu o deməkdir ki, əhatə olunduqlarının arasında yaxşılar azalır. Ancaq arzu edərdim ki, qəlb dünyamın yaxşıları yamanlardan, xeyirxahları bədxahlardan çox olsun. İnanın ki, buna ilahi xoşbəxtliyi kimi baxardım. Çox təəssüf ki, özümünmü, sizinmi təqsiri ucbatından bu gün həmfikir, etibarlı hesab etdiklərimdən birini itirməli oluram. Bunu mən ürək ağrısı ilə etiraf edirəm. Səbəbi isə təkcə qəbz ətrafında başlanan söz-söhbətlər deyil. Ən başlıcası, məni bu cür qənaətə gəlməyə vadar eləyən, Nəcməddin müəllimin məsələsidir. Dərs dediyim şagirdlər məndən soruşurlar:

- Nəcməddin müəllim nə üçün bizim məktəbdən getdi?!

Onlara aldadıcı, yalan cavab vermək məcburiyyəti qarşısında qalıram. Axı necə deyim ki, direktor onun başını böyütdü, Nəcməddini yuxarıların təsəvvüründə yolagəlməz, sözəbaxmaz, kobud, əclaf, məktəbin rəhbərliyini saymayan, bivec, nanəcib obrazına çevirdi. Məktəblilərə necə izah edim ki, direktor ikinci katibin xatiri xoş olsun deyə, ona duzaq qurub burdan didərgin saldı. Nədi-nədi Nəcməddin müəllim ikinci katibin pişvazında durmayıb. Kitabın üzünü açmayan, kəmsavad qohu-

muna aşağı qiymət yazıb. Pedaqoq vicdanınız necə yol verdi ki, beş yüz nəfərə yaxın şagirdin gələcək taleyini ikinci katibin ani bir təbəssümünə fəda etdiniz. Siz bilmirsinizmi ki, Evklid, Arximed, Ptolomey, İbn Sina, Əbu Reyhan Büruni, Əbu Nəsr ibn İraqi, Xocəndi… kimi alimləri tarixin göylərinə qaldıran astronomiya, riyaziyyat elmi olub. Riyaziyyat musiqidi, fəlsəfədi, səma sirlərinin açarıdır. Belə bir elmin təməl daşını qoyan kamil memarı məktəbimizdən uzaqlaşdırmağı özünüzə rəva bildiniz! Bəlkə də belə bir qüdrət sahibi olmağınızla fəxrlə qürrələndiniz. Belə olan təqdirdə sizə inanıb etibar edəcəyimi ağlınıza belə gətirməyin. Sizin atdığınız bu cür addımlar isə nöqsan yox, namərdlikdir. Mən buna xəyanət də deyərdim. Ona görə də bilin və agah olun ki, sizin xalq müəllimi deyilən bir ada yaraşmayan əməllərinizlə barışa bilmərəm.

Direktor əsəbiləşib ayağa qalxdı:

- Xahiş edirəm həddinizi aşıb, ağlınıza gələni danışmayın! Sözünüzə sərhəd qoyun və özü də bilin, harda və kiminlə danışırsınız? Onu da unutmayın ki, bu sözlər sizə baha başa gələ bilər. Akazıvayetsa düşmənim kənarda yox, ocaq başındaymış.

Həyəcanlı olduğumdan onun danışmasına imkan vermədim. Və qəzəbli istehza ilə:

- Xeyr yanılırsınız. Məndən düşmənçilik gözləməyin, bizim dostluğumuz indən sonra da davam edəcək. Lakin üzdə, ümumi işimizin xatirinə, süni olaraq… - cavab verdim.

Sözümün tonunu dəyişərək təmkinlə, bir qədər də yumşaq:

- Yeri gəlmişkən onu da deyim ki, aramızın dəydiyi bilinsə, birincisi bu, şagirdlərin tərbiyəsinə mənfi təsir göstərər. İkincisi, müəllimlər bundən istifadə edib vəzifələrinə məsuliyyətlə yanaşmazlar. Məktəbdə özbaşınalıq, hərc-mərclik yaranar. Üçüncüsü, övladlarınız məyus ola bilər. Və üzünüzə deməsələr də sizə dostluğu axıra qədər davam etdirməyi bacarmayan etibarsız, dəyanətsiz bir valideyn kimi baxarlar. Onu da əlavə etmək istəyirəm ki, dərs ilinin axırına qədər dediyim qaydada bir yerdə işləməliyik. Sonra buradan dəyişiləcəyimə qəti əmin ola bilərsiniz. Bu barədə qərarım qətidir. Rica edirəm, heç vaxt özünüzü zəhmətə salıb, buradan getməyimin təşəbbüskarı olmayın. Və qalıb işləyib-işləməməyimə müdaxilə etməyin. Çalışaram hər şey sizin ürəyinizcə olsun. Mənimlə Nəcməddinə qarşı olduğunuz kimi altdan-altdan iş görmək niyyətinə düşsəniz, bunu sizə bağışlamaram. Onda aramızda düşmənçilik yarana bilər. Mənsə bunu arzu etməzdim. Müdriklər demişkən, köhnə dostlarla kəsmə təması, yaman olar dostun düşmən olması. Odur ki, biz müəllim və şagirdlərin nəzərində dost kimi qalıb, mehribanlıqla ayrılmalıyıq.

Direktor guya yuxarıda dayanıb, yaşca, vəzifəcə özündən aşağı olan müavininin səviyyəsinə enib, ona baş qoşmaq istəmirmiş kimi ağayana bir əda ilə gülüb əlini çiynimə qoydu. Lakin ilk tanışlığımızda olduğu

kimi, onun əlinin hərarətini hiss etmədim. Elə bil üşüdüm və geri çəkilib kənarda dayandım. Belə bir hərəkətim heç vaxt xoşlamadığım təkəbbür əlaməti deyildi. Mən insanları sevirəm və həmişə özümü yaxın olduqlarımdan aşağı tutmağı xoşlayıram. Ürək qızdırıb etibar etdiklərimə aşağıdan yuxarı baxanda, sanki tanrının dərgahına qovuşuram və bundan xoşhallıq duyuram. Onlar bunu sadəlövhlüyüm, acizliyim, gücsüzlüyüm kimi anlayıb, mənə qarşı etinasızlıq göstərdikləri təqdirdə qəlbimdə ikrah hissi baş qaldırır. Yaxınlaşdığımdan qaçmağa, uzaqlaşmağa, onunla bir daha üzləşməməyə çalışıram. Riyakar hərəkətləri, uydurma sözləri ilə məni aldada biləcəyini güman edənlərə ağıldərrakədən yarımayan, yazıq, mağmun məxluq kimi baxıram. Və bu məndə acı bir istehza doğurur. Müdriklərdən birinin dediyi kimi, insan bir dəfə yalan danışıbsa, deməli, o, min cür fitnəkar əməlin sahibidir. Və bu cür keyfiyyətlər insana rüsvayçılıqdan başqa heç nə bəxş etmir. Onu getdikcə ucuzlaşdırır. Bir də ona təəssüflənirəm ki, yaşa dolub məni əhatə edən mühiti incəliyinə qədər anladıqca, itirdiyim yaxınların sayı artır və həyat məni təklənib tənhalaşmaq əzabı ilə hədələyir.

Kimsə qapını itələdi. Lakin qapı arxadan bağlanmışdı. Direktor qapıya yaxınlaşıb sürməni geri çəkdi. Boğazına qalın şərf bağlamış, alçaq boylu gənc poçtalyon içəri daxil olub əlindəki təzə qəzeti direktora uzatdı. Və sevincək:

- Bir görün sizin barənizdə nə yazıblar, - dedi. - Dü-

nənki qəzetdi. Yolları qar basdığından bu gün güclə gətirib çıxara bilmişəm.

Direktorun sifəti duruldu və tez qəzeti açıb üzünə tutdu. Raykomun ikinci katibi Niyaz Məcidovun imzası ilə "Pedaqoji kadrlara qayğı" başlığı altında geniş məqalə dərc olunmuşdu. Məktubda Muradlı orta məktəbinin və onun direktorunun müsbət iş üsuluna geniş yer verilmişdi. Məktubda daha çox direktorun yüksək təşkilatçılıq qabiliyyətindən, onun siyasi pedaqoji hazırlığından bəhs olunur və bu müsbət təcrübənin yayılması tövsiyə edilirdi.

Direktorun dodağı qaçdı və qürurla:

- Görürsünüz də, mərkəzi qəzetlər barəmdə nə yazır? Amma bəzi gözügötürməyənlər məni bəyənmir. Dalda-bucaqda başqa cür danışırlar.

- Məqaləyə görə sizi təbrik edirəm. - dedim. - Niyaz Məcidovun məktubu sizi yaxından tanıyan həmkarlarınız üçün bayağı görünsə də, kənar oxucuların təsəvvüründə məktəbimiz barədə xoş təəssürat yaranması yaxşı haldır.

Bu söz daxilən direktora ləzzət eləməsə də, özünü o yerə qoymadı və nikbin əhval-ruhiyyə ilə:

- Yaxşı, yaxşı, bu yersiz söhbətləri qoyaq kənara, - dedi. - Görürəm bir az əsəbiləşmisən, ancaq nahaq. El arasında belə bir söz var: gor əzabsız olmaz, ev söz-söhbətsiz, - əlavə etdi. - Məktəb də elə müəllim və şagirdlərdən ibarət bir ailə kimidir. İş olan yerdə nöqsan da olar, söz-söhbət də. Bunların hamısını qatlayaq qoyaq bir kənara. Hesab edin ki, aramızda heç bir in-

cikli söz-söhbət olmayıb. Gəl ayrı dərd-sərimizdən danışaq. Dünən zavxoz yanıma gəlmişdi. Abasqulu deyir ki, məktəbin odunu qurtarmaq üzrədir. Mən Bakıda kursda olanda yığdırdığınız selinti odun əməlli-başlı karımıza gəldi. Neçə aydı elə onu yandırırıq. Sədrdən xahiş edək, görək maşın verirmi? Meşədən bir-iki reys odun gətirə bilsəydik, yaxşı olardı. Tərs kimi də bu il qış çox sərt keçir. Qayğı məni götürüb. Görək hardan odun tapa bilirik. Məktəbin bağında bir-iki qarıyıb-qurumuş ağac var, məcburam sabahda-zadda onu doğratdıram. Bir-iki gün də keçinək, görək sonrası nə olur…

Direktor bunları deyib, katibəyə iki stəkan çay gətirtdi:

- İç, bayaqdan bəri o qədər cəfəngiyyat danışdıq ki, sizi bilmirəm, mənim boğazım quruyub, - deyib çay dolu stəkanı qabağına çəkdi.

Direktor bu ifallı kəlmələri ilə fikrimi başqa məcraya yönəldib, qəlbinin dərinliklərində mənə qarşı yaranan kin-küdurətdən diqqətimi yayındırmaq istəyirdi. Onun sözlərinin boğazdan yuxarı olduğunu hiss etsəm də, nəzakət xatirinə üstünü vurub, ucundan tutub ucuzluğa getmək istəmədim. Sakitcə çayımı içib ayağa qalxdım və onun kabinetini tərk etdim.

* * *

Dərs ilinin sonuna qədər direktorun kabinetində etdiyimiz söhbətə "sadiq" qaldıq. Heç kəs bizim münasibətimizdə yaranan çatı hiss etmədi.

Maarifdən gələn inspektorlar məktəbdə neçə dəfə

yoxlama aparsalar da, ciddi bir kəm-kəsir aşkar edə bilmədilər. Və məktəbdəki göstəriş dəftərinə bəzi qeydlər edib, razı halda yola düşdülər. Çünki məktəbdə qayda-qanun yaranmışdı. Müəllimlər tədris işinə canı-dildən yanaşırdılar. Bir-birimizlə mehriban dolanırdıq. Çalışırdıq ki, aramızdakı xətir-hörmət pozulmasın. Direktorla mənim aramdakı daxili incikliyi isə yalnız özümüz bilirdik. Və heç vəchlə onu büruzə vermirdik. Direktora elə gəlirdi ki, onun kabinetində, ikilikdə olan köhnə söz-söhbət artıq unudulub. Bir dəfə sözarası dedi:

- Hardasa oxumuşam ki, heç nə insanı barışıq qədər sakitləşdirmir.

Onun nə demək istədiyini başa düşürdüm. Və direktora:

- Nahaq o cür fikirləşirsiniz, - dedim, - adətən dalaşanlar barışır. Biz ki, heç vaxt qılınc-qırğına çıxmamışıq.

Direktor:

- Mən o cür demirəm, ümumiyyətlə, insanlar biribirinə qarşı nə qədər mehriban olsa yaxşıdır. Bax, elə bizim kimi, - deyib gülümsündü.

Onun xəfif gülüşünün arxasında səmimiyyətdən çox çətin sezilən bir xəbislik olduğunu hiss edirdim. Və fürsət düşdüyü təqdirdə sarı tikan kimi sanca biləcəyinə şübhəm yoxuydu. Buna baxmayaraq:

- Düz buyurursunuz, - dedim, - hansı şairinsə belə bir kəlamı var:

Kim ki, insanı sevər, aşiqi-hürriyyət olur.

Bəli, hürriyyət olan yerdə də insanlıq olur.

Direktor onun dedikləri ilə razılaşdığımdan məmnun qaldı.

…Biz dərs ilini xətir-hörmətlə başa vurduq. Bütün siniflərdə imtahanlar qurtarmışdı. Axıra qalan onuncu sinif şagirdləri ilə birgə xatirə şəkli çəkdirib onlarla da xudahafizləşdik…

* * *

…Yaxın-uzaq kəndlərdən olan müəllimlər atdan, maşından, arabadan tapdıqca köçüb gedirdilər. Müəllimlər evində daim yaşayan və Muradlı kəndindən olan bir neçə müəllim hərdən məktəbin həyətində görünürdü. Məktəbin təmir olunub yeni dərs ilinə hazırlanması üçün lazım olan işləri yoluna qoymadan, direktor bir yerə tərpənə bilməzdi. Mən isə sabah yola düşməli idim. Kabinetimə keçib özümə aid olan dəftər-kitabları, bəzi yazı ləvazimatlarını seçib götürdüm, lazımsız kağız-kuğuzları cırıb zibil yeşiyinə atdım. Sonra sinif otaqlarına, fənn kabinələrinə, koridorlara baş çəkdim. Müəllim və şagirdlər çəkilib getdiklərindən məktəbə darıxdırıcı sükut çökmüşdü. Divarlardan asılan diaqramlar, dərs cədvəlləri, şüar və plakatlar, tez-tez açılıb-örtülən qapı-pəncərələr canlı məxluq kimi nisgilli görünürdü.

Mənzilimə keçib yır-yığış elədim. Məktəbdə yaranan səssizlik məni darıxdırırdı. İndi hər dəqiqəm mənə bir il kimi görünürdü. Birtəhər gecəni sabah elədim. Köçmək üçün kəndimizdən göndərilən bir at, bir qatır sübh

tezdən gəlib çıxdı. Gəlmə Alışla, zavxoz Abasqulunun köməyi ilə aparacağım ev şeylərini qatıra yüklətdim. Direktorla, burda qalan müəllimlərlə görüşüb xudahafizləşmək üçün yüklü ulağı kənddən gələn yaxın qohumumla yola salıb, özüm bir-iki saat ləngiməli oldum. Əmim oğlunun kəndimizdə sədr işləyən bacanağı öz mindiyi səmənd atı göndərmişdi. Sədr əsgərlikdə xidmət edərkən süvari polkun komandiri olmuşdu. Ona görə də səmənd ata özü təlim vermişdi və at insan kimi dil bilirdi. Sədr at azarkeşi idi. Səmənd atın bəslənməsinə xüsusi qayğı göstərirdi. Çox vaxt səhər-səhər qolunu çırmayıb səmənd ata qaşov çəkib, tumar vururdu. Bu arada, hələm-hələm at, səmənd atın döşünə çıxıb onunla ayaqlaşa bilməzdi. Kənardan baxanda atın tükləri məxmər kimi bərq vururdu. Yay vaxtı kəndimizdə olanda səmənd atı bir-iki dəfə ora-bura minmişdim və onun xasiyyətinə bələd idim. Səmənd at bu dəfə hənirtimi alıb, üst-başımı iyləyəndən sonra məni tanıdı. Zavxoz Abasqulunu isə səmtinə qoymurdu. Abasqulu ona yaxınlaşmaq istəyəndə, səmənd at qulaqlarını qırpıb Abasquluya ağız atırdı. Abasqulunun səmənd atdan ağlı bir şey kəsmirdi. Birdən onun yadına düşdü ki, məktəbin madyanı görünsə, səmənd atı saxlamaq çətindi. Ona görə də, tez məktəbin arxa tərəfində otlayan madyanı qulunu ilə birlikdə dalda bir yerdən aparıb, tövləyə saldı. Sonra yoğun bir sicim gətirib səmənd atı idman meydançasının yaxınlığındakı çəmənlikdə hörüklədi ki, ac qalmasın. Sədr heç vaxt mindiyi erkək ata göy ot vermir ki, qüvvədən düşər. Madyana nə var ki, göy ot ki, çıxdı, noxtasın sivir, ötür

getsin. Həkərinin qıraqlarında göy otdan nə qədər yeyir, yesin. Yay-qış səmənd atın arpa-samanı kəsilmir. İndi isə başqa çarə yox idi. Abasqulunun qışdan qalma nə arpası var idi, nə samanı. Ona görə də Abasqulu səmənd atın hörüyünü uzadıb buraxdı göylüyə və:

- Eybi yoxdur, - dedi, - dünya dağılmaz ki. Qoy bu gün də göy ot yeyib dişini dəyişsin. Həmişə arpa-saman olar?!..

Səmənd at yaxınlıqdakı tövləyə salınmış madyanın iyini almışdı-nədi, tez-tez ora-bura devikib kişnəyir və dartınıb sicimi qırmaq istəyirdi. Abasqulu işini etibarlı tutmuşdu, arxayın idi ki, at nə qədər dartınır-dartınsın, qəzil sicimi qıra bilməz.

Abasqulu:

- Sədrə baxma, - dedi, - bizə erkək at əl verməz. Çünki xərci ağırdır. Erkək atınkı odur ki, gərək il uzunu qabağından arpa-samanını əskik eləməyəsən. Düzdü ee, elə erkək at saxlayanlar var ki, ayda bir kərə belinə qaşov çəkə-çəkməyə. Qışda da quru samanın ümüdünədi. Hərdən düşəndə qabağına iki ovuc arpa atır. Onnan at olar?! Uzağa getməyək, elə biri bizim o Muradlıdakı bağ qoruqçusu, tülkü Həşim. İnsafı yox, mürvəti yox. Birdən o qədər odun yükləyir ki, çəkib apara bilmir. Adamın ata yazığı gəlir. İl müdam beli yağır olur. O at deyil ki, yabıdı. Mən mənliyimlə, Qəmər madyanın arpasını kəsmirəm. Bircə yazda-yayda çölə buraxıram. Baxırsan tüklərindən yağ damır. Hamısı bax bu Abasqulunun hesabınadır, - o, əlini sinəsinə vurdu. - Amma di gəl ki, danlaq yeri olmuşam.

Direktor hərdən üzümə vurur ki, ata baxan deyilsən. Onu da qınamıram. Gərək adamın bəxti olsun.

Abasqulu səmənd ata nəzər salıb başını buladı:

- Yox ee, canım, kim nə deyir-desin, kəndinki madyan atdı. Yaxşı baxdın, ildə bir qulun verib özü öz xərcini çıxardır. Erkək at saxlamaq hər adamın hünəri deyil. Atcıl adam ayrıdır. Elə adam var ki, saxladığı at barmaqla göstərilir. Bizim aşağı kəndlərdə sədrin bu səmənd atından da baş atı olan çoxdur. Özü də kim nə deyir desin, kişininki atdı. Benzin istəmir, təkər istəmir, eniş bilmir, yoxuş bilmir, gecə-gündüz hara sürürsən, sür. Atın yanında maşın-zad havayı şeydi. At minənin azar-bezarı da olmur.

Abasqulu bunları deyib kədərli ah çəkdi:

- Heyf ki, dünya dəyişib, bu dəmir-dümür çıxandan bəri at günü-gündən urvatdan düşür. Amma yüz maşın olsa da, bu dərə-təpədə atın yerini verə bilməz.

Abasqulu üyüdüb-tökürdü. Gəlmə Alış isə kənarda dayanıb bir kəlmə danışmırdı. O, dilini tərpətməyə qorxurdu. Düşünürdü ki, Abasqulu kimi maşını pisləyib atı tərifləsə, yerin də qulağı var, yuxarılara çatdırarlar ki, Alış yeniliyin əleyhinədir, gecəynən yaxalayıb apararlar. Deyərlər ki, bir heylə yatmısan, yenə də ağlın başına gəlməyib. Hökumətin icad elədiyi maşını bəyənmirsən. Çünki ideyan xarabdır. Ona görə də Alış söhbətə qarışmırdı. Öz-özünə bircə onu düşünürdü ki, Alışın at ilxısı olanda, Abasqulu minməyə eşşək də tapmırdı. İndi gör dünyanın nə yeridir ki, Abasqulu əl-qolunu ölçə-ölçə atdan dəm vurur. Alış isə dilindən

siyasi qıfılı götürüb ağzını açа bilmir. Gəlmə Alış Abasqulunun dediklərini eşitdikcə içəridən qırıla-qırıla qalmışdı. Düşünürdü ki, əə, bunun yekə-yekə qırıldatmağına bax ee, at qismində görüb saxladığı məktəbin Qəmər madyanıdı, başısoyuqluqdan onun da balasını iki dəfə canavar aparıb. İndi də camaatı xam görüb, bayaqdan bəri burda bizə atdan dərs keçir. Alış! Gərək o Sibirdə ölüb qalaydın, üzün belələrini görməyəydi.

Direktorun səsi gələndə hamı kiridi və söhbət dəyişdi. O, darvazadan girəndə əsəbi halda üzünü zavxoz Abasquluya tutdu:

- Burda başın söhbətə qızışıb, o tərəfdən kəndin dana-buzovu dolub məktəbin bağ-bostanına, - dedi. - Neçə dəfə dilimlə demişəm ki, Abasqulu, o iki dağdağanın arasında çəpər dağılıb, ordan bağa mal-heyvan keçir. Bir-iki vələ tikan qır gətir, o açıq yeri bağla! Özüm deyirəm, özüm eşidirəm! Danışanda da elə danışır ki, ağzına çullu dovşan yerləşmir. Tez ol get! O danaları qov çıxart, açıq yeri də çəpərlə.

Direktorun ağzından söz qurtarmamış, Abasqulu Alışın əlindən ağacı alıb, mal-heyvan sahiblərini söyə-söyə həmin tərəfə cumdu.

Direktor səmənd atı görəndə mənə tərəf döndü:

- Yəqin bu at sizdən ötrü gəlib, - soruşdu, - saz ata oxşayır, - əlavə etdi. - Yəqin qulluqçu atıdır? Yoxsa şəxsi adamda bu vid-fasonda at nə gəzir.

- Kolxoz atıdır, - dedim. - Heç bilirsiniz gündə neçə kiloqram arpa yeyir?! Sədr özü minir, eşidib ki, bu gün

yığışıb gedirəm, ardımca göndərib. Bizə yaxın adamdı. Mərd də xasiyyəti var. Olanını dostdan, yoldaşdan əsirgəyən deyil.

* * *

Direktor əlini çənəsinə aparıb nə isə fikirləşdi və yaxınlıqda cərgələnən çinar ağaclarına nəzər salaraq:

- Deməli, bu gün gedirsiniz?! - mızıldandı.

- Bəli, mənzilimi yır-yığış eləyib, nə vardısa hamısını qatıra yüklətdirib yola salmışam. Özüm ləngidim ki, burdakı yoldaşlarla görüşüb sonra yola düşüm.

Direktor:

- Onda tələsməyin, bir-iki yoldaşa da demişəm. Onlar da indicə gəlməlidir. Məktəbin bağında xudmani bir stol açaq, ayaqüstü bir-iki tikə çörək kəsək, sonra xudahafizləşək. Sizi elə-belə buraxa bilmərəm. Sədrə də sifariş göndərmişəm. İndilərdə gəlməlidir. Onnan da çoxdan görüşmürük. Bir yerdə çay içib, söhbət etsək pis olmaz.

Direktor bunu deyib bağda yemək süfrəsi düzəltmək barədə göstəriş verdi… Meyvələri təzəcə qızarmış gilas ağacının kölgə saldığı çəməndə stol-stul qoyuldu. El dağa köçəndə direktor öz cibinin pulu ilə tərəkəmədən aldığı boynu qotazlı, qara quzunu kəsdirdi. Qazan asıldı. Samovara od salındı. İnternatdan qab-qacaq gətirildi.

Aralıda başının dəstəsi ilə ocaq qalayıb, yemək-içmək tədarükü görən zavxoz Abasqulu direktora işarə

vurdu ki, sədr gəlir. Direktor bu sözü eşidən kimi cəld məktəbin həyətinə çıxıb sədri qarşıladı. Onlar söhbət edə-edə bizə yaxınlaşdılar. Sədr süfrəni görəndə baxışları duruldu. Və şən əhval-ruhiyyə ilə:

- Müəllimlərdən çıxmayan iş, ağıllı-başlı qonaqlıq düzəltmisiniz! - deyib hər birimizlə ayrı-ayrılıqda əl tutub görüşdü. Direktor onu süfrənin başında əyləşdirdi.

Sədr köhnə milis polkovniki idi, uzun müddət milis idarəsində işləmişdi. İstefaya çıxandan sonra altı-yeddi kəndi birləşdirən Muradlı kolxozuna sədr seçilmişdi. Kənddə də, rayonda da özünə hörmət qazanmışdı. Ancaq bir az yuxarıdan getməyi vardı. Özünü təşəxxüslü aparır və köhnə ab-havayla danışırdı. O, əyləşənlərə üzünü tutdu:

- Vallah, siz məndən etibarlısınız, - dedi. - Boynuma alım ki, bu il məktəbə yaxşı baxmamışam. Bilirəm, odun-ocaqdan korluğunuz olub. Ancaq bunların üzürlü səbəbi var. Eşitdiyiniz kimi son vaxtlar başım çox qarışıq oldu. Danışıb vaxtınızı almaq istəmirəm, bu uzun söhbətdi. Azdan-çoxdan, məni siz də yaxşı tanıyırsınız. Bir maşın pambıqdan ötrü çürükçülük eləyən adam deyiləm. Dünyanın çoxunu da görmüşəm, azını da. Ancaq bu Çadırlı kolxozunun adamları çox nanəcib iş gördülər. Gecənin bir vaxtı hay qopdu ki, pambığı apardılar. Bizim o təzə "ZİS" də qapıdaydı. Şoferi gözləmədim, tez rulun dalında oturub, maşını xoddadım. Getdim ki, briqadirlər məndən qabaq məntəqədədirlər. Gözətçi də yaşlaşmış, yazığın

biri. O ki, var döyüb baş-gözünü partladıb, hənirtisini kəsəndən sonra pambığı maşına doldurub aradan çıxıblar. Eləmədim tənbəllik, tez maşına oturub qazı basdım. Onların maşını dolu, mənimki boş. Üzüaşağı necə götürüldümsə, pambıq zavoduna bircə kilometr qalmış arxadan özümü yetirdim… Çadırlı kolxozunun briqadirləri, sədr də başında! Məni görəndə öldülər! Hamısı düşdü əl-ayağıma. Yalvardılar ki, şeytan yoldan çıxartdı, bir qələtdi eləmişik. Bizi səs-küyə salma. "Mən ölüm" vurdular ki, bu işi açıb ağartma. Səssizcə qayıt get, sabah iki bu qədər pambığı bizdən istə. "Mən ölüm"dən sonra qolum boşaldı, fikirləşdim ki, Həkərinin ayağında Çadırlıdı, yuxarısında Muradlı. Bir maşın pambıqdan ötrü aramızda düşmənçilik yaranmasın. Dinməz-söyləməz qayıtdım geri. Səhər zavoda getdim ki, hesablaşaq, Çadırlının sədri dedi ki, sən kim, biz kim?! Nə pambıq oğurlamışıq, nə də səni tanıyırıq! Ondan sonra cin vurdu təpəmə. Rayonu, Bakını, Moskvanı qatdım bir-birinə. Teleqramı - teleqram dalınca! Nə zibil qaynatmışdılar, hamısını olduğu kimi sübut elətdirdim. Sədri də, briqadiri də, o döşünə döyüb, hektardan səksən sentnerə söz verən adı dillər əzbəri Zərqələmi də doldurdular dama…

Sədr üzünü bizə tutaraq:

- A kişilər, indi siz də müəllim adamsınız, düzünü deyin, burda mən haqlıyam, ya yox?!

- Haqlısan, - əyləşənlər sədrin sözünü təsdiq etdi.

- Seyid cəddinə arxayın olan kimi, bu Zərqələm də geroyluğuna arxayın idi. Ulduzunu döşünə

vurub, çox ora-bura getdi. Ancaq bir şey çıxmadı. Yuxarıda ağzına vurub, qaytardılar geri. Dedilər ki, bir yox e, beş ulduzun olsa da, xeyri yoxdu, qanun qanundu. - Sədr bunu deyib təəssüflə başını buladı. - Pambıq cəhənnəm, insafsız uşağı, insafsız, gözətçini o qədər döymüşdülər ki, indi də özünə gələ bilmir! Ə, filan-filan olmuş, adam qaldıra bilmədiyi daşdan yapışmaz! Hektardan səksən sentner pambıq olar?! Eşidəndə bişmiş toyuğun gülməyi gəlir! Amma onu deyim ki, bu işi axıra çatdırıb, sübuta yetirincə anamdan əmdiyim süd burnumdan gəldi. Allah mərdimazara lənət eləsin! Mərdimazar elə hər yerdə mərdimazardı! Onu da deyim ki, Çadırlı kolxozunun başçılarını qudurdub yoldan çıxaran da o tərifl ər oldu. Əşşi, adamı nə qədər tərifləyərlər?! Hər şeyin bir əndazəsi var!! Eşidəndə özözümə deyirdim ki, sən öləsən, əvvəl-axır bu tərifl ərin xatası çıxmasa yaxşıdı!! Bu da saxta tərifl ərin axırı!

Muradlının sədri baş vermiş hadisədə üzləşdiyi çətinliklərin əzabını o qədər də eyninə almırdı və tərifli bir təsərrüfatın başçıları üzərində çaldığı qələbə ilə qürrələnirdi. O, iddialı danışığına fasilə verib, kimi isə axtarırmış kimi burda əyləşənlərə nəzər saldı. Və direktor tərəfə yönəlib sözü dəyişdi:

- Yaxşı, bu Nəcməddin müəllim hardadı, gözümə dəymir?! Yaxındadırsa onu da çağırın gəlsin, görüşək.

Sədrin belə gözlənilməz sualı direktorun ovqatını korladı və sifətini turşudaraq:

- Nəcməddin müəllim burdan çoxdan dəyişilib, - ağızucu cavab verdi.

- Niyə? - sədr təəccübünü gizlətmədi.

Direktor eyni dilxorçuluqla:

- Beyninə nə girdisə, gözlənilmədən özü məsələ qaldırdı. Görünür buraları bəyənmədi. Çox dilə tutduq ki, qalsın, olmadı, getdi.

Sədr ərk və istehza ilə:

- Xeyr, yoldaş direktor, - dedi - görünür mənim köhnə çekist olmağımı unudubsunuz. Nəcməddin müəllimin buradan getməsinin səbəbini bilirəm. Onun harada olmasını özüm qəsdən soruşdum. Bizim valideynlər Nəcməddin müəllimdən çox razılıq edirdilər. Tələbkar müəllim idi. Uşaqları öyrədirdi. Vaxtında bilsəydim, qoymazdım dəyişilə. Xətrinizə dəyməsin, bu işin əsas mayası elə özünüz olmusunuz.

Sədrin zarafatyana atmacaları direktorun əhvalını korladı. Və bu söhbətin genişlənməməsi üçün araya söz qatdı:

- Yaxşı, yaxşı, gəlin əsas məsələyə keçək, - dedi. - Xörək soyuyur. Çörəyimizi yeyək, həm də söhbətimizi eləyək. Yaxşı da tut arağım var, yaxın bir yoldaş göndərmişdi. Çoxdan qalıb, yəqin qismət sizinki imiş.

Direktorun bu təklifindən sonra yemək-içmək başlandı… Bir-iki qədəhdən sonra pambıq nağılı da, Nəcməddin müəllimin məsələsi də yaddan çıxdı. Sədrlə diretorun mübahisəli söz-söhbətini qədəhlərin cingiltisi əvəz etdi.

Özümü elə göstərirdim ki, guya deyilən sağlıqları

diqqətlə dinləyirəm. Lakin hələ də tərk edə bilmədiyim uşaqlıq maraqları düşüncəmi başqa səmtə çəkib aparmışdı. Bizi əhatə edən ağaclar barədə düşünürdüm. Yaz günəşinin altında sakitcə dayanıb mürgü vurur, barını-bəhrəsini əkib-becərənlərə ərməğan edir, üstümüzə kölgə salır, meyvələri ətir saçır, bir-birinə dəyib dolaşmırdı. Hər birinin adına uyğun görkəmi, boy-buxunu, görünüşü var. Alma alma kimi, gilas gilas kimi… Nə yaxşı ki, çəpərin dibində dikələn hündür çinar canlı məxluq deyilmiş. Naşı və kəmfürsət insanlardan olsaydı, yekəliyinə salıb buranı barsız həmcinsləri ilə doldurar, daha əzəmətli görünmək üçün alçaq kol-kosları ətrafına toplayar, bu cənnət guşəni viranəliyə çevirərdi. Necə də sakit dayanıb bu ağaclar: hərəsi öz kökünün üstündə boy atır, bir-birinə dəyib dolaşmır, hiylə işlətmir, dava-dalaş salmır, bir-birinə güzatlıq eləmir. Bəlkə də təbiətin tərbiyəsi ilə böyüyüb boy atan bu dilsiz-ağızsız ağacların biri olub, qalmaqalsız, sakitlik aləmində ömür sürmək istərdim. Almanın alma, armudun armud, gilasın gilas kimi göründüyü aləmdə. Riyakarlar dünyasının şahı olmaqdansa, elə bu cənnətməkan bağın ağacı, gül-çiçəyi olmaq istərdim. Ömrümü fitnə-fəsadların nə olduğunu bilməyən, ətirli gül-çiçək kimi başa vurardım. Elə əzəldən torpaqda bitərdim. Çünki yaxşı əməllər şüurlarda bitdiyi kimi, nifrət doğuran çirkinliklər də şüurlarda cücərib boy atır. Ona görə də torpaqda bitib, aqibətdə də torpağa qovuşardım.

Sağlıqlar deyildikcə, qədəhlər cingildədikcə, müəllim və şagird barmaqları ilə əkilib becərilən bu mermeyvəli bağda düşüncələrim özüm də hiss etmədən məni harasa çəkib aparırdı. Bu yemək-içmək süfrəsinin başında kişilik, vicdan, namus, qeyrət, igidlik kəlmələri daha gur səslənirdi. Gəlmə Alışla zavxoz Abasqulu isə kənarda tüstülənən ocağın qırağında diz-dizə verib dərdləşdikcə "iki bədbəxt bir yerdə xoşbəxtdi", deyimi yadıma düşürdü.

Bayaqdan başı yemək-içməyə, deyilən və dediyi sağlıqlara qarışmış direktor xumarlanmış gözlərini mənə dikərək:

- Deyəsən fikriniz ayrı yerdədi, - dilləndi. - Bilirəm, yol üstəsiniz, darıxırsınız. Elə biz də yekunlaşdırırıq. Bir-iki sağlıq qalıb, onu da deyib qalxırıq ayağa.

… Günün şaxı sınanda məclisimiz başa çatdı. İçkinin təsirindən başlar dumanlanmışdı, bəziləri özünüsözünü itirmişdi. Bağdan çıxıb məktəbin həyətinə addadıq. Və darvazanın çölündə müsahiblərimə - salamat qalın, - deyib ayağımı üzəngiyə qoydum. Səmənd atın yəhərinə aşırıldım. Onlar gur bir səslə mənə "yaxşı yol" arzuladılar…

* * *

Səmənd at altımda eşim-eşim eşilirdi. Qəmər madyanın iyini alıb, havalanmışdı. Tez-tez boynunu şax tutub qulaqlarını şəkləyib kişnəyirdi. Sanki Muradlının dərələrinə, təpələrinə meydan oxuyurdu. Hardasa dalda bir yerdə bağlanmış Qəmər madyana hədə-qor-

xu gəlirdi. Cilovu bir balaca boşaldan kimi at götürüldü. Lakin cilovu yığıb ona bərk getməyə imkan vermədim.

Həkərinin bulanıq sularından keçib irəlidəki yoxuşu qalxmağa başladıq. Qənşər bir yerdə atın cilovunu yığıb dayandım. Və geriyə boylandım. Buradan hər yer ap-açıq görünürdü. Həkəri çayı meşələrin, kolkosluqların, qayaların arasında qıvrıla-qıvrıla üzüaşağı baş alıb gedirdi. Bağ-bağatın əhatəsində ağaran məktəbin qırmızı örtüyü görünürdü. Çayın hər iki sahilindəki pambıq, bağ-bostan plantasiyalarında başında ağ çalma, əlində bel olan əkin-biçin adamları gözə dəyirdi. Ömrümün bir ili keçən və bir də qayıtmayacağım bu yerlərə kövrək nəzər salıb, yenə də yoxuş yolu çıxmağa başladım. Səməndata nə var ki, ona eniş də, yoxuş da birdi. Və qarşımızdakı sərt döngələrdə bircə dəfə də təntimirdi.

Düzə çıxanda əsrarəngiz bir mənzərə ilə üzləşdim. Getdiyim yolun kənarı ağ, qırmızı, çəhrayı, sarı, göyümtül çiçəklərlə haşiyələnmişdi. Göz işlədikcə yaşıl çöllər uzanıb gedirdi. Sağ tərəfdə tər çiçəkli yaşıl yoncalıqlar, yenicə sünbül bağlayan taxıl zəmiləri dalğalanırdı. Sanki dünyanın bütün quşları bu yerlərin tamaşasına gəlmişdi. Onların cürbəcür dildə oxuduğu nəğmələr bir-birinə qarışıb bahar simfoniyası kimi kimsəsiz çöllərə yayılırdı. Deyilənə görə, bir vaxt yalnız insanların yaşadığı ən xoş dəqiqələr, onlara ömür sayılırmış. Mən bu anları ömrümün həmin xoş dəqiqələri hesab edirdim. Ancaq qəlbimin dərinliklərində bir

nigarançılıq da dolaşırdı. Çünki nə sevinc, nə də ki kədər uzun sürmür. Mən ilıq və ətirli yaz havasında, səmənd atın belində bu yaşıllıqlar diyarında irəliləyib, quşların səsini dinlədikcə özümü necə də xoşbəxt hesab edirdim. Lakin hərdən ağlıma damırdı ki, bunun bir çıxacağı ola bilər. Ümumiyyətlə, tam qayğısız olanda narahat hisslər keçirirəm. Qayğısızlıq məndə qorxu şübhələri yaradır. Və mənə elə gəlir ki, insan hərtərəfli yarısa, müvazinətini itirər və sakit həyat sürə bilməz. Və bəzən ağlıma gələn başıma gəlirdi. Bu təbiət mənzərəsindən izahı çətin olan dərin bir zövq alsam da, ağlıma gələn qaraltılar məni tərk etmirdi. Səmənd at isə nazənin sənəmlər kimi, qara birçəyini qaşqa alnına, ala gözlərinin üstünə töküb əsrarəngiz düzlərdə ahəstə addımlarla nazlana-nazlana gedirdi.

Bir-iki tap irəliləyəndən sonra yoldan iki yüz addım aralıda, bir-birinə yaxın olan dörd çadır göründü. Çadırların arasında ocaq tüstülənirdi. Yan-yörədə mal-heyvan otlayırdı. Yəqin ki, burada köç düşmüşdü. Köç itləri qaraltımızı alan kimi yerlərindən tərpənmədən ağız-ağıza verib hürüşürdülər. Lakin mənə tərəf gəlmədilər. Çadırın arxasından çıxan qanıx qancıq isə bizi görən kimi birbaşa üstümüzə cumdu. Və köpəklər də qızışıb ona qoşuldular. Atın başını buraxıb aradan çıxmaq istədim. Və tez də fikrimdən döndüm. Yadıma düşdü ki, itin qabağından qaçmazlar. Qaçanda it daha da şirnikləşər. Odur ki, atın başını yığıb sakitcə yoluma davam etdim. İtlər bizi haqladı. Köpəklər kənardan-kənara hürüşürdülər. Əmcəyi yerlə sürünən ala-qara

qancıq isə bizi girinc eləmişdi. Gah atın qarnına soxulur, gah qabağımızı kəsir, gah da arxa tərəfə keçib atın quyruğuna ağız atırdı. Səmənd at itləri saya salmasa da davranışından hiss olunurdu ki, əsəbiləşir. Qancıq qabaq tərəfdən irəli soxulmaq istəyəndə səmənd at qulağını qırpıb onun üstünə cumdu və qabaq ayaqlarının altına salıb tapdaladı. Qancıq bərkdən zingildəyib uladı və çul kimi yolun ortasına sərildi. Köç adamları itin qəsdən vurulduğunu güman edib aralıdan üstümüzə cürbəcür söyüşlər yağdırdılar. Özünə güvənən ötkəm bir çoban atdanıb hədə-qorxu gələ-gələ arxamca düşdü.

Şad-şalayın getdiyim yerdə ovqatım korlandı. Qalmaqaldan uzaq olmaq üçün aradan çıxmaq qərarına gəldim… Səmənd atın yalına yatıb cilovu buraxdım. At nə isə bir təhlükə olduğunu duyubmuş kimi, dördnala qalxdı. Və düz yolda yel kimi götürüldü. Xeyli getdikdən sonra yəhərin qaşından yapışıb geri baxdım. Səmənd atın ayaqları altından qalxan toz dumanından başqa heç nə görünmürdü. Atı yavaşıdıb, yoluma arxayın davam etdim. Günəş uzaqdakı dağlara tərəf çəkilirdi. Sərin meh təzə dən tutan taxıl zəmilərinə nəvazişlə sığal çəkirdi. Aralıdakı kövşənlərdə tala-tala nəzərə çarpan al-qırmızı lalələr, ağ, sarı və çəhrayı çiçəklər, geniş düzlərə salınmış əlvan naxışlı nəhəng xalı-xalçanı xatırladırdı. Torpağı zinətləndirən bu bahar xalılarına təbiət öz sehrli-sirli barmaqları ilə naxış vurmuşdu.

Ətrafdakı qayalıqlarda məskən salmış qartallar, çalağanlar, kərkincəklər bu gözəlliklər diyarına keşik

çəkirmiş kimi təmiz səmada sakit-sakit dövrə vurub, yaşıl çöllərə diqqətlə nəzər salır və hərdən üzüaşağı şığıyıb insanların ruzusuna qənim kəsilən müzürrü həşəratları bir göz qırpımında caynaqlarına keçirirdilər. Hələ qarı çəkilməmiş ətraf dağların, meşələrin bütün quşları bu yerlərin tamaşasına gəlmişdi. Elə bil cənnətməkan deyilən möcüzəli bir aləmə düşmüşdüm. Qara birçəkləri qəşəng gözlərinin üstünə, balaca, qaşqa alnına tökülən səmənd at altımda xüsusi şövqlə səkirdi. Özümü yerlə göy arasında hiss edirdim. Səmənd at məni başımın üstündəki günəşli səmaya yaxınlaşdırmışdı. Bu heyrətamiz çöllərdə ömrümün ən xoş anlarını yaşayırdım. Bəlkə də səmənd atı mənim arxamca heç kim göndərməmişdi. At qeybdən gəlmişdi. Gəlmişdi ki, məni qarlı gecələrdə üzləşdiyim məşəqqətlərdən, gəlmə Alışın nisgilli sözlərindən, pambıq gözətçisinin ah-naləsindən, direktorun məni çaş salan ikibaşlı söz-söhbətindən uzaqlaşdırıb, kövrək qəlbimdən daş kimi asılmış ağır kədərlərin üzücü əzablarından xilas etsin. Lakin hərdənbir arxadan gələn səs, məni tərk etmirdi. Atın başını yığıb nə qədər həndəvərimi vərəvurd etsəm də, gözümə bir qaraltı görünmürdü. İlahi, məni təhdid edən bu hənirtilər nədir?! Bəlkə, bu kimsəsiz düzlərdə məni qara basır?! Olmaya bu, gənc ömrümdən qopan bir ilimi əmanət etdiyim, balaca mənzilimin lal harayıdır?! Onun divarlarını kim bəzəyəcək?! Qapı-pəncərələrini kim açıb-örtəcək?! Gecələr kiçik balkonunda saatlarla dayanıb ulduzlarla həmsöhbət olan bir məx-

luq tapılacaqmı?! O fırçalar, şəkillər geri dönəcəkmi?! Gecənin yarısına qədər onun işığı yanacaqmı?! Pambıq gözətçisinin miskin koması kimi sahibsizlik dərdinə düçar olmaz ki?! Bəlkə də direktorun bir kəlməsilə köhnə-kültə tullantıların anbarına çevrildi o kimsəsizləşən mənzil?! Elə bil, doğmalaşdığım mənzil arxamca qarabaqara gəlib məni bu düzdə sorğu-suala tutmaq və ya ittiham etmək istəyirdi.

...Mənsizləşən mənzilimin aqibəti məni bax beləcə rahat buraxmırdı. Lakin səmənd at hərdən boynunu şax tutub kişnədikcə, qəlbimdə baş qaldıran bu mütəəssir hisslərdən bir qədər uzaqlaşırdım.

Bu yol birbaşa Ermənistan tərəfə gedib çıxırdı. Biz isə irəlidə sola dönüb kəndimizə doğru istiqamət götürməli idik. Ancaq əkin vaxtı yol-riz kotanların dönmə zolaqlarına düşüb, şumlandığından itib-batmışdı. Və haradan dönməli olduğumuzu bilmirdim. Ona görə də, cilovu boşaldıb atı özbaşına buraxdım. At gəldiyi yeri bilirdi və fəhmlə kəndimizə ayrılan cığırı tapacağına əmin idim. Zənnim məni aldatmadı. İki tapdan sonra səmənd at ot basmış cığırlara tərəf yönəlib kəndimizə doğru yoluna davam etdi. Mən nigarançılıqdan çıxıb xeyli rahatlaşdım. Bir qədər irəlilədikdən sonra kəndimizin kövşənləri göründü. Ağır köç irəliləyən el yoluna çataçatda qəribə bir dava-dalaşla üzləşdim. Bir nəfər cantıraq adam sol qoluna doladığı pencəyi bəlgə eləyib, ona endirilən ağacların qabağını məharətlə alır, sağ əlindəki dəyənəklə qabaqlaşdığı çobanları göz açmağa qoymurdu. Onlar kənardan məni

görəndə hökumət adamı hesab eləyib hərəsi bir səmtə çəkildi. Qolu bəlgəli, kəndimizin zəmilərinə qarovul çəkən Bəhdər kişi idi. Kəndimizin yaşlılarından eşitmişdim ki, Bəhdər ağaclı adamdı. Bizlərdə hər əli dəyənəkliyə "ağaclı adam" demirlər. Bəhdərə ona görə "ağaclı adam" deyilir ki, əlbəyaxa döyüşdə təkbaşına beş adama cavab verir. Qoluna ki bəlgə doladı, qurtardı getdi. Ona bir ağac endirmək olmaz. Qabaqlaşdıqlarını da şil-küt etməlidir. Bəhdər tərəkəmə çobanlarının gözünün odunu necə almışdısa, bir adam cürət edib onun qabağına dura bilməzdi.

Atdan düşüb hər iki tərəfin dalaşanlarına salam verdim və yaşca Bəhdərdən çox kiçik olsam da, uzaq eldən gəlib keçənlərlə bu cür rəftar etməsinə ərkyana etirazımı bildirdim. Bəhdər isə haqlı olduğunu izah edərək:

- Müəllim, orası düzdür, - dedi. - Ancaq birini bilirsən, birini yox. Bunlar mənim canımı boğaza yığıb. Elə zorla deyirlər ki, xala-xala, gəl savaşaq. Bütün günah bunlardadır. - O, aralıda lal-dinməz dayanan tərəkəmə çobanlarına işarə etdi. - Qanmırlar, qandırmırlar... Üzümü o tərəfə çevirən kimi sürünü buraxırlar zəmiyə. Başa düşmürlər ki, çörək Qurandan qabaq gəlib. Qurd nə bilir qatır bahadır. Çoban olanda nə olar, məgər onlar bilmir ki, camaatın ağzının çörəyini heyvana yem eləməzlər. Di gəl ki, bu çoban-çoluğu başa salmaq olmur. İndi də davamız nəyin üstündədir?! Dilimnən demişəm ki, ay qardaş, ay yoldaş, ay müsəlman, sürünün qabağına durun, qoymayın zəmilərə daraşsın. Onlar da burda mənə söz verib arxayın salırlar,

ayağımı o tərəfə qoymamış mindən çox qoyunu ötürürlər təzə dən tutan sarı buğda zəmisinə. İndi gör bunların ağzı-burnu ovulmalıdır, ya yox? Sən də məni qınayırsan ki, edən-elə gəlib-gedənlərlə işin olmasın. Necə olmasın?! Ağzımızın çörəyini qoyuna yedirtsinlər, mən də gözümü yumum ki, bunlar yol adamlarıdır?! Kənardan gəliblər?!

Aralıdan gələn köçün qabağınca irələyən bir nəfər ağsaqqal kişi atdan düşüb irəli yeridi. Və öz çobanlarına ağzına gələni dedi... Sonra Bəhdərə tərəf dönərək:

- Əmioğlu, sən haqlısan, - dedi. - Elə yaxşı deyiblər ki, günah öləndə olar. Ancaq orası da var ki, düz-əyri tutaq ki, bizimkilər bir qələtdi eləyib. Sən də gərək bunların baş-gözünü bu kökə salmayaydın. Qoyun da çox yesin beş kəviz buğda. Tay ondan ötəri bu qədər qanqaraçılıq salmağa dəyərmi?! Torpaqbasdıya beş-on qoyun verərdik, bununla da söz-söhbət qurtarıb gedərdi. Biri od olanda, biri də su olar. Bizimkilər səhv eləmişdi, gərək sən də əndazəni aşmayaydın.

Bu töhmət-tənədən sonra hərə öz hesabını götürdü. Çobanlar başlarını aşağı salıb dinməz-söyləməz sürünün dal-qabağını kəsib yola düzəldilər. Bəhdər də sözü uzatmadı. Onlar uzaqlaşandan sonra qoluna doladığı bəlgəni açıb mənimlə təzədən hal-xoş etməyə başladı. Və atın cilovunu əlimdən alıb:

- Gedək, xırman yerinə, - dedi. - Öküz otaranlar orda məni gözləyirlər. Tərəkəmədən bir qaradiş erkək almışıq, yolda qıçı qırıldığından suyu qiymətinə verdilər. Elə yaxşı gəlib çıxdın, bir pay da sən apararsan,

evə əliboş getməzsən. Yarpağın da yaxşı vaxtıdı, dolmadan-zaddan bişirərlər.

Kövşən qaravolçusu, üç öküz otaran, bir də mən, olduq beş nəfər. Burada ət almağın da qayda-qanunları ayrıdır. Birincisi odur ki, heyvanın boğazına bıçaq çəkilməmiş alıcılardan kimi buda, kimi qola, kimi içalata müştəri çıxır. Kəsiləndə də hər kəs öz dediyi yeri çəkdirib götürür. Buna alışma deyirlər. İkincisi, qəssabxanada olduğu kimi kəsilən heyvan tərəzidə kilo ilə satılır. Üçüncüsü də odur ki, heyvanın bütün əzaları müştərilərin sayına görə beş, on, on beş yerə bölünür və sonra da püşk atılır. Kimin qismətinə nə düşsə...

Bəhdər kişi qaradiş erkəyi kəsdirib pay hesabı bölüşdürdü. Və belə də bir söz işlətdi ki, ən halalı budur. Heç kəsin qəlbinə qaraltı gəlməz ki, mənimki az oldu, çox oldu, yağlı oldu, yavan oldu...

Kəndçilərimin yanında özümü heç də müəllim kimi hiss etmirdim. Onlarla dünənki uşaq, yaşca kiçik olan həmkəndli kimi davranırdım. Kəndimin gözətçisinin də, öküz otaranının da qarşısında sıxılırdım, utanıb-çəkinirdim. Həmişə atamla çiyin-çiyinə zəmi biçininə gedən və zarafatından qalmayan uzun Fərəməz tez-tez mənə söz atırdı:

- Ə, bacıoğlu, de görüm nə vaxt evlənirsən ey?! Qol götürüb doyunca oynayardıq. Vallah, hökumətin qorxusu olmasa, bu çağımda arvadın üstünə birin də alardım. Könlümdən keçmirsə, Allah mənə qənim olsun.

Bəhdər uzun Fərəməzə üzünü turşutdu:

- Ə, sən abırsızın birisən, yava-yava danışıb müəl-

limi utandırma, - dedi. - Vaxtı gələndə evlənər. Yəqin dədəsi bu barədə bir şey fikirləşməmiş olmaz.

Çopur Fərman da zarafatcıllıqda uzun Fərəməzdən geri qalan deyildi. O, əlini lopa bığında gəzdirərək:

- Ə, oğul, bunların heç birinin sözünə qulaq asma. Elə öz bildiyinlə get. Evlənmək-zad nədir?! Subaylıq soltanlıqdır. Nə olsun, odur ey birini də mən almışam, qonşuluqda dalaşmadığı adam qalmayıb. Elə onun dərdindən evdən baş alıb çıxmışam. Gecə-gündüz dağda-daşda öküz hərləyirəm. İndi mənim öküz otaran vaxtımdı?! Arvadın pisi elə pisdi, yaxşısının atasına lənət!

Uzun Fərəməz ciddiləşdi:

- Bah, Fərman da saqqal tərpətdi, söz danışdı. Balam, sən arvadının noxtasını buraxmısan, indi də yığa bilmirsən, buna biz günahkarıq? Özü də danışığını bil. Söyürsən, öz arvadına söy, bizimkiləri ora qatma. Bir də ki, nahaq yerə arvadların hamısını bir tutursan. Arvadın əsli-nəsli olanı da var, nacinsi, nadürüstü də. İndi sənin bəxtinə çıxan odur, başqası buna neyləsin?!

Bütün bunların hamısı zarafat idi. Uzun Fərəməz də, çopur Fərman da bizi güldürmək üçün belə danışırdılar. Ancaq mənim barəmdə dedikləri ciddi idi. Uzun Fərəməz:

- Oğul, zarafatı bir qırağa qoyaq, - dedi, - atan abırlı-həyalı bir adamdı. Birdən-birə pərdəni götürüb, üzünə bir söz deməsə də, evlənməyini istəyir. Burda da dördümüzdən başqa heç kəs yoxdur. Evlənsən yaxşıdır. Atalar deyib ki, tez evlənənlə, tez ayrılan peşman olmaz. Bir halal süd əmmişini gözaltı elə, ağsaqqallı, qara-saqqallı yığışıb toy qurdurmaq bizim boynumuza. Onda

Allaha da xoş gedər, atan da razı qalar. Gözünün ağı-qarası bircə sənsən, o da istəyir ki, bir gəlin üzü görsün, nəvə qığıltısı eşitsin. Ona görə də, nə qədər tez toy eləsən, bir o qədər yaxşıdır. Özü də bu üzümüzə gələn payızdan o tərəfə qoyma. Atalar deyib ki, qalan işə qar yağar. Bir işi ki görməlisən, nə qədər tez eləsən, bir o qədər yaxşıdır. Dünyanın da qarış-quruş vaxtıdır, hər dəqiqənin bir hökmü var. Bu gündən sabaha etibar yoxdur.

Bayaqdan bəri səsini içəri çəkib dillənməyən və burdakıların hamısından, nisbətən cavan olan sakit Nağdalı əlindəki çöplə torpağı qurdalaya-qurdalaya:

- Ə, bu cavan uşağın yanında hərəniz ağzınıza gələni danışmayın. Sizin içinizdə ala qarğa bala çıxarmaz. Zarafat, qeyri-zarafat, evin söhbəti evdə qalar. Onu çölə çıxartmaq kişilikdən deyil. Müəllim də bura bizimlə görüşməyə gəlib. Evlənib-evlənməmək məsələsini müzakirə etməyə yox. Bir də ki, qabaqda dağdan ağır atası var. O olan yerdə, siz yuyulmamış qaşıq kimi özünüzü ortalığa atıb, ağzı-göyçəklik eləməyin. Qoyun görək, müəllim hardan gəlir, hara gedir, qəzet-kitab oxuyan adamdır, imkan verin danışsın görək, dünyada nə var, nə yox? Deyilənə görə, hökumət vergiləri azaltmaq istəyir. Bir də danışırlar ki, aran təsərrüfatlar kimi bizim bu dağ kolxozlarına da kotan, kombayn gəlməlidir. Görəsən, bu düzdür, ya yox?! Əkin-biçin maşınları gəlsəydi, səhərdən-axşamacan başımıza gün döyə-döyə öküzlərin quyruğunda sürünməzdik...

Uzun Fərəməz yenə sözü zarafata saldı:

- Ə, sakit Nağdalı, mən ölüm fasıq-fasıq danışıb, ətimizi tökmə. Ac toyuq yuxusunda darı görən kimi, sən də yatıb yuxuda traktor, kombayn görürsən. Hökumət sən ağılda deyil, gətirib texnikanı bu yal-yamaca töksün! Buralar traktor, kombayn yeri deyil. Ə, tutaq ki, verdilər, kənddə onu sürən var?! Hamısı havayı sözdür.

Bu qəlbitəmiz insanların hər bir acı, şirin yerində olan-olmayan sözləri mənim üçün xoş idi. Onları dinlədikcə özümdə qəribə bir məmnunluq duyurdum. Çünki bütün bunlar kəndlilərimizin səmimiyyətindən, açıqqəlbli olmalarından irəli gələn söz-söhbətlər idi. Ancaq hava qaralırdı, mən evə tələsirdim. Onların icazəsi ilə ayağa qalxıb, atı yedəyimə aldım. Və yaşlı müsahiblərimə üzrxahlıq edib onlarla xudahafizləşdim.

Uzun Fərəməz yenə də xasiyyətinə xas olan zarafatcıllıqla:

- Bacıoğlu, bu dediklərimizdən incimə ha! - dedi. - Bunların başı ağarsa da, ağılları hələ ağarmayıb. Ona görə də bildiklərini də danışırlar, bilmədiklərini də. Sən bizə bənd olma. Yaxşı yol, kişiyə də çox-çox salam de. Burda danışdıqlarımız da burda qalsın. Amma toy məsələsində bizi yaddan çıxartma.

Uzun Fərəməzin bamәzə atmacalarına hamı ürəkdən güldü. Onların sözlərindən əsla incimirdim, əksinə, xoşhal olurdum.

...Yol eniş olduğu üçün səmənd atı minmədim, yedəyimə aldım. Bir də ki hər qarışında ayaqlarımın izi olan bu yolları atla getmək mənə ləzzət eləmirdi.

İstəyirdim ki, köhnə-təzə izlərim bir-birinə qovuşsun. Aşağı endikcə doğma mənzərələrlə üzləşirdim. Hərdən ayaq saxlayıb kəndimizi əhatə edən dağlara, yalçın qayalara, dörd bir tərəfə uzanıb gedən dərin-dərin dərələrə həsədlə baxırdım, kövrək hisslər keçirirdim. Atam hərdən uzaq səfərlərdən qayıdanda deyərdi ki, oğlum, gəzdim İran-Turanı, cənnət bildim buranı. Mən neçə-neçə axar-baxarlı yerləri gəzib-dolaşsam da, bizim dağların, bağların, çölün, çəmənin yerini vermirdi. Bu doğma diyarı cənnətlərin cənnəti bilirdim.

Atam üçün də ən təntənəli toy-bayram mənim evdə olmağım, onunla üzbəüz oturub dərdləşməyim idi. Ona görə də belə qərara gəldim ki, yay istirahətimi kənddə keçirim. Atam bunu biləndə elə sevindi ki!!! Ancaq poçtalyondan aldığım bir məktub hər şeyi alt-üst etdi. İnstitutda oxuyarkən dostluq etdiyim tələbə yoldaşım yazmışdı ki, səndən ötrü darıxmışam. Və belə qərara gəlmişəm ki, Şuşa sanatoriyasında görüşək. Ona görə də hər ikimiz üçün putyovka düzəltmişəm... ...ayının 15-də səni Şuşada gözləyirəm. Dostumun arzusunu yerinə yetirmək məcburiyyətində qaldım. Atam bunu eşidəndə onun necə pəjmürdə olduğunu izah etmək çətindi. Ancaq üzümə bir söz demədi. Bircə kəlmə onu dedi ki, neynək, oğul, gedirsən get, yolun avand olsun.
- Mən bilirəm atam bu sözü necə dedi. Və "get" kəlməsini işlədəndə ürəyində nələr çəkdi.

* * *

...Sanatoriyada axıra qədər qala bilmədim. Dos-

tumdan beş gün tez ayrılıb evə qayıtdım. Artıq yeni dərs ili yaxınlaşırdı. Vəziyyəti öyrənmək, bir də ki direktorla danışdığımız kimi təyinat məsələsini həll etməkdən ötrü rayona yollandım. Maarif şöbəsinin müdiri dəyişilmişdi. Təzə təyinatla Muradlının direktoru başqa bir məktəbə eyni vəzifəyə nəzərdə tutulmuşdu. Nəcməddin müəllim yerinə qaytarılmışdı. Keçirilən partiya konfransında raykomun ikinci katibi Niyaz Məcidov partiya məktəbini yenicə bitirmiş bir nəfərlə əvəz olunmuşdu. Məni isə təyinata salmamışdılar. Təzə maarif müdiri səbəbini belə izah etdi:

- Sizin məsələniz mənlik yox, raykomluqdur. Özü də yaxşı mənada. Partiyanın sirrini açа bilmərəm, deyəsən, sizi rayona ayrı işə gətirmək niyyətindədirlər...

Sən demə bu, müəllimliyimin son ili imiş. Direktorun arzusunca olan və mənim qət etdiyim kimi başqa məktəbə dəyişilməyim üçün daha heç bir ciddi-cəhd göstərməyə ehtiyac qalmadı. Tale məni sapandına qoyub siyasət və mətbuat deyilən və əsla ağlıma gəlməyən qarmaqarışıq bir aləmə atdı… Buradan başlanan sətirlər cığırı ilə mətbuatın geniş yollarına çıxdım. Qələm əhli kimi yaxın-uzaq şəhərləri, kəndləri, elləri, obaları dolaşdım…

* * *

Muradlıya yaxın olan şəhərlərin birində, ətraf rayonların da nümayəndələri iştirak edəcək yığıncaq keçirilməli idi. Əməkdaşı olduğum respublika qəzetinin redaksiyasından, müşavirədən yazı hazırlamaq barədə

göstəriş aldım. On beş il bundan əvvəl müəllim işlədiyim diyara güzar salmaq mənim üçün çox xoş idi və buna sevindim. Səhər maşına əyləşib, günorta olmamış mənzil başına çatdım. Şəhərin mərkəzində ucalan ağ binanın həndəvərinə çoxlu adam toplaşmışdı. Onlar iki-bir, üç-bir qulaq-qulağa verib söhbətləşirdilər. Rayon başçıları səliqə ilə ütülənmiş təzə kostyumlarının qolunu tez-tez geri çəkib saatlarına baxır və yığıncağın başlanmasına tələsirdilər. Müşavirənin təşkili ilə məşğul olan məsul şəxs tövşüyə-tövşüyə onlara yaxınlaşıb müti görkəm aldı və çəkinə-çəkinə:

- Hamı zaldadı, - dedi. - Üzürlü səbəbə görə cəmi üç-dörd nəfər gəlməyən var. İclasa başlamaq olar.

…Moskvadan və Bakıdan gələn yüksək səlahiyyət sahibləri ağır-ağayana addımlarla qabağa düşdülər. Rayon başçıları onların ardınca çox ehtiyatla hərəkət edirdilər. Zala daxil olanda hamı ayağa qalxıb əl çaldı. İş heyətində əyləşəcək şəxslər səhnəyə qalxıb, üzərinə qırmızı mahud parça çəkilmiş uzun stolun arxasına keçdilər. Çapan səsləri səngimək bilmirdi. Yığıncağı idarə edən mötəbər şəxs dirijorsayağı zaldakılara oturmaq və sakit olmaq işarəsi verdi.

…Burada, Kremlin zirvəsində peyda olan Nikitanın ölkəni tələtümə gətirən qarğıdalı barədəki ideyaları qızğın müzakirə edilir və gurultulu alqışlarla təqdir olunurdu. Aramsız çalınan çapan səsləri qulağımı dəlir və "Spartak" romanındakı bəzi sətirləri yadıma salırdı. Qədim Roma hökmdarı Sullanın, onu alqışlayanlara acı istehza ilə dodaqaltı:

- Əl çalın, əl çalın, sarsaq qoyunlar, - deməsini xatırlayırdım.

Peşəmlə əlaqədar olaraq, tez-tez belə təntənəli mərasimlərin iştirakçısı olur və bəzən çapanlardan bezirdim. Layiqlilərə-layiqsizlərə, mərdlərə-namərdlərə... vurulan və müxtəlif cür səslənən çapanlardan. Mütiliklə, həyəcanla, həvəslə vurulan çapanlardan. Deyirlər, kənar ölkələrdən köç eləyib gələn ermənilərin yer-yurdu rahat olsun deyə Qarabağın dağlıq hissəsində onlar üçün muxtar vilayət yaradılmasna, yüz min kvadrat kilometrdən artıq torpaq qonşu respublikalara hədiyyə edilməsinə çalınan çapanlar daha ritmik səslənirmiş... Lakin həmin çapanlar Sullasayağı ikrah və istehza ilə yox, rəğbətlə qarşılanıb təqdir olunurmuş.

Zalda əyləşənlərdən bir nəfərin müəmmalı davranışı məni çapan, alqış, istefa barədəki düşüncələrimdən ayırdı. Elə bil onu hardasa görmüşdüm. Və bazburutundan tanış kimi görünürdü. Lakin kimliyini xatırlaya bilmirdim. O da gözünü məndən çəkmirdi. Altdan-altdan üzümə baxır, yerində qurcalanır, məni yanındakılara işarə edib xəlvəti nə isə deyirdi. Onunla baxışlarımız rastlaşanda qızarıb, tez başını yana çevirir, sanki utanıb xəcalət çəkir və istəmirdi ki, mənimlə maraqlandığı hiss olunsun. Cavan oğlanın bu hərəkətlərinə qarşı qəlbimdə cürbəcür şübhələr baş qaldırdı. - Bəlkə, hansı məqaləmdə isə tənqid və ya tərif etdiklərimdən biridir?! - Öz-özümə düşündüm. Ancaq onun baxışlarında illərlə ayrı düşmüş, əzizini tapan adamlara xas olan bir sevinc cilvələnirdi. Yazılarım-

dan incikli olsaydı, qaş-qabağından zəhrimar yağardı və nəinki mənə, heç iş heyətinə tərəf üz çevirməzdi. Ancaq gözləri mənə sataşdıqca onun çöhrəsində ehtiram ifadəsi dolaşırdı. Və mənə elə gəlirdi ki, onun imkanı olsaydı, bəlkə bu rəsmi mərasimdə hamının gözü qarşısında iş heyətinə qalxıb özünü isnad verər, əlimi hərarətlə sıxar, haçansa görüşüb tanış olmağımızdan, yaxın dostluğumuzdan, bir-birimizə olan hörmət-izzətdən danışardı. Bunu onun təravətli sifətindəki ifadələrdən hiss edirdim.

Sinəsini xitabət kürsüsünə verənlərin bəlağətli kəlamlarını, ara vermədən çalınan çəpik səslərini tamam unutmuşdum. Fikrim cürbəcür yerlərə gedib çıxırdı. Hərdən ürəyim tez-tez döyünürdü. Bu, daxili həyəcandan irəli gələn bir əlamət idi. Həmin anda düşündüm ki, axı, bu adamın kimliyi və ya hansı yuvanın quşu olması nəyimə gərəkdir?!! Bu barədə narahat olub həyəcan keçirməyə dəyərmi?! Ona görə də üzümü yana çevirib ona tərəf baxmamaq qərarına gəldim. Ancaq bacarmadım, özümdən asılı olmayaraq, gözlərim yenə də həmin adamın görkəminə zilləndi. Mən sehrbazlara, gələcəkdən xəbər verən münəccimlərə, cadugərlərə əsla inanmıram. Lakin nə sirdisə, qarşımda əyləşənlərin içərisində yalnız o, diqqətimi cəlb edirdi. Və eyni zamanda bircə o, nəzərini məndən çəkmirdi. - İnsanı tanımaq olmur, bəlkə bu adam elə məni özünə cəlb eləyən bir cadugərdir?! Yoxsa, bir belə adamın içində nə üçün məni bu qədər ovsunlasın?! - Hər halda burada məlum olmayan gizli bir qüvvənin təsirini hiss edirdim. Bu cazibədən xilas ola

bilmirdim. O hələ də gözlərini məndən çəkmirdi. Gah gülümsünür, gah da utanıb başını aşağı dikir, gah yanyörəsində əyləşənlərə xısın-xısın nə isə deyirdi. Bu adamdan ağıllı-başlı şübhələnmişdim. Axırda özümü saxlaya bilmədim, yanaşı oturduğum raykom katibinin qulağına əyilib, dördüncü cərgənin üçüncü stulunda əyləşmiş həmin şəxsin kimliyini soruşdum. O, pıçıltı ilə:

- Güləbirdin sədridir, - dedi.

- Adı nədir?

- Nəsir.

- Həə!! Nəsir!! Nəsir!! Güləbirdli Nəsir!! Yadıma düşdü, yadıma düşdü! On beş il bundan qabaq Muradlı orta məktəbində dərs dediyim həmin şagird!

Yenə katibin qulağına pıçıldadım:

- Xahiş edirəm, ona çatdırın ki, iclasın sonunda yanımda olsun. Vacib iş üçün onunla görüşməliyəm.

Katib:

- Yaxşı, - dedi. - Tapşıraram sizinlə görüşməmiş getməsin.

Deməli, mən köhnə şagirdimlə qabaq-qənşər oturmuşam. O, sanki sinif partasında əyləşmişdi. Və indi qarşımda özünü şagird kimi hiss edirdi. Nəsirə elə gəlirdi ki, elə indicə onu ayağa qaldırıb dərs soruşacağam. O, müəlliminin suallarına tam cavab verə biləcəyinə əmin olmadığı üçün utanıb çəkinirdi. Daxilən Allahına yalvarırdı ki, bir belə adamın içində onu durquzub dərs soruşmayım. Nəsirin, on beş ildən sonra rastlaşdığı müəllimini görəndə, ilahi, necə sevinib həyəcanlandığını təsəvvür etmək çətindir. O, utanırdı, sıxılırdı, rəng verib rəng alırdı. Yəqin müəllimi ilə necə

görüşə biləcəyi barədə düşünürdü. Bəlkə də ona elə gəlirdi ki, indi onun üçün əlçatmaz adam olmuşam. Və ölkə, rayon rəhbərlərinin yanında cəsarət edib mənə yaxınlaşmaq ona çətin olar. Bəlkə də vaxtilə ona dərs keçən müəllimi həmişəki adam deyil. Vəzifəsi kimi xasiyyəti də dəyişib, başqalaşıb, iddialı, təkəbbürlü bir məxluqa çevrilib. Çox güman ki, indi şagirdini saya salıb salamını almasın və məni yaxına buraxmasın. Nəsir də həmişəki sadəlövh şagird deyildi. Neçə-neçə belə yığıncaqlarda iştirak etmişdi, müxtəlif xarakterli, müxtəlif qiyafəli iqtidar sahibləri ilə üz-üzə gəlmişdi. Vəzifə başına keçənlərin dəyişən, dönük sifətlərini görüb daxilən sarsılmışdı, elələrini ikrahla lənətləmişdi. İndi Nəsirin müəllimi ilə görüşməyə necə can atdığını, onun üz-gözündən oxuyurdum. Nəsirin keçirdiyi tərəddüdlər aydınca hiss olunurdu. Nəsir on beş il bundan əvvəlki kimi xoş qaş-qabaqla halını soruşacağımı ağlına belə gətirmirdi. Ona görə də təsəvvür etdiyi xoşagəlməz mənzərənin yaranmaması üçün gözümə görünmədən, xəlvətcə aradan çıxmaq barədə düşünürdü. Düşünürdü ki, yaxınlaşıb salam versəm, birdən mənə əl uzatmaz, üzümə soyuq baxar. Onu belə bir qənaətə gəlməyə vadar eləyən vəzifəsi qalxdıqca, insanlığı yoxlaşan miskin nakəslər olmuşdu. Ona görə Nəsir də bu barədə öz müəlliminə şəkk-şübhə ilə baxırdı. Amma Nəsirin xəbəri yox idi ki, onu müəllimi ilə görüşdürmək üçün yanımda əyləşmiş raykom katibindən özüm xahiş etmişəm. Və əlacım olsaydı, bu barədə Nəsirə xəbər göndərib onu keçirdiyi daxili iztirabdan

xilas edərdim. Və bu gənc oğlanın saf qəlbi bu qədər tələş keçirməzdi. Onun qarlı bir gecədə arxamca sürünüb nə kimi əzablara düçar olduğunu hələ unutmamışdım. Bu, qeyri-təvazökar ifadə olsa da, axı mən unutqanlığa həmişə nifrət etmişəm. İnsanlığı böyük-böyük vəzifələrin əsirinə çevrilən nadanlar məndə ikrah hissi doğurur.

Nəsiri də qınamalı deyil. Bəzən həmişə bir yerdə oturub-durduqlarından biri yüksəldiyi vəzifəyə layiq olmadığını dərk edəndə, özünü insanlardan təcrid etməyə çalışır. Xüsusilə ona bələd olan yaxınlarından qaçmağa çalışır. Və bunu ləyaqətindəki boşluğu doldurmaq üçün bir üsul, siyasət hesab edir. Lakin belə bayağı hərəkətin kənardan baxanlara necə gülünc göründüyünü anlamır. Və Nəsiri də çaşdıran, bəzi-bəzi insanların bu cür düşüncə tərzi ilə dünyanı tutub getməsiydi. Bu, ən çox özünü olduğundan artıq göstərməyə cəhd edən nakəslərin davranışında nəzərə çarpır.

…Yığıncaq başa çatdı. Hamı yerindən qalxıb zalı tərk etməyə başladı. Nəsir hələ də gözünü məndən çəkməmişdi. Yəqin ki, müəllimi ilə necə görüşmək barədə düşünürdü. Bunu hiss edib ayaq saxladım. Və kiminsə onu çağırmasını gözləməyə hövsələm çatmadı.

- Yaxın gəl, - demək mənasında Nəsirə işarə vurdum. Nəsir bəlkə də məndən belə bir münasibət gözləmirdi. O, cəld səhnəyə qalxdı. Həyəcanlandığından məni qucaqlamaq istədi. Lakin hələ pozul-

mamış müəllim-şagird pərdəsi ona mane oldu. Nəsirin əlini sıxdım. Və nə demək istəyirdisə, sözünü kəsib:

- Yuxarı çıxaq, orda danışarıq, - dedim.

Nəsir dillənmirdi. Sanki nitqi tutulmuşdu. Onun qolundan yapışıb, sakit kabinetlərin birinə keçdik. O, sıxıla-sıxıla danışırdı və sözünün rabitəsi tez-tez pozulurdu. Bu ayrılıq müddətində Nəsir Kənd Təsərrüfatı İnstitutunu bitirib rayona qayıtmışdı. Onu ümid verən mütəxəssis kimi boya-başa çatdığı Güləbird kəndinə sədr göndərmişdilər. Evlənib ailə həyatı qurmuşdu. Oğul-uşaq sahibi idi. Yaxşı təsərrüfat başçısı kimi rayonda sayılan adam olmuşdu. Lakin biz jurnalist - sədr kimi yox, əvvəlki müəllim-şagird kimi danışırdıq.

Tez-tez əyləşdiyimiz kabinetin qapısını açıb məni yığıncaqdan sonra qonaqlar üçün təşkil olunmuş yemək-içmək ziyafətinə çağırırdılar. Mən isə, - gələrəm, - deyib getmirdim. Aclığım olsa da, şagirdimlə görüşüb söhbət etmək mənim üçün qonaqlıq ziyafətindən qat-qat xoş idi. Nəsir həyəcanla, bir qədər də çəkinə-çəkinə danışırdı. Mən isə müəllimliyimin son ilini xatırlayıb həmin anlarımı yaşayırdım. Və dağın sinəsindəki şəhərdə dikələn hündür binanın açıq pəncərəsindən güclə görünən o yerlərə həzin və gizli həsədlə baxırdım. Müdhiş qış gecəsində bizi ölümlə hədələyən, amansız şaxtanın quduz ağzından xilas olacağımızı güman etmədiyim boranlı məqamlar yadıma düşür

və sanki Yazının qar örtmüş bəyaz düzlərində qarı sovurub üz-gözümüzə çırpan çovğunla əlləşib, üşüyürdüm…

5 dekabr 2002-ci il-
22 noyabr 2003-cü il.

İZİM VƏ SÖZÜM

"Qarlı gecələr"dən sonra bahar gəlir. Kimin neçənci baharıdır, bilmirəm. Onu bilirəm ki, mənim yetmiş yeddinci baharımdı. Ömrümün müdriklik, həssaslıq, kövrəklik, gərəkli-gərəksiz çağları. Çoxum gedib azım qalsa da, gənclik, yaşayıb-yaratmaq ehtirasım sönməyib. Qəlbimdə, düşüncələrimdə, arzularımda dolaşan neçə-neçə əsər qələmimin intizarındadır. Və ona görə də Tanrı əlini üstümdən çəkmir. Ötən əsrin əvvəllərindən qolumdan yapışıb, zavallardan hifz edə-edə yeni əsrə gətirib çıxardıb. Şükür! Yaradanımdan gileyli deyiləm.

Bəs indən sonra?! Bu sualın cavabı alnıma yazılıb. Cəmi məxluqat kimi onu oxumaq fəhmindən xaliyəm. Mənə əyan olan odur ki, bu gündən sabaha etibar yoxdur. Şair demişkən, "Nəqd əlimizdə bir günümüz var, Ona da şamadək yoxdur etibar". Ona görə də fikirləşdim ki, qısa da olsa, dünənimə müfəssəl aydınlıq gətirim. Yazımda izim qalsın.

Qubadlıda dünyaya göz açmışam. 1927-ci ilin qızıl payızında. Dəqiq desəm, noyabrın 17-də. Alçaqlı-qəlbili dağların əhatəsindəki Əliquluuşağı kəndində. Evimiz seyrək kollarla örtülmüş alçaq təpənin üstündə dikələn mamır basmış ağ daşla üzbəüzdü. El-obamızda ona Qiblə daşı deyilir.

Namaz qılıb, salavat çevirənlər yönünü o daşa tutur. Kəndin qibləsində bitən o daşa. Əlibıçaqlı qəssablar boğazına çökdükləri mal-heyvanın da başını həmin səmtə yönəldəndən sonra "bismillah" deyirlər. Deməsələr, kəsdikləri haram sayılır. Onu heç kəs yeməz. And içənlər də üzünü həmin səmtə tutur.

Uşaq ikən mənə elə gəlirdi ki, üfüqə dirənən Qiblə daşının başına çıxsam, əlim Günəşə, Aya, ulduzlara çatar. Onlardan birini tuta bilərəm. Neçə dəfə buna cəhd etmişəm. Lakin niyyətim gözümdə qalıb. Məyus olmuşam. Kor-peşman geri dönmüşəm. Düşünmüşəm ki, daş bir az qəlbi olsaydı. Heç olmasa, o balaca-balaca ulduzlardan bir ovuc qoparıb cibimə doldurardım. Qoca nənəm bunu biləndə o ki var güldü. Həm də dedi ki, "uşaq ki, uşaq".

Nəticəsi olduğum Məşədi Allahverənin kəndin ortasında ucaltdığı üstü tağbəndli, qoşa çarhovuzlu bulağın da yönü qibləyədir. Hamı bu abidəyə Məşədi Allahverən bulağı deyir. Ona rəhmət oxunduqca, qürur hissi keçirirəm. Fəxr edirəm babamızın xeyirxah əməli ilə. Uzaqlardan çəkilən bu sərin, saf suyun həzin səsini dinlədikcə, Məşədi Allahverənin hənirtisi gəlir qulağıma. Hələ də bu abidənin qayğısına qalırıq. Qoymuruq bir daşı tərpənsin. Deyirik, Məşədinin ruhu inciyər. Nəcabətimizin xeyirxahlıq abidəsidir bu bulaq.

Ata babamın adı Məmmədbağırdı. Onu kiçik yaşlarından "Məmiş" deyə çağırıblar. Xosrova Xosu, Cavanşirə Cəmi, İbrahimə İbiş deyən kimi. Odur ki, Məmmədbağır əvəzinə Məmiş familiyasını daşımışam. Deyirlər ana tərəfdən övliya olub Məmmədbağır. Çəkdiyi cızıqdan ilan kənara çıxa bilməzmiş. Kənddə onun qəlbinə toxunan olmazmış. "Ağır nəfəsi var, Məmmədbağırın, qəlbinə toxunsan, zərər çəkərsən" - deyirmişlər.

Ötən əsrin ikinci ilində dünyaya gəlib, səksənə yaxın ömür sürən atam İldırım. Əkin-biçin adamı olub. Ömrü boyu torpaqla əlləşib. Dağ cüssəli rəncbər atam. Bir dəfə xəstələnmişdi. Bibim Ağca dizinə döyüb - "Ərşin addımlı, künbəz oturuşlu, Koroğlu təpərli qardaşım" - deyib göz yaşı axıdırdı. Heç kimin toyuğuna daş atmayıb, atam. Getdiyi yerdə qan bağlanıb. Dəyanətli kişi idi, halal adam idi. Hamıya əl tuturdu. "Əl tutmaq cənab Əlidən qalıb" - deyirdi. Kənddə iki yaxşı dolanandan biri idi. Qapısı qonaq üzünə açıq olardı. Mənə ehtiyacı yox idi. Lakin hərdən yüzdən, beş yüzdən verirdim. Əlinə düşəni ehtiyacı olanlara borc verib, savab iş görməkdən məmnunluq duyurdu. Dünyasını dəyişəndə gizlinc yerindən uzun-uzadı bir siyahı çıxdı. Borc verdiklərinin adı idi. Hamısı da kasıb-kusub. Deyəsən sədr ilə hesabdarın da adı vardı borclular siyahısında. "Mənim rəncbər atam" kitabımı da ona həsr

etmişəm. Yalnız atam olduğu üçün yox. Mötəbər kişi, halal adam, xalis insan kimi. Mənəvi abidə ucaltmışam ona. Övlad borcu bilmişəm bunu. Rahatlıq tapmışam rəncbər atamın ruhu qarşısında. Kitabı mən yazmamışam. Onun insani xalisliyi vadar edib. Belə bir mötəbər kişinin övladı olmağımı ilahi xoşbəxtliyi bilirəm. Çünki kişi qiyafəli alim-biəməllər, ixtiyar-iqtidar, küllisərvət sahibləri çoxdur, İldırımlar az. Onun yoxluğu dağlarımıza da nisgil olub. Onsuzlaşandan sonra sanki dəfi dönüb el-obamızın. Əsir düşüb torpaqlarımız yağı düşmənə. Sağ olsaydı, qardaşı Əmrah kimi o da sinəsini düşmən gülləsinə sipər edərdi. Qardaşı kimi qanına qəltan edərdi yağı düşməni.

Əmrah atamın böyük qardaşı idi. Dizi bərk, qolu bükülməz, sözü kəsərli igid olub. Ötən əsrin ikinci onilliyində ölkənin qarış-quruş vaxtı kənd-kəsəkdə əmin-amanlıq yaratmaq üçün sayılıb-seçilən adam kimi yüzbaşı qoyublar Əmrahı. Şura hökumətinin dövründə Respublika Ali Sovetinə başçılıq edən Nəzər Heydərov o vaxt Əmrahın yanında mirzəlik edib. Nəzər Heydərovun "Zəngəzur dağlarında" əsərində belə bir cümlə var: "Əmrah Məmişoğlu deyərdi ki, kişi olan kəs başqasını qabağa verib, özü küncə-bucağa qısılmaz". Naşirlər bu kəlmələri başqa dilə tərcümə edə bilməyiblər. Kitabın rusca çapında bu söz azərbaycanca yazılıb. Əmrahın dilindən çıxan kimi.

Özü bənzərsiz olduğu kimi, kəlmələrinin də sanbalı ağır, mənası dərin idi. Tərcüməçilər ehtiyatlanıb ki, başqa dilə çevrilsə, söz kəsb etdiyi mənanı itirər.

İgidlərin fəth etidiyi zirvə ucadan uca olur. Onun özünü, sözünü dərk etmək müşküldür. Elinə-obasına arxa, dayaq idi Əmrah. Gecələr gözünə yuxu getmirdi, səksəkəli yatırdı. Bir gecə qulağına mənhus səslər gəldi. Top-tüfəng səsi idi. Əmrah tez yerindən qalxıb yaraqlandı, atına süvar oldu. Atışma üç-dörd kilometr aralıdakı Dovutlu kəndindən gəlirdi. Kəndlilərini vahiməyə salıb, şirin yuxularına haram qatmaq istəmədi. Atını dördnala çapıb, özünü iyirmi-otuz evdən ibarət olan Dovutluya yetirdi. Erməni silahlıları kəndə çataçatda Əmrah sinəsini səngərə verdi. İrəli duranı yerə sərdi. Aman vermədi yağı düşmən Dovutluya qədəm bassın. Son nəfəsinə qədər vuruşdu amansız düşmənlə. Qoymadı dovutlulardan bircə körpənin burnu qanasın. Qəvi düşmən çox, Əmrah tək. Əvvəlcə köhləni qəfil gülləyə tuş oldu, sonra özü. Əmraha güllə sinəsindən dəymişdi, arxadan yox. Onu ağır vəziyyətdə Cəbrayılacan apardılar. Çarə tapılmadı Əmrahın yarasına. Tinli kəndində torpağa tapşırdılar. İgid ölər, adı qalar. Gözəl deyimdir.

Əmrahın Fatma adlı həyat yoldaşı, Şiraslan, Əhliyət adlı iki oğlu atamın himayəsində qaldı. Ailəmizdə mənə və bacıma "ata" kəlməsi işlətməyi

məsləhət görmədilər. Atamıza əmi deyə müraciət etməli olduq. Şiraslanla Əhliyətin qəlbi dolanar, axı onlar atasız idilər.

Bacımla mən Fatmaya "qoca" deyə müraciət etmişik. Namaz qılıb, oruc tuturdu Fatma. Mömin, müqəddəs qadın idi. Anamız olmadığından mehrimizi ona salmışdıq. Onsuz dura bilmirdik. Dünyasını dəyişəndə məzarı başında atam belə bir söz işlətdi: "Fatma getdi. Evimizin ehsan qazanı ağzıüstə çevrildi. Evimizin xeyir-bərəkəti də onunla getdi".

Günah olmasaydı, ona elə Fatimeyi-Zəhra deyərdim. Bax elə insan idi mənim Fatma qocam. İnsana, müsəlman qadınlara xas olan ən ülvi keyfiyyətlər mənim Fatma qocamda cəmləşmişdi. Onun adını sevimli nəvəmə qoymuşam.

Anam Firəngiz çox gənc ikən dünyadan gedib. Atam öz xalası qızı ilə evlənib ki, bizə yaxşı baxsın. Lakin nə bacım, nə də ki, mən analığımıza yovuşmamışıq. Mehr-məhəbbətimizi Fatma qocamıza salmışıq. Gecələr yatanda da onun isti qoynuna sığınırdıq.

Ana tərəfim Əliquluuşaqlıdan altı-yeddi kilometr aralı olan Balahəsənli kəndindəndir. Babam Məşhədə gedib. Kərbəlada olub. Anamın anası Gövhərə də qoca deyirdim. Nəvələrimdən biri də onun adını daşıyır. Babam da, qocam da Allah adamları idi, möminlərin mömini idilər. Heç vaxt ibadətlərindən qalmırdılar. Hər ikisi də

namaz qılıb, oruc tuturdu. Onların arasındakı ərarvad səmimiyyətini gedib-gəldiyim, oturub-durduğum, eşidib-bildiyim ailələrin heç birində görməmişəm. Dayım Səlim babamla qocanın yanında heç vaxt övladlarını əzizləməzdi. Həya eləyərdi ata-anasından. Bu ailədə gəlin qayınata, qayınana ilə danışmazdı. Səsi eşidilməzdi gəlinin. Arada hörmət-izzət pərdəsi vardı. Babamla qocam gəlinə söz deyərdilər. Gəlin isə dayımın, mənim və ya başqa birisinin vasitəsilə onlara fikrini çatdırardı. Hər kəs özünün, sözünün yerini bilirdi. Qibtə doğururdu məndə ailə üzvlərinin bir-birinə olan xoş və mehriban münasibəti. Məşədi Paşa babam kənddə hamıdan baş dolanırdı. Bu evdə ən ləziz xörəklər, əsasən, cümə axşamı bişirdi.

Atam Məşədi ilə qabaq-qənşər əyləşəndə başını qaldırıb onun üzünə baxmazdı. Atam həya eləyərdi qayınatasından. Gövhər qocam da atamın yanında yaşmağını aşağı salmazdı. Məşədi Paşa babamla Gövhər qocamın yüzə yaxın yaşamalarının əsas səbəblərindən biri və deyərdim ki, başlıcası onların arasındakı nəcib, nəzakətli ərarvad münasibəti idi. Bir də ki, müqəddəs ailə qayda-qanunlarının qorunub saxlanması.

İnsanlaq elmini o cür valideynlərimdən almışam. Onların yolunu Tanrı yolu bilmişəm. Həyatda hər hansı müxalif qüvvə, yad təsir sapdıra bilməyib məni mərd, mömin valideynlərimin get-

diyi cığırdan. Uğurlar tapmışam Məşədi Allahverən, Məşədi Paşa, Məmmədbağır, Əmrah, İldırım, Fatma, Gövhər gedən Tanrı yollarında. Ruhları yar olub mənliyimə, tənhalığıma, kimsəsizliyimə. Ümid qapılarımın biri bağlandığı təqdirdə, başqa bir səmtdən ağlıma gəlməyən qapılar açılıb üzümə. Tanrı yazısı bilmişəm bunu. Dönə-dönə şükür etmişəm gözəgörünməzə. Heç vaxt dardaamanda qoymayıb məni.

Beş övlad böyüdüb boya-başa çatdırmışam. Hamısı da ev-eşik, mövqe, xoş gün-güzəran sahibidi. Alim olanları da var. Onları ağlı kəsənə qədər "ağlatmışam" ki, dərrakə sahibi olanda sevinsinlər. Qeyri-yetkin çağlarında sevindirməmişəm ki, sonra ağlar günə qalıb valideynlərini lənətləsinlər. Mən övladlarımdan razıyam, onlar da valideynlərindən. Səcdə qılırlar önümüzdə. Analarının çalın-çarpaz qırışlar düşmüş alnından, qabarlı əllərindən öpürlər. Analarının yar-yaraşığı modalı çiçə-miçələr, ənlik-kirşanlar yox, övladlarının ədəbi, sağlam boy-buxunları olub.

Özüm barədə nə deyim?! Acılı-şirinli bir həyat sürmüşəm. Dünyam anasız olub. Ağır nisgil olub bu mənə. Kəndimizdəki orta məktəbin səkkizinci sinfində oxuyurdum. Böyük Vətən müharibəsi başladı. Oğlanların çoxluq təşkil etdiyi və cəmi bir-iki nəfər qız oxuyan səkkizinci, doqquzuncu siniflər bağlandı. Müəllimli-şagirdli yaşı düşənlər

cəbhəyə getdi. Ortalıqda sərgərdan qaldım. Ağır günlər idi. Məktəbin direktoru atamla məsləhət-məşvərət edib məni birbaşa onuncu sinfə keçirdi. "Zehinli uşaqdır. Üç sinif oxumasa da olar", - dedi. Atam razılaşdı. Beləcə, orta məktəbi yarı-yarımçıq başa vurdum.

Məktəblərdə müəllim qıtlığı yarandı. Ona görə də növbəti dərs ilində vəziyyətdən çıxmaq üçün orta məktəbi bitirənləri Şuşa şəhərində açılmış müəllimlər hazırlayan ikiaylıq kursa göndərirdilər. Mən də gedənlərə qoşuldum.

On-on beş yaşında müəllimlik fəaliyyətinə başladım. Məlikəhmədli, Xıdırlı, Novlu, Gürcülü, Teymur Müskanlı, Xəndək... İldə bir kənd. Arada qiyabi yolla Laçın Pedaqoji Texnikumunu bitirdim. Sonra Müəllimlər İnstitutunu başa vurub, yenə pedaqoji fəaliyyətimi davam etdirdim. Məni irəli çəkib rayon maarif şöbəsinə inspektor qoydular. Oradan da məcburən rayonda çıxan "Avanqard" qəzetinə məsul katib göndərdilər. Həmin qəzetdə redaktor vəzifəsində işlədim. Prinsipial idim, əqidəmdən dönmürdüm, haqqı-na-haqqa vermirdim, ağa qara demirdim. Bu cür iş keyfiyyətlərim Rayon Partiya Komitəsinə sərf eləmirdi. Mərkəzi Komitə ümid verən qələm adamı kimi məni respublikanın baş qəzeti olan "Kommunist"ə göndərdi. Bəs sonra? Sonrası kitablarımda əksini tapıb, təkrar etmirəm.

Dünənim, bu günüm barədə müfəssəl olaraq bu

qədər. Yazdım, yozdum ki, yaxın-uzaq gələcəkdə əsil-nəcabətim bilinsin. İldırımzadələrin hansı kökün üstündə pöhrələndiyi bəlli olsun.

25 mart 2004-cü il.

NAZİR VƏ VƏZİR

(Eyniadlı povest əsasında yazılış yeddi şəkildən ibarət iki hissəli pyes)

İŞTİRAK EDİRLƏR:

Bəybala Sədirxanov	- nazir
İsaxan İsmiyev	- vəzir
Xaliq Nemətzadə	- birinci müavin
Səyyaf kişi	- arxiv müdiri
Nəbi kişi	- plan şöbəsinin müdiri
Təvəkkül	- nazirin köməkçisi
Zəkiyyə	- katibə
Zəridə	- makinaçı
Mərdan kişi	- gözətçi
Anya Timofeyevna	- nazirin xanımı
Ülkər	- Təvəkkülün nişanlısı

BİRİNCİ HİSSƏ

Birinci şəkil

Nazirlik. Kollegiyanın başlanmasına yarım saat qalıb. Nazirliyin bütün işçiləri narahatlıq içindədirlər. Qara kostyumlu, ağ köynəkli bir oğlan tələsik iclas zalına daxil olub ora-bura vurnuxur. Mizin üstünə mədən suları düzür. Xitabət kürsüsündəki mikrofona bir-iki dəfə çırtma vurub, "püf, püf!" eləyir. Mikrofon əcaib səs çıxarır. "Bir-iki, bir-iki" deyib yoxladıqdan sonra, tələsik zalı tərk edir.

Z ə k i y y ə *(ehtiyatla ağzını Zəridənin qulağına yaxınlaşdırır)*. Əvvəlki nazirin əzazilliyini görənlər, indikinə min kərə şükür eləyərlər... Düzdü e... daşı daş üstə qoyan deyil... Elə bizə də eləsi lazımdı, dəymə mənə, dəyməyim sənə.

Z ə r i d ə. Aaz...z, az danış. Xəmir yeyənin fağırı olmaz. Deyilənə görə, elə bu nazirin özü də azacıq aşın duzu deyil. Altdan-altdan közü öz qabağına eşib, dost-tanışlarını, uzaq-yaxın simsarlarını qanadının altına yığandı.

Z ə k i y y ə. Nə danışırsan, Zarıçka?!

Z ə r i d ə. Hə, hə, Zika. Hamı bilir ki, yaxınlarını böyür-başına yığıb, hərəsinə bir yağlı vəzifə verəndi.

Z ə k i y y ə. Baxma, ha... əvvəlki nazirin yanında bu toy-bayrama getməlidi. Allah yuxarıdan baxır, gərək haqqı nahaqqa verməyəsən.

Z ə r i d ə. Ay qız, o nazirə nisbətən bu nazir lap murdar suya qoyub içilməliydi.

Z ə k i y y ə. Eh... Adamın yüz gün kotanı işləyincə bircə gün bəxti işləyə. Keçmiş nazirin bəxti gətirmədi... Ağzı aşa çatanda, başı daşa çatdı. Ayın-şayın oturub işlədiyi yerdə qəfildən idarəni dibindən yoxlayıb, nə ki nöqsan vardı çıxardıb qoydular ortaya. Kəm-kəsirin hamısını haqq-nahaq yoğurub yapdılar nazirin boynuna. Sonra da kürəyinə bir yarıtmaz damğası yapışdırıb atdılar bayıra... Durduğu yerdə oldu heçin tayı.

Z ə r i d ə. Əslinə baxsan, elə haqqına elədilər.

Z ə k i y y ə. Bir az yavaş, işə salarsan bizi...

Z ə r i d ə. Sözə baxmamağın axırı gec-tez belə olar.

S ə y y a f *(deyinə-deyinə daxil olur)*. Bu xarabaya qalmışın bir sahibi olmadı ki, olmadı. Allahsız yerdə otur, böyüksüz yerdə oturma! Əşşi, belə də başsız təşkilat olar?!

Z ə r i d ə *(yavaşdan)*. Yaxşı, bəsdi... bəsdi...

S ə y y a f. Nə bəsdi, bəsdi!.. Sən ki Nadiri taxtda, Süleymanı bələkdə görmüsən... Ay camaat, bax, mən ölü, siz diri... görərsiz, gec-tez bu nazirliyin bir xatası çıxacaq! Çıxmasa, atamın oğlu deyiləm... Belə getsə, bu idarənin axırı yoxdu.

Z ə r i d ə. Ay kişi, sən allah kiri... Get o yanda danış, bizi işə salma.

S ə y y a f. Ay balam, nazir olanda noolar ee! Məgər nazir insan deyil! Adam nazir olanda söz eşitməz?! Ağsaqqal qarasaqqalın sözünü qulaqardına vuranda, özündən aşağıdakının sözünə qiymət qoymayanda axı-

rı belə olar da! Vallah, billah, ürək süfrə deyil ki, açasan. Heç kəs bir çöpü qaldırıb bir çöpün üstünə qoya bilmirdi ki, qabaqda nazir var. Bax bu tifağı dağılmış, aşağı işdə olanda quzu kimi idi, elə ki yuxarı qalxdı, bilmirəm Allah almışlıqdı-nədi, gözünü qan örtdü. Tanrısına təpik atdı. *(Nəbi kişiyə yaxınlaşıb ona nəsə deyir).*

Z ə k i y y ə. Gedən getdi, çıxan da çıxdı. Əvvəlkindən gördüyümüzü görmüşük. İnanıram ki, xudavəndialəm bu dəfə bizə bir əsli-nəsli olan, halal süd əmmiş nazir qismət eləyə, biz də arın-arxayın başımızı aşağı salıb bir tikə çörək pulu qazanıb yavaş-yavaş dolanaq... Görək bu dünyanın axırı hara çıxır!

Z ə r i d ə. Bu təzə gələn əvvəlkindən də betər olmasa, adımı dəyişib it qoyaram. Mən ölü, sən diri, baxarıq! Neçəsini yola salmışam. Yaxşısını da görmüşəm, pisini də! Hamısı bir bezin qırağıdır. Zarıçka, bütün günahlar o stoldadır. O stolda nə sirr varsa, illaf Allahın bacısı oğlunu gətir qoy! Üçcə gündən sonra dönüb olur əfi ilan. Allahını tanımır, bəndəsinə də təpik atır.

Z ə k i y y ə *(Zəridənin üstünə çəmkirir).* Kiri, az! Sən allah, kiri!

Z ə r i d ə. Niyə, az?

Z ə k i y y ə. Sən allah ağzını xeyirliyə aç! İndidən nəhs-nəhs danışma... Dünya xali deyil ha!.. Yəni bu ölkədə bir ağlı başında adam tapılmayacaq ki, gətirib nazir qoysunlar. Vallah papaq altında elə oğlanlar var ki, bizim nazirliyi yox ee, illaf Amerikanı da barmağında oynadar.

Müavin qoltuğunda yeni nazirin portreti,
iclas zalına daxil olub kimisə axtarır.

Z ə r i d ə *(ona yaxınlaşır, pıçıltı ilə)*. Bu kimin portretidir?

M ü a v i n *(şən əhval-ruhiyyə ilə)*. Yeni nazirin.

Z ə r i d ə *(nazirin portretinə baxıb, şəhadət barmağını dodaqlarına aparıb fısıldayır)*. Bıy, az-az... Başıma xeyir! Bu hardan belə qəfil böyürdən pırtdıyıb çıxdı?! Vallah adam yatsa, yuxusuna da girməz... Zika, bəlkə o deyil...

Z ə k i y y ə *(təzə nazirin şəklinə zəndlə baxıb dodağını büzür)*. Başıma xeyir... Az, sən demiş, bu hardan pırtdıyıb çıxdı?!

Z ə r i d ə. Düzdü ee, kim ağadı, biz də quluq, kim ulaqdı, biz də çuluq. Amma bu...

Z ə k i y y ə. Hə, hə, özüdür ki var. Sədirxanov! Sədirxanov!.. Hə... vaxtilə bizim nazirliyin sistemində işləyirdi. Yaduva düşmədi? Çeşməlidə sex müdiri qoymuşdular. Allahın var günü bir əyrimçəsi vardı, onu da qoltuğuna vurub, vayennilərin qaradokunda, nə bilim orda-burda işi-peşəsi tans oynamaqdı. Axırda sexi gözündən elə batırdı ki, hoydu-hoyduya qoyub qoparağın götürdülər.

Z ə r i d ə. Hə... hə... Savadı var, diplomu var, di gəl ki...

Z ə k i y y ə. Az, nolsun diplomu var, quşbeyinin yekəsidir!

Z ə r i d ə. Quşbeyinin?

Z ə k i y y ə. Hə, nakam ölən qardaşımın goru haqqı, quşbeyin! Onda ağıl deyilən şey yoxdur.

Z ə r i d ə. Vay, vay...

S ə y y a f *(qadınlara yaxınlaşaraq)*. Bu Bəybalaya məndən yaxşı bələd olan yoxdur. O nəslin dabbağda gönünə bələdəm. Nazir olsa da, gəda oğlu gədadır. Rəhmətlik atası deyərdi ki, Bəybala kimi oğuldansa, bir kor qızım olsaydı, yaxşıydı. Zalım oğlunun bəxti bircə onda gətirib ki, yaxşı dil bilir. Uruscan fitil-fitil əsir. Di gəl ki, zalım oğlu zalım azca dilimizdə danışa bilmir. Qırışmalın dinindən-məzhəbindən baş açmaq da olmur. Bilmirsən hansı dinə qulluq eləyir?! Bizim qonşu erməni kəndində bir quş tut arağı çəkilən yerə qonub, hər dəfə o zəhrimardan bir-iki damcı içərmiş. Sonra da gedib kilsənin üstündəki xaça qonub zıqq salarmış. Ev sahibi bu quşu pusub-pusub, axır ki bir gün tutur. Tutanda da ayağına döyə-döyə deyir ki, ay Allahın dilsiz-ağılsız heyvanı, əgər müsəlmansansa, araq niyə içirsən?! Yox, ermənisənsə, xaçı niyə murdarlayırsan?!

Z ə r i d ə. Ay Səyyaf, sözündən belə çıxır ki, Bəybala nazirliyə zıqq eləyəcək?!

Qadınlar bərkdən gülüşürlər. İclasa toplaşanların bəzisi dönüb hirslə onlara baxır. Müavinlər dinməz-söyləməz keçib yerlərində otururlar.

Z ə k i y y ə. Onlara bax... Nazir müavinlərini deyirəm ey... Səndən arxada oturan idarə rəislərinə, şöbə müdirlərinə bax... Gör necə dinməz-söyləməz oturublar... Təzə nazirin yanında suzura dönüblər.

Z ə r i d ə. Onlar ala qarğadan çox bilirlər, bizim kimi ağızlarını Allah yoluna qoyub ağıllarına gələni zıqq eləmirlər ee...

Z ə k i y y ə. Ay qız, Zara, sən allah güldürmə məni, yoxsa saxlaya bilmərəm özümü... *(Uğunub gedir).*

S ə y y a f. Vaxtilə onun ayağının altını qazanların, onu buralardan didərgin salanların, dalınca danışıb kölgəsinə qılınc çalanların qarnına gör necə sancı dolub?! Təzə nazir barədə bir kəlmə də kəsmirlər. Hərə hesabı öz-özlüyündə içində çəkir. Görəsən təzə nazir necə başlayacaq? Adamlarla nə təhər rəftar edəcək? Əvvəlkilər kimi bu da özünküləri irəli çəkib, başqalarını geri itələyəcək, ögey-doğmalıq salacaq, yoxsa adam balası kimi hərəkət edəcək? Bu suallardı indi onları narahat edən.

Yeni nazir Bəybala Sədirxanov kabinetə daxil olub təntənəli surətdə keçib kreslosunda əyləşir. Diqqətlə bütün işçiləri nəzərdən keçirir. Yaxınlıqda it ulaması eşidilir. Bir anlıq bu səs hamının diqqətini özünə cəlb edir. Nazir səs gələn tərəfə baxıb gülümsünür.

S ə y y a f. İtin o cürə ulaması pis əlamətdir. Ziyanlıq eləməsə, yaxşıdır. Yəqin bədbəxt hadisə olacaq... Sahibinin başında çatlasın.

Z ə k i y y ə. Bəsdir, Səyyaf kişi, birdən nazirin iti olar ha...

S ə y y a f. Hə?!

Z ə k i y y ə. Görmədin itin səsini necə tanıdı...

Z ə r i d ə. Səyyaf kişi, təzə nazir sizə baxır... Çox güman ki, ilk gündən düşdüz çornı spisoka.

Nazir özün ələ alıb ayağa qalxır, bir müddət susduqdan sonra sözə başlayır.

N a z i r. Göndəriblər! Mən də gəlmişəm! İşləməliyik. *(Yumruğunu bərk-bərk düyünləyib stola çırpır).* Bu gündən deyirəm! Qulağınızı açın! Diqqətlə mənə baxın! Yaxşı-yaxşı eşidin! Hamımız bir olmalıyıq! Özü də təmiz işləməliyik!

S ə s l ə r. Düzdür.

N a z i r. Mən burada doğulub böyüdüm. Kənarda olsam da, hər şeydən xəbərim var. Hər şeyi bilirəm! Kimin adamı nə şey olmuşdu, onu necə irəli çəkirdilər!

S ə s l ə r. Bəli, bəli.

N a z i r. Adamı! Pulu! Yoxdu, kənarda qalmalı idi! Getsin ölsün! *(Nazirin müavini yerində qurcalanıb qımıldanır. Nazir hiss eləməsin deyə öskürüb, cib yaylığını çıxarıb ağzına tutur və quru-quru öhö-öhö eləyir. Nazir qəzəblə ona baxır. İşçilər altdan-altdan bir-birinə baxıb qımışırlar).* Vı znayete v çyom naşe nesçastye? *(İttihamedici baxışlarla əyləşənləri təqib edir).* Bizim! Evimizi! Naşe! Nesçastie! V zemlyaçestve! V kumovstve! Yerliçilik! Qohumbazlıq! Tayfabazlıq! Sonrasını demirəm! *(Mobil telefon zəng çalır).* Bəli... Çox sağ olun! Diqqətinizə görə təşəkkür edirəm. Spasibo! *(Telefonu qapayır).*

S ə y y a f *(dönüb arxadakılara).* Bu nə dildə danışır, başa düşdüz?

N a z i r *(çıxışına davam edir).* Biz! Bu cür neqativ halların kö-kü-nü biryolluq kəsməliyik! Vsyo! Hamımız bir olmalıyıq! Vsyo! Kim yaxşı işləyir, o yaxşı yaşamalıdır! Vsyo! Kim bacarıqlıdı! Buyursun irəli! Vsyo! O da yaxşı vəzifələr tutmalıdır! Vsyo! Mən əv-

vəlki nazirə demişdim! O pis adam olmadı! Özü yaxşı bilir, xətrini istəmişəm! Ancaq! Bu vəzifəsi onun xörəyi olmazdı! Da! Da!

S ə y y a f. Vsyo!

Camaat altdan-altdan bir-birinə baxıb təəccüblənir. Nazir əyləşənlərin baxışlarında danışığına qarşı istehza hiss edib başqa dilə keçir.

N a z i r. Vot videte! Çem konçil prejniy ministr! Hə? V upravlenii - polnaya anarxiya. Sqoreli sexi kombinata! Yandı! Teper - mı! *(Yumruqlarını düyünləyib göstərir).* Bütün bu biabırçılıqlara son qoyulmalıdır! Nazirlikdə möhkəm qayda-qanun yaratmalıyıq! Bunun üçün nə lazımdır?

S ə y y a f. Vsyo!

Bəzisi altdan-altdan gülüşür, bəzisi də bezmiş kimi yorğun-ərğın əsnəyir.

N a z i r. Xalqla nazir bir olmalıdır! Bir nöqtəyə vurmalıdır! Camaat bizə inanmalıdır! Adamlar bizə inanmasa, etibar eləməsə, heç vaxt arxamızca getməz! Biz də təklikdə iş görüb, üz ağarda bilmərik! Poçemu? Ya vas spraşivayu, poçemu?

M ü a v i n l ə r. Eee... e... *(Çaşqın vəziyyətdə bir-birinə baxırlar.)*

N a z i r. Nu, poçemu?.. Çünki tək əldən səs çıxmaz! Biz bir olmalıyıq! Nazir də, müavinlər də! Mehribançılıq! Etibar! Bax belə olmalıyıq. Bu, bizim əxlaq nor-

malarımız olmalıdır! Sizə baxma!.. Sən de... *(Əlini uzatdığı adam ayağa qalxır.)* Yox... sən... sən... *(Hamı ayağa qalxır.)* Mən çox-çox kitablar oxudu! Siz oxumusuz?

M ü a v i n l ə r. Eee... e...

N a z i r. Srazu vidno çto oxumamısız. Siz Spartakı eşitmisiniz?

S ə y y a f. Bəli, eşitmişik.

N a z i r. Kim oldu Spartak?

S ə y y a f. Qədim Roma qəhrəmanıdır.

N a z i r *(istehza ilə gülümsünür)*. Bəli, Roma qəhrəmanı, Spartak. Onun adına futbol komandası da var.

B i r i n c i m ü a v i n. Bəli!

İ k i n c i m ü a v i n. Gözəl komandadır.

N a z i r *(birdən qəzəblənir)*. Spartak niyə məğlub oldu?

M ü a v i n l ə r. Eee... e... e... *(Keyiyərək bir-birinə baxırlar.)*

N a z i r. Sən de, Səyyaf kişi, Spartak niyə məğlub oldu?

S ə y y a f. Çünki qol vura bilmirdilər.

Hamını gülmək tutur.

N a z i r *(qəzəblənərək)*. Yox! Bilmirsiz! Heç biriniz bilmirsiz! Vsyo!.. Spartak ona görə məğlub oldu ki, sərkərdələri arasında ayrı-seçkilik olmuşdu! Düşmən də ondan çox məharətlə istifadə edə bilmişdi! Bizim komandada ayrı-seçkilik olmamalıdır! Mən! Sən! On-

lar! Bizim rayon! Mənim adamım! Onun adamı! İnnən sonra belə olmaz! Kim yaxşı işlədi, yaxşı da yaşamalıdır! Kimin bacarığı var, buyursun. Birinci növbədə gənclərin! Cavanların qayğısına qalmalıyıq! Çünki onlar bizim gələcəyimizdir! *(Kollegiya üzvlərini bir-bir nəzərdən keçirir.)* Hm!.. Bu nazirlikdə bəs gənclər işləməyib? Hanı bu nazirliyin gəncləri? Hanı? *(Barmağını nazir müavinlərindən birinə tuşlayır.)* Bax, sən...

M ü a v i n *(çəkinə-çəkinə qalxıb nə isə demək istəyir).* E... e...

N a z i r *(qəzəblə onun üstünə bağırır).* Elə sən özün də köhnənin adamısan! Hansı yolla gəlib bura çıxmısan onu bilmirəm. No ya vsyo! Vse svobodnı! Gedin! Yox, dayanın!.. Gedin! *(Üzünü fotosuna tərəf çevirib, arxası camaata durur. İşçilər kabineti lal-dinməz tərk edirlər.)* Sən qal, İsaxan İsmiyev... Sən də qal, köməkçi...

Köməkçi Təvəkkül və İsmiyevdən başqa hamı gedir.

T ə v ə k k ü l. Bəli, cənab nazir.

N a z i r *(telefon zəng çalır, dəstəyi qaldırır).* Bəli... sağ olun za pozdravlenie. Sağ olun. *(Telefonu qapayır.)* Qapının ağzında dayanma... Yaxın gəl!.. *(Telefon yenə zəng çalır.)* Bəli, mənəm, nazirdir! Anuşka, sənsən?! Vsyo normalno! Papa canı! *(Gülür.)* Hə... Səsindən tanıdım Doku... Bir az yaxın gətir trupkaya, qoy bərkdən hürsün!.. Şalnaya... Xoroşo! Molodes! Spasibo... Budet sdelano! Sluşayu! *(Telefonu qapayır. Qəzəblə Təvəkkülə baxır.)* Özünü elə aparırsan ki, kak

budto dünyanın ən fağır bəndəsisən... hi... hi... hi... *(Kinayə ilə gülür.)* Da... əyləş də... başa düşmədin? Sadis, Təvəkkül Mövlanverdiyev, görürəm çox cavansan.... Neçə yaşın var?

T ə v ə k k ü l. İyirmi altı.

N a z i r. Neçə ildir köməkçi işləyirsən?

T ə v ə k k ü l. İki ildən çox olar.

N a z i r. Səni bu gedən nazir gətirib?

T ə v ə k k ü l. Yox.

N a z i r. Onun nəyisən?

T ə v ə k k ü l. Heç nəyi.

N a z i r. Düzünü de, ne temni. Yerlisisən, yoxsa qohumu?

T ə v ə k k ü l. Düzü, köhnə nazirlə bir rayondanıq, ancaq ilk dəfə burda görüb tanımışam.

İsmiyev kinayə ilə gülümsünür.

N a z i r *(onu lağlağıyla yamsılayaraq)*. Bir rayondanıq... ancaq tanımıram... Düzünü desən də, deməsən də, onsuz da mən hər şeyi bilirəm. *(İşçilərin divardan asılmış siyahısına yaxınlaşıb Təvəkkülün adı qarşısında "KNA" yazır.)* Bu nədir, bilirsən?

T ə v ə k k ü l. "KNA", yəni köhnə nazirin adamı.

N a z i r. Cavan olsan da, bic oğlana oxşayırsan. *(Tərs-tərs ona baxır.)* İndi yaz! Nazir kimi mənim adımdan bütün rəislərə! Baş direktorlara! Müdirlərə! Birinci növbədə müavinlərimə! Rəsmi qaydada göstəriş var ki, sabahdan etibarən qəbul vaxtları ləğv edilir! Bütün qapılar şikayətçilərin üzünə hər gün səhərdən

axşama kimi açıq olmalıdır! Biz yeni qayda yaratmalıyıq! Bir mənə izah elə görüm şikayətə gələnlər kimdir?!

Təvəkkül nazirin nə demək istədiyini bilmədiyi üçün susur.

N a z i r. Şikayətə gələnlər bizim analar! Bacılar! Atalar! Qardaşlar! Qoy onlar istədikləri vaxt öz dərdlərini deyə bilsinlər. Onlar olmasa biz kimik?! Heç kim! Yoxsa hərə qapısına qara, qırmızı, yaşıl hərflərlə lövhə yazdırıb yapışdırıb ki, qəbul vaxtı filan həftənin filan günündə, filan saatında! İnnən sonra o cür yazıların biri də gözümə dəyməməlidir!!! Hərə öz yanından bir hoqqa çıxarır! Amirliyin, bürokratçılığın, süründürməçiliyin kökünü kəsməsək, irəli gedə bilmərik! Vsyo!

İsmiyev qovluqdan kağız çıxarıb nazirin qarşısına qoyur.

N a z i r. Al, bu əmri də as divardan.

Təvəkkül əmri alıb, baxmadan çıxır.

V ə z i r. Cənab nazir, kabinetləri bir-bir gəzib, işçilərlə ayrı-ayrılıqda görüşüb, onlarla söhbət eləsəydiz, yaxşı olardı.

N a z i r. Niyə?

V ə z i r. Adamlardan hal-əhval tutandı deyə, kol-

lektiv arasında hörmətiniz bir az da yuxarı qalxar. Eşidib-bilənlər deyər ki, Bəybala Sədirxanov sadə adamdır, özü işçilərinin ayağına gedir, uşaqnan uşaqdı, böyüknən böyük.

N a z i r. Da?!

V ə z i r. Hamının qəlbinə girib dərd-səri ilə maraqlanın.

N a z i r. Xoroşo... İdarəyə car çəkib göstəriş verin ki, hər kəs öz yerində olsun. Nazir kabinetləri gəzib, onlarla görüşəcək.

İsmiyev cəld otaqdan çıxır. Çox çəkmir ki, səsi hər yanı bürüyür.

V ə z i r. Hər kəs yerində olsun. Nazir kabinetləri bir-bir gəzib işçilərlə görüşəcək. Cəld olun. *(Yenidən nazirin kabinetinə qayıdır.)* Cənab nazir, burda bir şikayətçi var.

N a z i r. Qəbul günü gəlsin.

V ə z i r. Axı siz qəbul günlərini ləğv etmisiniz.

N a z i r. Deməli, qəbul yoxdur, olmayacaq da.

V ə z i r. Bayaqdan qəbul otağında Səyyafın yanında ağzına gələni tullayır. Nə bilmək olur, bəlkə Xaliq Nemətzadənin adamlarındandır. Yəqin qocanı o qızışdırıb bura göndərib. Çox qəliz danışır. Güman ki, onun bu işdə barmağı var. Qocanı qəbul edin, görün nə qırıldadır. Axmağın biridir. Ağzını yummaq lazımdır.

N a z i r. Vaxtım yoxdur.

V ə z i r. O qoca sizə neyləyə bilər? Heç nə... Bir tu-

lanın hürməyindən bir şey çıxmaz, amma bəzən onun səsinə yüz köpək oyanır.

N a z i r. Burax.

Əli çəlikli yaşlı bir kişi kabinetə daxil olur. Nazir diqqətlə ona baxır və tanıyır. Ayağa qalxıb onu qarşılayır.

M ə r d a n. Tanıdın?

N a z i r. Tanıdım... Paseluyu tebya. *(Gələn adamla üç dəfə öpüşür.)* Buyurun! Sadites pojaluysta. Sizdən nə əcəb?

M ə r d a n. Eşitdim nazir olmusan, çox sevindim! Dedim necə olsa, bizim də üstümüzə bir kölgə salar. Atalar deyib ki, uman yerdən küsərlər. Çeşməli tərəfdə sex müdiriydin e, mərdimazar qoymadı, hərə bir tərəfdən arının yuvasına çöp uzatdı, səni gözümçıxdıya saldılar. Canının dərdindən başını götürüb getdin. Elə yaxşı da elədin. Su bir yerdə qalanda iylənər.

N a z i r. Düz deyirsən, Mərdan kişi.

M ə r d a n. Amma səndən sonra başıma çox müsibətlər gəldi. Hamısını deyib başını ağrıtmaq istəmirəm. Kiminin əvvəli, kiminin axırı... Mənim axırım bəd gəldi. Maa çoxlu bədbəxtlik üz verdi. Mən çəkəni heç kafir bəndə çəkməsin. Bu sol qolum dirsəkdən aşağı qaldı maşının arasında. Həkimlər ha çalışdılar, bir yana çıxarda bilmədilər. Axırda məcbur olub qolumu biləkdən yuxarı kəsdilər. *(Protez əlini stolun üstünə qoyub nazirə göstərdi.)*

N a z i r *(qarşısına ağ vərəq qoyub qələmi götürür)*. Buyurun! Buyurun! Mişa, eşidirəm! Xahişini de.

M ə r d a n. Sonra da başıma çox qəzavü - qədər gəldi. Gözümüzün ağı-qarası bir gədəmiz vardı, o da getdi əsgərlikdən qayıtmadı. Arvad da gədənin ucbatından ağladı, ağladı, axırda dözmədi. Qaldım yurdda tək-tənha. Qapımda dördayaqlıdan, bircə itdən başqa heç nə yoxdur. Az-maz pensiya kəsiblər, o da heç çörək pulu-na çatmır. Əslinə qalsa, heç pensiya işimi də düzgün etməyiblər. İnsafsızlar çox az verirlər. Əşşi, indikilərdə insaf nə gəzir?! Sexdə gözətçi işləyib qəpikdən-quruşdan bir tikə çörək pulu qazanırdım, Allah-taala onu da maa çox gördü. Bir dədəsindən xəbəri olmayan nadürüstü gətirib sex müdiri qoyublar. Gələn gündən iki ayağını bir başmağa dirəyib ki, iti görüm, qurdu görüm, Mərdanı görməyim. Əmrimi verib, məni yola saldı. Yazmadığım yer qalmayıb. Əlimi hara atıram, boşa çıxır. Saa da əlim yetmirdi. Bir dəfə soraqlayıb soruşdum, dedilər xaricə işə göndəriblər.

N a z i r. Hə... hə... eto bılo.

M ə r d a n. Onu deyəndə elə bil başımdan bir qazan qaynar su tökdülər. Öz-özümə dedim ki, ə dünyanın işinə bax ee! Bu Bəybalaya bu boyda ölkədə bir vəzifə tapılmadı ki, kişini dağa-daşa salıb xaricə göndərdilər. Kişini oturduğu yerdə niyə yerindən-yurdundan didərgin saldılar. Eşidəndə ki, səni nazir qoyublar, dedim, Allahım gətirib. Əşşi, insafdı ki, bir sexdə qırx il Fərhad kimi külüng vurasan, axırda o qarovulu da saa çox görələr. Ə, qarovul elə it sənətidi dayna! Bir belə orden, medalın qabağında, yəni o itcən də olmadım! *(Sinəsindəki medalları göstərir.)*

N a z i r. İsmiyev, bütün müavinləri yanıma çağır.

İsmiyev çıxır və çox keçmir ki, müavinlərlə qayıdır.

B i r i n c i m ü a v i n. Bəli, cənab nazir!

İ k i n c i mü a v i n. Eşidirik sizi, cənab nazir!

N a z i r *(qəzəblə müavinlərinə baxır)*. Bu kişini tanıyırsız? *(Müavinlər kişiyə baxıb çiyinlərini çəkirlər.)* Mənim qabaq işlədiyim yerdə bu kişi qırx il fəhlə olub! Qırx il! İndi!.. Heç kəs onu eşidib, saya salmaq istəmir!

B i r i n c i m ü a v i n. Necə? Ola bilməz!

İ k i n c i mü a v i n. Nə?

N a z i r. Şikayətinə baxan belə yoxdur.

B i r i n c i m ü a v i n. Çox nahaq yerə!

İ k i n c i m ü a v i n. Çox, çox nahaq!

N a z i r. Biz bu gün bu cür yaşlılara fikir verməsək, gələcəkdə bizi gənclər daşa basar! Gərək hamıya diqqətlə qulaq asaq! Qayğı göstərək! Kömək eləyək! Amma biz ona öyrəşmişik ki, öz adamlarımızı axtaraq! Qohumbazlıq! Dostbazlıq! Yerliçilik! Mənim adamım! Onun adamı! *(Düyünlənmiş yumruğunu stola çırpır.)* Bəsdi! Buna son qoymalıyıq! Hamımız bir olmalıyıq! Bu Mərdan kişi də, siz müavinlər də! Mən nazir də bir olmalıyıq! Hamımız bir nöqtəyə vurmalıyıq! Hamıya bir gözlə baxmalıyıq! *(Təəccüb və təşvişlə Mərdan kişini göstərir.)* Baxın! Görün nə kökə salınıb? Fikir verən yoxdur! Prosto stıdno. *(Mərdan kişiyə yaxınlaşıb üzr istəyir.)* Bağışla, Mərdan kişi, bu müavinlərimin əvəzindən sizdən mən üzr istəyirəm. Özü də min dəfə.

Müavinlər pərt olub başlarını aşağı dikirlər.

B i r i n c i m ü a v i n. Bağışlayın bizi...

İ k i n c i mü a v i n. Səhvimizi düzəldərik.

N a z i r *(Mərdan kişiyə)*. Ərizəni ver görüm.

M ə r d a n *(ərizəni nazirə verir)*. Buyurun.

N a z i r *(ərizənin üstünü yazır)*. Ən geci üç gün müddətində öz köhnə qarovulçuluq vəzifəsinə qaytarılsın. Bekar qaldığı günlərin pulu sex müdirlərinin maaşından tutulub ödənilsin! Nazirliyin yardım fondundan bir aylıq maaşı həcmində pul verilsin! Bax belə! Siz gedə bilərsiniz.

Nazir müavinləri pərt halda kabineti tərk etdilər.

N a z i r. Nu kak, Mişa? Razı qaldın?

M ə r d a n. Səni görüm dünya durduqca durasan! Sən ki mənim kimilərə bu cür əl tutub qayğı göstərirsən, görüm Əli köməyin olsun.

N a z i r *(qalxıb onu qapıya qədər ötürür, boynunu qucaqlayıb öpür)*. Nu Mişa, do svidaniya.

M ə r d a n *(kabinetdən çıxır, dəhlizdən səsi eşidilir)*. Allah bu nazirin balasını saxlasın. Məni qaldırıb qoydu göyün yeddinci qatına. Onu görüm Tur dağına dönsün. Dünya xali deyilmiş, yaxşı adamlar hələ çoxdur.

V ə z i r. Eşidirsiz? Xalqın səsidir bu səs. Hamı yerdən göyəcən razılıq eləyir. İşçilər danışır ki, hələ nazirliyə bu cür bacarıqlı adam gəlməyib, gəlməyəcək də. Sizin o yaşlı şikayətçiyə görə müavinləri o cür

danlamağınız bütün idarəyə yayılıb. Səhərdən camaatın içindəyəm. Məndən də heç kəs söz gizlətmir. Deyirlər ki, bu nazir kasıb-kusubun adamıdır. Yetim-yesirin dərdinə qalandı. O bir əli yox kişinin qarşısına kim çıxardı, sizin barənizdə dili ağzına sığmırdı. Elə onun duası sizə bəsdir...

N a z i r. Yeri gəldi-gəlmədi, sənə söz deməyə tam səlahiyyət verirəm.

V ə z i r. Bu Mərdan kişinin işlədiyi idarə çox cəncəl yerdir. Harda yolun azan var, doluşub ora.

N a z i r. Deyirsən mənə potensialnaya oppozitsiya yığılıb ora?

V ə z i r. Oppazitsiya deyəndə ki, xeyirlərini güdən adamlardır. Amma mazollarını tapdasanız, bitdi. Bütün beynəlxalq məhkəmələrə ərizə verərlər.

N a z i r. Təklifin nədir?

V ə z i r. Mənfəətsiz təşkilat kimi ləğv edək.

N a z i r. Yerli-dibli?!

V ə z i r. Bəli.

N a z i r. Bəs yerində?

V ə z i r. Yerində də otel-motel, restoran, əyləncə yerləri açaq.

N a z i r. Malades.

V ə z i r. Bilirsiz nə gəlir gətirər?

N a z i r. Day bu üç min adamı işdən qovub yerində bunları etsək, başımız ağrımaz ki?

V ə z i r. Yox, bunu mənə həvalə edin.

N a z i r *(qalxıb Vəziri öpür)*. Deystvuy.

İkinci şəkil

Dəhliz.

Z ə k i y y ə. O vaxt işdən qovulandan sonra gəlib bir az da bizim nazirlikdə avaralandı. Bədbəxt, heç öz dilində də düz-əməlli danışa bilmir. Hamı lağa qoyub gülürdü. *(Sədirxanovu yamsılayır. Hamı gülür.)*

Z ə r i d ə. Ay qız, bəsdi…

Z ə k i y y ə. Aazz, hələ bunu qoyum, ona gedim. Bircə oğlu var, o da nə bilim ee vallah… Bizə nazir gələn bu Sədirxanovun həmin o Çeşməlidə qılıncının dalı da, qabağı da kəsən vaxt oğlu birinə qoşulub meşəyə ova gedib. Meşədə də tay orası necə olub, dürüst bilmirəm, əlindən xəta çıxıb.

Z ə r i d ə. Nə xəta?

Z ə k i y y ə. Həə, babalı deyənlərin boynuna. Demə, meşəbəyini öldürən Sədirxanovun həmin o həlləhuş oğlu olub. Görüblər də... Qəsdən. Sədirxanovun da heyləliyinə baxma. Orda-burda adamı çoxdu. Moskvanın özündə də girmədiyi deşik qalmayıb.

Z ə r i d ə. Nə danışırsan?

Z ə k i y y ə. Hə, qurub-qoşub məhkəmənin, prokurorun əliynən oğlunu aradan çıxardıb. İşi başqasının üstünə yıxıblar.

Z ə r i d ə. Əşşi, nə danışırsan? Sübuta yetib?

Z ə k i y y ə. O da sübuta yetməyib. İşi yuxarı məhkəmədə təzədən dağılıb. Tay sonrası necə olub, bilmirəm. Bircə onu bilirəm ki, bədbəxt meşəbəyinin qanı ortada batdı. Arvad-uşağı da ora-bura çox yazıb-poz-

du. Axırı bir yerə çıxmadı. Bizim nazirliyə gələndən sonra həmin o qan məsələsi bir də qalxdı. Sədirxanov gördü ki, yox, iş təzədən yoğunlayacaq, nə fənd işlətdisə, sivişib aradan çıxdı. İşini hansı yollasa düzüb-qoşub, harasa getdi.

Z ə r i d ə. Belə de…

Z ə k i y y ə. Ay qız, mən bilirəm o nə yuvanın quşudur. Onda bir dil, bir fel var ki, vallah, nə deyim! Bir göz qırpımında ilanı da yuvasından çıxardar.

Z ə r i d ə. Yaxşı, sən də bizi qorxutma. Yəni belə əfi ilandır? Bura nazirlikdi, ya zoopark?

Z ə k i y y ə. Tülküyə də bir az oxşarlığı var.

Z ə r i d ə. Tülküyə?

Z ə k i y y ə. Hə… hə… manqus-nədi, bax tərpənişindən onun özüdür ki, var. Oho-ho, mən bilirəm o nədir! Aaz! İyirmi il olar ki, adı batmışın səsi-sorağı yoxdu! Birdən-birə nə təhər oldu, böyürdən pırtdayıb çıxdı, nazir oldu?!

Z ə r i d ə. Yox, elə də kütbeyin olmaz. İndi ağıllanmış olar. Şəklini görmürsən? Başı-zadı ağarıb. Ciddi adama oxşayır.

Z ə k i y y ə *(əndamını yırğalayaraq)*. Vallah elə adam var ki, başı ağarsa da, ağlı ağarmır ki, ağarmır. Qozbeli qəbir düzəldər e, qəbir!

S ə y y a f. Hüseynova bacıları baş-başa veriblər?! Nikolayı pıçı-pıçı yıxdı ha… Sizin bu pıçı-pıçılarınızdı bu nazirliyi nazir üzünə həsrət qoyan.

Z ə k i y y ə. Bəsdir a, sən allah, bizi bu nazirlərlə düşmən eləmə.

Z ə r i d ə. Səyyaf kişi, vallah lap mat qalmalı işdir. Harda görünüb ki, sex müdirliyinin öhdəsindən gələ bilməyən bir adamı təzədən gətirib nazir qoysunlar?! Nəyə desən and içərəm, onda ağıldan başqa nə deyirsən var. Vallah, elə söz var ki, açıb-ağartmalı deyil, a Səyyaf.

S ə y y a f. De görək.

Z ə k i y y ə. Nə söz aaz, de, ürəyimi çəkmə.

Z ə r i d ə. Aaz, heç bizim dildə danışa da bilmir. Aaz, ayrı dildə oxuyanda nolar? Adam öz dilini atar?! Qeyrəti olan gərək birinci elə öz dilini yaxşı bilə. Yelbeyinin biridi. Yəni dünyanın bu düz vaxtı bir yönnü, ağlı başında olan adam tapmadılar ki, o cür dəmdəməkini gətirib bu böyüklükdə nazirliyə nazir qoyublar?!

Z ə k i y y ə. Vallah, belə-belə işləri görəndə adamın matı-qutu quruyur. Adam bilmir ki, hansı zəmanədə yaşayır. Yəqin nəsə var ki, nazir qoyublar da…

Z ə r i d ə. Onu bu vəzifəyə qoyanlar da bilmirlər ki, Bəybala Sədirxanovun çatısının üstünə odun yığılası deyil. Ələyəz otu kimi gündə bir tərəfə əsir.

Təvəkkül divara elan yapışdırır.
Hamı yaxınlaşıb, maraqla oxuyur.

Z ə r i d ə. O nədir belə, ay Təvəkkül?

T ə v ə k k ü l. Təzə əmrdir.

Z ə r i d ə. Nə yazılıb?

T ə v ə k k ü l. Sabahdan etibarən qəbul saatları ləğv edilir.

B i r i n c i m ü a v i n. Mənim də?

T ə v ə k k ü l. Bəli.

İ k i n c i m ü a v i n. Mənim də?

T ə v ə k k ü l. Bəli, bütün müavinlərin.

N ə b i. Mənim də?

T ə v ə k k ü l. Bəli, rəislərin də.

S ə y y a f. Qəbul olmayacaq daha?

T ə v ə k k ü l. Bütün qapılar şikayətçilərin üzünə hər gün səhərdən axşamacan açıq olmalıdır!

Z ə k i y y ə. Bax, bu qərarı ürəkdən bəyəndim.

Z ə r i d ə. Kişi əsil el adamıdır.

M ü a v i n. Camaat yeni nazirimizdən yerdən göyəcən razı olacaq.

Səyyaf qoltuğunda qovluqlar ayaq saxlayır. Xırda sağanaqlı eynəyinin üstündən camaata kinayə ilə baxır.

B i r i n c i m ü a v i n. Nədi, ay Səyyaf kişi, razı deyilsən?

S ə y y a f. Ay ağlıyox məxluq! İndidən küyə düşüb, son sözünüzü əvvəl deməyin! Qoyun bu köpəyoğlunun gədəsi nazir stolunu isitsin, sonra! O Bəybəla bizim kənddəndisə, illaf nazir olmasın, nə olur olsun, ə, çox kirdarsız adamdı. Kişinin də ki kirdarı olmadı heç! A balam, indi siftə-siftə üzəngi parlayıb özünə xal yığmağına baxmayın. Ə, nə telefon nömrəsi, nə qəbul vaxtı… Ay ağlıyox məxluq! Ə, adam balasısınız, arada heç nə olmamış, indidən küyə düşməyin! Onun əsli-nəslini mənim kimi tanıyan yoxdur. Ə, bir adam ki ata-anasına yiyə durmaya, ondan nə umursunuz. Pah! Millət dərdini

çəkənimə bax e... Görəsən gün hardan belə doğdu? Bəşirin oğlu Bəybala nazir olub, millət dərdi çəkir! Ay-hay! Bizim evimizi Allah onda yıxıb ki, hər gədəgüdə o cür vəzifələrə yol tapa bilir. Arvadının ağzını yığa bilməyəni gətirib başımıza ağa eləyirlər. Bir adamın ki, hansı dinə, hansı məssəbə qulluq elədiyi bəlli olmuya, nazir olmasın e, lap Allahın bacısı oğlu olsun, heyləsiynən mənimki tutmaz. Əlimdə bir bizim var, xoşu gəlməsə, onu da haçan desə verməyə hazıram! Bəybalanın başı daz olsa da, dibi qıldı. O kənddən, o nəsildən, o kökdən nazir çıxsa da, yönlü kişi çıxmayıb.

Z ə k i y y ə. A... a... Bu nə əmrdir belə, asmısan, ay Təvəkkül?

T ə v ə k k ü l. Nazirin əmridir...

Z ə k i y y ə. Ay Təvəkkül, heç bilirsən nə əmrdir?

T ə v ə k k ü l. Nə əmr?

Z ə k i y y ə. Sənin işdən çıxarılmağın barədədir e, bu əmr. Uvalneniye. Yerinə də İsaxan İsmiyev təyin edilib. *(Təvəkkül əmri oxuyub bərk qanı qaralır, fikirli halda bir kənara çəkilir.)*

Z ə r i d ə. Yazıq... Əvvəlki nazirin adamı bilib başını əkdilər. Statyası da "KNA", yəni keçmiş nazirin adamı. Yerinə də gör kimi gətirib e...

Z ə k i y y ə. İsaxan İsmiyev də əvvəllər bu nazirlikdə işləyirdi. Yadında deyil?

Z ə r i d ə. Hə... hə...

Z ə k i y y ə. Mərdimazarın yekəsidir.

Z ə r i d ə. Zəndeyi-zəhləm gedir ondan.

Z ə k i y y ə. Quru, ətiacının biridir.

Z ə r i d ə. Qaşınmayan yerdən qan çıxardandı.

Z ə k i y y ə. Hə, az...z, əlindən pislikdən başqa heç nə gəlməyənin biridir. Zalım balası elə bil zəhər tuluğudur. Peşəsi yuxarıdakıların ayağı altında bir ovuc torpaq olub, bizim kimilərinə də cəlladlıq etməkdir.

Z ə r i d ə. Yəni buna da batan yoxdur?

Z ə k i y y ə. Arxası güclü olduğundan ona hələm-hələm batmaq olmayacaq. O nə çalsa, nazir də onu oynayacaq. Yaxşı ad qoyublar ona "Ağ vəzir".

Z ə r i d ə. Nazir və Vəzir... Yaxşı tapışıblar.

Nazirin birinci müavini gəlir.

N e m ə t z a d ə *(fikirli halda dayanan Təvəkkülü görüb ayaq saxlayır)*. Necəsən, Təvəkkül?

T ə v ə k k ü l. Sağ olun, Xaliq müəllim, yaxşıyam.

N e m ə t z a d ə. Baban necədir?

T ə v ə k k ü l. Yataqdan qalxa da bilmir... Heç bilmirəm neyləyim? *(Kövrəlir.)* Gündən-günə vəziyyəti ağırlaşır...

Zəkiyyə işarə ilə Nemətzadəyə
divardan asılan əmri göstərir.

N e m ə t z a d ə *(yaxınlaşıb əmri oxuyur)*. Necə?..

Z ə k i y y ə. Təvəkkülün başına gələn heç kafir bəndəsinin də başına gəlməsin. Bir ay bundan qabaq işçilər yığışıb nişan məclisi düzəltdik. Yazıq toya hazırlaşırdı...

Nemətzadə əsəbi halda nazirin kabinetinə tərəf gedir. Bu vaxt nazir və İsmiyev gəlirlər.

V ə z i r. Buyurun, cənab nazir.

Nazir və vəzirin gəldiyini görən işçilər tez əl-ayağa düşüb, səliqə-sahman yaradırlar. Nazir katibə və makinaçıya yaxınlaşır. Zəridə və Zəkiyyə cəld ayağa qalxırlar.

N a z i r. Katibə, eto Zinduşka? Sən hələ burdasan? *(Qəddini əyib mənalı nəzərlərlə ona baxır.)* Eh Zinduşka! Zinduşka! Gör haçandan tanıyıram səni! Burda neçə ildi işləyirsən?

Z ə k i y y ə. Otuz ildən çox olar.

N a z i r *(onun qolundan yapışıb müşayiət edənlərə üz tutur)*. Mən bizim bu Zinduşkanı o vaxtdan tanıyıram. Sən yenə rəqsə gedirsən?

Z ə k i y y ə *(utana-utana başını bulayır)*. Yox, tay indi o vaxtım deyil.

N a z i r. İndi baxmayın ki, Zinduşka belə utanır! Onda bilirsiz necə tans oynayırdı! Heç kəsdən utanıb eləmirdi... *(Zəkiyyənin əlini buraxmadan qolunu qaldırıb, yançağını sağa-sola burcudur, ayaqlarını irəli-geri atır və ortalıqda dövrə vurmağa başlayır.)* Bax, belə oynayırdı.

Hamı gülüşür.

V ə z i r *(müavinlərə pıçıldayır)*. Bizim baş nazir necə də sadə adamdı... Görürsünüz də, adicə katibə ilə

necə açıq-saçıq, səmimi rəftar edir. Hamısı sadəlikdəndir. Rəhbər işçi gərək təkəbbürlü olmasın.

N a z i r *(makinaçıya tərəf dönür)*. Zina! Sən də burdasan? Sən ərə getdin?

Zəridə xəcalətdən başını aşağı dikir.

V ə z i r. Zəridə xanım! Cənab nazir soruşur ki, ərə getmisən, ya yox? O vaxtdan subaysan?

Z ə r i d ə *(ağlamsınır)*. Yox... ərə getməmişəm... Mən Allahın bədbəxt bəndəsiyəm.

N a z i r. Nu xoroşo, xoroşo, ne plaç!

V ə z i r. Bizim bu nazir necə də alicənab adamdır, görürsünüz də, adi işçilərlə necə davranır, çox sadə xasiyyəti var.

N a z i r. Mən istəyirəm hamı bir olsun! Nazirlə sizin kimi sadə işçilərin arasında divar olmasın. Biz hamımız bir olmalıyıq. *(Barmaqlarını geniş açaraq.)* Görürsünüz, bu barmaqlar tək-tək gücsüzdür. *(Əlini bükür.)* Gördüz, indi birləşdi, oldu güclü! Hamımız belə, bir olmalıyıq! Ayrı-seçkilik olmamalıdır! Bu qarabağlıdır, bu naxçıvanlıdır, bu şirvanlıdır... Yox, belə olmayacaq!

Nazir və Vəzir dönüb gedirlər. Hamı mat-məəttəl bir-birinə baxır.

Z ə k i y y ə. Ala, e!.. Zəridə, onu dünyada mənim kimi tanıyan yoxdur. Min cürə sifəti var, dili bir cürdür, ürəyi ayrı cür! O Ağ vəzir də ki ilişib yanına, vay bizim nazirlikdəkilərin halına! Hələ təzə bardaq suyudu, qoy bir az keçsin, gör nə pəstahlar çıxardır!

Z ə r i d ə. Ay Zəkiyyə, qeybət deyil e, söhbətdi. Otuz ildən çoxdu sən də, mən də nazirlikdə ömür çürüdürük. Bax, bu Bəybala Sədirxanov sex müdiri olanda necəydisə, elə o xasiyyətində də qalıb. Onu lap cavanlıqdan tanıyıram e, çox dingiş xasiyyəti var. Amma gərək ağır oturub, batman gəlsin. Gördün də, sən allah, biznən necə danışdı?! Sənə deyir tans oynuyurdun, məndən soruşur ərə getmisən, getməmisən?! Bıy, ətin tökülsün, heç denən yeridir? Səni bilmirəm, vallah, nazir o cür danışanda ölüb yerə girdim.

Z ə k i y y ə. Zəridə, düz deyirsən. Elə mən də sənin kimi. Vallah o danışdıqca xəcalətimdən başımı soxmağa yer gəzirdim.

Z ə r i d ə. Aaz, məndən soruşur ki, ərə getdin? Kişi olan kəs də ağzına bu cür söz alar?! Hamı bilir ki, mən Allah-taalanın bədbəxt bəndəsiyəm, kimdi məni alan?! O nazir sözüdü?! Şükür kərəminə, ilahi! Gör kimləri nazir qoyurlar?! *(Kövrəlir.)*

Üçüncü şəkil

Nazirin kabineti. Nazir divardan asılmış siyahıya baxıb, kiminsə qarşısına "KNA" yazır.

V ə z i r. Tamamilə doğru qərardır.

N a z i r. Hə, işçilərlə görüşümüz necə təsir bağışladı? Skaji çestno!

V ə z i r. Əla! Əla! Xüsusilə katibə ilə makinaçını o cür dindirdiniz, hamımıza ləzzət elədi. Müavinlər lap mat-məəttəl qalmışdılar.

N a z i r. Çestno?

V ə z i r. Çestno! Sizdən sonra işçilərin hamısı danışırdı ki, hələ indiyə kimi bizə belə nazir gəlməyib. Çox sadə, sanballı, dərin adamdı. Bəybala müəllim, o ki o katibənin qabağında qol götürüb oynadınız e, o xüsusilə yerinə düşdü. Əşşi, nə danışırsan! Əvvəlki nazirlər nəinki texniki işçilərin, heç şöbə müdirlərinin qapısını bircə dəfə də olsun açıb, onlardan hal-əhval tutmuyublar. Əvvəlki nazirlər hara, siz hara?!

N a z i r. Çestno?

V ə z i r. Çestno! Onlar nazirlik eləmirdi ki, prosto başlarını girləyirdilər. Bunu təkcə mən demirəm, bütün camaat danışır ki, təşkilatçılıqda, adamlarla dil tapmaqda da əvvəlki nazirlə sizin aranızda zəmin-asiman fərq var.

N a z i r *(İsmiyevi heyrətlə süzərək)*. Mejdu proçim, səni yaxşı köməkçi gətirdim. Çox vnimatelnisən, hər xırda şeyə göz qoyursan. Malades! Malades! Belə deyirlər ki, ağıl yaşda deyil, başdadı. Ancaq sənin ağlın da yaşın kimi çoxmuş. Çünki məni hər adam sənin kimi duyub, başa düşə bilməz.

V ə z i r *(nazirin qarşısında itaətkar görkəm alıb, çiyinlərini qısıb, qəddini əyir)*. Cənab nazir, siz nə danışırsınız! İstəyirəm ki, sizin ayağınıza dəyən daş, mənim başıma dəysin! Atılıb, unudulub, gözdən-nəzərdən salınmışdım. Salamımı da alan yox idi. Bu yaşımda məni arayıb-axtarıb, quyunun dibindən çəkib çıxaran adama qarşı necə olmalıyam?! Hələ onu demirəm

ki, mənə o qədər də ehtiyac olmadan nazirliyin təzə tikdiyi daş binadan dördotaqlı mənzil vermisiniz. Arvad dünən mənə deyir ki, ay İsaxan, bir sənsən, bir də mən. Bircə şikəst oğlumuz var. Bir belə otağı neynirsən? Mən də arvada dedim ki, ağzını xeyrə aç, bir də ki, başa düş belə girəvə bir də ələ düşməz. Sizin sağlığınıza otaqların birində ayaqqabımı çıxardacağam, birində papağımı qoyacağam, o birilərində də ayaqlarımı gen-bol uzadıb kefə baxacağam. Öləndə də gərək adamın qəbri geniş olsun.

N a z i r. Oğlunuz necədir?

V ə z i r. Yoox, əşşi, elə-belə dedim. Ali məktəbə düzəltmişdim, yarımçıq qoyub qaçdı. Oxuyub-eliyən bir zibil də deyil. Gündə də nə bilim...

N a z i r. Nə?

V ə z i r. Biriynən cuqquldaşır...

N a z i r. Da?!

V ə z i r. Sizdən nə gizlədim, son vaxtlar da uymuşdu bizim bu nazirliyin bufetində bir hallıca-dulluca qabyuyan var, ona.

N a z i r. Çto takoe hallıca-dulluca? *(Vəzir əzilib-büzülür, naz-qəmzə edir.)* Aydındır.

V ə z i r. Anası hər dəfə oğluma deyir ki, hərə bir şeydən şikəst olar, sən də ağıldan şikəstsən. *(Bic-bic gülümsünür.)* Oğlumuzun qol-qıçı salamatdı, elə bir şikəstliyi yoxdur... Başdan bir az seyrəkdir. Allah-taala hamımızın ömrümüzdən kəsib sizinkinə calasın. Siz çox qənimət adamsınız. Amma, əlbəttə, hər adam sizi mənim kimi duyub, başa düşə bizməz. Sizin makina-

çıynan, katibəynən, işçilərnən o cür davranmağınızın mənasını çətin ki, dərk etsinlər.

N a z i r *(kefi xeyli durulur və birdən qəşş edir)*. Tərs kimi sənin də başında tük yoxdur ki... *(Birdən-birə də özünü yığışdırır.)* Tak... keçək əsas məsələyə. Məni başa sal görüm, bizim bu birinci müavindən ağlın nə kəsir?! Sən bu Xaliq Nemətzadə barəsində nə fikirləşirsən? Özünü belə bir cür aparır ee... O necə adamdı?

V ə z i r. Belədi də... O, uzun müddətdi birinci müavin işləyir. Nə qədər desən də bic, hiyləgər adamdı. Cürbəcür yollarnan da burda özünə hörmət qazanıb. Çox adam da xətrini istəyir.

N a z i r. Da?!

V ə z i r. Da... Qızlarını verib, oğlanlarını da evləndirib. Bir arvaddı, bir özü. Birinci müavin kimi sizə əl verməz.

N a z i r. Niyə?

V ə z i r. Tamahı-zadı olmayan adamdı... Nə özü yeyəndi, nə də başqasını qoyandı... Əgər mümkün eləyə bilsəz, başını əkin getsin. Mən bu barədə sizə demək istəyirdim, ancaq ürək eləmirdim. Fikirləşirdim ki, həssas, uzaqgörən adamsız. Tez-geci onun kimliyini bilib, başa düşəcəksiz. Yaxşı oldu ki, söhbəti özünüz açdınız. Mən də o rəydəyəm ki, sizinki bir yerdə tutmaz. Görmürdüz iclasda özünü necə aparırdı? Çox qəliz xasiyyəti var! Birtəhər edin, burdan uzaqlaşsın.

N a z i r. Nə yolnan? Əsas nə qoyaq? *(Xaliq Nemətzadə kabinetə daxil olur.)* Buyurun, buyurun.

N e m ə t z a d ə. Sizinlə söhbətim var. *(İsmiyevə baxır.)*

N a z i r. Deyin, mənim köməkçimdən gizli sirrim yoxdur.

N e m ə t z a d ə. Mən köməkçiniz Təvəkkül barədə danışmaq üçün gəlmişəm. Onun üstündə ağır xəstə babası var, işdən çıxartsaz necə olacaq? Atası iki il bundan əvvəl dənizdə batan üç nəfəri xilas edərkən boğulub. Ancaq ikisini xilas edib. O hadisədən sonra Təvəkkülün anası intihar edib. Babasının başına hava gəlib. İki ildir qayalar üstə oturub, həsrətlə oğlunun dənizdən qayıdacağını gözləyir... Mən onlarla təsadüfən dəniz kənarında rastlaşdım. Və kömək etmək qərarına gəldim. Əvvəlcə nazirlikdə ocaqçı işlədi. Keçmiş nazir onu tanıyıb, xasiyyətinə bələd olandan sonra özünə şəxsi köməkçi götürdü. Ali təhsillidir. Təzə-təzə ərsəyə çatıb, borc-xərclə özünə toy tədarükü görüb. Bu bədxəbərə xəstə, kimsəsiz babası dözməz. Yetimin toyunu yasa dördərməyin. Mümkünsə, əmrinizi geri götürün.

N a z i r *(xeyli düşündükdən sonra qəti)*. Yox! Mən əmrimi geri götürən nazirlərdən deyiləm. Vsyo!

N e m ə t z a d ə. Mən sizdən xahiş edirəm, onu işinə bərpa edin.

N a z i r. Heç bir bərpa-mərpa olmayacaq. Yerlindir, ona görə xahiş edirsən. Adamınız idi ona görə. Nikoqda! Vsyo! Uvolen! Yaxşı olar ki, siz də ərizənizi yazıb vəzifədən gedəsiniz.

N e m ə t z a d ə. Nə üçün? Hansı səbəbə görə?

N a z i r. İzahata ehtiyac yoxdur.

V ə z i r. Yəqin belə məsləhətdir də...

N a z i r. Xoşluqla getməsəniz, özünüzdən küsün.

N e m ə t z a d ə. Nə olar?..

N a z i r. O olar ki, yoxlatdırıb, qərarla...

Nemətzadə ürəyini tutub oturur.

V ə z i r. Nə oldu? Rəngin niyə qaçıb? Olmaya ərizə yazmaqdan qorxursan? Utanım yerinə. Biz səni şirürəkli, əyilməz adam bilirdik! Heyf! Heyf bizim zəndimizdən.

N a z i r. Okazıvayetsiya tı yeşyo qorxağın biri. Vəzifə nə şeydi? Kişi də ondan ötrü... Tüpürüm vəzifəyə!

V ə z i r. Yəni vəzifəsi olmayanlar ölür? Cənab nazirimizi uzun illər haqsız olaraq didərgin salmışdılar, vəzifəsiz qoymuşdular. Nə oldu? Sınmadı! Əyilmədi! Vicdanım itin olsun əgər yalan desəm, sabah nazir desə ki, yoldaş İsmiyev, sizinlə işləmək istəmirəm, elə o dəqiqə ərizəmi qoyaram stolun üstünə.

N a z i r. Molodes.

V ə z i r. Yazmasam, atamın oğlu deyiləm, lap zinadan... Gedib tikinti idarələrinin birində fəhləlik edib daş daşıyaram, amma vəzifədən ötrü sizin kimi əyilmərəm.

N a z i r. Nemətzadə, başa düş, elə məsələlər var ki, onu açıb-ağartmaq istəmirəm.

N e m ə t z a d ə *(boğuq səslə)*. Siz... siz... nə danışırsız? Nə... məsələ? Nəyi açıb-ağartmaq istəmirsiz?..

V ə z i r. Ağartmayın! Xeyrinizə olmaz! Yaxşısı budur ki, bəri başdan ərizənizi yazıb, səssiz-səmirsiz gedəsiniz.

N a z i r. Belə məsləhətdir. *(Xaliq Nemətzadə qapı-*

ya tərəf bir neçə addım atıb, ürəyini tutur. Və birdən yerə sərilir.) Nə oldu ona? İnfarkt?

V ə z i r *(diqqətlə Nemətzadəyə baxır).* Xeyr, keçinib. Yadıma düşdü. O vaxt bu Xaliq Nemətzadə birinci müavin kimi naziri əvəz eləyəndə qaraj müdirini avtomaşınların ehtiyat hissələrini satdığı üstündə mexanikə bıçaq çəkib, dispetçeri də döydüyünə görə işdən qovmuşdu. Qaraj mudirini o vaxt tutmaq istəyəndə o, prokurordan xahiş edib qoymamışdı.

N a z i r. Vot! Vot! Onu tap! Başa sal, mənim adım olmasın. Üç günlük məzuniyyət götür. Bu üç gündə çoxtirajlı bir qəzetdə "Haqsızlıq" başlığı altında geniş bir məqalə yazdır. Xaliq Nemətzadənin çirkin əməllərindən və vaxtilə vicdanlı, əzabkeş bir qaraj müdirini günahsız olaraq işdən çıxarmasını yazdır. Həmçinin Təvəkkül Mövlamverdiyev adlı birisini təsadüfi olaraq nazirliyə işə gətirməsindən yazdır. Ocaqçı Təvəkkülün birdən-birə nazirliyə işə gətirməsində Xaliq Nemətzadənin şəxsi marağı olub... Qəzetin nömrəsin yuxarılarda hər yerə yay... Mən gedəndən sonra təcili yardım çağırtdırarsan.

Nazir çıxır. Vəzir pəncərədən baxır. Uzaqlaşan maşının səsi eşidilir. Vəzir dəstəyi qaldırıb zəng edir.

V ə z i r. Allo... Allo... Təcili yardım! Təcili yardım!

Dördüncü şəkil

Nazir əlində tutduğu qəzeti diqqətlə oxuyur.

N a z i r. Molodes. "Ədalət zəfər çaldı..." Xoroşo... Nazirin birinci müavini Xaliq Nemətzadə vəzifəsindən sui-istifadə edib, işdə kobud səhvlərə yol verdiyinə görə tutduğu vəzifəsindən azad olunub. Xoroşo! İşdən günahsız çıxarılan qaraj müdiri əvvəlki yerinə bərpa edilib. Oçen xoroşo!.. Qaynaqçı vəzifəsindən birdən-birə nazirliyə məsul işə gətirilən Təvəkkül Mövlamverdiyev isə işdən qovulmuşdur... Otliçno... Ədalət zəfər çaldı... Xoroşo! Prelest! *(Telefon zəng çalır. Nazir dəstəyi qaldırır.)* Da... eto ya... Ax eto tı, Anuşka?! Çto? Nə bazarlıq! Yey boqu, anama bazarlıq etməmişəm. Çestno! Tı çto? Ya je tebe obeşal. İki ay olar ki, anama heç baş da çəkmirəm. Anya... ne plaç... ne serdis... Çto? Razvod? Net, net... Anya... hm... dəstəyi asdı... *(Evinin nömrəsini yığır.)* Götürmür... Bilə-bilə götürmür... Hardan xəbər tutub? Kim ona çatdırıb? Məni güdən kimdir? İnteresno.

Vəzir daxil olur.

V ə z i r. Nəsə fikirlisiniz...

N a z i r *(qarşısındakı sənədləri vərəqləyir)*. Anya Timofeyevna məndən boşanmaq istəyir...

V ə z i r. Nə danışırsız?

N a z i r. Deyirlər ki, yaxşı kişi gərək arvadın sözüynən oturub-durmasın.

V ə z i r. Hə... Mütləq! Adam da arvadın sözüylə oturub-durar? Nikoqda.

N a z i r *(əsəbi)*. Nə nikoqda? Yox! Axmaq sözdür! Etiraf edim ki, mən onu bacarmıram. Bacarmıram.

Bir də ki... Anya Timofeyevnanın əmrlərini yerinə yetirməsəm... Mən... mən... vı menya izvinite, bizim Anya Timofeyevnanı bilirsiz necə sevirəm?! O da məni! Qabaqlar atamı, anamı çox istəyirdim. Lap çox! Ancaq onların Anya Timofeyevnadan xoşları gəlmədiyi üçün gözümdən düşdülər...

V ə z i r. Ah... ah... O cür abırlı, ismətli gəlini...

N a z i r. Axı Anya Timofeyevnanın məndən başqa heç kimi yoxdur. Mən ölsəm, ona kim baxar? Anam, atam bizə gələndə Anya Timofeyevnanın üzü gülmür, əsəbiləşir, həmişə evdə qalmaqal olur.

V ə z i r. Bəs nə edəcəksiz?

N a z i r. Nə edəcəyəm? Mən də mama, papaya açıq ultimatum verdim - bizdən uzaq gəzsinlər. Mama, papa... Axı mən də insanam! Svobodnı yaşamaq istəyirəm! Niyə mən nazir kimi svobodnı yaşamayım? *(Əlini stola çırpıb, otaqda var-gəl edir.)*

V ə z i r. Əsəbiləşməyin.

N a z i r. Necə əsəbiləşməyim? Mən də məcburam ki, arvadımın tərəfini saxlayam. Papa, mama ağzını əyib daha bizə gəlmirlər. Anam deyir, eybi yox, mən dözərəm. Amma papa...

V ə z i r. Hə?

N a z i r. On perejivayet. Atam köhnə adamdır, çox geri qalıb. Amma Anya Timofeyevna oçen sovremennaya dama. Znayete poçemu?

V ə z i r. Poçemu?

N a z i r. Potomu çto ona oçen kulturnaya jenşina.

Papanın, mamanın yanında başını qoyur dizimə, məni sığallayır, Doku sığallayır, məni öpür, Doku öpür.

V ə z i r. Kakaya kulturnaya jenşina... Bəs ananız?

N a z i r. Anam... Bundan obijatsa olur.

V ə z i r. Bəs papa?

N a z i r. Dözmədi... Papa öldü...

V ə z i r. Allah rəhmət eləsin.

N a z i r. Mama tək qaldı. Yanıma gətirdim ki, kak mama bir yerdə qalaq.

V ə z i r. Yaxşı eləmisiz.

N a z i r. Ancaq hər gün evdə skandaldı.

V ə z i r. Poçemu?

N a z i r. Mama arvadıma deyir ki, evdə it saxlama.

V ə z i r. Bəs siz?

N a z i r. Mən nə edə bilərdim? Karoçe, mamaynan sağollaşdım. Mama daha bizə gəlmir.

V ə z i r. Yaxşı eləmisiz. Ona tək çətin deyil ki?

N a z i r. Hərdən gizlin ona baş çəkirəm. Anya Timofeyevna eşidib biləndə ki, mamulyanı görməyə getmişəm, burnunu sallayır. Üzümə yaxşı baxmır... Mənə düzünü de, sənə zəng vurub bir şey öyrənməyib ki?..

V ə z i r. Kim?

N a z i r. Anya Timofeyevna.

V ə z i r. Məndən?

N a z i r. Hə, səndən. Gözümün içinə düz bax. Hara baxırsan?

V ə z i r. Gözünüzün içinə.

N a z i r. Sən gözümün içinə baxmırsan. Harasa, ni tuda baxırsan.

V ə z i r. Uşaqlıqdan gözlərimdə bir az qüsur var. Əsəbiləşən kimi çəpləşirlər.

N a z i r. Deməmisən?

V ə z i r. Yox, nə danışırsız, cənab nazir? Heç vaxt. Mənə inanmırsız?

N a z i r. İnanıram. Anya xəstədir, oçen nervnaya. Bir balaca da ürəkgetməsi var. İncikli söz deyən kimi əhvalı pozulur. Dəli kimi başını ora-bura çırpır.

V ə z i r. Bəlkə...

N a z i r. Nə bəlkə?

V ə z i r. Ora... *(Barmağı ilə gicgahını göstərir.)*

N a z i r. Dəlixanaya... Net... çto tı. Anya Timofeyevna mənim jizn. Bez neyo ya ne moqu jit. Özü də yaman bazdı.

V ə z i r *(təəccüblə)*. Necə yəni bazdı?

N a z i r. Yaman itbazdı. Mənə deyir ki, bir itsiz, bir də sənsiz yaşaya bilmərəm. İti Moskvadan gətirmişəm.

V ə z i r. Moskovskaya sobaka?!

N a z i r. Da... Özü də ingilis parodasıdı. Dok çağırırıq. Dok!

V ə z i r. Dok! Dok! Gözəl addı. Adıynan böyüsün. Dok!

N a z i r. Dok, idi ko mne.

V ə z i r *(zarafatla atılıb-düşür)*. Dok... Dok... hav... hav...

N a z i r. Mamulyanın itdən niyə xoşu gəlmir? Mübahisə də həmişə itin üstündə düşürdü. İş o yerə gəlib çatdı ki, ya iti rədd etməliydim, ya da ki, mamulya evdən getməli idi.

V ə z i r. İti qovun. Kak ni kak, mama mamadı da...

N a z i r. Çto tı qovariş? Axı arvadım itsiz yaşaya bilməz! İtbazdı. Məcbur olub anam üçün Əhmədlidə birotaqlı ev aldım. Bəxtindən qonşular da yaxşı çıxıb. Ondan muğayət olurlar. Mən də xəlvəti hərdən şoverimlə ona bazarlıq göndərirəm. Anya Timofeyevna çox tərsdi. Anamı görmək belə istəmir. İşdi, sənə zəng vurub eləsə, bir söz demə.

V ə z i r. Heç vaxt.

N a z i r. Keçək əsas məsələyə. Anya Timofeyevnanın... Anya dedim, şuba yadıma düşdü. Hə... hə... Yaxşı yadıma düşdü. Eşitdiyimə görə yarmarkaya yaxşı şubalar gəlib. Mütləq birini götürərsən. Simiclik eləmə, ən bahalısını götürərsən.

V ə z i r. Baş üstə!

N a z i r. Anyanın şubası köhnəlib... Köhnəlib deyəndə təptəzədi, elə bu il almışam. Ancaq Anya hər gün deyinir ki, bu moddan düşüb. Bir də ki, indi şəhərdə hamı o şubadan geyinir. Anyanın tamam gözündən düşüb. Anyanı da qınamıram. Düz də deyir. Nazir arvadının geyindiyindən hər adam geyinirsə, tay bu olmadı ki!!! Hə... belə. Gündəlikdə duran bir məsələni həll elədik. Keçək ikinci məsələyə. Anya Timofeyevnanın yaxın bir rəfiqəsi var, tez-tez bizə gəlir. Özü də dərzidir. Anyanın bütün paltarlarını o tikir. Həmən dərzinin qardaşı oğlu var. Rayonumuzda yol şöbəsində işləyir. Anya dirənib ki, onu nazirliyə gətir.

V ə z i r. Gətirək də. Onu Xaliq Nemətzadənin yerinə nazir müavini gətirsək necə?

N a z i r. Yox. Ora başqa adamı gözaltı eləmişəm.

Öz yerlimizdi. Bəlkə ixtiraçılar və səmərələşdiricilər bürosuna sədr gətirək.

V ə z i r. Olar... olar... Çox yaxşı.

N a z i r. İxtiraçılar və səmərələşdiricilər bürosunun sədrini dərindən tanıyırsan?

V ə z i r. Bəli.

N a z i r. Bizim tərəflərdəndir?

V ə z i r. Yox.

N a z i r. Yox? Poşol k çortu. Sabah çağır, ərizəsini al, yerinə də bizimkini qoy.

V ə z i r. Baş üstə. Elə bu saat əmrini verərəm. *(Qapıya tərəf gedir.)* Onun əmri çoxdan qoltuğumda idi.

N a z i r. Dayan, dayan! Əyləş. Bir məsələ yadımdan çıxdı. Bizdə huş-zad qalmayıb ki... Hə, yaxşı yadıma düşdü, da, da! Bilirsən İsaxan, necə olsa sən özümüzünküsən, yerlimsən. Ona görə də etibar edib ürəyimi sənə açıram. Moskvada bizim bu Anya Timofeyevnanın qohumları, bir də Cavanşir adlı canlara dəyən bir oğlan məni sposat elədilər. Həmən o Cavanşirin əsli-nəsli bizim yerlərdəndi. Özü də xaricdə, ticarət attaşesində işləyirdi. Onda onun köməyi ilə mütəxəssis kimi xaricə işləməyə gedib, başımı qalmaqaldan xilas elədim. Çox qoçaq oğlan olmuşdu.

V ə z i r. Necə yəni olmuşdu?

N a z i r. Hə. Qəzaya düşüb həlak oldu. Cavanşirin Teymur adlı bir xalası oğlu var. Zapravşikdi. Pula pul demir. Bizim bu beş nömrəli kombinatda neçə nəfər işləyir?

V ə z i r. İki min nəfər olar.

N a z i r. Avtoritetni komissiya təşkil edib, beş nömrəli kombinatı əməlli-başlı yoxlatdır, kollegiyada müzakirə etdirib, direktorunun mitilini bayıra atdır. Bildin?

V ə z i r. Baş üstə. Elə bu gün yoxlamaya başlaram.

N a z i r. Bizim o Teymuru da çağır, sənədlərini yavaş-yavaş hazırlayın. Bu gündən sabaha etibar yoxdur. Operativ ol!

V ə z i r. Baş üstə.

N a z i r. Çox diribaş adamdır! İxtisası olmasa da, fərasətli adamdır. Direktorluq elə onun boynuna biçilib. Necə olsa, bizim tərəfin adamıdır. Yadın yaxşısındansa, qohumun pisi yaxşıdır. Öz itimizin balasıdır. Quru nazirlikdən xeyir gəlməz. Fəaliyyətə başlamaq lazımdır. Başa düşürsən? Məndən nazir kimi fəaliyyət tələb edirlər, fəaliyyət! *(Vəzir kabineti tərk edir. Nazir bir müddət fikirləşdikdən sonra tərəddüd içində harasa zəng edir.)* Eto tı... Anuşka? Doroqaya, gəl barışaq. Umolyayu... Hər sözə görə razvod verərlər? Nu, izvini. Net, net, odboy vermə... yalvarıram... hm... dəstəyi asdı... Dura! *(Qapı açılır. Qapı ağzında yaraşıqlı gənc bir qız görünür.)*

Ü l k ə r. Olar, cənab nazir?

N a z i r *(şorgözlüklə qıza baxır)*. Niyə olar? Olar yox. Mütləq! Gəlin. Oturun.

Ü l k ə r *(utanaraq)*. Yox... mən bir dəqiqəyə sözümü deyib...

N a z i r. Nu razve tak mojno? Oturun.

Ü l k ə r *(oturur)*. Çox sağ olun.

N a z i r. Çay, ya kofe?

Ü l k ə r. Çox sağ olun, istəməz... Mən plan...

N a z i r *(onun sözünü kəsir)*. Mən hamısını bilirəm. Siz plan şöbəsində işləyirsiz. Mən çoxdan sizinlə maraqlanıram... Hara tələsirsiz? Qoy nazirin doyunca öz işçisinə baxsın. Srazu vidno çto ağıllı qızsan... Ağıllı qızla dil tapmaq asan olur. Tak?

Ü l k ə r *(qalxır)*. Mən... mən sonra gələrəm...

N a z i r *(onun qolundan tutur)*. Otur, hara tələsirsən. Nazir mən deyiləm? Hə? Mən səni bu günlük plan şöbəsinin işindən azad edirəm. Odqul. Qulyay dlya sebya. Mən səni dinləyirəm. Danış.

Ü l k ə r *(utana-utana sözə başlayır)*. Cənab nazir...

N a z i r. Ay belə, can! Danış.

Ü l k ə r. Sizdən xahiş edirəm, Təvəkkülü qaytarın işinə. Axı onun heç bir günahı yox idi. Babası ağır vəziyyətdədir. Dərman almağa pulu da yoxdur... Yazığınız gəlsin... *(Ağlamsınır.)*

N a z i r. Kimə?

Ü l k ə r. Təvəkkülə, babasına... mənə...

N a z i r. Sənə niyə?

Ü l k ə r. Biz nişanlıyıq... bu yay toyumuz olmalıydı...

N a z i r. Belə de... Mən çoxdandır ki, sənlə açıq danışmaq istəyirdim... Təvəkkül sənin tayın deyil. Sənə yaraşıqlı, pullu, vəzifəli kandidat lazımdır. O lütün biri yox. Onsuz da ərə gedəndən sonra peşman olacaqsan. Lyubov gəldi-gedərdi, qolubuşka.

Ü l k ə r. Nə danışırsız... biz... biz... Əhd etmişik...

N a z i r. Çto takoe əhd?

Ü l k ə r. Söz vermişik...

N a z i r. Söz... söz... çepuxa! Tutaq ki, mənim Təvəkkülə yazığım gəldi... Sənin də mənə yazığın gələcəkmi?

Ü l k ə r. Mən sizi anlamıram...

N a z i r. Sən qəşəng qızsan... Mən sənin lə dost olmaq istəyirəm. Ponemayeş... İntimnıy dost. Tı takaya sovremennaya... *(Qızın əlindən tutur. Ülkər əlini çəkir.)* Siz... mən... sizi...

Ü l k ə r. Siz necə də murdar adamsızmış. *(Kabineti tərk edir.)*

N a z i r *(zəng edir)*. İsaxan, Ülkəri işdən azad et!.. Da, uje!

Birinci hissənin sonu

İKİNCİ HİSSƏ

Beşinci şəkil

Dəhliz. İsmiyev divardan elan asıb gedir. Katibə və makinaçı yaxınlaşıb oxuyurlar. İsmiyevi görüb, salam verirlər. O, salamı almır. Qadınlar pərt halda bir-birinə baxıb dayanırlar. Telefon zəng çalır.

Z ə k i y y ə. Bəli, nazirlikdi. Kim?.. Hə?.. Yaxşı.

Z ə r i d ə. Nə olub, ay qız?

Z ə k i y y ə. Nazirin anasının qonşusu idi...

Z ə r i d ə. Nə istəyirdi?

Z ə k i y y ə. Anası bərk xəstədi. Dünəndən oğlunu istəyir. Deyəsən halı xarabdı. Mən necə deyim ona?

Z ə r i d ə. Vəzirinə de, özü desin.

Z ə k i y y ə. Hə, düz deyirsən. *(Gedir, çox çəkmir ki, qayıdır.)* Dedim.

Z ə r i d ə. Niyə rəngin qaçıb, ay qız?

Z ə k i y y ə. Elə bağırdı ki, üstümə... ürəyim düşdü.

Z ə r i d ə. Aaz, Zəkiyyə, vallah qeybət deyil e, söhbətdi. Bu təzə nazir deyəsən vallah lap ağını çıxarıb.

Z ə k i y y ə. Demə, demə... ağın dedin qoydun?

Z ə r i d ə. Bilmirəm bu işin axırı nə olacaq? Nazirin kadr üzrə müaviniynən, bu işə baxan şöbə müdiri yalan olubdur, İsmiyev doğru. Hamı bilir ki, bu nazirlikdə kadr üzrə müavinlə, şöbə müdiri yaraşıq üçün oturublar. Nə ölüyə hay verirlər, nə də diriyə pay.

Z ə k i y y ə. Allah kəssin belə işləməyi. Arvadları da deyir ərimiz nazirlikdə şöbə müdirləridir.

Z ə r i d ə. Nazir gələn gündən ixtiyarlarını əllərindən alıb.

Elə quruca kağıza qol çəkmələri qalıb. Ağ vəzir qabaqlarına nə sənəd qoyursa, kadr işinə baxanlar da utanmaz-utanmaz ağına-bozuna baxmadan, gözlərini yumub altından qolluyurlar.

Z ə k i y y ə. İxtiyarları nədi ki, qollamasınlar! Qollamazlar, onların özlərini elə qolluyarlar ki, qolsuz qalarlar.

Z ə r i d ə. Aaz, birinin də qeyrəti çatmır ki, soruşa, balam çıxan kimdir, onun yerinə qoyulan kim?! Allah kəssin o cür çörəyi ki, onlar yeyir.

Z ə k i y y ə. Ee, ay Zəridə, nə qoyub, nə axtarırsan? Vallah-billah bu dünya düzələn deyil. İndikilərin işi Allaha qalıb. Təzə-təzə ata minəndə düzlükdən, təmizlikdən, halallıqdan dəm vururlar. Üstündən bir ay keçən kimi dönüb olurlar ac qurd! Doymaq bilmirlər ki, bilmirlər. Bu mənim, o mənim, o da mənim, o da mənim...

Z ə r i d ə. Sən allah bəsdi! Danışıb dərdimizi təzələmə. Qadam onların hamısının ürəyinə. Hamısı da bir bezin qırağıdır. Vəzifə verəndə elə bil ağıl-kamalları, ədəb-ərkanları əllərindən alınır. Allahın quruca salamını da verməyə can çəkirlər. Elə ki, yuxarıdan sürüşüb düşdülər aşağı, yumşalıb olurlar ipək kələfi kimi.

Hər ikisi ürəkdən gülür.

Z ə k i y y ə. A...az, Zəridə, yəqin yuxarı qalxdıqca orda ədəb-ərkan, adamlıq azalıb, kasada çıxır, hə? Elə xətir-hörmət, abır, ismət aşağıdakılardadır. Camaat bilirsən nə danışır?

Z ə r i d ə. Nə?

Z ə k i y y ə. Sən o madar qardaşının canı, söz aramızda qalsın. Hamı danışır ki, bütün ixtiyar o Ağ vəzir deyirsən, nə

deyirsən e, İsaxan İsmiyev, bax onun əlindədir. Kimi irəli çəkib, vəzifə başına dikəltmək, kimi itələmək lazımdır, hamısının arğacı İsmiyevdən keçir. Nazir yağlı əlini beş yaxşı adamın başına çəkmək istəyəndə, Ağ vəzir də özünün iki qotur qohumun onun gözünə qatır. Bu işlərin də hamısını göydə bir Allah, yerdə də nazirlə onun Ağ vəziri bilir. Hər vəzifənin qiymətini də təyin edən vəzirdir. Vəzir yığır verir nazirə, nazir də e...

Z ə r i d ə. Yavaş danış. Bunları bircə adam ağzına alıb orda-burda danışsa, qan düşər. O saat şpionlar üstünə də beşini qoyub, ya nazirin, ya da onun Ağ vəzirinin ovcuna qoyacaqlar. Allah göstərməsin, onlar da o saat həvirləşib, onların barəsində deyib-danışanın əhdini kəsirlər.

Z ə k i y y ə. Düzdü, düzdü. Gözümün qabağında neçəsi heylə bədbəxt olub.

Z ə r i d ə. Tələsmə, heylələrinin axır aqibətini çox görmüşük. Allah ölənlərinə rəhmət eləsin. Rəhmətlik qoca nənəm belə-belə şeyləri görəndə deyərdi ki, a bala, darıxmayın, aşağıda yıxan varsa, yuxarıdan da baxan var. Bu nazirnən onun vəziri ki, belə başlayıb, çox getməz. Allah kərimdi.

Z ə k i y y ə. Kərimin də quyusu dərindi... ay qız...

Z ə r i d ə. Oradan da hələ çıxan olmayıb, ay qız. Bir də ki, çalış yuxarıdan ipin üzülməsin. O cür cızığından çıxıb, Allahına bəndəlik eləməyən nazirlərin, vəzirlərin əvvəlini də, axır-aqibətini də çox görmüşük. Quduran qırx gün gedər.

Telefon zəng çalır. Zəkiyyə dəstəyi qaldırır.

Z ə k i y y ə. Bəli... Kim?.. Nəbi müəllim sizi istəyirlər.

N ə b i *(səsi eşidilir)*. Qoş bura.

Z ə k i y y ə. Qoşa bilmirəm, faksa gələcək. Nəbi müəllim, bura zəhmət çəkin.

Nəbi əsəbi halda çıxır.

N ə b i. Bəli, hə, ana... Nə? Bəybala gündə bir litr gillədib, sonra da düşəcək arvad-uşağın canına. Nə yemisən turşulu aş, ağacla arvadını döyəcək. Mən polislərə düşəcəyəm. Necə? Arvadın qohumları sürüynən tökülüb gəliblər Bəybalanın üstünə?! Əzişdiriblər? Ana, yalvarıb-yaxarma. Mən polis idarəsinə zəng vuran deyiləm. Ana, incimə, incisən də deyəcəyəm. Elə bunun bir günahı da səndədir. O vaxt ipini buraxıb, ərköyün böyütmüsən, indi də nə sən qabağını ala bilirsən, nə də mən.

Vəzir tələsik səsə çıxır və diqqətlə söhbəti dinləyir.

N ə b i. İndiyə kimi neçə yerdə işləyib, elə o cür xasiyyətin üstündə başı daşa dəyib! Harda işləyibsə, oranı bərbad vəziyyətə salıb, qovublar. Ailədə də həmçinin. Ailədə hörmət qazana bilməyən adamın, kollektivdə də hörməti olmaz. Onun adı gələndə başım ağrıyır. O vaxt da demişəm, indi də deyirəm: Bəybaladan adam olmayacaq. *(Keçir otağına.)* Bəybala adam deyil! Adam deyil Bəybala!

Vəzir tələsik nazirin kabinetinə tərəf gedir.

Altıncı şəkil

Nazirin kabineti.

V ə z i r *(qoltuğunda bir neçə qovluq daxil olur)*. Olar?

N a z i r. Gəl, əsəbi görsənirsən. Bir hadisə baş verib?

V ə z i r. Heç... Dəhlizdə danışırdılar ki, indiyə kimi nazirliyə belə uzaqgörən adam gəlməyib, gəlməyəcək də. Tay, əvvəlki kimi özbaşınalıq deyil. Hərə öz bildiyini eləmir. Hamının əl-ayağını yığıb bir yerə. Çox ciddi adamdı. Müavinlər ondan tük salır. Yuxarılarda da böyük hörməti var. Hamı başına and içir. Bir sözü iki deyil...

N a z i r *(özündən razı halda)*. Daa, daa! Belə də olmalıdır. Dayan, sluşay, yaxşı yadıma düşdü. Qabaqkı şofer ağıllı-başlı maşın sürürdü. O qədər dedin, dedin, onu rədd elə getsin, söz aparıb-gətirəndir, nə bilim agentə oxşayır, stukaçdı. Axırda gözümdən saldın. Mən də qovdum. Yerinə də özününkünü soxuşdurdun mənə. Bu da sənin sirr saxlayan, etibarlı əmin nəvəsi. Tərifini göylərə qaldırmışdın. Deyirdin ağzıynan quş tutur. Buyur, bu da onun maşın sürməyi! Çox əfəl, bezdarnıy şoferdir. Rulu düz-əməlli də tuta bilmir. Qabaqdan maşın gələndə əli titrəyir, mandraja düşür.

V ə z i r. Bəybala müəllim, nə danışırsınız? Vallah, billah elə deyil. O yaxşı bir kişinin oğludur. İntəhası əlinə sürücülük vəsiqəsi alan gündən traktorda, buldozerdə, bir də ki, ağıryüklü maşınlarda işləyib. Ona görə də "Volqa"ya hələ əli düz-əməlli yatmayıb. Təzədi, qoy bir əli rula alışsın, onda görərsiz. Vicdan haqqı yaxşı şoferdir. Qoy bir az işləsin, özünüz görərsiz.

N a z i r. Nəyi gözləyim? Gözləyim ki, nə vaxt məni xosunvay eləyəcək? Ət yeyən quş dimdiyindən bilinər. Bu qohumundan ağlım bir şey kəsmir. Narkoman olar ha...

V ə z i r. Nə danışırsınız?

N a z i r. Zalım oğlu elə bil keydir. Əşşi, maşını təmiz saxlamağa nə var? Voobşim, Anya Timofeyevna dedi ki, rədd elə. Deməli, rədd elə.

V ə z i r. Baş üstə! Rədd edərəm. Anya Timofeyevnanın bir sözü bu nazirlikdə iki ola bilməz... Vallah, adam deyə də bilmir...

N a z i r. Nəyi?

V ə z i r *(səsi çıxmır)*. ...

N a z i r. Sonra? Sonra nə danışırlar?

V ə z i r. Sonrası odur ki...

N a z i r. Nə? De.

V ə z i r. Təəssüflər olsun ki, demokratik islahatları tam başa vurub, nazirliyi zir-zibillərdən tamam təmizləyə bilməmişik. Özünüz neçə dəfə şahidi olmusunuz ki, kollegiya iclaslarında sola dartanlarımız hələ də var..

N a z i r. Kim?

V ə z i r. Nəbi kişi.

N a z i r. Da, da. Həmişə sola dartır...

V ə z i r. Başqa cür də ola bilməz. Hamı bilir ki, o, sizi istəyən adam deyil. Dartdıqca sakit olmayacaq.

N a z i r. Neujeli?

V ə z i r. Elə məsələlər var ki, onu açıb-ağartmaqla qanınızı qaraltmaq istəmirəm...

N a z i r. Poçemu?

V ə z i r. Fikirləşirəm ki, Nəbini pis-yaxşı birtəhər yola verək getsin.

N a z i r. Necə yəni birtəhər?

V ə z i r. Hə də... Özü də çox ətiacı adamdı. Eləsini gərək çox da qurdalayıb, üstümüzə qaldırmayaq. Onsuz da son vaxtlar ayağımızdan çəkən az deyil. Amma...

N a z i r. Nə amma?

V ə z i r. Bir şey var ki, onun qabağından qaçanda ayağı yer alır. Eləsini gərək yeri gəldikcə ağzının üstündən vurasan... Belə, belə-belə...

N a z i r. Susma, hamısını de!

V ə z i r. Bəybala müəllim, sizə demək istəmirdim, ancaq görürəm yox, bıçaq sümüyə dirənib... Mən sizə xəyanət edə bilmərəm. Uje neterpima.

N a z i r. Uje?

V ə z i r. Daha gizlədə bilmirəm. Bayaq telefonda elə sözlər deyirdi, elə sözlər deyirdi ki, abır-həyama sığışdırıb dilimə gətirə bilmirəm.

N a z i r. Nə?

V ə z i r. Deməyə dilim gəlmir!

N a z i r. De!

V ə z i r. Onun tük üzü içəri olduğunu bilirdim, amma tay bu dərəcədə yox. Mənə kənardan desəydilər, dünyasında inanmazdım. Öz qulağımla eşitdim. Onun dediklərini eşidəndən sonra özümə gələ bilmirəm. Elə qələtlər eləyir ki, başından on dəfə yekə.

N a z i r *(birdən qəzəblə bağırır)*. Podles!

V ə z i r. Neqodyay! Deməli sözdü ki, adam deyə?! Səsi bütün nazirliyi başına almışdı. Bircə mən deyildim ki, hamı onun dediklərinə qulaq asırdı. Qəsdən qışqıra-qışqıra danışırdı ki, hamı eşitsin.

N a z i r. Nə deyirdi?

V ə z i r *(Nəbi müəllimi yamsılayaraq)*. Mən demişəm! Deyəcəyəm! Bəybaladan kişi çıxmayıb! Çıxmayacaq! Onun şəxsiyyətinə tüpürüm!

N a z i r. Çto? Podles! Mən kişi deyiləm? Nazir kişi deyil? Pod sud... Pod statya...

V ə z i r *(o cibindən diktofonu çıxarıb qoşur).* Buyurun, dinləyin… *(Zəkiyyənin səsi)* Zəridə, bir söz deyim, amma sən o madar qardaşının canı, bax burda qalsın. Hamı danışır ki, bütün ixtiyar o Ağ vəzir deyirsən, nə deyirsən e... İsaxan İsmiyev, onun əlində...

V ə z i r *(cəld diktofonu keçirir).* Bu yox e...

N a z i r. Bunlar da...

V ə z i r *(diktofonu yenidən qoşur).* Hə, bu... *(Zəkiyyənin səsi)* Bu nazirnən onun vəziri ki, belə başlayıblar, çox getməz... *(Vəzir diktofonu yenə söndürür)* E... ee... bu da yox. *(Axtarıb yenidən qoşur.)* Hə... tapdım. *(Nəbinin səsi.)* İndiyə kimi neçə yerdə işləyib, elə o cür xasiyyətinin üstündə başı daşa dəyib! Ailədə hörmət qazana bilməyən adamın, kollektivdə də hörməti ola bilməz! Onun adı gələndə başım ağrıyır. Mən o vaxt demişəm, indi yenə də deyirəm və deyəcəyəm. Bəybaladan adam olmayacaq!

N a z i r *(yumruğunu qəzəblə stola çırpır).* Podles!

V ə z i r *(diktofonu keçirir).* Podles! Bir istədim qapını açam, deyəm ə, Nəbi, adamın qanacağı olar. Bəybala nədi? Heç olmasa Bəybala Sədirxanov de! Nə Bəybala, Bəybala salmısan? Nazir sənin uşağındı? Nə onu adı ilə çağırırsan? Söyürsən, söyürsən, heç olmazsa, hörmətnən söy.

N a z i r *(qəzəblə otaqda var-gəl eləyir).* Vot bessovestnıy! Neqodyay! Kimnən danışırdı?

V ə z i r. Kimliyini dəqiq bilmədim.

N a z i r. Naprasno! Böyük səhvə yol vermisən, böyük! *(Kresloya əyləşir.)*

V ə z i r. Ancaq sözlərindən belə başa düşdüm ki, böyüklərdən kiminləsə danışırdı, yuxarılardandı.

N a z i r. Çto?

V ə z i r. Mənə elə gəlir ki, mötəbər yerlərə beli bağlı olmasa, sizin ünvanınıza o cür açıq-saçıq təhqiramiz sözlər işlədə bilməz. Deyirəm... bəlkə...

N a z i r. Nə bəlkə?

V ə z i r. Bəlkə könlündən nazir olmaq keçir. Podqotovka aparır, rəy yaradır, arqument toplayır...

N a z i r *(əyləşdiyi kreslodan dik atılır)*. Bu de... görər! Bizdə onsuz da planlaşdırma işi biabırçı vəziyyətdədir. Mənim adımdan yoldaşlarla danış! Yoxlatdır! Zibilini at çölə! Özü də elə-belə yox! Çerez prokuratura!

V ə z i r. Baş üstə!

N a z i r. O katibə ilə makinaçını da rədd elə! Bozbaş iyi gəlir onlardan. Modnı qızlar tap.

V ə z i r. Baş üstə! *(Kabinetdən çıxmaq istəyir.)*

N a z i r. Dayan! Məsələnin biri qaldı. Bizim o Vazgen Xaçaturoviç çoxdan məndən bir xahiş eləyib.

V ə z i r. Vazgen, hansı Vazgen?

N a z i r. Bağırma! Böyük bacımın əri!

V ə z i r. Hə... hə...

N a z i r. Onun xalası oğlu Suren, yəni po naşemu Süleyman, iki nömrəli kombinatda növbə rəisi işləyir. Təcili Sureni Nəbinin yerinə plan şöbəsinin rəisi təyin elə. Kollektivin xahişi ilə... Özün bildin də...

V ə z i r. Baş üstə!

N a z i r. Sən də çalış ağzından çıxartma ki, Süleyman mənim qohumumdur.

V ə z i r. Hansı Süleyman?

N a z i r. Sureni deyirəm də... Maraqlanıb soruşan olsa, de ki, yuxarıdan məsləhət biliblər. Onların qohumlarındandı... vəssalam!

V ə z i r. Vazgen Xaçaturoviçlə o qədər oturub-durmuşuq ki... Haracan desən mərifətli adamdır. Sizin bacınızın əri olduğuna görə demirəm. Plan şöbəsi elə Surenin yeridir. O da canlara dəyən oğlandır. Bu elə yerinə düşdü. Qoy nazirlikdə bizi istəyib, sözümüzü deyənlərdən biri də artıq olsun.

N a z i r. Molodes! Soverşenno verno! Tı prosto qeniy! Mənə bax... o qəzetin redaktoru barədə də bir şey fikirləş. Düzdü e... pis adam deyil... yaxşı da məqalə yazmışdı onda, ancaq özümüzünkü olsa, daha yaxşıdır. İndikinə etibar var?! Bir də gördün podkup elədilər, bizdən yazdı. Bu qəzet işçilərinə etibar var? Sabah arşınımız əyilsə, ayağımızdan çəkənin biri də elə o olacaq! Temboli yaddı! Yada bel bağlamaq olmaz!

V ə z i r. Yoldaş nazir, üzünüzə demək olmasın, mejdu proçim, çox tədbirli, uzaqgörən adamsınız. Uşaqlıqda heç şahmat oynamamısınız? Xodlarınız yaman neojidannıdır, e...

N a z i r. İsik! Biz indi ayrı aləmdə yaşayırıq! Mənim bir dostum var. Uzun müddətdir ki, vəzifələrdədir. Vəzifə qalmayıb ki, içinə oturmasın. Özü də elmlər namizədidir. Boydan da ki, şpinqaletin biridi. Nə qədər yerin üstündədirsə, bir o qədər də altındadır. Güləndə də nemoy gülür - qarnında. O gün mənə deyir ki, indiki zamanda vəzifədə olan gərək artist olsun, gündə yüz sifətə düşə bilsin. O dostumun sözü olmasın, deyərdim ki, vəzifə sahibi əməkdar artist olmadısa, nazir gərək xalq artisti olsun. *(Gah gülür, gah ağlayır, gah qəmli görkəm alır, gah da zəhmli.)* Bax belə... Bu zəmanədə gərək artist olasan, artist!

Yeddinci şəkil

Kollegiya. Nazirin kabineti. Fasilədir. Əynində zil qara kostyum, ağ köynək olan və işıldayan saçlarını yana daramış bir gənc ora-bura vurnuxur. Stolun üstündəki boşalmış mədən sularını doluları ilə əvəz edir. Xitabət kürsüsündəki mikrofona bir-iki dəfə çırtma vurub, "püf-püf!" eləyir və sonra "bir-iki, bir-iki" deyib tələsik gedir. İsmiyev təngnəfəs gəlir.

Z ə r i d ə. Ay İsaxan, bizi niyə işdən çıxartmısız?

Z ə k i y y ə. Mənim nə günahım vardı?

V ə z i r. İşdə buraxdığınız səhvlərə görə, səhlənkarlığınıza görə. Görürsüz ki, nazirlikdə yeniləşmə gedir. Cənab nazir yeni, cavan kadrlarla işləmək istəyir. *(Miniyubkalı, işvəli-nazlı, 18-20 yaşlarında, təzə makinaçı və katibə gəlir.)* İşi qəbul edin, krasotoçki.

Y e n i k a t i b ə. Baş üstə, cənab İsmiyev. *(Gülür.)*

Y e n i m a k i n a ç ı. Göz üstə, cənab İsmiyev. *(Gülür.)*

Zəridə və Zəkiyyə əsəbi halda nazirliyi tərk edirlər. Nazir daxil olur. Hamı ayağa qalxıb onu gurultulu alqışlarla qarşılayırlar.

N a z i r. Sağ olun! Minnətdaram! *(Keçib sədarətdə əyləşir.)* Söz verilir...

S u ç u. Mənə də söz verin! Danışmaq istəyirəm, mənə söz verin.

N a z i r. Nə deyirsiz, söz verək?

V ə z i r. Verək, cənab nazir.

N a z i r. İcazə verirəm.

V ə z i r *(suçudan soruşur)*. Yerindən danışmaq istəyirsən, ya kürsüdən?

S u ç u. Yox, yox! Yuxarı qalxmaq istəyirəm. Ömrümdə bir dəfə mən də yuxarı qalxım də...

Hamı gülür.

N a z i r. Onda buyurun.

S u ç u *(kürsüyə yaxınlaşır, cibindən çıxışını çıxarır. Vərəqlər yerə tökülür. Tələsik yığıb camaata)*. Ə, nə gülürsünüz?

N a z i r. Kimdir gülən?

Hamı başını aşağı dikir.

S u ç u *(pafosla çıxışa başlayır)*. Rayondan vurub gəlmişəm bura, hamınızın gözü qarşısında bir-iki sözüm var, deyim gedim. Öz torpağımızın adamıdı dayna! Kaş eləsindən yüzü ola! Bizim fəxrimizdi! O ki bu bir ilin ərzində dostbazlığın, qohumbazlığın, yerliçiliyin, rüşvətxorluğun kökünü kəsib, nənəsindən əmdiyi süd ona halal olsun. Sağ olsun hökumət ki, o cür doğru-dürüst, halal, bacarıqlı adamı arayıb, axtarıb, tapıb gətirib bizə nazir qoyub! Yaşasın nazir!

V ə z i r. Halal olsun!

B i r i n c i m ü a v i n. Əyrilərə yer olmamalıdır!

İ k i n c i m ü a v i n. Yaşasın Bəybala Sədirxanov!

B i r i n c i m ü a v i n. Sədirxanova eşq olsun!

İ k i n c i m ü a v i n. O bizim fəxrimizdir!

S u ç u. Baax! Cənab nazir, burda oturanların hamısı, içi də mən qarışıq sənnən fəxr eləyirik! Gecə-gündüz caa duaçıyıq

ki, gələndən bəri nazirliyi düzəltmisən! Bir-bir qovub təmizləmisən! Onu heç kim eləyə bilməz! Halal olsun saa! Ə, balam, suçu olanda noolar? Biz də özümüzə görə adamıq! Harda, kimin barəsində nə deyib-danışırlar hamısını bilirik! *(Kağıza baxır.)*

N a z i r. Danışın, danışın!

S u ç u. Sənin tayların o de, orda-burda küllənir. Saa halal olsun ki, gəlib belə əlçatmaz yerə çıxmısan. Biz də baxıb fəxr eləyirik. Hər yerdə də deyirəm ki, bax, bizim rayondan o cür adam çıxıb. Respublikada yox e, dünyada beş adamın birisən! Sözümün canı odur ki, biz əliqabarlı zəhmət adamları, biz suçular arxanda dağ kimi dayanmışıq, qorxma! İnnən sonra sənin xətraa bir az da cannan-başnan işləməliyik ki, səni ora çıxaran hökumətin qabağında üzün ağ olsun! Biz də saa baxaq, fəxr edək. *(Kürsüdən düşüb nazirə yaxınlaşıb üz-gözündən öpür, keçib yerində oturur.)*

N a z i r *(əli ilə süçünü göstərir)*. Mən çox cavan oldum ki, onun bu cür sözlərini eşitdim! Təmiz ürəyi var! Zəhmətkeşdi! Malades! Belələrinin qədrini bilmək lazım olmuşdu! Nazirlə fəhlə bir olmalıdır! Belə sadə qəlbli, ürəyi belə adamlara bel bağlamaq lazımdır! Daha kim söz demək istəyir?

Bir neçə nəfər əl qaldırır.

S ə y y a f. Mənə söz verin! *(Kürsüyə qalxır. Nazir çaşqın halda vəzirinə baxır.)* Dünən nazirliyimizin köhnə işçilərindən biri vəfat edib... Onun xatirəsini bir dəqiqə yad eləyək. Allah ona rəhmət eləsin.

V ə z i r. Səyyaf kişi, kollegiyaya gəlmisən, cümə axşamına yox!

N a z i r. Səyyaf kişi, rəhmətə gedən nəyiniz idi? Qohumunuz idi? İndi deyirsən qohumunuza görə kollegiyada yasxana açaq?!

S ə y y a f. Yox... Rəhmətlik nə qohumdu, nə kəndlimdi, nə də ki bir rayonluyuq. Bir vaxtlar sizin rəhbərlik etdiyiniz sexdə işləyirdi. Yazıq durduğu yerdə şikəst oldu. Sonra da həmin sexdə gözətçi işlədi. Pensiyası bəs eləmirdi. Təzə gələn müdir onu çıxarıb, yerinə öz qohumunu qoydu. Adamınkı gətirməyəndə gətirmir. Yıxılana kimdi indi qahmar duran?! Çalış büdrəmə. Büdrədin, getdin! Rəhmətlik nə qədər yazdı-pozdu ki, şikəstəm, əlimdən heç nə gəlmir, iş vaxtı əlimi itirmişəm. Sexdə gözətçiliyə nə söz?! Bu zaman ya gərək sözüötən adamın ola, ya da ki, pulun. Yazığın arvad-uşağı da qırılmışdı... tək qalmışdı... Yazıq eşidəndə ki, bir vaxtlar onun işlədiyi sexin müdiri nazir olub, kömək üçün bura, nazirliyə pənah gətirdi. Siz də ona əməlli-başlı söz verdiz. Yazıq Mərdan kişi sevincək olmuşdu. Yanınızdan qayıdandan sonra bir gün gözlədi, iki gün gözlədi, üç gün gözlədi, axırda il tamam oldu. Nazirdən bir səs çıxmadı ki, çıxmadı. Getdi sexə. Nə sex... Sex dağılıb, yerində də motel-restoran tikilib. Üç min adam insafsızcasına atılıb çölə. Yeni işbazlar dedilər ki, Mərdan kişi buralara üzüşmə. Bizə nazirlikdən söz-zad deyən olmayıb. Təzədən bir-iki ərizə də yazdı. *(Ərizələri qaldırıb göstərir.)* Ərizələr də batarğana düşdü... Demə, nazir söz verib, arın-arxayın yola salıb, sonra da sözünün dalından qaçıb. Başına papaq qoyub kişi olan kəs, gərək ikibaşlı danışmasın. Kişi olan kəsin sözü də, sifəti də bir olar. İndi insanlara etibar var?!

Çoxu da ikiüzlü, riyakar, saxtadı. Kabinetində olanda sənnən bir cür danışır, o tərəfdə başqa cür. Bilmirsən kimə inanasan? Qəribə zamanda yaşayırıq. Birsözlü, birsifətli adam tapmaq çətindir. Dosta, tanışa da etibar yoxdur. Hamısı saxtadır. Gündə min dona düşən saxtakarlar!

V ə z i r *(qəzəblə qalxır)*. Sən təhqirə keçmə! Təhqirlərinə görə məhkəmədə cavab verməli olacaqsan!

N a z i r *(qəzəblə əlini stola çırpır)*. Razve on ne uvolen?

V ə z i r. Uvolen! *(Səyyafa.)* Səni kim kollegiyaya çağırıb? Sən işində buraxdığın cinayətkar nöqsanlara görə bu gündən işdən azadsan. Gedə bilərsən. Kollegiyanı tərk et! Yoxlama bitəndən sonra sənin əməllərinə hüquqi qiymət veriləcək! Tərk et!

N a z i r. Sroçno! Nemedlenno! Von!

Dəhlizdən camaatın səsi eşidilir.

S ə s l ə r. Bizi niyə ixtisara salmısınız? Bizi işimizə qaytarın! Bizi kollegiyaya buraxın, həqiqəti deyək!..

S ə y y a f. Eşidirsiz? Bu insanların günahı nədir ki, onları işsiz-maaşsız qoymusunuz? Budur sizin yeniliyiniz? Novatorluğunuz? Qohum-əqrəbanız qalmadı ki, nazirliyə doldurmayasınız. Gözətçi, suçu, koçeqar yerinə də tamah salırsız!

N a z i r. Ağzına gələni çərənləmə! Von!

B i r i n c i m ü a v i n *(qalxıb yaltaqcasına Səyyafa etirazını bildirir)*. Sən bizim naziri keçmiş nazirlə dəyişik salmısan, Səyyaf kişi. Bu bir ilə yaxın müddətdə ondan hörmət-izzətdən başqa heç bir şey görməmişik. Böyüknən böyükdü, kiçiknən kiçik. Özü də çox tələbkar, iş bilən, tabeliyində olanlara qarşı nəzakətli adamdır.

S ə y y a f. Siz hələ ona dərindən bələd deyilsiz. Sizin nazir yiyəsini yıxmış atdır! Çoxlarının anasını ağlar qoyub və qoyacaq da! Hələ bir az da işləyin, görərsiz! Onun kim olduğunu bütün respublika tanıyır! Mənim sözlərimi yadınızda saxlayın! Gec-tez xoruzunu qoltuğuna verib, dalından dəyəcəklər. *(Gedir.)*

V ə z i r. İndi də söz verilir hörmətli nazirimiz Bəybala Sədirxanov cənablarına.

Hamı ayağa qalxır, gurultulu alqışlar qopur. Nazir özündən razı halda xitabət kürsüsünün arxasına keçib dayanır, məmnun baxışlarla hamını seyr edir.

N a z i r. Sağ olun! Minnətdaram! Bir ildən çoxdur ki, əl-ələ verib bu nazirliyi düzəldirik, düzəltmişik! Düzəldəcəyik! *(Alqış səsləri kəsilir.)* Düşmənlərimizin acığına düzəldəcəyik! İşlərimizdə nöqsanlar çox-çox olmuşdu! Mən bu nöqsanları xaricdən gətirdim? Deyin də, deyin! Xaricdən gətirdim? Yox! Məndən çox-çox qabaqlar oldu, bu biabırçılıqlar! İndi gəlin əl-ələ verib, hamımız birlikdə onu aradan qaldıraq! Bunun üçün nə etmək lazımdır?! *(Zala göz gəzdirir.)* Gərək xalqla bir olaq! Hamımız bir olmalıyıq! Bilirsiniz Romadakı xalq qəhrəmanı Spartak niyə məğlub oldu?! Çünki sərkərdələrin arasında birlik yoxudu! Ayrı-seçkilik əmələ gəldi. Kras da, Pompey də ondan istifadə elədi. *(Qəzəblə yumruğunu havada düyünlədi.)* Gəlin hamımız bir olaq! Bax! Bir yumruq kimi! Kim yaxşı işlədi, o da yaxşı yaşamalıdır! Kimin bacardığı var, buyursun! Gözüm üstə yeri var! Amma qabaqlar necəydi?! *(Heç kəsin cınqırı da çıxmır.)* Yoox! Qabaqlar kimin pulu çoxdu, adamı da vardı, irəli gəlirdi! Böyük vəzifələr tuturdu!

Kimin pulu olmamışdı, qıraqda qalmışdı! *(Əlini sağa-sola bulayır.)* İndi! Hər kəs onu görməyəcək! Kim yaxşı işlədi! Namusludu! Onun hörməti olacaq! Onun! Gözümün üstündə yeri var! Nazirliyin plan şöbəsinə rəis lazım olmuşdu. Mənim müavinlərim də, bizim burda iştirak edən İsaxan İsmiyev də mənə dedilər ki, Sur... Süleyman Poqo... Elədir İsaxan müəllim?

V ə z i r. Bəli, mən təkid etdim.

N a z i r. Vot! Bütün işçilər ümumi şöbənin qabaqkı müdirindən narazılıq edirdi, haqlıydılar! Baxdım gördüm o çox murdar adamdır. İnandım ki, o yaramazdır! Qoymadım! Çıxartdıq! Yerinə adam axtaranda mən qarışmadım. Müavinlərə, kollegiya üzvlərinə dedim, özünüz tapın. Dedim?

V ə z i r. Bəli, dediniz. Özü də təkidlə.

N a z i r. Vot! Sonra köməkçi yanıma gəlib dedi ki, Süleyman Poqo... müəllim adlı birini tapmışıq. Müavinlər söhbət edib razı qaldılar. Mənə dedi ki, sən də qəbul et, tanış ol, fikrini de. Bəs mən nə dedim?! *(Vəzirə baxır.)*

V ə z i r *(itaətkar görkəm alıb ayağa qalxır)*. Siz dediz... Vsyo!

N a z i r. Dedim raz sən onu tanıyırsan! Müavinlər tanıyır! Kollegiya üzvləri tanıyır! Bu kifayət oldu! Siz çoxluq oldunuz, mən də çoxluğa tabeyəm! Qoy işləsin! Bax, kadrı belə seçərlər! Mən heç onun üzünü də görməmişəm. Eşitdiyimə görə çox da yaxşı işləyir, hə?

V ə z i r. Ondan olduqca razıyıq!

N a z i r. Da?! Ya qorjus! *(Əl çalır. Hamı ona baxıb əl çalır.)* Kimin adamı var? Kimin pulu var? Kimin qohumudu? *(Bir-iki nəfər çaşdığından ayağa qalxır. Nazir*

qəzəblə bağırır.) Yox! *(Qalxanlar əyləşirlər.)* Belə olmayacaq! O cür kadr seçmək qurtardı! *(Sol əli ilə pencəyinin yaxasını tutub dartır.)* Mən nazir, bax budur deyirəm. Kim yaxşı işləyir! Kim namusludu! O yaxşı olacaq! Birinci fəhlənin dərdinə qalmalıyıq! Rəhbər işçi gərək yalan satmasın! İkiüzlü olmasın! Mən çox görmüşdüm, kim düz danışır, sözü əməllərinə düz gəlmişdi, onun hörməti olacaq! *(Alqışlar qopur.)* Məndən qabaq bilirsiniz kadrlar nə kimi çirkin niyyətlərlə seçilirdi? Mən sizdən! Xalqımdan! Heç bir şeyi gizlədə bilmədim. Burda açıq danışmalıyıq. Nə qədər təəccüblü olsa da, belə bir faktı olduğu kimi sizə deməliyəm.

V ə z i r. Deyin! Deyin! Deyin!

N a z i r. Özbaşınalıq o həddə çatmışdı ki, Təvəkkül Mövlamverdiyev adlı niqodyayın, dələduzun, nəşəxorun, əyyaşın birini gətirib nazirlikdə məsul vəzifəyə qoymuşdular. Gülməli faktdır, ya yox?!

V ə z i r. Biabırçı faktdır!

N a z i r. Bəli, biabırçı faktdır! Kaçaqarı nazirliyə! Özü də məsul vəzifəyə gətirməkdə məqsəd nə idi?! *(İstehza ilə gülüb, şəhadət barmağını bir-birinə sürtür.)* Buna görə! Elədir?

V ə z i r. Bəli, elədir!

N a z i r. Ancaq buna görə! Arada pul vardı! Tamah vardı! İkincisi də Nemətzadə kaçaqarı ona görə nazirliyə işə gətirmişdi ki, Təvəkkül keçmiş nazirin yerlisiydi. Bununla da müavin bir güllə ilə iki dovşan vurmuşdu. Əvvəla, nazirin bığının altından keçib onun xoşuna gəlmək, ikincisi də qaz vurub, qazan doldurmaq... Bax, məsələ belə olmuşdu... və nəticəsi də gördünüz necə oldu?! İşin üstü açıldı. Təvəkkül Mövlamverdiyevi qovduq. Xaliq Nemətzadə! Mənim o vic-

dansız, birinci müavinim! Utanmaz-utanmaz Təvəkkül Mövlamverdiyev kimi təsadüfi bir gədədən ötrü düz üç dəfə yanıma minnətə gəldi. Guya o yazıqdı, kimsəsizdi. Tək babası vardı, eşitdiyimə görə o dünən rəhmətə gedib... Amma kişi kimi cəsarət eləyib deyə bilmədi ki, o, keçmiş nazirin yerlisidi, həm də rüşvət almışdı. Təvəkkülə borcluyam! Onun yanında gözü kölgəliyəm! O, kişi kimi bunu boynuna alsaydı, mən Təvəkkülü qovmazdım! Nazirlikdə aşağı bir vəzifədə saxlayıb, işlədərdim. Yox! Bizim aramızda rüşvətxorlara yer yoxdur!

Hamı əl çalır.

N a z i r. Axırda elə vəziyyət yarandı ki, Xaliq Nemətzadənin özünü də müdafiə edə bilmədim! Qəzetdə də onun saxta, natəmiz əməlləri ifşa olundu! Axı nazirliyin də adına yaxşı deyil.

V ə z i r. Heç yaxşı deyil!

N a z i r. Ancaq iş işdən keçmişdi. Düzü, qəzeti oxuyanda ürəyim ağrıdı... Axı o, uzun müddət nazir müavini olub, özü də bi-rin-ci müavin! Bu cür biabırçı faktlar birdi, ikidi?! Amma hamısına son qoymalıyıq! Nazirlikdə haqq-ədalət bərpa olunmalıdır! Bu gün sizin qarşınızda söz verirəm! Nazir kimi! Vətəndaş kimi!

Alqışlar qopur.

V ə z i r. Halal olsun!

S u ç u. Əliəyrilərə yer olmamalıdır!

B i r i n c i m ü a v i n. Yaşasın nazir!

İ k i n c i m ü a v i n. Nazirə eşq olsun!

H a m ı. Nazirimizə eşq olsun!

Telefon zəng çalır. Yeni katibə dəstəyi qaldırıb nazirə verir. Nazir dik qalxır və biixtiyar farağat durur. Kollegiya üzvləri də nazirə baxıb, farağat dururlar.

N a z i r. Bəli. Çox sağ olun. Göstərdiyiniz etimada görə sizə minnətdaram. Çalışacağam ki, ömrüm boyu sizin göstərdiyiniz yolla gedim. Sağ olun. Sağ olun. Çox sağ olun...

* * *

"İstefa!.. İstefa!.. İstefa!.." Bu gur çağırış getdikcə nazirliyin binasını bürüyürdü.

N a z i r. İsmixan Süleymanoviç, bu camaat Mustafa, Mustafa! - deyib qışqırır. Kimdi Mustafa, bəlkə bizim nazirlikdə işləyən yaramazın biridi. İşdən çıxart, rədd olub getsin! Bu camaatdan yaxamız qurtarsın!

V ə z i r. Bəybala Bəşiroviç, onlar "Mustafa" yox, "istefa" deyirlər. Tələbləri də odur ki, nazir istefaya getməlidi.

N a z i r. Onda nə edək?

V ə z i r. Dal qapını açaq, aradan çıxaq.

Nazir və Vəzir qapıya tərəf dönürlər...

S O N

Redaktor: **Nadir Məmmədli**
filologiya elmləri doktoru, professor

Əli İldırımoğlu. Qarlı gecələr.
Bakı, "Nurlan", 2007, - 376 səh.

"Qarlı gecələr" romanında təsvir edilən həyat lövhələri, önə çəkilən mənəvi-psixoloji problemlər, xüsusən gənc nəslin yetişdirilib formalaşdırılmasında əngələ çevrilən bəzi müəllimlərin yanlış mövqeyi bu gün də obyektiv gerçəklik kimi müasir səslənir. Əsərdə, həmçinin ailə münasibətləri, milli xüsusiyyətlərimizə xas olan bir çox ülvi keyfiyyətlər sadə və bədii dillə təsvir olunmuşdur.

"Nazir və vəzir" pyesində isə təsadüfi adamların layiq olmadığı vəzifələrə yiyələnib cəmiyyətdə nə kimi faciələr törətdiyi satirik bir dildə qələmə alınmışdır.

İ $\frac{4702000000}{N - 098 - 2007}$

© "Nurlan", 2007

MÜNDƏRİCAT

Qarlı gecələr.....19
İzim və sözüm.....299
Nazir və vəzir.....311

Korrektor: ***Elmira Fərruxzadə***
Texniki redaktor: ***Günay Seyidova***
Kompüter dizaynı: ***Zahid Məmmədov***
Yığılmağa verilmiş 07.01.2007.
Çapa imzalanmış 11.10.2007.
Şərti çap vərəqi 23,5. Sifariş № 35.
Kağız formatı 84x108 1/16. Tiraj 500.

Kitab ***"Nurlan"*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
Direktor: ***prof. N.B.Məmmədli***
E-mail: nurlan1959@yahoo.com
Tel: 497-16-32; 850-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.